# AMERİKA İQTİSADİYYATININ ƏSAS CƏHƏTLƏRİ

BİRLƏŞMİŞ ŞTATLARIN MƏ'LUMAT AGENTLİYİ

Bu cild üçün orijinal mətni 1981-ci ildə Robert L. MakKan yazmışdır. O, elə həmin dövrdə Vaşinqtonda Təhsil Xidmətləri Mərkəzinin prezidenti vəzifəsində işləmişdir. Fəsillərə girişləri və redaktor xidmətlərini Pitsburq Universitetinin iqtisadiyyat üzrə professoru Mark Perlman vermişdir.

Biznes fəlsəfəsi sahəsində Landidə professor, Şimali Karolinanın Buis Krik şəhərində Kəmpbel universitetində Biznes Landi-Feterman Məktəbində işləyən Uilyam H. Peterson 1984-cü ildə əsər üzərində işləyərək, onu tam yeniləşdirmişdir. Çattanoqada Tenessi Universiteti İqtisadiyyat Təhsili Mərkəzinin direktor müavini Con Lüsyen Elinqton əsəri redaktə etmişdir.
1981-ci ildən 1990-cı ilə kimi Birləşmiş Ştatlar MəTumat Agentliyinin «Economic Impact» jurnalının baş redaktoru işləmiş Styuart Ramsey 1991-ci ildə əsəri tam şəkildə yeniləşdirmişdir.

# . .AMERİKA İQTİSADİYYATININ ƏSAS CƏHƏTLƏRİ

MƏZMUNU


**I HİSSƏ**

Giriş ....4

**II HİSSƏ**

Birləşmiş Ştatlar iqtisadiyyatı necə fəaliyyət göstərir .... 10

**III Hissə**

Amerika iqtisadiyyatının tarixi perspektivi .... 24

**IV HİSSƏ**

Kiçik biznesdən korporasiyaya doğru .... 70

**V HİSSƏ**

Aksiyalar, mallar və bazarlar .... 90

**VI HİSSƏ**

İqtisadiyyatda hökumətin rolu .... 104

**VII Hissə**

Pul və maliyyə siyasəti .... 122

**VIII Hissə**

Amerika kənd təsərrüfatının dəyişən siması .... 156

**IX HİSSƏ**

Amerikada əmək: Əmək birliklərinin rolu .... 170

**X HİSSƏ**

Xarici ticarət və qlobal xarici siyasət .... 186

**XI HİSSƏ**

Son söz.... 202

Amerika İqtisadiyyatı haqqında qısa ədəbiyyat siyahısı .... 209





AMERIKA İQTİSADİYYATININ
ƏSAS CƏHƏTLƏRİ
BİRİNCİ HİSSƏ

# GİRİŞ

Amerika iqtisadiyyatı dinamikdir, istehlakçı, istehsalçı, investor və seçicilər kimi müxtəlif rol oynayan milyonlarla vətəndaşın arzu və qərarlarına müvafiq olaraq, durmadan inkişaf edən azad bazar sistemidir. Birləşmiş Ştatlar, ümumiyyətlə, qanşıq bir iqtisadiyyat ölkəsi kimi təsvir edilir. Bu isə o deməkdir ki, istehsal mənbələrinin böyük əksəriyyəti hətta xüsusi əllərdə olsa belə, federal hökumət bazarda əsas rol oynayır.

Hansı standartla ölçülürsə-ölçülsün, 250 ildən də az bir müddət ərzində inkişaf edən Amerika iqtisadiyyatı böyük uğurlar qazanmışdır. Əhalisi dünya əhalisinin 5 faizindən az olan Birləşmiş Ştatlar 1990-cı illərin əvvəllərində dünyada istehsal olunan malların 25 faizini istehsal etmişdir. Birləşmiş Ştatlarin iqtisadiyyatı ən yüksək səviyyəli iqtisadiyyat olan Yaponiyanın iqtisadiyyatından iki dəfədən də çox böyükdür. Dünyanın başqa xalqları ötən onilliklərdə daha yüksək inkişaf səviyyəsinə çatdıqlarına baxmayaraq. Birləşmiş Ştatlarda istehsal və xalqın həyat səviyyəsi dünyanın sənaye baxımından inkişaf etmiş ölkələri arasında ən yüksək yer tutur.

Amerika iqtisadiyyatı ötən illər ərzində müxtəlif dəyişikliklərə mə’ruz qalsa da, bə’zi sahələr respublikanın ilk günlərində olduğu kimi qalmaqda davam edir. Bunlardan biri bazar iqtisadiyyatında

hökumətin xüsusi rol oynamasının vacibliyi haqqında davam edən mübahisələrdir. Azad müəssisəyə əsaslanan iqtisadiyyat, ümumiyyətlə, xüsusi mülkiyyət və təşəbbüskarlıqla səciyyələnir ki, buna da hökumət nisbətən nadir hallarda qanşır. Buna baxmayaraq, hökumətin işə qarışması bə’zən elə hallarda vacib olur ki, hökumət iqtisadi imkanların öz qaydasında cərəyan etdiyinə və onun insanlar üçün yararlı olduğuna əmin olsun, təhlükəli nəticələr verə biləcək sui-istifadə hallanmn qarşısım alsın, inflyasiyanın önünə çəpər çəksin və yüksəlişə təkan versin.

Müstəmləkəçilik dövrlərindən bəri hökumət iqtisadi qərarların qəbulunda müəyyən dərəcədə iştirak etmişdir. Məsələn, federal hökumət 19-cu əsrdə kanallardan və poçt yollanndan başlamış 20-ci əsrdə ştatlararası şose yolların salınması və yer kürəsi ətrafında fırlanan süni peykə qədər infrastrukturlara külli miqdarda valyuta qoymuşdur. Özəl sektorun imkanı və ya xüsusi arzusu olmadığı üçün ictimai rifah proqramlanm hökumət tə’min etmişdir. Keçən onilliklər ərzində hökumət ən müxtəlif yollarla kənd təsərrüfatına yardım etmiş və onun inkişafına təkan vermişdir.

1930-cu illərin «Yeni kurs» («New Deal») tədbirləri hökumətin rolunu hədsiz dərəcədə genişləndirdi. Yeni-yeni qərarlar qəbul olundu ki, bunlar da malların satışından başlamış fəhlələrə birliklər yaratmaq hüququ verməyə qədər bir çox iqtisadi fəaliyyəti tənzimləməyə xidmət edirdi. Bundan əlavə, hökumət fəhlələr qocaldıqdan sonra onları iqtisadi cəhətdən tə’min etmək üçün bir sıra tədbirlər də görməyə başladı. 1935-ci ildə qəbul edilmiş İctimai Tə’minat proqramı təqaüdə çıxan adamları hələ də hər ay müntəzəm gəlirlə tə’min edir və təqaüdçülərin səhiyyə xərclərini də nəzərə almaqla bu proqram daha da genişləndirilmişdir.

Lakin hər şey heç də həmişə yaxşı nəticə vermir. 1970-ci və 1980-ci illərdə vergilərin durmadan artdığı və Birləşmiş Ştatlar iqtisadiyyatının durğunluğu dövründə yeni dövlət başçıları ciddi fəaliyyətə başladılar ki, hökumətin xərclərini və vergilərin məbləğini azaltsınlar, başqa sözlə desək, hökumətin özəl sektor üzərində tə’sirini zəiflətsinlər. Onların əsas məqsədi özəl sektorun təşəbbüsünə və azad bazar iqtisadiyyatında mühərrik olan investisiyaya istiqamət vermək idi.

Vaxtaşırı cərəyan edən başqa bir mövzu da yeni yaranan texnoloji imkanlar əsasında Birləşmiş Ştatlar iqtisadiyyatının dəyişikliyə uğraması idi. Bir zaman kənd təsərrüfat ölkəsi olan Birləşmiş Ştatlar maşınlardan və Sənaye İnqilabı istehsalı proseslərindən uğurlu istifadə nəticəsində dramatik şəkildə dəyişdi, sonra isə «ikinci» Sənaye inqilabının yüksək məhsulu hesabına bir daha dəyişdi.

1870-ci illərdən başlayaraq, bir əsrə qədər davam edən müddətdə Birləşmiş Ştatlar dünyanın güclü istehsal mərkəzinə çevrildi, polad e’malı, avtomobil və başqa məhsullar istehsalında dünyanın aparıcı dövləti oldu. 1960-cı illərdən sonra Amerika sənayesində başqa bir dəyişiklik də baş verdi: yeni xidmətlərə əsaslanan və mə’lumat prosesləri sənayesi sahələri tədricən ən’ənəvi şəkildə insanın alın təri və qolu gücünə əsaslanan sənaye istehsalını əvəz etməyə başladı. 1990-cı illərdə kimya, elektronika və biotexnologiya kimi sahələrdə inkişaf gətirib o yerə çıxardı ki, bu sahələrdə istehsal olunan mallar və göstərilən xidmətlər elektrik yarımkeçiricilərindən lazer cərrahiyəsinə qədər olan sahələri əhatə etdi. Buna müvafiq olaraq, yeni kənd təsərrüfatı texnologiyası Amerika kənd təsərrüfatı sektorunu dəyişdirərək, ona fermaların sayını tədricən azaltmaqla daha çox ərzaq malları, yun, pambıq və başqa lifli məhsul istehsalı imkanı yaratdı.

Üçüncü mövzu beynəlxalq ticarət siyasəti və bu yolla Birləşmiş Ştatların dünya iqtisadiyyatı ilə qaynayıb-qarışması dərəcəsi sahəsində uzun müddət davam edən müzakirələrlə bağlıdır. Bir çox cəhətlərinə görə, ticarət müstəmləkəçilik sistemində mühüm şərt idi: Amerika mallarının ixracı inkişaf üçün maşınların və kapitalın idxalına imkan yaratdı. Lakin Aleksander Hamilton kimi dövlət xadimlərinin müdafiə etdikləri adamlardan olan adamların proteksionist tədbirləri müdafiə etmələri, xüsusən, Amerika İnqilabından sonra bir sıra hallarda çox güclü oldu.

Lakin proteksionizm 1930-cu illərdə Böyük Depressiyaya gətirib çıxardığından, II Dünya Müharibəsindən sonra Birləşmiş Ştatlar artıq azad ticarət tərəfdarı oldu. Dövlət siyasəti, ümumiyyətlə, azad ticarət tərəfdarı olduğuna baxmayaraq, 1970-ci və 1980-ci illərdə Birləşmiş Ştatların bir çox istehsal sahələri hiss etdi ki, xaricdən yeni güclü bir rəqabət onu öz məngənəsinə alır. Bundan əlavə. Birləşmiş Ştatların ticarət defisitləri artdıqca, başqa

Ölkələrin xoşagəlməz ticarət praktikasına əl alacaqları haqqında narahatçılıq da artırdı.

Bu mövzulardan hər biri Amerika iqtisadiyyatının müəyyən əsas cəhətlərini təmsil edir. Birincisi, vətəndaşlar bilavasitə bazarlarda və bilvasitə səsvermə kabinələrində hansı iqtisadi məsələlərə üstünlük verdiklərini sərbəst şəkildə ifadə etdikcə, iqtisadiyyat durmadan dəyişir. Eyni zamanda bu mövzuların tə'sir gücü vaxt keçdikcə, Birləşmiş Ştatlar iqtisadiyyatının dinamikasında öz sürəkliliyini nümayiş etdirir.

Hər bir halda, amerikalıları tez-tez praqmatistlər kimi qələmə verirlər. Praqmatizm isə, hər bir şeydən əlavə, qəbulu məqbul hesab edilən nəzəriyyənin fəaliyyət göstərməsinin zəruriliyi deməkdir. Amerika xalqlarının praqmatizminin ən parlaq nümunəsi onların fəaliyyətləri ilə nümayiş etdirilir: iqtisadiyyatı azad müəssisə prinsipi əsasında əmin-amanlıqla tə'sis etmək və onu müdafiə etmək. Amerika vətəndaşları eyni zamanda həm ayrı- ayrı adamların fərdi imkanlarının, həm də iqtisadiyyatın inkişafı və yüksəlişi üçün mümkün dərəcədə daha geniş imkanlar yaratmaqda kömək əlini uzatmaqda hökumətin vacib rol oynadığını da qəbul edirlər.


PEPSI
URRICANE CLUB

1/



AMERIKA İQTİSADİYYATININ
ƏSAS COHOTLORİ
İKİNCİ HİSSƏ

BIRLƏŞMIŞ

# TATLAR İQTİSADİYYATI NECƏ FƏALİYYƏT GÖSTƏRİR:

Birləşmiş Ştatlar iqtisadiyyatı ilə azad müəssisə sistemi arasında əlaqələr hədsiz dərəcədə uğurlu olsa da, problemsiz də olmayıb. Amerikanın ilk dövlət xadimlərindən biri Aleksander Hamilton dövründən başlayaraq, hökumətin iqtisadiyyatda xüsusi rolu nədən ibarət olmalıdır haqqında ziddiyyətlər mövcud olmuşdur; müəyyən sənaye sahələrinin inkişafına istiqamət vermək, maneələr meydana çıxarkən biznesə nəzarət etmək, ölkəyə idxal edilən mallar nəticəsində dəyən zərərlərə görə müvafiq sənaye sahələrinə tariflər formasında yardım təşkil etmək və bə’zən əldə edilən gəlirləri bölüşdürmək üçün hökumət müxtəlif dövrlərdə işə qarışmışdır. Dövrün tələblərinə uyğun olaraq, hökumətin rolu gah zəifləmiş, gah da güclənmişdir.

Adətən təsvir olunduğu kimi. Birləşmiş Ştatlar iqtisadiyyatı kapitalist iqtisadiyyatıdır. Lakin kapitalizm termini Kari Marksm yaratdığı termindir və kapitalistlərin kiçik dəstələrinin iqtisadiyyatın ən vacib hissələri üzərində təmərküzləşməsi deməkdir. Bunun əksinə olaraq, amerikalılann əksəriyyəti bu

fikirdədir ki, kapitalizm elə «azad müəssisə», elə sistem deməkdir ki, ondan ancaq kiçik dəstələr deyil, milyonlar mənfəət götürürlər. Azad müəssisə bir ideya kimi, çox asanlıqla şərh oluna bilər, lakin əsas məsələ bu ideyanın real həyata necə tətbiq olunması məsələsidir. Bu fəsildə tarixi sənədlərin verdiyi rəsmi mə'lumata əsasən, azad müəssisənin Birləşmiş Ştatlarda necə fəaliyyət göstərdiyinin şərhinin verilməsinə cəhd edilir.

BİRLƏŞİMİŞ ŞTATLAR İQTİSADİYYATININ ƏSAS TƏRKİB HİSSƏLƏRİ

Hər bir iqtisadi sistem insanların istehlak mallarına və müvafiq xidmətlərə olan ehtiyaclarını əvvəlcədən müəyyənləşdirməyə və sonra onu istehsal edərək, bölüşdürmə yolu ilə tə'min etməyə çalışır. İqtisadi sistem elə bir mexanizmdir ki, təbii mənbələri, müvafiq əməyi, texnologiyanı və vacib olan sahibkarlıq və idarəetmə məharətini özündə birləşdirir. Hər hansı bir xalqın istifadə etdiyi iqtisadi sistem növü siyasi mövqenin nəticəsi olsa da, bu eyni zamanda və daha böyük bir şəkildə zaman keçdikcə milli mədəniyyətə çevrilən tarixi təcrübənin nəticəsidir.

iqtisadi sistemin birinci əsas tərkib hissəsi mallar istehsalı üçün vacib olan təbii mənbələrdir. Birləşmiş Ştatlar mineral mənbələr və bərəkətli torpaqlarla zəngin və eyni zamanda mülayim iqlim şəraiti olan bir ölkədir.

İkincisi, mümkün olan əməyin kəmiyyəti iqtisadiyyatın sağlam əsaslar üzərində qurulmasını tə'min edir. Ümumiyyətlə, durmadan inkişaf edən iqtisadiyyatı zəruri işçi qüvvəsi ilə tə'min etmək üçün Birləşmiş Ştatların kifayət qədər əhalisi var. I Dünya Müharibəsindən keçən ilk illərə qədər bunlar ya mühacirlər, ya da onların bilavasitə xələfləri idilər. Onları Amerikaya Avropadan və Afrikadan onların sələfləri qul kimi gətirmişdilər. Sayca həddən çox olan bu qullar Şərq sahilində məskən salıb, şəraitə alışdıqdan sonra, onlar bir qayda olaraq, ölkə daxilində kənd təsərrüfatı ilə məşğul olunan yerlərə yayılaraq, iqtisadiyyatın bu sahəsində məhsuldar əməklə məşğul olmağa başladılar.

20-ci əsrin ilk illərində Asiyadan (Çindən, Yaponiyadan, Filippindən) Birləşmiş Ştatlara xeyli mühacir gəldi, bir neçə il sonra isə Latın Amerikasından çoxsaylı mühacirlər gəldilər. 20-ci əsrin birinci yarısında əlverişli iqtisadi imkanlar qaradərili amerikalıları da Cənub fermalarından Şimal şəhərlərinə cəlb edirdi.

Birləşmiş Ştatlar bə’zən müxtəlif dövrlərdə ciddi işsizlik və ya, əksinə, əsasən işçi qüvvəsi çatışmamazlığı hallan keçirdiyinə baxmayaraq, mühacirlər işin bol olduğu zamanlarda gəlirdilər. Birləşmiş Ştatlar iqtisadiyyatı kifayət dərəcədə sür’ətlə inkişaf edirdi ki, o, yeni gələnləri işlə tə’min edə bilsin. Bu işçi qüvvələri kənd təsərrüfatında çalışanlara ödənilən əmək haqqından bir qədər də az ödənilən sahələrdə məhsuldar əməklə məşğul olurdular. Öz doğma yurdlannda qazandıqlarından daha artıq qazandıqları üçün mühacirlər hər yerdə artaraq, güzəranlarını yaxşılaşdırdıqları kimi, ölkənin iqtisadiyyatı da inkişaf edib çiçəklənirdi.

Başqa bir amil də hər bir iqtisadi sistemdə vacib olan faydalı əməyin keyfiyyətidir ki, bu da işçilərin nə dərəcədə fəal işləməsi və onların nə dərəcədə peşəkar olması ilə müəyyənləşdirilir. Protestant əmək etikası bu tələbi tam müdafiə edirdi. Texniki və peşə təhsili də daxil olmaqla, təhsilin inkişafına verilən ciddi fikir Amerika iqtisadiyyatının uğurlanm tə’min edirdi. Azadlıq sahəsində yeni təcrübəni sınaqdan keçirdiyi üçün fəxr edən bir ölkədən ötrü, təcrübə apannaq, həyatı dəyişdirmək və texnologiya üçün investisiya qoymaq çox əhəmiyyətli bir şey idi.

Lakin bol təbii mənbələrin varlığı, eyni zamanda bacarıqlı və əzmkar işçi qüvvəsinin olması iqtisadi sistemin quruluşunda olsa-olsa ancaq yeganə bir hissə hesab oluna bilər. Mənbələr imkan daxilində o sahələrə yönəldilməlidir ki, həmin sahələrdə onlar daha məhsuldar olsun. Amerika iqtisadiyyatında bu vəzifələri müəssisə rəhbərləri bazarlardan aldıqları siqnallar əsasında ifa və icra edirdilər.

Mənbələrin ən böyük hissələri əsas investisiya üçün faydalı olmalıdır. Amerikada sahibkarlar pul toplayır və sonra layihədə nəzərdə tutduqları sahələrə pul qoyurlar - müvafiq mallar alırlar, işçilər icarə edirlər və istehsal məhsulları satırlar - onlara belə gəlir ki, qoyulan puldan daha artıq gəlir əldə edəcəklər. Bütün bunların həcmi alıcı tələbi kimi tanınan malları və xidmətləri satın alan adamların arzu və ehtiyaclarını ödəmək əsasında müəyyənləşdirilir.

Birləşmiş Ştatlarda korporasiya sübut etmişdir ki, kapital qoyuluşu üçün pul fondları toplanması ən uyğun yoldur. Korporasiya aksionerlər kimi tanınan adamların könüllü birliyidir ki, belə adamlar məhdud şəkildə məs’uliyyəti olan biznes müəssisəsi təşkil edirlər.

Bir halda ki, birinci kapital sahibkarlıq investisiyası qoyulmuşdur, yeni biznesi - zavodu və ya başqa tədbirləri - idarə etmək üçün kimsə də’vət olunmalıdır. Müasir Amerika tərsanələrdə mal yükləyənlərə rəhbərlik edən baş fəhlədən başlamış biznesin uğurla və tə’sirli şəkildə getməsi işinə nəzarət edən icra başçısına qədər idarəetmə komandaları şəbəkəsi yaratmışdır. Yaxşı idarəetmə bir sıra hallarda uğurlu və uğursuz işlər arasındakı fərqi müəyyən edə bilir. 20-ci əsrin əvvəllərindəki Amerikada deyirdilər ki, idarəetmə ciddi sistematik təhlil əsasında qurulmalıdır; «elmi idarəetmə» əsil hərəkata çevrildi. Lakin bir qədər sonra idarəetmə haqqında görüşlər daha çox müxtəlifləşdi.

QARIŞIQ İQTİSADİYYAT; BİRLƏŞMİŞ ŞTATLAR SİSTEMİ

Birləşmiş Ştatlar iqtisadi sistemi xüsusi mülkiyyət sistemindən biridir. Azad müəssisə sistemi kimi, bu sistem dövlət planlaşdırma sistemindən və istehsal vasitələrinin ümumi mülkiyyətdən tam asılı olduğu sosialist iqtisadi sisteminə qarşı qoyula bilər.

Lakin bununla belə, hökumət müəyyən dərəcədə həmişə Birləşmiş Ştatlar iqtisadiyyatının tənzimlənməsi və istiqamətləndirilməsi işinə qanşmışdır. Eyni zamanda Birləşmiş Ştatlar vətəndaşları kim üçün işləyəcəklərini və nə alacaqlarını seçmək işində daim azad olmuşlar. Ən vacibi də budur ki, amerikalılar iqtisadi siyasətə rəhbərlik edənləri səsvermə yolu ilə seçirlər.

Birləşmiş Ştatlar iqtisadi sistemində istehlakçılar, istehsalçılar və dövlət özü əsasən qiymət sistemi ilə bağlı olaraq, gündəlik müvafiq qərarlar qəbul edirlər. Bu üç qrupun dinamik qarşılıqlı əlaqəsi iqtisadiyyatın fəaliyyətini təşkil edir. Bazarın aparıcı qüvvəsi isə istehsalçıların və istehlakçıların qarşılıqlı əlaqələri ilə müəyyənləşdirilir; bu isə tədqiqatçılara imkan vermişdir ki, onlar Birləşmiş Ştatlar iqtisadi sistemini «bazar iqtisadiyyatı» adlandırsınlar.

Bir qayda olaraq, istehlakçılar xərclədikləri pula dəyən ən yaxşı mal axtarır, istehsalçılar isə satmalı olduqları mala ən yaxşı qiymət qoymağa və ondan mənfəət götürməyə çalışırlar. Hökumət federal, ştat və yerli səviyyələrdə təhlükəsizliyə nail olmağa, ölçülüb-biçilmiş rəqabətə tə’minat verməyə çalışır və özəl müəssisələrin təklif etdiyi xidmətlərdən daha yaxşı və üstün

olduğuna inanılan bir sıra ictimai xidmət tədbirləri həyata keçirir. Bu ictimai tədbirlərin bə’zilərinə ədliyyə administrasiyası, təhsil (bir çox özəl tədris ocaqları və tə’lim mərkəzləri olduğuna baxmayaraq), poçt (telefon istisna edilməklə) xidməti, yol sistemi, ictimai statistika mə’lumatları və, əlbəttə, milli müdafiə daxildir.

Bu sistemdə iqtisadi qüvvələrin azad olduğu bir şəraitdə malların və xidmətlərin qiymətini tələb və təklif müəyyənləşdirir. Sahibkarlar öz bizneslərini inkişaf etdirməkdə azaddırlar. Nəzəri cəhətdən, keyfiyyət və qiymət baxımından başqaları ilə rəqabətə girə biləcək mal və xidmət təklif edə bilməsələr, onlar bazardan uzaqlaşmalıdırlar. Deməli, biznesdə xalqa ən yaxşı mal təklif edənlər və ən yaxşı xidmət göstərənlər qala bilərlər. Təcrübədə, hökumət tənzimləmələri sırf rəqabət naminə işə qarışa bilər ki, qiymət və gəlir sabitliyi, bölgə inkişafı və ya ətraf mühiti mühafizə kimi başqa dövlət siyasi məqsədlərinin həyata keçirilməsinə təkan versin. Eyni şəkildə, biznes də qiymətləri dəqiqləşdirmək üçün və ya başqa monopolist təcrübələr üçün, mənfəəti artırmaq naminə sırf rəqabətə qoşula bilər.

Birləşmiş Ştatlarda adamların çoxu eyni zamanda həm istehlakçı, həm də istehsalçılardir; onlar eyni zamanda hökumət qərarlarının verilməsinə kömək edən seçicilərdir. İstehlakçılar, istehsalçılar və hökumət üzvləri arasında çulğalaşma durmadan dəyişir, bu da statik iqtisadiyyatdan daha çox dinamik iqtisadiyyatla nəticələnir. Bir neçə il əvvəl istehlakçılar özlərinin narahat olduqlarını bildirdilər; buna cavab olaraq, hökumət istehlakçilarm mənafelərini müdafiə və ümumi ictimai rifah halını yaxşılaşdırmaq üçün müvafiq agentliklər yaratdı.

Birləşmiş Ştatlar iqtisadiyyatı başqa yollarla da dəyişib. Əhali və işçi qüvvəsi dramatik şəkildə fennalardan şəhərlərə, tarlalardan zavodlara və hər şeydən də əvvəl, xidmət sahələrinə axışıb gəlirdi. Bugünkü iqtisadiyyatda şəxsi və ictimai xidmətlər göstərənlərin sayı kənd təsərrüfatı və sənaye malları istehsal edənlərin sayından çoxdur. Statistika ilə məşğul olanlar müəyyən etmişlər ki, başqaları üçün işləyənlərin sayı özü üçün işləyənlərin sayından əhəmiyyətli dərəcədə çoxalmışdır.

Ümumiyyətlə, üç növ biznes var: ancaq bir nəfərə məxsus biznes, müştərək bizneslər və korporasiyalar. Bunlardan birinci ikisi vacibdir, sonuncu qurum isə bir çox adamların qoyduğu kapitalı birləşdirmək əsasında böyük məbləğdə pul toplamaq

İmkanı verir. Səhmdarlar adlanan bu adamlar həmin biznesdə öz paylarım istədikləri zaman açıq bazarda ala da bilərlər, sata da. Korporasiyalar irimiqyaslı müəssisə yaratmaq imkanı verir.

İQTİSADİYYATDA HÖKUMƏTİN ROLU

İstehlakçılar və istehsalçılar iqtisadiyyatın formalaşması üçün bir sıra aydın qərarlar qəbul etdikləri halda, hökumət fəaliyyət dairələrinin Birləşmiş Ştatlar iqtisadiyyatına ən azı dörd güclü tə'siri olur:

• MÜSTƏQİM XİDMƏTLƏR. Hökumətin hər səviyyəsi müstəqim xidmətlər tə'min edir. Məsələn, poçt sistemi, iri hərbi qurum etdiyi kimi, bütün xalqa xidmət edən federal sistemdir. Bunun əksinə olaraq, əsas şose yollann salınması, mühafizəsi və saxlanılması məs'uliyyətini ayrı-ayrı ştat hökuməti daşıyır. Xalq təhsili sistemləri əsas e'tibarilə ştat, dairə və ya şəhər hökumətləri tərəfindən ödənilir. Ümumiyyətlə, polis və yanğından mühafizə yerli hökumətin səlahiyyətinə daxildir.

• TONZİMLOMƏ VƏ NƏZARƏT. Biznesin tam şəkildə xalqın əsas mənafeyinə xidmət etdiyinə tə'minat vermək üçün hökumət özəl müəssisələri müxtəlif yollarla tənzimləyir və onlara nəzarət edir. Bir qayda olaraq, tənzimləmə elə sahələrdə vacib hesab edilir ki, orada elektrik və yerli telefon sahələrində olduğu kimi, monopoliya özəl müəssisənin sərəncamına verilmiş olsun və yaxud başqa sahələrdə, məsələn, dəmir yolları sahəsində olduğu kimi, rəqabət məhdud olsun. İctimai siyasət belə şirkətlərə müvafiq mənfəət götürməyə şərait yaradır, lakin onların qiymətləri «insafsızcasma» (tənzimləyicilərin müəyyən etdikləri kimi) qaldırmaq imkanlarına məhdudiyyət qoyur, çünki xalq onların xidmətlərindən asılıdır. Əksər hallarda nəzarət ictimaiyyəti müdafiə etmək naminə həyata keçirilir: məsələn. Ərzaq və Dərman Administrasiyası zərərli dərmanları qadağan etdiyi və ya ərzağın keyfiyyət standartını müəyyənləşdirməyi tələb etdiyi hallarda olduğu kimi. Başqa sənaye sahələrində hökumət müstəqim nəzarətdən istifadə etmədən rəqabətin düzgün aparılmasına əmin olmaq üçün konkret sərhəd müəyyənləşdirir.

1970-ci və 1980-ci illərdə amerikalılar hökumətin iqtisadiyyatı tənzimləməsi məsələsinə münasibətlərinə görə, iki yerə ayrıldılar. Tənzimləmə tərəföarlan əsaslandırırdılar ki, hökumət

—3Sİ istehlakçıları, fəhlələri və əıraf mühiti mfnafizə

üçün vacibdir, tənqidçilər isə tə'kid edirdilər ki, tənzimləmələr azad müəssisələrin işlərinə müdaxilə edir, biznes yaratmağın qiymətini qaldınr və beləliklə, inflyasiyaya təkan verir. Sür'ətli texnoloji dəyişiklə birgə, bu amillər Prezident Cimmi Karteri vadar etdi ki, 1970-ci illərdə nəqliyyat və rabitə sənayeləri sahəsində tənzimləməni zəiflətsin. Eyni zamanda bu zaman federal agentliklər tənzimləməni həyata keçirərkən, daha mülayim oldular.

1980-ci illərdə Prezident Ronald Reyqamn azad edilmiş özəl sektor iqtisadiyyatının çiçəklənməni və inkişafı tə'min edəcəyi haqqında inama tam şəkildə əsaslanan qanunvericilik səlahiyyəti tənzimləmədən imtina sə'yini daha uzaqlara atdı, istehlakçıları, fəhlələri və ətraf mühiti mühafizə üçün nəzərdə tutulan tənzimləmə və ya tənzimləmələrin həyata keçirilməsi dayandırıldı. Buna əlavə olaraq, Reyqan hökuməti bə'zi tənzimlənmələrə könüllü yanaşma metodu tətbiq etdi. Məsələn, İstehlakçı üçün Zərərsiz Ərzaq Komissiyası könüllü razılıq proqramı qəbul etdi ki, həmin proqram planlı təhlükəsizlik proqramları üçün fərdi şirkətlərə öz dərmanlarını təqdim etməyə icazə verirdi.

1990-cı illərin əvvəllərində tənzimləmədən daha geniş imtina etmək ideyasına qarşı həmin ideyanı əhəmiyyətli dərəcədə zəiflədən maneələr çıxdı. Tənzimləmədən imtina tərəfdarları onun faydalı olduğunu vurğulamağa davam etsələr də, tənzimləmədən imtinanın təcrübədə işləməsi ilə bağlı tənqidlərin sayı artırdı. Məsələn, tənzimləmədən imtina ilk dövrlərdə hava xətlərində inkişaf edən rəqabətə müvafiq şərait yaratdı ki, bu da təyyarə ilə uçuş qiymətini aşağı saldı. Lakin bir neçə il sonra hava xətlərinin birləşməsi və konsolidasiyası dalğası hava xətlərinin sayını ixtisar etdi və tənqidçilər mübahisəyə başladılar ki, tənzimləmədən imtinanın faydası ya tamam yox olub, ya da azalıb. Digər tərəfdən, telerabitənin tənzimlənməsindən imtina, şəksiz, o yerə gətirib çıxardı ki, telefon xidmətləri sənayesində rəqabət müəyyən dərəcədə artdı.

Eyni zamanda, federal hökumətin tənzimləmə ilə məşğul olan rəsmi dövlət işçilərinin 1980-ci illərdə azaldılmış sayı 1990-cı illərə yaxın yenidən artırıldı. Amerika Biznesini Tədqiqat Mərkəzinin işçilərlə tə'min etdiyi tənzimləmə idarəsinin təhlilinə əsasən, 1992-ci ildə federal hökumətdə tənzimləmə ilə məşğul olanların sayının 122 000-ə yaxın olacağı gözlənilir ki, bu da

1980-ci ildə olduğu rekord saydan artıqdır. Tədqiqatda xüsusi qeyd olunur ki, agentliklərdə ştatların artması, əsasən, ətraf mühiti mühafizə və maliyyə sektorunu tənzimləmə üzrə fəaliyyət sahələrində baş verir. Bu sahələr elə sahələrdir ki, bu sahələrdə amerikalıların sayının artması narahatçılıq doğuran hadisələr və istiqamətlərdən onların təlaşa düşməsi ilə bağlıdır.

- SABİTLƏŞMƏ VƏ YÜKSƏLİŞ. Hökumət şaxələri, o cümlədən, Konqres və Federal Ehtiyat Sistemi kimi gerçəkliklər fövqəladə iqtisadi buma və böhrana, eyni zamanda, inflyasiyaya və depressiyaya nəzarət etməyə çalışır. Bunun üçün onlar vergi normalarını, pul tə'minatmı və kreditdən istifadəni səliqəyə salırlar. Onlar hökumətin özünün ictimai işlərlə bağlı olaraq, xərclədiyi pulun məbləğini dəyişdirmək yolu ilə də iqtisadiyyata tə'sir göstərə bilər. Normal şəkildə əsas məqsəd tarazlaşmış federal büdcədir. Lakin 1960-cı ildən bəri, 1969-cu il müstəsna olmaqla, federal hesabda defisit hər il artaraq, genişlənmiş və aşağı düşməzdən əvvəl, 1980-ci illərin ortalannda 200 milyard dollara çatmışdır.
- MÜSTƏQİM YARDIM. Hökumət bizneslərə və ayn-ayn adamlara müxtəlif formalarda yardımlar tə'min edir. Məsələn, tariflər imkan verir ki, müəyyən mallar xarici rəqabətdən nisbətən azad qalsın; idxal edilən mallara bə'zən elə vergilər qoyulur və ya onların həcmi elə məhdud edilir ki, Amerika istehlak mallan xarici mallarla daha yaxşı rəqabət apara bilsin. Hökumət, eyni zamanda, fermerlərə də onların istehsal edəcəkləri kənd təsərrüfatı məhsulunun pulunu əvvəlcədən ödəməklə yardım edir.

Tam müxtəlif sahədə hökumət ayn-ayn fərdlərə də kömək edir. Belə adamlar özlərini dolandıra bilmirlər. Hökumət azgəlirli və kiçik yaşlı uşaqları olan ailələrə təmənnasız pul verməklə, qocalara və ehtiyacı olanlara tibbi yardım xidməti göstərməklə, işsizlərə və təqaüddə olanlara ictimai tə'minat proqramlan yolu ilə yardım edir. Hökumət, eyni zamanda, kasıblar üçün təqaüd və əmək qabiliyyətini itirənlərə kömək tə'min edir.

MALLARIN İSTEHSALI və XİDMƏT

Dövlətin bütün iqtisadi istehsal mallarının, demək olar ki, üçdə ikisini şəxsi istifadə üçün ayrı-ayrı fərdlər alır. Qalan üçdə birini isə hökumət və biznes alır. Bu nisbətə əsasən, dövlət bə'zən «istehlak iqtisadiyyatı» kimi səciyyələndirilir.

Belə olduğu təqdirdə aydındır ki, istehlakçı bazar iqtisadiyyatına bir sıra tə'sir tədbirləri görəcəkdir. Təbii bir haldır ki, istehlakçıların-böyük əksəriyyəti mal alarkən, onun həm dəyərli, həm də ərzağın e'tibarh və zərərsiz olmasını axtarır. Əgər ölkə daxilində və ya xaricdə hər hansı bir avtomobil quraşdıran usta daha ucuz qiymətə daha yaxşı maşın istehsal edirsə, bazar dəyişməyə başlayacaq, çünki həmin maşın onunla rəqabət təşkil edənlərdən satılmaq üçün diqqəti daha çox cəlb edir. Nəzəri cəhətdən, bu hal aşağı qiymətə yüksək keyfiyyətə nail olan ali ixtisaslı istehsalçıların əməyini qiymətləndirir və rəqabət apara bilməyənləri işdən uzaqlaşdırır.

Mallar və xidmətlər tə'min edənlərə sahiblər, menecerlər və fəhlələr daxildir. Sahiblər və menecerlər nə və necə istehsal etmək haqqında qərarlar qəbul edirlər; belə hallarda onlar xalqın nəyi alacağı haqqında düşünüb-daşınır və onların öz biznes fəaliyyətlərindən nə qədər mənfəət götürəcəklərini göz altına alırlar.

Ümumi dövlət istehsalı (GNP) hər hansı bir il ərzində mal istehsalı və göstərilən xidmətlərin həcmi ilə ölçülür. GNP və ya ümumi daxili istehsal (GDP) kimi tanınan başqa oxşar bir ölçü işlədərkən milli rifahın göstəricisi kimi, ehtiyatlılıq sözü də nəzərə alınmalıdır. Ətraf mühitin mühafizəsi tərəfdarları və ictimai şərhçilər göstərirlər ki, ölkədə həyat səviyyəsinin müvafiq me'yarı nə GNP ola bilər, nə də GDP; onlar ancaq mal istehsalının və xidmətlərin bazar qiymətini ölçür. Bunun əksinə olaraq, iqtisadi yüksəliş çirklənməyə, saf və sağlamliq üçün təhlükə törətməyən ətraf mühiti mühafizə kimi çətin problemin mürəkkəbləşməsinə təkan verə bilər.

Birləşmiş Ştatlarda GNP durmadan inkişaf etmiş və 1983-cü ildə 3400 milyard dollardan 1990-cı ildə 5500 milyard dollara qədər artmışdır.

YOXSULLUCUN SÜRƏKLİ PROBLEMİ

Amerikalılar öz ölkələrinin bə'zi hissələrində illər ərzində uzun sürən yoxsulluq üzündən əzab çəkmişlər. Bu yoxsulluğu aradan qaldırmaq üçün, federal hökumətin və başqalarının hərtərəfli cəhdləri heç bir nəticə verməmişdir. Əmək Departamenti vasitəsilə, dörd nəfər üzvü olan ailəyə əsas yardım üçün nə qədər minimum məbləğ lazım olduğunu federal hökumət

müəyyənləşdirmişdir. Bu məbləğ inflyasiyadan, yaşamaq üçün vacib olan xərcdən və ailənin yerləşdiyi ərazidən asılı olaraq, dəyişə bilər. 1990-cı ildə dörd nəfər üzvü olan və illik gəliri 13 360 dollardan az olan ailə yoxsulluq şəraitində yaşayan ailə hesab edilirdi.

Yoxsulluq səviyyəsindən aşağı yaşadıqlan müəyyən edilən şəxslərin faizi, demək olar ki, iki onillik ərzində durmadan aşağı düşüb: 1950-ci ildə 22,4 faiz təşkil etdiyi halda, 1978-ci ildə 11,4 faiz təşkil etmişdir. 1979-cu ildən 1983-cü ilə qədər bu faiz yavaş-yavaş artıb, lakin sonradan yenə aşağı düşməyə başlayıb. 1989-cu ildə yoxsulluq səviyyəsindən aşağı yaşayan fərdlərin sayı 12,8 faiz təşkil etmişdir.

Bə'zi tədqiqatçılar belə fikirləşirlər ki, yoxsulluq şəraitində yaşayan şəxslərin faizi Omək Departamenti statistika idarəsinin güman etdiyindən azdır, çünki statistika olsa-olsa rəsmi pul gəlirinə əsaslanır. Bu statistika pul ilə bağlı olmayan ərzaq talonları, səhiyyə yardımı və qaygı evləri şəklində göstərilən dövlət yardımını nəzərə almır. Buna baxmayaraq, başqa icmalçılar göstərirlər ki, hökumət yardımı nadir hallarda ailənin bütün yemək və səhiyyə xərclərini ödəyir, qaygı evləri isə çox azdır. Bə'ziləri inandırmağa çalışırlar ki, illik gəlirləri yoxsulluq səviyyəsində yaşayan ailənin gəlirindən 185 faiz çox olan ailələr belə bə'zən ac qalırlar, boğazlarından kəsərək, mənzil pulunu, səhiyyə yardımını ödəməyə və ya paltar almağa sərf edirlər. Bə'zi başqaları isə göstərirlər ki, yoxsulluq səviyyəsində yaşayan adamlar bə'zən təsadüfi işlərdən və iqtisadiyyatın heç vaxt rəsmi statistikalarda nəzərə alınmayan «yeraltı» sektorundan pul gəliri əldə edirlər.

HÖKUMƏTİN O ^ /-»i inkişaf etdikcə, xalq ümid edirdi ki, hökumət YÜKSƏLİŞİ ^\J~^əvvəlki dövrlərdə olduğundan xalqa daha artıq xidmətlər göstərəcəkdir. Olavə etmək olar ki, adamların böyük əksəriyyəti şəhərlərə toplaşmış olduğu şəraitdə hökumətin çoxsaylı xidmətlər göstərməsi özünü doğruldur. Məsələn, zibilin mütəşəkkil şəkildə toplanması kənd yerlərində qadağan ediləcək dərəcədə baha olacaq, çünki əhali burada dağınıq yaşayır, halbuki bu tədbir böyük şəhərlərdə təcrübədə istifadə olunur və vacibdir.

Hökumətin yüksəliş norması ştat və yerli səviyyələrdə federal səviyyədə olduğundan daha böyükdür. 1960-cı ildən 1980-ci ilə

qədər ştat hökumətləri və yerli hökumətlər işçilərinin sayım 6,4 milyondan 15,2 milyona qədər artırdıqları halda, federal hökumətin işçilərinin sayı 2,4 miyondan 3 milyona qədər artdı.

Nisbətən bu yüksəlişə görə və bunu ödəmək üçün vergilərin artan qiymətinə görə, 20-ci əsrin axırlarına yaxın bir çox diqqətli müşahidəçilərdən soruşmuşlar ki, doğrudandamı, vacib olan xidmətləri tə’min etmək üçün ən layiqli olam hökumətdir. Əslində, «privatizasiya» kimi bir söz yaradıldı və bu söz sür’ətlə dünyanın hər tərəfmə yayıldı ki, hökumətin təcrübədə öz hüquqlarının bə’zilərini xüsusi sektora verdiyi faktını təsvir etsin. Birləşmiş Ştatlarda (çox məhdud iqtisadi fəaliyyət bilavasitə federal hökumətin nəzarəti altında olduğuna görə) bu, ilk növbədə bələdiyyə və bölgə səviyyəsində nəzərdə tutulurdu. 1991-ci ildə Birləşmiş Ştatların Nyu-York, Los Anceles, Kaliforniya; Filadelfıya, Pensilvaniya; Dallas, Texas; və Feniks, Arizona kimi əsas şəhərləri özəl şirkətləri və ya mənfəət verməyən təşkilatları işə cəlb etdilər ki, keçmişdə şəhər idarələrinin özləri icra etdikləri bir çox fəaliyyət dairələrini öz fəaliyyət dairələrinə daxil etsinlər. Buraya küçə işığının tə’mirindən tutmuş nəhəng boş çöllərin istifadəsinə qədər və əldə edilən mə’lumatlar üzərində işləməkdən tutmuş yerli qolf kurslarına rəhbərliyə qədər sahələr daxildir. Birləşmiş Ştatların ən böyük şəhəri olan Nyu-York Siti üçün 1991-ci ildə layihələşdirilmiş 3,5 milyard defisiti olan büdcə ilə özəlləşdirmə də xüsusilə daha artıq təzyiq altında idi. O, şəhər xidmətləri üçün artıq 5 milyard dollara yaxın pul xərcini azaltmışdı və daha da artıq azaltmağa hazırlaşırdı.

Əslinə baxsan, bə’zi Amerika siyasi xadimləri və icmalçılar təsdiq edirdilər ki, federal hökumət Birləşmiş Ştatlarda poçt xidmətləri kimi əsas fəaliyyətləri də özəlləşdirəcəkdir.

Lakin 1990-cı illərdə xalqa xidmət sahələrinin özəlləşdirilməsi məsələsi hələ də yüksək dərəcədə mübahisəli məsələ olaraq qalır. Özəlləşdirmə tərəfdarları özəlləşdirmənin qiymətləri aşağı saldığım və xalq sektoru istehsalını artırdığını tə’kidlə təsdiq etdikləri halda, başqaları bunun əksini təsdiq edərək, deyirlər ki, özəl podratçılar çox aşağı qiymət təklif ediblər ki, müqaviləni udsunlar, lakin sonradan qiymətləri əhəmiyyətli dərəcədə qaldırıblar.

Özəlləşdirmə məsələlərində həlledici ünsür heç də xidməti kimin tə’min etməsi deyil, ancaq rəqabət ünsürünün mövcud olub-

olmamasıdır. Hər hansı bir özəlləşdirmədə bu, adətən, o deməkdir ki, müqavilə bağlanmazdan əvvəl bir deyil, daha artıq qiymət təklif edən bir neçə nəfər olmalıdır. Və bir sıra hallarda başın üstünü kəsən özəlləşdirmə tə'siri ilə yerli hökumət fəhlələri daha böyük tə'sir göstərə bilərlər ki, onların işləri əllərindən çıxmasın.

Daha aydın şəkildə. Birləşmiş Ştatlar istiqlaliyyət əldə etdikdən sonra 200 ildən artıq bir vaxt keçdiyi dövrdə hökumətin iqtisadiyyatda xüsusi rolunun nədən ibarət olduğu məsələsi yüksək dərəcədə mübahisəli qalır.

AMERİKA İQTİSADİYYATININ ƏSAS CƏHƏTLƏRİ

ÜÇÜNCÜ HİSSƏ




# AMERIKA İQTİSADİYYATININ TARİXİ PERSPEKTİVİ


IRA STOUT
REAL ESTATE

Amerika iqtisadiyyatının tarixi inkişafının kökü 16-cı, 17-ci və 18-ci əsrlərdə Avropadan iqtisadi mənfəət üçün gəlib Amerikada məskən salanlarla bağlıdir. Bu vaxtlara qədər bütün Şimali Amerika əhalisi yerli amerikalılardan ibarət idi. Bu yerli əhali belə bir əqidədə idi ki, onlar Amerikaya təqribən 20 min il əvvəl bu gün Bering Boğazı yerləşən yerdən quru körpü ilə gəliblər.

Avropalılarm Amerikanı ilk «kəşfı» təqribən 1000 il əvvəl vikinqlərə məxsusdur. Lakin bu hadisə hərtərəfli nəzərdən qaçırılmışdı: o dövrdə Avropa cəmiyyətinin ən əsas hissəsi hələ sabit şəkildə kənd təsərrüfatına və torpağa sahibliyə əsaslanırdı. Ticarət hələ o dərəcədə ciddi şəkil almamışdı ki. Şimali Amerikanı tədqiq etmək və orada məskunlaşmaq üçün daha vacib imkanlar açsın.

1492-ci ildə italiyalı dənizçi Xristofer Kolumb ispan bayrağı altında Cənub-Qərb tərəfdən Asiyaya keçid tapmaq məqsədilə yola düşdü və «Yeni Dünyanı» kəşf etdi. Sonrakı 100 il ərzində ingilis, ispan, Portuqaliya, holland və fransız tədqiqatçıları qızıl və var-dövlət, şan-şöhrət axtara-axtara gəlib Yeni Dünyaya çıxdılar.

Lakin Şimali Amerika vəhşiliyi ilk tədqiqatçılara çox az şan-şöhrət gətirdi və daha az qızıl verdi, ona görə də gələnlərin əksəriyyəti burada qalmadı. Şimali Amerikada məskən salan ayrı-

ayrı adamlar buraya daha sonralar gəldilər və bir çox hallarda beləələri ya müvafiq maddi imkanlar axtarır, ya da dini təzyiqə və siyasi istibdada dözə bilmədikləri üçün, qaçıb bu yerlərdə canlannı qurtanrdılar. 1607-ei ildə bir dəstə cəsur ingilis sonralar Birləşmiş Ştatlar adlanacaq yerdə daimi məskən saldı. Bu məskən Ceymstaun adlanırdı və indiki Virciniya ştatında yerləşirdi.

.MÜSTƏMLƏKƏÇİLİK (KOLONizASiYA)

Tlkin koloniyalarda (həm koloniya, həm də müstəmləkə sözləri Qnların törəmələri bu kitabda Amerikaya köçərək, orada məskən salmış insan qrupları mə’nasında işlədilir) məskən salmaq üçün gələnlər bir sıra səbəblər üzündən özlərinə yeni vətən axtanrdılar. Məsələn, puritanlar Massaçusetsdə bir neçə yerdə məskən salmışdılar. Bu ingilis kolonistləri dindar, daxilən intizamlı adamlar kimi, dini tə’qiblərə görə qaçıb yaxa qurtarmağa çalışırdılar. Onlar elə bir icma yaratdılar ki, bu icma yaxından onlann dini ideallarına əsaslanırdı.

Lakin Yeni Dünyaya ancaq dindarlıqla bağlı olaraq gəlmirdilər. 17-ci əsrdə bir çox kolonistlər bilavasitə biznes alveri ilə bağlı gəlmişdilər. Bundan əlavə, dindarlıq və mənfəət heç də biri digərini hökmən inkar etmirdi. Playmaus plantasiyasında məskən salan puritanlar fikirlərində mənfəət əldə etmək tutmadıqlarına baxmayaraq, əlbəttə, maddi məsələlərə də biganə deyildilər və biganə də qala bilməzdilər.

Sonralar Birləşmiş Ştatlar adlanacaq yeri koloniyalaşdırmaq sahəsində Avropa ölkələri arasında ən uğurlu ölkə İngiltərə idi. Onun uğurları Ceymstaun koloniyasından başlayaraq, çarter şirkətlərindən geniş dərəcədə istifadə ilə bağlı idi. Çarter şirkətləri səhmdarlardan, adətən, şəxsi maddi uğur qazanacağına inanan və, əlbəttə, milli gəlirin inkişafını arzulayan tacirlərdən və torpaq sahiblərindən ibarət olurdu. Maliyyələşdirmə xüsusi sektorun əlində olduğu halda, dövlət hakimiyyəti hər bir layihəni çarterlə və ya iqtisadi hüquqlar verən, eyni zamanda, siyasi və hüquqi səlahiyyət verən rəsmi sənədlərlə tə’min edirdi.

Koloniyalarda əhəmiyyətli mənfəətlər əldə etmək üçün ilk cəhdlər, əsasən, bəhrə verməmişdi. Hər halda ilk ingilis investorlarının ümidləri bu sahədə puça çıxıb. Şərq Sahilində qızıl az idi və dəmir-filiz mə’dənləri isə iqtisadi cəhətdən faydalı deyil idi. Kənd təsərrüfatı üçün torpaqlar təmizlənməli idi; hətta məhsul

bol olanda belə, qiymətlər orta olurdu, çünki nağd pul az idi. Əməyə az pul verilirdi, real əmək haqqı isə İngiltərədə olduğundan yüksək idi. Şərait çox pis idi, mənfəət isə azalmağa doğru meyl edirdi.

İlk ingilis investorları tezliklə Ceymstaun və Playmaus koloniyalarında daimi sakinlərə çevrildilər. Siyasi məsələlərə qarışma hallan o zaman nəzərə alınmasa da, çox geniş imkanlara malik idi; kolonistlərə öz həyatlarını, öz icmalarını və öz iqtisadiyyatlarını istədikləri kimi qurmaq imkanı verirdilər; əgər bacara bilirlərsə, onlara mahiyyətcə yeni bir dövlətin təməl daşını qoymağa da səlahiyyət verilirdi.

İQTİSADİYYAT

I İkin kolonial çiçəklənmə necə olur-olsun, onun sonu xəz dəri ticarəti və xəz dəri geyimləri ilə nəticələnmişdir. Bundan əlavə, Massaçusetsdə balıqçılıq sənayesi ilkin varlanma mənbələrindən birinə çevrildi. Lakin bütün koloniyalarda adamlar ilk növbədə kiçik fermalara və sərbəstliyə daha çox meyl etmişlər. Ev təsərrüfatı ilə məşğul olanlar öz şamlarını və sabunlanm özləri istehsal edir, ehtiyat üçün ərzaq hazırlayır, pivə qıcqırdır və əksər hallarda özlərinə paltar toxumaq üçün ip əyirirdilər. Şimali Karolinanın və Virciniyanın daha geniş plantasiyalarında və azsaylı kiçik şəhərlərdə istehsal edilən tənbəki, düyü və indiqo İngiltərənin London, Bristol və Liverpul bazarlarına ixrac edilir və böyük mənfəət verirdi; bunların əvəzinə ən vacib mallar və hər cür təmtəraqlı şeylər idxal edilirdi. Bu bölgələrdə ticarət və borc iqtisadi həyatın əsas amili idi.

Koloniyalar inkişaf etdikcə, onlara yardım edə biləcək sənaye sahələri də yüksəlirdi. Un dəyirmanları və taxtakəsmə zavodları kimi xüsusi istehsalın müxtəlif sahələri meydana çıxmağa başladı. Balıqtutma donanması və vaxtı gələndə əsas ticarət dənizçiliyi tə’sis etmək üçün gəmi tərsanəsi açıldı; İngiltərədə nisbətən nadir hallarda tapılan palıdı Yeni İngiltərədə asanlıqla əldə etmək olardı. Kolonial şəraitdə dəmir istehsalı da tədricən inkişaf etməyə başladı.

18-ci əsrdə inkişafın bölgə nümunələri artıq aydın edilmiş və kifayət dərəcədə sabitləşmişdi. Yeni İngiltərə koloniyaları irimiqyaslı gəmiqayıranlar və gəmi idarə etməyi bacaranlar hazırlamışdi; Məriländ, Virciniya və Karolina plantasiyalarında

tənbəki, düyü və indiqo kimi ticarət məhsullan istehsalı yüksəlirdi; Nyu-York, Pensilvaniya, Nyu Cersi və Delavare kimi mərkəzi koloniyalar ümumi məhsulu və xəz dəriləri gəmilərə yükləyib, müxtəlif yerlərə göndərirdilər. Hər üç bölgədə həyat səviyyəsi çox yüksək idi - İngiltərənin özündə fəhlələrin həyat səviyyəsindən yüksək idi. Lakin koloniyalar əldə etdikləri mənfəətləri nümayiş etdirməkdə yavaş tərpəndikləri üçün, bir çox ingilis kapital investorlan kənara çəkildilər ki, kolonistlər arasında sahibkarlara geniş fəaliyyət meydanı açılmış olsun.

Bunun nəticəsi kimi, 1770-ci ildə Şimali Amerika koloniyaları iqtisadi və siyasi mə’nada yaranmaqda olan özünüidarə hərəkatının bir hissəsi olmağa hazır idilər. Bu hərəkat 1 Ceymsin (1603-25) dövründən İngiltərənin siyasətində aparıcı mövqe tuturdu. Müzakirələr koloniyalara vergi qoymaq və başqa məsələlər ətrafında gedirdi. Bununla belə çox az amerikalı İngiltərə hökuməti ilə artan narazılığın koloniyaları müstəqilliyə apara biləcəyini fikirləşirdi. Daha doğrusu, onlar ümid edirdilər ki, İngiltərəyə verilməli olan vergilərin müəyyən edilməsi və tənzimlənməsi onların özünüidarənin daha böyük miqyasda tələbini ödəyəcəkdir. 17-ci və 18-ci əsrlərdə İngiltərə siyasətindəki hay-küy kimi, Amerika İnqilabının səbəbləri də siyasi və iqtisadi səbəblər idi; inqilabı yaranmaqda olan orta sinfin nümayəndələri edirdilər. Onlar ingilis filosofu Con Lokkun «Mülki hökumət haqqında ikinci traktat»mdan (1690) götürdükləri «həyat, azadlıq və mülkiyyət üçün müstəqil hüquq» şüarı ilə qışqırırdılar. Lakin 1775-ci ilin aprelində tam siyasi aynlığa gətirib çıxara biləcək bir hadisə baş verdi. Massaçusetsin Konkord şəhərində kolonial ordunun ambarmı ələ keçirmək və kolonial qiyamın qarşısını almaq əzmində olan Britaniya əsgərləri kolonial milis əsgərləri ilə üz-üzə gəliblər və kimsə (onun kim olduğunu heç kəs bilmir) İstiqlaliyyət uğrunda Amerika Müharibəsində ilk atəş açıb. Müharibə 1783-cü ildə sülh müqaviləsi bağlanana qədər davam edib. Həmin müqavilə eyni, zamanda, 1783-cü ildə Birləşmiş Ştatlar adlanan yeni dövlətin müstəqilliyini e’lan edib.

YENİ DÖVLƏTİN İQTİSADİYYATI

i Q * ildə qəbul olunmuş və bu günün özündə də X / O / “wl fəaliyyətdə olan Birləşmiş Ştatlar Konstitusiyası bir çox mə’nada dahi yaradıcı insanlann bəhrəsidir.

Konstitusiya müəyyən etdi ki, iqtisadi bir xartiya kimi, Mendən Corciyaya, Atlantik okeandan Missisipi Vadisinə qədər bütün ölkə birləşmiş və ya «ümumi» bazardır. Ştatlararası ticarətdə heç bir tarif və ya vergi olmamalıdır. Konstitusiya müəyyən etmişdi ki, federal hökumət xarici ölkələrlə Amerika ticarətini, eyni zamanda, ştatlararası ticarəti tənzimləyə bilər; vahid müflisləşmə qanunları tə’sis edə bilər; pul kəsə bilər və onun dəyərini tənzimləyə bilər; çəki və ölçü standartlarını müəyyən edə bilər; poçt idarələri yaradaraq, poçt yolları sala bilər; dövlət patentləri və müəlliflik hüquqlarını müəyyənləşdirə bilər. Sadalananlar arasında sonuncu müddəa «zehni mülkiyyətin» zərariliyinin e’tiraf edilməsinin ilkin olmasına dəlalət edir. Bu elə bir hal idi ki, 20-ci əsrdə ticarət danışıqları aparmaq üçün böyük əhəmiyyət kəsb etdi.

Ölkənin «Bani Atalar»mdan biri və Corc Vaşinqtonun xəzinədarlıq katibi Aleksander Hamilton elə iqtisadi inkişaf vasitələrini təbliğ edirdi ki, həmin vasitələrlə federal hökumət açıq borcvermə və hamilik tarifi yolu ilə yenicə fəaliyyətə başlayan istehsalata qayğı göstərsin. O, eyni zamanda, tə’kid edirdi ki, federal hökumət milli bank yaratsın və İnqilabi Müharibə dövründə koloniyalar etdikləri ictimai bordan öz öhdəsinə götürsün. Yeni hökumət Hamiltonun təkliflərindən bə’zilərini qəbul etdi, lakin tarifləri Amerika xarici siyasətinin mahiyyətcə əsas hissəsinə çevirdi. Bu vəziyyət, demək olar ki, 20-ci əsrin ortalarına kimi davam etdi.

İlk Amerika fermerləri milli bankın varlılara yoxsulların həyatı hesabına xidmət edəcəyindən qorxduqlarına baxmayaraq, Birləşmiş Ştatların ilk Milli Bankı 1791-ci ildə imtiyaz aldı və 1811-ci ilə qədər davam etdi. Hamilton inanırdı ki, Birləşmiş Ştatların iqtisadi yüksəlişi dəniz nəqliyyatının, istehsalatın və bank işlərinin inkişafına kapital qoymaq yolu ilə baş verəcək. Hamiltonun siyasi rəqibi Tomas Ceferson öz fəlsəfi müddəalarını adi adamları siyasi və iqtisadi istibdaddan qorumağın vacibliyi ilə əsaslandırırdı. O, xüsusən kiçik fermerləri «ən qiymətli vətəndaşlar)) kimi tə’rif edirdi.

1801-ci ildə Ceferson prezident oldu və desentralizasiya məsələlərinə və aqrar demokratiyaya daha çox qayğı göstərdi.

CƏNUBA VO QƏRBƏ DOĞRU HƏRƏKƏT

Eli Uitninin 1793-cı ildə xam pambığı çiyiddən və başqa lazım olmayan itkilərdən təmizləmə üçün kəşf etdiyi pambıqtəmizləmə maşını kətan bazarlarını məşhurlaşdırdı. Cənubda plantatorlar əsasən Qərbə doğru hərəkət edən kiçik fermerlərin torpaqlarını ahrdilar. Qul əməyi ilə becərilən nəhəng plantasiyalar tezliklə bir sıra ailənin əsaslı şəkildə varlanmasına səbəb oldu.

Bir sıra amerikalının fikrinə görə, Qərbə doğru axın fərdiyyətçilik irsini və elə bir ən'ənəni nümayiş etdirir ki, bu ən'ənə dunnadan yüksələn həyat səviyyəsi və gələcəyə nikbin baxışla xarakterizə olunur.

Bu səpkidə olan köçlər məskunlaşanların üç dalğasından ibarət olub. Birinci dalğa zamanı ən ilkin fərdi qruplar öz həyat və yaşayış tərzlərinin ovçuluqdan və bahqtutmadan asılı olduğu üçün gəliblər. Kənd təsərrüfatı işləri ilə məşğul olmaq onların peşələri olmayıb və kənd təsərrüfatında istifadə etdikləri heyvanlar ancaq at, inək, bə'zən donuz və, güman ki, bir sıra hallarda toyuq-cücə olub. Bunun da nəticəsində onların həyat səviyyəsi aşağı olub.

Köçənlərin növbəti dəstəsi torpaqları pulla satın alıblar, tarlaları meşələrdən və kol-kosdan təmizləyərək, yollar salıblar və daimi məskunlaşıblar. Onların fermalan tam şəkildə olmasa da, əsasən, müstəqil idi.

Sonuncu dalğa isə onlardan əvvəl gələnlərdən və eyni səviyyədə, yaxud daha geniş maddi imkanlan olan adamlardan ibarət idi və belələrinin çoxlu kapitalı var idi. Onlar yüksəlməkdə olan çoxlu dəyərlər yaradır və onlan inkişaf etdirir, eyni zamanda səmərəli biznes haqqında düşünürdülər. Onlar öz fermalannm bütün fəaliyyətini bazara doğru yönəltməyə çalışırdılar və onlar elə yarı-kənd icmaları qururdular ki, bu icmalar keçmişdə adamların heç vaxt təsəvvürünə belə gətirə bilmədikləri yüksək həyat səviyyəsi standartı yaradırdı.

QEYRİ-MÜOYYƏN İQTİSADİYYAT: 1820-1860-CI İLLƏR

1820■ci illərdə Amerika əhalisi hələ də müvafiq imkanlara və tərəqqiyə nail olmaq niyyəti ilə Qərbə doğru hərəkəti davam etdirirdi. Belə adamları bə'zən ciddi şəkildə müstəqil olan və hər cür hökumət nəzarətinə və ya müdaxiləsinə qarşı ciddi müxalifətdə olan adamlar kimi qələmə verirdilər. Lakin, əslində, onlar hökumətdən ya bilavasitə, ya da bilvasitə

xeyli kömək almışlar. Hökumət hesabına çəkilən Çemberlend Payk (1818) və Eri Kanal (1825) kimi milli yollar onlara öz kənd təsərrüfatı məhsullarını bazara gətirməkdə böyük kömək edib. Federal hökumət çoxsaylı kənd təsərrüfatı kollecləri açıb ki, orada gənclərə kənd təsərrüfatı sahəsində biliklər tə'lim edilsin, kənd təsərrüfatı təcrübə stansiyalan və cürbəcür xidmət agentlikləri yaradıb. Bunlann hamısı fermerlərin təhsilini artırmaq və onların müstəqillikləri qayğısına qalmaq üçün nəzərdə tutulmuşdu.

Bu dövr amerikalıları iqtisadi işlərdə iştirak etmək yolu ilə öz vəziyyətlərini yaxşılaşdırmaq haqqında ümumi arzuya tam şərik çıxırdılar. Bu məqsədə necə nail olmaq haqqında müxtəlif mövqelərdə olan adamlar 19-cu əsrdə bir sıra siyasi və iqtisadi mübarizələrdə iştirak etmişlər. Bu mübarizələrin nəticələri həm fərdiyyətçiliyin, həm də hökumətin işə qarışmasının müəyyən dərəcədə əhəmiyyətli olduğunu göstərir.

1829-cu ildə Əndryu Cəkson prezident olanda kasıbların və yenicə varlananların çoxu bir fərdiyyətçi kimi, onu idealizə etdilər, çünki o, prezidentlik həyatına sərhəd ərazisində taxta və ağac parçalarından quraşdırılmış bir kabinetdə qədəm qoydu. Prezident Cəkson 1816-cı ildə fəaliyyətə başlamış Birləşmiş Ştatlar Federal Bankının əleyhinə çıxdı. Cəkson inanırdı ki, onun bu hərəkəti Qərbə qarşı Şərqin təzyiqə mə'ruz qalmış mənafeyinə kömək edəcək. Prezidentliyə ikinci dəfə seçilərkən Cəkson Bankın fəaliyyətinin yenidən 1836-cı ilə qədər uzadılmasının əleyhinə çıxdı. Konqres 1833-cü ildə Cəksonu müdafiə etdi və bu yolla da ikinci Milli Bankın sonuna məharətlə çıxdı. Cəkson Birləşmiş Ştatlar hökuməti depozitlərini onun siyasi müttəfiqlərinin nəzarət etdikləri dövlət bankına qoymağı üstün tutdu.

Cəksonun bu hərəkətləri 1834-cü və 1837-ci illərdə baş vermiş kəskin biznes hay-küylərinin sür'ətlənməsinə kömək etdi. Əslində sənaye sektoru olan Şərq pulla tə'minedilmənin vaxtaşırı ləngiməsindən əzab çəkirdi; halbuki Qərbdə dövlət bankında federal depozitlər kənd təsərrüfatı bölgələrində pulun daha da çoxalmasına gətirib çıxarır, torpaq alverinə və qiymətlərin inflyasiyasına təkan verirdi. Eyni torpaq sahəsi bir çox hallarda dəfələrlə satılır və hər dəfə də mənfəət verirdi: torpaq satışından əldə edilən Birləşmiş Ştatlar Xəzinə gəliri 1834-cü ildə 5 milyon dollardan 1836-cı ildə 20 milyon dollara qədər artdı. Lakin bu hay-küyə iqtisadi bəlanın toxumunun cücərməsi xas idi.

1835-ci ildə ilk təbil həyəcanı məhsul az olduğu üçün buğdanın Avropadan idxal edilməsinin vacibliyi ilə bağlı olaraq çalındı. İdxal ilə əlaqədar olan bir neçə qurum iqtisadi depressiyadan qorxaraq, müştərilərə borcların vaxtının uzadılmasından imtina etdilər. 1836-cı ildə dövriyyədə olan pulun məbləği artıq aşağı olanda, Xəzinə qanun qoydu ki, hökumətdən alınan torpağın pulu qızıl və gümüşlə ödənilsin. Lakin bu qiymətli əlvan metallar çox az idi, çünki xaricdən alınan malların qiymətlərini ödəmək üçün xaricə göndərilirdi. Milli maliyyə sisteminə inam kökündən sarsılmışdı, hətta çox zəifləmişdi və Qərb bankları bağlanmağa başlamışdı.

Bu müddət ərzində ingilis tacirləri Amerikada satdıqları mallardan heç bir mənfəət götürə bilməmişdilər və buna görə də onlardan çoxu müflisləşmişdi. İngiltərədə pambıq zavodları bağlandı və Amerika plantatorları gördülər ki, onların bazarları əldən çıxır. 1837-ci ilin yayında biznes iflicləşdi; bu, 1840-cı illərin əvvəllərində biznesə inama oxşar bir proses bərpa olunana qədər davam etdi.

Lakin iqtisadiyyatda zaman-zaman baş verən «1837-ci ilin Təşvişi» kimi pozuntu hallan bütün 19-cu əsr boyu Birləşmiş Ştatların sür’ətli iqtisadi yüksəlişinə təkan verə bilmədi. Cəksondan sonra seçilən prezidentlər də Qərbdən idilər, ya da kənd əhval-ruhiyyəsini təmsil edən adamlarla ittifaqa girib, mərkəzi hakimiyyətə münasibətdə Cəksonun inamsızlıq hissini bölüşdürürdülər.

İQTİSADI EKSPANSİYA. GENİŞLƏNDİRİLMİŞ BAZARLAR

1 Q və 19-cu əsrlərdə Avropada baş vermiş Sənaye İnqi-JLO“v/llabı Birləşmiş Ştatlara böyük tə’sir göstərdi. Yeni kəşflər və kapital investisiyası yeni sənaye sahələrinin yaradılmasına və iqtisadi yüksəlişin genişlənməsinə gətirib çıxardı. Məsələn, nəqliyyat sahəsində inkişaf ticarətin artmasına təkan verdi.

Eri kanalının çəkilməsinin başa çatması ilə bağlı olaraq, 1825-ci ildən Nyu-York Siti Böyük Göllər bölgəsi ilə əlaqə yaratdı, müxtəlif ştatların hökumətləri nəqliyyatın ölkə daxilindəki sisteminin qurulmasını istiqamətləndirmək işində fəal rol oynamağa başladı. Ştat hökumətlərinin bizneslərə buraxdığı borc pul 1830 və 1860-cı illər arasında kanallar çəkmək və yol pulu almaq üçün vergi məntəqələri tikmək işini ümumi bir işə çevirdi.

Bu ilkin cəhdlər tez-tez korrupsiya və iqtisadi fəlakətlə nəticələnirdi, lakin uğurları uğursuzluqlarından daha çox olurdu.

Qayıqlara buxar mühərrikləri uyğunlaşdırıldıqdan sonra çay nəqliyyat işləri də təkmilləşdi. Buxar gəmiləri çayla üzü yuxarı da, yə’ni çayın axanna qarşı da üzə bildiyi üçün, malların bazarlara daşınmasına sərf olunan vaxt əhəmiyyətli dərəcədə azaldı.

Kanallar və yol pulu almaq üçün vergi məntəqələri tikilişində olduğu kimi, dəmir yolların çəkilməsi işinə də ilk illərdə hökumət böyük yardım edirdi. Buna baxmayaraq, nəqliyyatın bir çox başqa fomralarmdan fərqli olaraq, dəmir yollar eyni zamanda bir sıra ölkədaxili və Avropa xüsusi investorlarının diqqətini cəlb etdi.

Dəmir yol çəkilişi külli məbləğdə kapital tələb edir və hər bir mənfəətin realizə olunması üçün uzun müddət vaxtın keçməsi tələb olunur. Bununla belə kənd yerlərində yaşayan mühafizəkar adamlar bu cür dəmir yol səhm paylanm almaqda böyük rub yüksəkliyi nümayiş etdirir və əksər hallarda öz fermalarını və ya bizneslərini bu yolda qurban verirdilər. Gələcəkdə mənfəətlər əldə etmək ümidinə və daha yaxşı bir dövlət qurmağa kömək işinə aludə olaraq, onlar eyni zamanda dəmir yollara yardım üçün ştat vergilərinə və yerli vergilərə müsbət səs verirdilər. Daha sonra, Vətəndaş Müharibəsinin varisinin hissəsi kimi, federal hökumət o adamlara geniş torpaq sahəsi verdi ki, onlar milli dəmir yol sistemində hələ çəkilməmiş yol sahələrini çəkməyi və’d edirdilər. Heyrətə gətirəcək bir haldır ki, son nəticədə dəmir yol çəkənlərə 53 milyon hektar torpaq sahəsi verildi. Sakit okeanın Şimal sahilindəkilər 17 milyon hektar. Cənub sahilindəkilər 10 milyon hektar, bu sahilləri birləşdirən mərkəz isə 8 milyon hektar torpaq sahəsi aldı. Amerika bu yolla özünün «dənizdən bərq vuran dənizə» əlaqəsini yaratdı.

Amerika dəmir yollarına kapital qoyuluşunda Avropa da təəccüb doğuracaq dərəcədə iştirak fürsətini əldən vermədi. Bir zamanlar xarici investorlar altı vacib dəmir yol xəttində səhmlərin əsas hissələrini öz əllərində saxlayırdılar. 1849-cu ildə qızılın kəşfi ilə bağlı olaraq. Birləşmiş Ştatlar xaricdən dəmir yol üçün əlavə maşınlar və mallar gətirməyi maliyyələşdirməkdən ötrü daha geniş imkanlar əldə etdi.

Dəmir yol çəkilişi ilə bağlı səs-küy sui-istifadə hallarına da gətirib çıxardı. Heç bir şübhəsi olmayan alıcılar öz dəmir yol səhmləri üçün bə’zi hallarda çox böyük məbləğdə pul ödəyirdilər

VƏ ya qiyməti sün'i şəkildə artırılan səhmlərin alınmasında aldadılırdılar. «Sür'ətlə varlan» şüarı hər yana yayılmışdı, buna görə də bir çox adamlar özlərinin pul və var-dövlət ehtiyatını itirdilər. Maliyyə hoqqabazlarının bəxti gətirirdi.

Bütün bunlara baxmayaraq, fərasətin və xarici kapital qoyuluşunun birləşməsi, qızılın kəşfi, Amerika ictimai və özəl zənginliklərinin ümumi dil tapması yolu ilə ölkə genişmiqyaslı dəmir yol sistemini inkişaf etdirməyə qadir idi ki, bu da sonralar sənayeləşmənin əsasını tə'min etdi.

SƏNAYE SAHƏLƏRİNİN YÜKSƏLİŞİ

1 Q/T A ildə Amerikada Abraham Linkoln prezident lOv) vJ''Clseçilərkən, əhalinin 16 faizi şəhər yerlərində yaşayırdı və milli gəlirin üçdə birini istehsalat verirdi. Fondlar irimiqyaslı sənaye sahələrinin inkişafına və dəmir yol çəkilişinə axıb gedirdi. Şəhər sənayesi əvvəllər Şimal-Şərqlə məhdudlaşırdı. Pambıq paltar istehsalı əsas sənaye sahəsi idi, ayaqqabı, yun paltar və maşın istehsalı da genişlənirdi.

Urbanizasiya ilə bərabər ölkə əhalisinin sayı da artırdı. 1845-ci və 1855-ci illər arasında Avropadan gələn mühacirlərin sayı ildə 300 000 nəfərə çatdı. Onların əksəriyyəti yoxsul idi və Şərq şəhərlərində, bir sıra hallarda hətta gəlib düşdükləri limanlarda da qalırdılar.

Bunun əksinə olaraq, qədim Cənub kəndlərdən ibarət sahə olaraq qalır və kapital və istehlak malları ilə tə'minat baxımından Şimaldan asılı idi. Cənubun iqtisadi mənafelərinə, quldarlıq da daxil olmaqla, siyasi hakimiyyət o vaxta qədər hamilik edə bilərdi ki, federal hökumətə Cənub nəzarət etsin.

Yenicə yaradılmış Respublikaçılar Partiyası sənayeləşmənin mənafelərini ifadə edirdi ki, bu da Şimalı əhatə edirdi. 1860-cı ildə Respublikaçılar və onlann prezidentliyə namizədi Linkoln quldarlıq haqqında tərəddüdlə danışdıqları halda, iqtisadi siyasət haqqında aydın danışırdılar. 1861-ci ildə hamilik tarifi təsdiq olundu. 1862-ci ildə ilk Sakit okean sahili boyu dəmir yol xətti istifadəyə verildi. 1863-cü və 1864-cü illərdə milli bankın qanun layihəsi tərtib edildi. Vətəndaş Müharibəsində Şimalın qələbəsi (1861-1865) və seçkilərdə Respublikaçılann qələbəsi inam yaratdı ki, gələcəyin iqtisadi siyasətini Cənub plantatorları deyil. Şimal sənayeçiləri müəyyən edəcəkdir.

IXTIRALAR VO MONBO İNKİŞAFI

1 Q əsrin ikinci yarısı yeni kəşflər və ixtiralar bolluğu “L/ Llgətirdi ki, bu da görkəmli Amerika tarixçiləri Birdlərin fikrincə, «ikinci sənaye inqilabınm» carçısı səviyyəsinə qalxdı. Onlar daha əhəmiyyətli kəşflər kimi, aşağıdakıları göstərirlər:

- 1859 - Qərbi Pensilvaniyada neftin kəşfi.
- 1868 - C.L. Skoulsun yazı makinası istehsal üçün hazırdır.
- 1875 - C.F. Suiftin soyuducu dəmir yol vaqonu istismardadır.
- 1876 - Aleksander C. Bell ilk telefon mə’lumatmı göndərir.
- 1877 - Tomas A. Edisonun fonoqraf çalğısı əldədir.
- 1879 - Corc Selden «benzinlə işləyən maşın» üçün patent almışdır.
- 1882 - Edisonun elektrik enerjisi zavodu Nyu-Yorkda işə başlayır.
- 1903 - Rayt qardaşları təyyarə uçuşunu həll edirlər.

Filiz-mə’dən sənayesi 1850-ci illərdən sonra böyük əhəmiyyət kəsb etdi; bu zaman Orta Qərbin yuxarı hissəsində Leyk Süperior bölgəsində filiz mə’dənləri açıldı. Bütün bunlar Böyük Göllərin («Great Lakes») sahillərində dəmir və polad e’malı zavodlarının tə’cili inkişafına xüsusi təkan verdi. Neftin ilk kəşfindən sonra, Con D. Rokfeller neftin verəcəyi var-dövləti və ondan alınan məhsulu təmərküzləşdirərək, onu bölüşdürmək üçün bazara satışa çıxarmaqla hansı qüvvəni əldə edəcəyini aydın başa düşdü.

Tezliklə iri mis və qızıl mə’dənləri açıldı, onun dalınca qurşun mə’dənləri açıldı və sement zavodları inkişaf etdi. 1893-cü ildə Dünya Sərgisində dinamomaşın nümayiş etdirildi. Belə mexanizmlərdən tezliklə bəndlər tikilişində istifadə olundu ki, geniş elektrik enerjisinə olan ehtiyac cilovlansın. Teleqraf və telefonun ixtira edilməsi ilə bağlı olaraq, rabitə əlaqələri ölkənin müxtəlif nöqtələrini bir-birinə caladı və irimiqyaslı müxtəlif bizneslərin işlərini asanlaşdırdı. Dəmir yollardan və təkmilləşdirilmiş maşınlardan istifadə polad, daş kömür, neft və elektrik enerjisi kimi əsas sənaye sahələrinin inkişafına və artmasına təkan verdi.

Mühacirliyin davam etməsinə baxmayaraq, sənətkarların sayı çox az idi, bu da sənayedə kütləvi məhsul istehsalı metodlarının tətbiqinin və inkişafının ağlabatan bir hal olduğunu göstərdi. Frederik U. Teylor elmi idarəetmə sahəsində ilkin olaraq işə başlayıb, müxtəlif fəhlələrin gördükləri işin diaqramını hazırladı və sonra onlara öz işlərini görmək üçün daha tə’sirli, daha effektli

yollar təklif etdi. Əsil kütləvi istehsal Henri Fordun təşəbbüsü ilə bağlıdır. O, 1913-cü ildə fəaliyyətdə olan quraşdırma xəttini qəbul edərək, avtomobil istehsalında hər fəhləyə sadə bir tapşırığı icra etməyi həvalə etdi. Mə'lum oldu ki, bu, hədsiz dərəcədə uzaqgörücü bir hərəkətdir. Ford işçilərinə çox yüksək əmək haqqı təklif etdi - gündə 5 dollar. Bu əmək haqqı onlardan çoxlarına imkan verdi ki, istehsal etdikləri avtomobillərin alıcıları da olsunlar.

BİZNES A merika bir zaman geniş maliyyə imperiyasım, biznes MAQNATLARI x^«maqnatını», biznesi sadəcə olaraq genişləndirən yox, daha artıq genişləndirən sahibkan idealizə edirdi. Onun və ondan daha kiçik minlərlə sahibkarın dövrü 19-cu əsrin ikinci yarısına təsadüf etdi. Bu, 1850-ci illərdə dəmiryol şəbəkələrinin inkişafı ilə başladı və 1860-cı illərdə sənayenin inkişafını və 1870-ci illərdə bank işləri üçün investisiyanı da ehtiva etdi. Bütün bu müddət ərzində biznes mənafeləri hökumətə əhəmiyyətli dərəcədə tə'sir etmişdi.

Nəhəng maqnatlar maliyyə uğurları və qüvvə dalınca qaçmaq yeganə amalı olan dəhşətli rəqiblər idilər, bu maqnatlar arasında ən nəhəngləri Cey Qauld, C.P. Morqan, Əndryu Kamegi, Con D. Rokfeller və Henri Ford idi. Bunlardan bə'ziləri öz dövrlərinin biznes standartlarına əsasən, vicdanlı adamlar idilər, başqaları isə var-dövlətə və hakimiyyətə nail olmaq üçün gücdən, daşbaşdan və biclikdən də istifadə etməkdən çəkinmirdilər.

Biznes ruhu Birləşmiş Ştatlar üçün yerli cəhət deyil; əksinə, bu Avropa kapitalizmi zəminində meydana gəlmişdir. Lakin dəmir yollar kimi iri sənaye müəssisələri geniş idarəetmə iyerarxiyaları ilə başqa ölkələrdə olduğundan Birləşmiş Ştatlarda daha böyük və əsas yer tutur və daha güclüdür. Bir çox başqa ölkələrdən fərqli olaraq. Birləşmiş Ştatlarda sənaye bürokratiyaları, xüsusən dəmir yollarda, hökumətin öz bürokratiyasından daha sür'ətlə inkişaf edir və daha genişdir; 1890-cı ildə bir düjün dəmir yol şəbəkəsində 100 000-dən çox fəhlə işləyirdi, halbuki Birləşmiş Ştatlar Mülki Xidmətində Vaşinqtonda 20 000 mindən bir az artıq adam var idi.

Güman ki, sahibkarların ən parlaq nümayəndəsi olan C. Pirpont (C.P.) Morqan öz əzəmət tərəzisi ilə fəaliyyət göstərirdi. O, öz şəxsi və biznes həyatında qürrələnmək və təkəbbürlük nümayiş etdirirdi. O və onun silahdaşları kart oynar, motorlu

qayıqlarda seyrə çıxar, bədxərcliklə hazırlanmış ziyafətlər verər, dəbdəbəli mülklər tikdirər və Avropa bədii sənət xəzinəsindən ölməz əsərlər alarmışlar.

Bunun əksinə olaraq, Con D. Rokfeller və Henri Ford kimi adamlar puritanlara məxsus keyfiyyətlər nümayiş etdirmişlər. Onlar özlərinin kiçik şəhərlərə məxsus dəyərlərini və həyat tərzlərini olduğu kimi saxlamışlar. Kilsələrə ibadətə getdikləri üçün onlar başqaları qarşısında məs’uliyyət hissi keçirmişlər.
Onlar nümayiş etdirmişlər ki, insana bütün uğurları şəxsi ləyaqət qazandırır; onların uğurları isə işə inam və qənaətcil olmağın nəticəsidir. Bir qədər sonra onların varisləri Amerikada insanlığa məhəbbət təmsil edən ən geniş fondlar yaradacaqdır.

Avropada yuxarı silkə mənsub olan təfəkkür sahibləri ticarətə, ümumiyyətlə, həqarətlə baxdıqları halda, müxtəlif sinif qurumlarının axını nəticəsində qurulmuş cəmiyyətdə yaşayan amerikalıların əksəriyyəti pul qazanmaq ideyasını böyük ruh yüksəkliyi ilə qarşıladılar. Onlar biznes müəssisəsi riskindən və narahatçılığından, eyni zamanda, daha yüksək həyat səviyyəsindən və sərf etdikləri qüvvə üçün potensial əvəz alacaqlarından sevinir və biznesin gətirdiyi uğurları açiq şəkildə bəyan edirdilər.

Lakin 1930-cu illərdə Böyük Depressiya dövründə Amerika idealı kimi, sahibkar obrazı öz şöhrətinin çoxunu itirdi. Həlledici dəyişiklik korporasiyaların yüksəlişi ilə (əvvəlcə dəmir yolların, sonra başqalarının) gəldi. Çox az biznes maqnatlan qaldı. Onları «texnokratlarla» əvəz edirdilər ki, onlar da korporasiyalar başçıları oldular. Bu icraçılar ümumi fəaliyyətin bütün anlarında bilicilər kimi, sənaye maşınının vacib dişciklərinə çevrildilər. Yüksək əmək haqqı alan menecer biznes maqnatını əvəz etdi. Korporasiyanın yüksəlişi öz növbəsində mütəşəkkil əmək hərəkatının jmksəlməsinə təkan verdi ki, bu hərəkat da biznesin gücünü və tə’sirini tənzimləyən bir qüvvə kimi xidmət edirdi.

iri biznes başçıları bu gün ictimai həyatın bir sıra sahələrinə müdaxilə edirlər. Onlar ancaq korporasiyanın taleyini idarə etməklə qalmır, həm də onların birliklərindəki idarələrdə universitet hamiləri kimi çalışırlar. Bu yeni korporasiya başçıları milli və dövlət siyasəti məsələlərini hökumətin rəsmi nümayəndələri ilə müzakirə üçün Vaşinqtona uçurlar. Onlar milli iqtisadiyyatın vəziyyəti və Amerikanın başqa ölkələrlə əlaqəsi məsələləri qayğısına qalırlar. Onlar Birləşmiş Ştatlar hökumətinə'

tə'sir göstərir, lakin nə açıq, nə də gizli şəkildə Birləşmiş Ştatlar hökumətinə nəzarət etmirlər.

HÖKUMƏTİN İŞƏ i^n'ənəvi olaraq. Birləşmiş Ştatlar hökumət başçılarının MÜDAXİLƏSİ əksəriyyəti istəmirlər ki, nəqliyyat sahəsi müstəsna olmaqla, federal hökumət özəl sektorun işlərinə ciddi şəkildə müdaxilə etsin. Ümumiyyətlə, daxili işlərə qarışmamaq haqqında müddəa federal hökumətin roluna öz tə'sirini göstərib. Bu müddəa, hökumətin qanun və qaydam müdafiə etməklə bağlı yaranan zəruri hallar müstəsna edilməklə, hökumətin iqtisadiyyatla bağlı müdaxiləsinə qarşı çıxır. Bu mövqe 19-cu əsrin sonlarında kiçik biznes, ferma, daha sonra əmək hərəkatları hökumətin onların adından işə müdaxilə etməsini xahişə başladıqdan sonra dəyişdi.

19-cu əsrdən sonra orta sinif inkişaf etdi. Bu inkişaf say-seçmə biznes nümayəndələri üçün də, Orta Qərbdə və Qərbdə fermerlərin və aşağı səviyyəli fəhlələrin bir növ radikal səciyyə daşıyan hərəkatları üçün də arzu olunan hal deyildi. «Tərəqqipərvərlər» kimi tanınan bu adamlar hökumətə xeyir-dua verdilər ki, biznes təcrübələrinin tənzimlənməsində fəal şəkildə işə qarışaraq, rəqabətə və azad müəssisələrə təhlükəsizlik tə'min etsin.

Dəmir yollar işlərini tənzimləyən qanun 1887-ci ildə qəbul edildi (Ştatlararası Ticarət Aktı) və başqa bir qanun - iri finnalarm fərdi sənaye sahəsinə nəzarətini qadağan edən qanun isə (Şerman Antitrest Aktı) 1890-cı ildə qəbul edildi. Lakin bu qanunlar 1900-cü və 1920-ei illər arasında olan dövrə qədər, tərəqqipərvərlərin fikrinə görə, inam təlqin edənlər hakimiyyətə gələnə qədər məcburi şəkildə icra edilmirdi. Bu müddət ərzində bir sıra bugünkü tənzimləyici agentliklər, o cümlədən, Ştatlararası Ticarət Komissiyası, Orzaq və Dərman Administrasiyası və Federal Ticarət Komissiyası yaradılıb.

Tərəqqi dövrünün ən yüksək nöqtəsi 1901-ci il ilə 1920-ci il arasında olsa da, hökumətin iqtisadiyyata müdaxiləsi «Yeni kursun» nəticəsi kimi, 1930-cu illərdə əhəmiyyətli dərəcədə artdı. 1929-cu ilin səhm bazarının müflisləşməsi ölkə tarixində bir çox ciddi iqtisadi pozuntulara, Böyük Depressiyaya gətirib çıxardı. Yeni kurs Prezident Franklin D. Ruzveltin çətin vəziyyəti yüngülləşdirmək cəhdi idi. Yeni kurs qanunvericiliyi federal hakimiyyət səlahiyyətini bütün sahələrdə, xüsusilə, bank işləri,

kənd təsərrüfatı, ictimai tə'minat və xalqın rifah halının yaxşılaşdırılması sahələrində artırırdı. Bu qanunvericilik əmək problemlərinə diqqəti tə'xirəsalınmaz şəkildə artırdı - əmək haqqı, iş saatları, işsizlərə təqaüd və təhlükəsizlik üçün minimum standartlar müəyyənləşdirdi və polad, avtomobil və kauçuk sənayeləri kimi sahələrdə həmkarların Amerika hüquqlarının genişlənməsində katalizator rolu oynadı.

Amerika həm də irimiqyaslı sənaye sahələri, banklar, səhm bazarları, sığorta şirkətləri və kredit birlikləri də daxil olmaqla, istehsal və maliyyə mənbələri şəbəkəsini inkişaf etdirdiyi üçün belə problemlərlə üz-üzə gəlirdi. Bu inkişafla birgə kənd təsərrüfatı müasir sistemi və ciddi təşkil olunmuş işçi qüvvəsi də inkişaf edirdi. Sonra 11 Dünya Müharibəsi gəldi.

İkinci Dünya Müharibəsi dövründə Birləşmiş Ştatlar hökuməti iqtisadiyyata əvvəllər heç vaxt olmadığı tərzdə müdaxilə edirdi. Müharibə İstehsalı İdarəsi yaradıldı ki, ölkənin ərzaq istehsalati imkanlarını əlaqələndirsin və bu yolla hərbi sahələrə aid mallar istehsalına birincilik tə'min edilsin. Müştərilər üçün istehlak malları istehsal edən zavod və fabriklər öz işlərini dəyişərək, müxtəlif hərbi sifarişlər icra edirdilər. Avtomobil istehsalçıları tanklar və təyyarələr hazırlamaqla Birləşmiş Ştatlan «demokratiya arsenalına» çevirirdi. Artmaqda olan milli gəlir və çox az tapılan istehlak mallan əsasında inflyasiyam cilovlamaq cəhdi ilə yenicə yaradılmış Qiymət Administrasiyası idarəsi bir sıra yaşayış evlərində mənzil vergilərinə, şəkərdən tutmuş benzinə qədər istehlak mallannm norma üzrə bölüşdürülməsinə nəzarət edir və, başqa sözlə, çalışırdı ki, qiymətlərin yüksəlməsinin qarşısını alsın.

MÜHARIBƏDƏN SONRAKI İQTİSADİYYAT; 1945-1960-CI İLLƏR

Amerikalılann çoxu qorxurdu ki, son qoyulmuş müharibəyə çəkilən hərbi xərclərlə bağlı olaraq. Depressiyanın bir zamanlar yaratdığı çətin günlər bir daha geri qayıda bilər. Lakin istehlak tələblərinə cavab verərək, müharibədən sonrakı dövrdə Birləşmiş Ştatlar iqtisadiyyatı, müstəsna olaraq, ciddi iqtisadi yüksəliş keçirir. Ölkənin milli məhsul istehsalının ümumi dəyəri 1940-cı ildə 200 milyard dollar olduğu halda, 1950-ci ildə 300 milyard dollar, 1960-cı ildə isə 500 milyard dollardan da çox oldu. Eyni zamanda, müharibədən sonra doğumun artması və onun «uşaq bumu» adı ilə məşhur olması istehlakçıların sayım

artırdı. Amerikalılann daha çoxları orta sinfin nümayəndələri oldular.

Yüksəlişin bir çox mənbələri var idi. Avtomobil sənayesi tanklar və bomba atan təyyarələr istehsalını uğurla əvəz etdi və aviasiya və elektronika kimi yeni sənaye sahələri sür’ətlə yüksəldi. Müharibədən geri dönən hərbi xidmətçilər üçün bir hissəsi asanlıqla əldə edilən borc pul qoyuluşu hesabına stimullaşdırılan mənzil tikintisi bumu da inkişafa təkan verdi. Burada sonralar Soyuq Müharibə inkişaf edərkən baş verən müharibə xərclərinin artması da müəyyən rol oynamışdır. Biznes birləşmə adlanan dövrə qədəm qoydu. Şirkətlər nəhəng, çoxçeşidli «konqlomerat- lar» yaratmaq üçün birləşirdilər. Məsələn, Beynəlxalq Telefon və Teleqraf Kompaniyası Şeraton mehmanxanalanni. Kontinental Çörək-Bulka Mə’mulatı Şirkətini, Hartford Yanğından Mühafizə Şirkətini, Avis Avtomobil İcarə Şirkətini və başqa şirkətləri satın aldı.

Amerika işçi qüvvəsi də dəyişirdi. 1950-ci illər ərzində xidmət işləri ilə məşğul olan fəhlələrin sayı əmtəə istehsalı ilə məşğul olan fəhlələrin sayı ilə bərabərləşdi və sonra daha da artdı. Artıq 1956-cı ildə Birləşmiş Ştatlar fəhlələrinin əksəriyyəti mavi yaxalıq tələb edən işdə deyil, ağ yaxalıq tələb edən işdə çalışırdı. Eyni zamanda, həmkarlar ittifaqları uzunmüddətli əmək müqavilələri bağlamağa və öz üzvləri üçün başqa imtiyazlar da almağa nail oldular.

Digər tərəfdən, fermerlər çox çətin anlarla üz-üzə gəldilər. Kənd təsərrüfatı ilə məşğul olmaq böyük biznesə çevrildiyi üçün məhsuldarlıqdakı uğurlar izafi kənd təsərrüfatı məhsulu istehsalına gətirib çıxarırdı. Rəqabətdə çətinliyin artdığını görən kiçik ailə fermalarının bir çoxu torpağı tərk edirdi.

Başqa amerikalılar da köçüb gedirdilər. Hər bir ailənin öz şəxsi evi olması istəyinin artması və xüsusi maşına sahib olmaq arzusu amerikalıların mərkəzi şəhərlərdən şəhərkənarı rayonlara köçməsinə səbəb oldu. Eyni zamanda, məişət kondisionerləri ixtirası kimi texnoloji yeniliklərlə bağlı olan köçmə hallan «Günəş Qurşağı» şəhərlərinin inkişafını cilovladı. Belə şəhərlərə Texasda Hyuston, Corciyada Atlanta, Floridada Miami və Arizonada Feniks nümunə ola bilər.

Federal hökumətin pul yardımı ilə yeni salınmış şose yollar şəhərkənarı yaşayış məntəqələrinə köçmək üçün daha münasib

şərait yaratdığına görə, biznes nümunələri də dəyişməyə başladı. Ticarət mərkəzlərinin sayı çoxaldı: II Dünya Müharibəsinin sonunda olan 8 mərkəzin sayı 1960-cı ildə 3840-a çatdı. Bir çox sənaye sahələri də iri şəhərləri tərk edərək, əhalinin nisbətən az olduğu sahələrə köçdü.

### DƏYIŞIKLIK İLLƏRİ: 1960-CI VƏ 1970-Cİ İLLƏR

1 ^ ^ ^ \ illər Amerikada tez-tez razılıq dövrü kimi X. y w' V/“ C'itəsvir olunur. Əksinə, Prezident Con F. Kennedi öz prezidentlik kampaniyası dövründə daha fəal keçirdiyi onillikdə demişdi ki, o, amerikalılardan «Yeni Sərhəd» çağırışlarını qəbul etməyi xahiş edəcəkdir. Kennedinin böyük nəticələr verə biləcək iqtisadi təkliflərinin çoxu qəbul olunmadı; amma o təkliflərdən biri əsasında Sülh Korpusu yaradıldı. Bu korpus Amerika könüllülərini okeanın o tayına göndərirdi ki, onlar inkişaf edən ölkələrə öz ehtiyaclarını ödəmək işində yardım etsinlər.

Kennedinin başqa bir məqsədi isə Birləşmiş Ştatların kosmosu tədqiq proqramını elə şəkildə sür’ətləndirmək idi ki, bu sahədə Birləşmiş Ştatlar Sovet İttifaqını ötüb keçsin. Federal xərclərin artması - genişləndirilmiş kosmos proqramından tutmuş Vyetnam Müharibəsində Amerika rolunun eskalasiyasma və başqa yeni və ya genişləndirilmiş federal proqramlara qədər, onillikdə inkişafa təkan verdi.

Yeni ictimai rifahın yaxşılaşdırılmasına yönəldilmiş bir sıra proqram Kennedinin xələfi Lindon B. Consonun hakimiyyəti dövründə yaradıldı. O, «Yoxsulluğa qarşı» müharibə e’lan etdi; yoxsul və çoxyaşlılara tibbi yardım göstərmək proqramı və bə’zi başqa faydalı təşəbbüslər göstərdi.

1960-cı illər elə bir dövrdür ki, bu dövrdə Amerika xalqı təbiət və insanlarla bağlı olaraq, ətraf mühit haqqında öz narahatçılığım ifadə etməyə başlayır. Bu, təbiətin mühafizəsindən tutmuş havanın və suyun çirklənməsi təhlükəsinin qarşısını almağa qədər olan bir sahəni əhatə edir. Federal hökumət həyat səviyyəsini müdafiə etmək üçün bir sıra qanunlar qəbul etmişdir.

Lakin 1960-cı illərin sonunda sabit şəkildə davam edən inflyasiya iqtisadiyyatın çiçəklənməsinə zərbə vurdu. 1973-1974-cü illərdə ərəb nefti embarqosu qiymətləri sür’ətlə artırdı və Birləşmiş Ştatların hər tərəfində kasadlıq yaratdı. Embarqoya son qoyulduqdan sonra belə qiymətlər aşağı düşmədi.

Bu da inflyasiyaya təkan verdi və nəticədə işsizlik səviyyəsinin yüksəlməsinə səbəb oldu. Onilliyin qalan illəri inflyasiyanın ardıcıl şəkildə artması, federal büdcə çatışmamazlığının yüksəlməsi, xarici rəqabətin güclənməsi, yüksək dərəcədə işsizlik və daimi tələblə səciyyələndirilir.

IQTISADIYYAT 1980-Cİ VO 1990-CI İLLORDO

İ ^ Q ^ X *y* O * ildə Amerika xalqı federal hökumətin 1970-ci illərdəki siyasətindən narazı qaldığını Prezident Ronald Reyqana səsvermə yolu ilə ifadə etdi. Reyqanm iqtisadi proqramı əlavə-ehtiyat (səplayd-sayd) iqtisadi nəzəriyyəsinə əsaslanırdı. Həmin nəzəriyyə daha ciddi və daha uzun müddət işləməyə ruhlandırmaq üçün minimum vergi normalarını azaltmaq imtiyazı verirdi. Bu da öz növbəsində daha bol qənaətə və investisiyaya gətirib çıxarırdı ki, bu hal daha artıq məhsul istehsalı ilə nəticələnir və əlavə-ehtiyat iqtisadi nəzəriyyəsinə müvafiq olaraq, bütövlükdə iqtisadiyyatı tənzimləyirdi.

Lakin ölkəni idarə məsələsində Reyqanm mərkəzi mövzusu onun federal hökumətin həddən artıq böyüməsinə və öz iradəsini həyata keçirmək üçün hər şeyə hazır olmasına inam idi. 1980-ci illərin əvvəllərində Reyqan hökuməti bir sıra vergilərin azalmasına nail oldu, eyni zamanda, sosial proqramlarda da vergilərin ciddi şəkildə azaldılmasım təklif etdi. Prezident olduğu müddət ərzində Reyqan həm də istehlakçıya, iş yerinə və mühitə tə’sir göstərə biləcək hökumət qayda-qanunlarının azaldılması və ya tam yox edilməsinə nail olmağı öz öhdəsinə götürmüşdü.

1982-ci ildə bütün ölkədə mallara tələb ciddi şəkildə azalmışdı. Biznes müflisləşməsi keçən ilə nisbətən 50 faiz artmışdı. Ən çox zərər çəkənlər fermerlər idilər, çünki kənd təsərrüfatı malları ixracı süquta uğrayır, buğdanın qiyməti aşağı düşür və gəlir faizi norması artırdı.

Lakin tələbin azalması neft məhsullarına qiymətin aşağı düşməsi və pula və kreditə Federal Ehtiyatın ciddi nəzarəti ilə birləşərək, ciddi şəkildə artan inflyasiyanın qarşısını almağa kömək etdi. 1983-cü ildə iqtisadiyyat yenidən inkişaf yoluna qədəm qoydu və Birləşmiş Ştatlar II Dünya Müharibəsindən bu tərəfə arasıkəsilməyən iqtisadi inkişafın ən uzun sürən dövrlərindən birinə daxil oldu. 1983-cü ildən 1987-ci ilə qədər illik inflyasiya norması 5 faizdən aşağı olaraq qaldı.

Ciddi problemlər hələ də qalırdı. Fermerlərin problemləri davam edir və onların əzabı 1986-cı və 1988-ci illərdə baş verən ciddi quraqlıq nəticəsində daha da mürəkkəbləşmişdi. Federal defisitlər 1980-ci illərdə çox yüksəyə qalxmışdı. Federal büdcənin defisiti 1980-ci ildə 74 milyard dollardan, 1987-ci ildə 150 milyard dollara düşməzdən əvvəl, 1986-cı ildə 221 milyard dollara qalxmışdı. Birləşmiş Ştatlar ticarət defisiti həmin ildə ən yüksək səviyyəyə qalxaraq, 152 milyard dollar olub. Səhm bazarının müflisləşməsi 1987-ci ilin payızında çoxlarını iqtisadiyyatın sabitləşməsi sualı qarşısında qoymuşdu.

Oslində, Birləşmiş Ştatlar iqtisadiyyatı 1991-ci ildə yavaş-yavaş tələbin azalması bataqlığına yuvarlandı və 1992-ci ildə aram-aram dirçəlməyə başladı. Zəifləyən iqtisadiyyatın və başqa amillərin nəticəsi kimi, federal büdcənin defisiti yenidən qalxmağa başladı. Səhm bazan dirçəlsə də, cürbəcür əmanət müəssisələri, eyni zamanda bir sıra bankların və sığorta şirkətlərinin olmasına baxmayaraq, maliyyə sənayesi problemlər məngənəsində xüsusilə əzab çəkirdi. Maliyyə sənayesi ya tam müflisləşdiyinə, ya da çox çətin bir vəziyyətə düşdüyünə görə, onu bu vəziyyətdən ancaq federal hökumət çıxara bilərdi. 1990-cı illərdə kredit bazarı və başqa problemlər hələ də pis vəziyyətdə qalmaqda davam edirdi. Bunun əksinə olaraq, iqtisadiyyatın kompüterlər, aerokosmos və ixracat sənayesi sektorları kimi, başqa sektorlar ümumiyyətlə sürəkli inkişafdan xəbər verirdi.

19-cu əsrdə taxıl biçini (aşağıda). Fermerlər Sayrus MakKormik 1831-ci ildə taxılbiçən maşını ixtira edənə qədər taxıl biçmək üçün kərəntidən istifadə edirdilər.

Kənd təsərrüfatı ilə məşğulolma Birləşmiş Ştatlarda get-gedə məhsuldar olmuşdur. Bu, texnologiyadan istifadə, növü təkmilləşdirilmiş tarla bitkilərinin inkişafı, kübrələrdən, sudan istifadə texnikası, kənd təsərrüfatı zərərvericilərinə qarşı mübarizə tədbirləri ilə bağlıdır. Növbəti səhifədə: Kaliforniya fermalarından birində traktorun önünə bərkidilmiş Baq Vak adlanan nəhəng bir vakuum çiyələk tarlasında zərərli cücüləri sorur.





, , İQTİSADİ

# YUKSƏ-İŞ

ŞƏKİLLƏR BÖLÜMÜ 3

1990-cı ildə Birləşmiş Ştatlar iqtisadiyyatı genişləndi və onun ümumi milli məhsulu 5 trilyon dollardan artıq oldu. Birləşmiş Ştatlar iqtisadiyyatının yüksəliş tarixi iqtisadi azadlıqdan istifadə edərək yeni-yeni torpaq sahələri axtarıb tapan, yeni bizneslərə başlayan, təbii sərvətləri inkişaf etdirən, yeni-yeni vəsait və proseslər kəşf edərək, onlara kapital qoyan Amerika xalqlarının tarixidir. Bu bölümdə Birləşmiş Ştatlar sənayesinin və kənd təsərrüfatının mənzərəsinin 19-cu əsrdə və 20-ci əsrin əvvəllərini təmsil edən şəkillərlə 20-ci əsrin sonlarını təmsil edən şəkillər qarşılaşdınhr.







Müntəzəm cədvəl əsasında parovozla işləyən ilk qatar xidməti Birləşmiş Ştatlarda 1831-ci ildə Cənubi Karolinada başlayıb. Sonra dəmir yol çəkilişi bütün (yuxarıda) ölkəyə yayılıb. Dünyanın ilk transkontinental dəmir yol xətti Birləşmiş Ştatların bütün bucaqlarını birləşdirib.

Külli miqdarda faydalı qazıntılar, istehsal malları, kimyəvi mallar, taxıl və başqa istehlak malları Birləşmiş Ştatlarda qatarla daşınır. Məsələn, 1989-cu ildə Birləşmiş Ştatların, demək olar ki, 6 milyon vaqonuna ancaq daş kömür yüklənmişdi. Sağda, Virciniyanın Norfolk şəhərində Norfolk Cənub Şirkətinin yükləmə meydançasında vaqonlara daş kömür doldurulmuşdur.


SOUTHERN
N&W



Birləşmiş Ştatlarda balıq təsərrüfatları ildə 180 000 metrik tona yaxın balıq, xərçəng və başqa yeməli su heyvanları istehsal edir. Su təsərrüfatı balıqların, eyni zamanda, okeanda yaşayan başqa heyvan növlərinin artması təhlükəsinin qarşısını alır. Yuxarıda, Havayda xüsusi qablara yığılmış yeməli dəniz ilbizləri Birləşmiş Ştatlar balıq təsərrüfatında yetişdirilən əsas dəniz heyvanıdır.



1900-cü illərin əvvəllərində Nyu-Yorkun Lonq Aylənddində yeməli dəniz ilbizləri təmizləyənlər, solda, dizlərinə qədər çıxan ilbizqulağı içində dayanmışlar.



19-cu əsrin ortalarına yaxın ayrı-ayrı ştatların hökumətləri kanallar çəkmək və qaravulxanalar tikmək üçün pul buraxdılar ki, ölkə daxilində ticarət işini asanlaşdırsınlar. Yuxarıda, 1910-ou ildə at Eri Kanalında şalanda çəkdikdən sonra, Nyu-Yorkun Durhamvil şəhərində sahilə çıxarılır.



1980-ci illərdə ölkədaxili çaylarda, Qreyt Leyksdə, kanallarda və kanalları birləşdirən bəndlərdə hər Il bir milyard tondan çox yük daşınıb. Yuxarıda, *Dallas* adlı yedək gəmisi Ten-Tom Uoteruey su yolunun üç bölməsinin birincisində barjaları daşıyır. 377-kilometrlik Ten-Tom su yolu tam şəkildə 1984-cü ildə istifadəyə verilmişdir. Ten-Tom Birləşmiş Ştatların Cənub-Şərqində Tenessi ilə Tombiqbi çaylarını birləşdirir və barja nəqliyyatına imkan verir ki, Meksiko Körfəzinə qədər birbaşa səfər etsin.





Dəmir qarmaq (yuxanda) Illinoysun Çikaqo şəhərində açıq domna peçində polada bərkidilmişdir. Açıq domna peçində polad istehsalı - belə peçlər bahalı neftdən istifadə edir və geniş miqdarda qaz e'mal edir - 1950-ci ildən bəridir ki, Birləşmiş Ştatlarda tədricən süqut etmədə idi; bu dövrdə Birləşmiş Ştatlar poladtökmə prosesinin açan idi.

1980-ci illər Birləşmiş Ştatlar polad sənayesi üçün çətin olub, çünki xarici rəqabət get-gedə artır və bir çox Birləşmiş Ştatlar zavodları öz fəaliyyətini dayandırmışdı. Çətinlikdən yaxa qurtarıb, işləyən şirkətlər dəyişiklik etmək, fəaliyyətini konkret bir sahəyə yönəltmək və qiymətləri azaltmaq baxımından bazar şəraitinə uyğunlaşırdı. Sağda, Uortinqton Sənayesində ixtisası polad istehsalı olan mütəxəssislər polad parçasını avtomatik şəkildə müxtəlif uzunluqda və endə kəsirlər. Əmək haqqına əlavə olaraq, Uortinqton Sənayesi zavodun əldə etdiyi mənfəəti fəhlələr arasında bölüşdürür.


monarch
Stamco
CAUTION




29



Yuxanda, Miçiqanın Hayland Parkında 1913-cü ildə Ford avtozavodunda dünyanın ilk mütəhərrik quraşdırma konveyerlərindən birində təkərlər ilə maqnetoları birləşdirirlər.

Kompüter və avtomatlaşdırma təyyarə və avtomobil kimi mürəkkəb maşınların quraşdırma konveyer istehsalını sür'ətləndirir. Əvvəlki səhifədə: illinoysun Belvider şəhərində maşın hissələrini quraşdırma zavodunda sənaye robotları Kraysler avtomobil korpuslarını qaynaq edərkən.



Birləşmiş Ştatlarda Yeni İngiltərə (Nyu Inqlənd) toxuculuq sənayesinin ilk mərkəzi olub. 20-ci əsrin əvvəllərində fabrikaların əksəriyyəti pambıqla təchiz olunan yerlərə daha çox yaxınlaşmaq üçün Cənub ştatlarına doğru hərəkət ediblər. Yuxarıda, gənc bir qız 1912-ci ildə Şimali Karolinada toxuculuq fabrikində işlərkən.


-YOU-



Birləşmiş Ştatlar toxuculuq firmaları dünya bazarında rəqabət apara bilmək üçün qiymətləri azaltmalı və keyfiyyətə diqqəti artırmalı oldular. Solda, Cənubi Karolinada Miliken Toxuculuq fabrikində fəhlənin başı üstündəki yazı fəhlələrə xəbərdarlıq edir ki, əgər istehsal olunan paltarda nöqsan tapılsa, hər bir şəxsin istehsalat konveyerini bağlamaq səlahiyyəti var.

Dünyanın daş kömür ehtiyatının dörddə bir hissəsinə yaxını Birləşmiş Ştatlara məxsusdur. Sağda, Uyominqin Cilet şəhərində Kordero Daş Kömür Şaxtasında kran daş kömür qaldırır. Qərbi Birləşmiş Ştatlarda daş kömürün çoxu açıq şaxtada və ya yerüstü şaxtada istehsal edilir.




&H

1895-ci ildə Pensilvaniyada şaxtaçılar (aşağıda) 4,8 kilometr dərinlikdə yerin altında işləyirdilər. Mexanikləşdirməyə qədər şaxtaçılar külüng və beldən istifadə edərək, daş kömürü sındırır və onu daşımaq üçün qatır arabalarına yükləyirdilər.





Yuxanda, Çariz A. Lindberq Spirit of St. Louis-də mühərriki yoxlayır. Lindberq 1927-ci ilin mayında həmin mühərriklə təkbaşına birbaşa ilk transatlantik üçüş keçirmişdir. Lindberq sonraiar dünyanın hava yollarının tədqiqi ilə məşğul



ilk reaktiv ticarət təyyarəsini Birləşmiş Ştatların mühəndisləri quraşdırmışlar. Reaktiv ticarət təyyarələrinin ən yeni nəslindən biri Boinq 767 (yuxarıda) saatda 925 kilometrdən daha sür'ətlə uçur və yerə enmədən 3200 kilometr və ya daha artıq məsafəni qət' edə bilər.





Birləşmiş Ştatlar dünyada ən çox neft istehsal edən və təmizləyən ölkələrdən biridir. Yuxanda, Cənubi Luizianada Oklahomanın Tulza şəhərində yerləşən və dünyanın ən böyük nettçıxarma şirkətlərindən biri olan Loflənd Qardaşları Şirkətinin quraşdırdığı neft mə'dəni vışkası.

19-cu əsrin sonlarında və 20-ci əsrin əvvəllərində Birləşmiş Ştatların başlıca neft e'malı ştatlarına çevrilməsi üçün Kaliforniya və Oklahoma Texasa birləşdi. Sağda, bir saylı Harnel Neft Quyusunda neftqazma vışkasındam fəvvarə vurur. Birləşmiş Neft Şirkətinin qazma briqadası bu quyuya -Neft Yapıncısı» adı vermişdir. Zəmanəsinin ən böyük fəvvarəsi olan «Neft Yapıncısı- heç bir nasosun köməyi olmadan iki ildən artıq müddət ərzində axmaqda davam edir.







AMERİKA İQTİSADİYYATININ
ƏSAS CƏHƏTLƏRİ
DÖRDÜNCÜ HİSSƏ

# V

# KIÇIK BIZNESDƏN KORPORASİYAYA DOĞRU: AMERİKA AZAD MÜƏSSİSƏ SİSTEMİ

Amerika tarixində əsas mövzu hər bir fərdə iqtisadi imkan verilməsinin vacibliyidir. 17-ci və 18-ci əsrlərdə bu, təkbaşına və ya ailə ilə birgə böyük çətinliklərə sinə gərərək, insan ayağı dəyməmiş yerlərdə özünə ağacdan ev quran ilk insanlara xalqın heyran olması şəklində özünü göstərirdi. Hər cür əzab-əziyyətə dözməyi bacaran bir kənd təsərrüfatı vurğununun bütün müsbət keyfiyyətlərini özündə birləşdirən bu ilk insanlar geniş Amerikanın köksündə tapdıqları açıq torpaq sahələrindən zövq alırdılar. Deyilənə görə, Amerikada ilkin məskən salan əfsanəvi qəhrəman kimi Daniel Buun təsdiq edirmiş ki, qonşunun buxarısından tüstü çıxdığını görən kimi o. Qərbə doğru hərəkət etmək vaxtının artıq çatdığını güman edirmiş.

19-cu və 20-ci əsrlər Amerikasında iqtisadiyyatla fərdi məşğul olmaq tərəfdarlan təsərrüfatla məşğul olmaq üçün kənd həyatını seçdilər. Şəhər sakini kimi, o, kiçik tacir, müstəqil sənətkar və ya özünə inamı olan bir mütəxəssis kimi görünürdü.

Bəs Birləşmiş Ştatlarda müstəqil biznesin formalaşması olan sahibkarlıq nə deməkdir?

Amerikaya gələn ilk məskunlar «hər bir şəxs sahibkardır» anlayışı və yaxud hər kəsin öz əlinin əməyindən istifadə hüququ var fikri əsasında tərbiyələnmişdilər. Amerikaya ilk gələnlər öz torpaqlarını həyətyanı təsərrüfat sahəsinə çevirə bilər, «torpağa sahib olmaq üçün həmin torpaq sahəsində məskunlaşma hüquqlarına)) əsaslanaraq, torpağı, sadəcə olaraq, ələ keçirə bilər və yaxud uzun illər ərzində ödəmək şərti ilə onu pulla satın ala bilərdi. «Bizneslə məşğul olmaq arzusu)> xalq kənd yerlərindən şəhərlərə köçdükcə və kənd təsərrüfatı məşğuliyyətini başqa növ məşğuliyyətlərə dəyişdikcə inkişaf edirdi.

Adamların çoxu üçün sahibkarlıq yada gətirir ki, 19-cu və 20-ci əsr amerikalıları «mağaza sahibi olmaq)), «çilingər olmaq)) və ya «həkimlik praktikası ilə məşğul olmaq)) kimi məsələlərə böyük əhəmiyyət verirdilər. Qapı-qapı gəzən satıcıların sonralar

uğurlu tacirlər olmaları haqqında nağıllar Amerika ailələrinin çoxu üçün adi haldır.

Xaricdən səfərə gələnlərin çoxları təəccüblə müəyyən edirlər ki, Birləşmiş Ştatlar iqtisadiyyatı əsla heç də nəhəng korporasiyaların hakimiyyəti altında qalan sahə deyil. Daxili Gəlir Xidməti, federal Xəzinə Departamentinin vergitoplama agentliyi mə'lumat vermişdir ki, 1989-cu ildə Birləşmiş Ştatlarda fermalara daxil olmayan 13,5 milyon fərdi mülkiyyət, 1,8 şərikli mülkiyyət və 4,2 milyon korporasiya mövcud olmuşdur - ümumiyyətlə, hamısı birlikdə 19,5 milyon firma fəaliyyət göstərmişdir. Bunların böyük əksəriyyəti kiçik olmuş, illik biznes gəliri 100 000 dollardan az məbləği təşkil etmişdir.

Kiçik və orta bizneslərin müəyyən edilməsinin müxtəlif yollan var, lakin Birləşmiş Ştatlar Kiçik Biznes Administrasiyasının (SBA) təsdiq etdiyinə görə, əgər kiçik biznes 500 nəfərdən az adamın işlədiyi sahə hesab olunursa, onda, kobud şəkildə desək. Birləşmiş Ştatlarda kiçik bizneslərdə də çalışanların sayı iri biznesdə çalışanların sayı qədərdir. (Əgər kiçik biznes daha dar çərçivədə müəyyənləşdirilirsə, yə'ni kiçik biznesdə işləyənlərin sayı 100-dən aşağı olursa, onda bütün fəhlələrin 36 faizi kiçik biznesdə çalışır.) Bundan əlavə, (500 nəfərdən az işçisi olan) bütün yeni işlərin 60 faizini əhatə edən kiçik bizneslər Kiçik Biznes Administrasiyasının təsdiq etdiyinə görə, 1976-cı və 1988-ci illər arasında yaradılmışdır. 1980-ci illərdə Birləşmiş Ştatlarda 7 milyon yeni biznes şəbəkəsi inkişaf edib, onlardan yansı fərdi biznesdir. Fərdi bizneslər onunla şöhrət qazanmışlar ki, tələb olunan dəyişikliklərə onların tə'xirəsalmmaz şəkildə reaksiya vermək imkanları var: məsələn, Kiçik Biznes Administrasiyası qeyd edir ki, fərdi bizneslə iş gününün ancaq bir hissəsində məşğul olanlar 1970-ci illərdə «raket kimi gözdən itdilər.» Bunun da səbəblərindən biri enerji böhranı nəticəsi idi. Bu böhran bir çox amerikalım məcbur etdi ki, kənd yerlərində ağacları kəsib odun doğramaq və şəhərdə onları yandırıb qızışmaq üçün satmaq kimi əlavə işlə məşğul olsun.

Son illərin nəzərə çarpan istiqamətlərindən biri də kiçik biznes fəaliyyətində qadınların sayının artmasıdır. Kiçik Biznes Administrasiyasının hesablamalanna görə, fərdi mülkiyyətlə məşğul olan qadınların sayı 1977-87-ci illər ərzində iki dəfədən də çox artmış və 1,9 milyondan 4,4 milyona çatmışdır

FƏRDİ izneslərin çoxu fərdi mülkiyyətdir, ayrıca bir şəxsə mənsub MÜLKİYYƏTÇİ Jj pjgjj yg gjjyjj jjjgj-g gt(jiyi fıımalardır. Hər hansı bir şəxs müstəqil biznes açmağı qərara alırsa, onda həmin şəxsin özü biznesin uğurları və uğursuzluqları üçün tam məs'uliyyət daşıyır. Hər bir mənfəət şəxsən onun özünə çatdığı kimi, hər bir zərərin də məs'uliyyəti onun boynuna düşür. Əgər biznesdən gələn zərər biznesə qoyulan kapitaldan artıq olarsa, biznesin sahibi olan şəxs, hətta zərər həmin şəxsin bütün var-dövlətinə bərabər olsa belə, zərərin hamısını ödəməlidir.

Fərdi mülkiyyətin üstün cəhətlərindən biri odur ki, mülkiyyət sahibi başqaları ilə məsləhətləşmədən tez və qəti qərarlar qəbul edə bilər. Fərdi mülkiyyətçi qanun üzrə az vergi verir və korporasiyanın verdiyindən daha aşağı faizlə verir. Biznesin hər cür mal və avadanlığı sonradan biznesi idarə edəcək başqa şəxsin də ixtiyanna keçə bilər, lakin hüquqi baxımdan biznes onun sahibi ilə birgə ölür. Eyni zamanda, biznes pul məbləğindən asılı olduğu üçün, onun sahibinin qənaət edib saxladığı və ya borc aldığı pul, bir qayda olaraq, biznesi irimiqyaslı müəssisəyə doğru inkişaf etdirmir.

Məhdudiyyətlərinə baxmayaraq, fərdi mülkiyyətçilik biznesin bir sıra növlərinə yaxşı uyğunlaşır və təşəbbüs göstərmək cəhdlərini sınaqdan keçirərək, özü öz başının ağası olmaq istəyən bə'zi şəxslərin temperamenti ilə həmahəng olur. Kiçik biznesin bir neçə iqtisadi müddəaları aşağıdakılardan ibarətdir:

- Kiçik biznes bir çox hallarda yeni məhsulun və ya xidmətin inkişafı üçün başlanğıc nöqtəsi olur. Bir şəxs hansı bir ideyanısa sınaqdan keçirir. Əgər bu uğurlu olursa, biznes inkişaf edir və yaxud məhsulu daha böyük firma alır.
- Kiçik biznes hər hansı bir şəxsə təcrübə qazanmaq imkanı verə bilər ki, sonra həmin şəxs qazandığı təcrübədən daha geniş miqyasda faydalana bilsin.
- Kiçik bizneslər xüsusi yerli ehtiyaclan ödəmək üçün daha münasibdir.
- Sənət və peşə sahibləri kütləvi buraxılan mallardan cana gəlmiş istehlakçılar üçün fərdi şəkildə istehsal olunan məhsul buraxa bilərlər.
- Kiçik biznes müştərini tanımaq vacib olduğu hallarda xidmət göstərir.
- Fərdi mülkiyyətçilər müştəriləri əmin edirlər ki, onlara işləyən şəxs məs'uliyyət daşıdığı üçün, gördüyü iş keyfiyyətli olacaq.

Kiçik bizneslər bir çox hallarda böyüyərək ölkənin iqtisadi həyat tərzinin yaxşılaşmasına xidmət edir. Kiçik biznes tərəfdarları təsdiq edirlər ki, Amerika texniki yeniliklərinin 55 faizi kiçik- və ortahəcmli bizneslərdən gəlir. Əlbəttə, yaradıcı yenilikçilərin əksəriyyəti Amerika kompüter sənayesində. Kaliforniyadakı indi Silikon Vəli kimi məşhur olan uğurlu şirkətlər də daxil olmaqla, öz şəxsi qarajlannda əldəqayırma maşınlan «quraşdıranlan> kimi işə başlamışlar. Beləəri Amerika biznes tə’liminin bir hissəsinə çevrilmişlər. Hansı ölçü ilə götürülürsə-götürülsün kiçik bizneslər Amerika iqtisadiyyatına yeni güc verən mayanın, yaradıcılığın və rəqabətin bir hissəsidir.

Əlbəttə, kiçik bizneslərin tez-tez uğursuzluğa düçar olduğu doğrudur. Lakin Birləşmiş Ştatlarda kiçik biznes müəssisəsinin «uğursuzluğu» bir sıra ölkələrdə olduğu kimi, uğursuzluğa düçar olmuş biznes sahibi üçün özü ilə biabırçılıq və ya məzəmmət gətirmir. Kiçik biznes müəssisəsinin uğursuzluğu bə’zi hallarda sahibkann təcrübə qazanması sahəsində çox faydalı olur ki, sahibkar ikinci və üçüncü dəfə daha uğurlu ola bilər. Biznesə başlamaq üçün uğursuz cəhdlər, kiçik biznes mütəxəssislərinin fikrinə görə, bazarı klassifikasiya etmək və onu daha tə’sirli etmək kimi daha böyük bir prosesin tərkib hissəsinə çevrilə bilər.

BİZNES TV Mülkiyyətçi biznesini genişləndirmək istədikdə, bunun bir yolu şoRiKLiYi IVXşərikli biznes yaratmaqdır - bu, iki və daha artıq şərik şəxsin mənfəət üçün biznes yaratması deməkdir. Şəriklərin hüquq və vəzifələri biznesin yaradıldığı ştatın qanunları ilə və şəriklərin qanuni razılıq müqavilələri ilə tənzimlənir. Bir qayda olaraq, müqavilə hər bir şərikin qoyduğu kapitalın məbləğini müəyyənləşdirir və şəriklərdən hər birinin öhdəsinə götürdüyü vəzifələri aydınlaşdırır. Şəriklik müqaviləsi eyni zamanda «susan şəriki» də nəzərdə tuta bilər; belə şərik idarəetmə prosesində iştirak etmir, lakin biznesə ancaq pul qoyur.

Şəriklik idarəetmə iste’dadmm yaranmasının rəhnidir. Şəriklərdən biri ərzaqla tə’minetmə sahəsində, digəri marketinqdə ixtisaslaşa bilər. Şəriklik də fərdi mülkiyyətçilik kimi, hökumətin korporasiyalardan tələb etdiyi hesabatların çoxundan azaddır. Bundan əlavə, o, korporasiya ilə müqayisədə vergi ödəmək məsələsində daha yaxşı vəziyyətdədir. Şəriklər federal vergiləri

əldə etdikləri qazanca müvafiq olaraq ödəyirlər, biznesə bundan başqa vergi qoyulmur.

Şərikliyin əsas xoşagəlməyən bir cəhəti odur ki, hər bir üzv şərikliyin bütün vəzifələrinə görə məs’uliyyət daşıyır; bu elə bir aktdır ki, hər bir şəriki hüquqi cəhətdən başqası ilə bağlayır. Əgər şəriklərdən biri biznesdən böyük məbləğdə pul götürür və onu xərcləyirsə, borcu başqaları ödəməlidirlər. Şərikliyin başqa bir xoşagəlməz əsas cəhəti də var: qərarçıxarma prosesində hamı iştirak edir. Əgər şəriklər arasında daimi və ciddi narazılıq olursa, biznes bundan zərər çəkir.

Bütün bunlara baxmayaraq, şəriklik ümumi biznes iqtisadiyyatının həyati hissəsi olaraq qalır. Daxili Gəlir Xidməti öz hesabatında göstərirdi ki, 1970-ci və 1982-ci illər arasında təqribən korporasiyaların yarısı qədər biznes şərikliyi mövcud idi.

### KİÇİK BİZNES

içik biznesin təhlili ilə məşğul olanlar e’tiraf edirlər ki, bu J\^biznes formasının icra edilməsinə bir neçə iqtisadi amil maneçilik törədir. Bu amillərin qarşısını almaq üçün qanunvericilik müstəqil federal agentlik kimi Kiçik Biznes Administrasiyasını yaratdı. Vaşinqtonda və bütün ölkə boyu bölgə idarələri mütəxəssislər hazırladılar ki, kiçik biznes yaratmaq arzusunda olanlara yaxud belə biznesləri artıq idarə edənlərə peşəkar ekspertiza və maddi yardım tə’min etsinlər.

Nəzərdə tutulan simvolik bir ildə Kiçik Biznes Administrasiyası zəmanət verir ki, kiçik bizneslərə 3,5 milyard dollara yaxın bank borcu veriləcək. Bu borclar, adətən, avadanlıq, mal və lazımi maşınlar almaq üçündür.

Kiçik Biznes Administrasiyasının ən nadir cəhəti yeni və ya büdrəyən bizneslərə onun idarəetmə yardımıdır. BORC proqramında təqaüdə getmiş uğurlu sahibkarlar başqalarına kömək proqramı təklif edirlər.

Kiçik Biznes Administrasiyası ştat agentlikləri və universitetlərlə birgə işləyərək, eyni zamanda, 700-ə yaxın Kiçik Biznes İnkişafı Mərkəzinə də rəhbərlik edir ki, bunlar da yeni və artıq fəaliyyət göstərən kiçik bizneslərə texniki və idarəetmə yardımı tə’min edirlər.

Kiçik Biznes Administrasiyası ciddi şəkildə cəhd edir ki, əqəliyyətdə qalan xalqlara, xüsusən Afrikadan, Asiyadan,

İspaniyadan olan amerikalılara yardım fondları proqramlaşdırsınlar. Agentlik eyni zamanda ixracat potensialı olan kiçik bizneslər üçün beynəlxalq marketlər və müştərək müəssisə imkanları müəyyənləşdirməkdən ötrü ciddi proqramlar da hazırlayır.

Bundan əlavə, Kiçik Biznes Administrasiyası özünün fəlakətdən xilasetmə proqramı ilə məşhurdur. Fəaliyyətə başladığı gündən bəri Kiçik Biznes Administrasiyası daşqından, tufandan, fırtınadan və başqa təbii fəlakətlərdən fiziki zərər çəkən ev sahiblərinə və biznes firmalarına yardım təklif etmişlər.

FRONÇAYZİNQ VO DÜKANLAR ŞƏBƏKƏSİ

Kiçik biznesə asanlıqla tətbiq olunan bir iş təcrübəsi kimi, frənçayzinq son illərdə güclü inkişaf etmişdir. Restoran biznesində ümumi iş təcrübəsi kimi frənçayzinq böyük korporasiyanın iqtisadi effektliliyini yeni mülkiyyət mənfəətləri ilə birləşdirir. Bu işdə böyük şirkət sahibkarların fərdi və ya kiçik bir qrupuna onun adından istifadə etməyə (əksər hallarda xüsusi reklam naminə) və bə'zi hallarda alınan gəlirin bir neçə faizini özlərinə götürmək şərti ilə onun məhsulunun satışına icazə verir. Adətən, aparıcı şirkətin işçisi olmayan sahibkar nisbətən böyük şəbəkənin bir və ya bir neçə vahidini işlətməyə və onları idarə etməyə görə məs'uliyyət daşıyır. Fərdi sahib və ya sahiblər müəssisə ilə bağlı baş verə biləcək halların böyük əksəriyyətini də öz üzərlərinə götürməlidirlər.

Frənçayzinqin iqtisadiyyat üçün həm dəyəri, həm də mənfəəti var. Dükan şəbəkəsinin artımı fərdi və müştərək mülkiyyətin inkişafına mane olmuşdur. Dükanlar şəbəkəsi kütləvi üsuldan istifadə edir - çox böyük miqdarda alır, yüksək həcmdə satır, özünəxidmətə əsaslanır - bu da imkan verir ki, dükanlar şəbəkəsində mallar kiçik xüsusi mülkiyyət dükanlarında olduğundan daha ucuz satılsın. Şəbəkə supermarketləri müştəriləri cəlb etmək üçün daha aşağı qiymətə satmaq yolundan istifadə edərək, çoxlu kiçik baqqaliyyə dükanları açmağa nail olublar.

Buna baxmayaraq, bir çox müstəqil bizneslər fəaliyyət göstərməkdə davam edir. Bə'zi fərdi mülkiyyətçilər öz qüvvələrini başqalan ilə birləşdirirlər ki, müstəqil və ya müştərək bizneslərin şəbəkələrini yaratsınlar. Onlar öz alıcılıq güclərini birləşdirirlər və ya müstəqil frənçayzlar yaradırlar, həm də əksər hallarda onlar xüsusiləşdirilmiş və ya «sığmacaq» bazarlarına xidmət edirlər.

IRI KORPORASİYALAR

Bir çox kiçik- və irimiqyaslı korporasiyalar olduğuna baxmayaraq, geniş Amerika iqtisadiyyatında müəyyən xidmətləri nümayiş etdirmək üçün daha böyük biznes vahidlərinə ehtiyac var. Kiçik bizneslərdən fərqli olaraq, iri korporasiyalar daha geniş ərazidə daha çox adamı istehlak malı və xidmətlə tə'min edir, iri korporasiyalar bütün ölkədə və bütün dünyada alıcılara xidmət edir. Korporasiyanın məhsulları bol olduğu üçün onların qiyməti nisbətən aşağı olur, hər satılan vahid üçün də qiymət yüksək olmur. Bundan əlavə, korporasiyaların «yüksək keyfiyyət nişanı olan» müxtəlif adlarda müştərilərə təklif etdikləri mallar almaq imkanından gələn mənfəət, malı haradan almaqlarından asılı olmayaraq, müştərilərin e'tirafına görə müəyyən keyfiyyət səviyyəsi tə'min etməyə zəmanət verir.

İri korporasiyaların da yeni mallar axtarıb tapmaq, onları inkişaf etdirmək və istehsal etmək üçün maliyyə gücləri var. Onların elmi səriştələri, gətirdikləri yeniliklər və texniki iste'dadları ölkədə rəqabətin və məhsuldarlığın inkişafı üçün vacib şərtdir.

Birləşmiş Ştatlarda korporasiya adamların və istehsal mənbələrinin təşkilatının özünəməxsus hüquqi formasıdır. Bu təşkilata 50 ştatdan biri bizneslə məşğul olmaq imtiyazı verir. Adamlar və istehsal mənbələri korporasiya təşkil etmək üçün birləşdirildikdən sonra, qanunun nəzərində yenə insan olur. (Əlbəttə, korporasiya latın sözü corpus ilə bağlıdır ki, bu da «bədən» və ya «şəxs» deməkdir.) Hər bir fərdi insan övladından fərqli olaraq. Birləşmiş Ştatlar korporasiyasının öz xüsusi mülkiyyəti ola bilər, məhkəmədə kimə qarşısa cinayət məs'uliyyəti qaldıra bilər və ya onun özünün əleyhinə məsələ qaldıra bilərlər. O, müqavilələr də bağlaya bilər. Bu səbəbə görə, korporasiya həm nisbətən kiçik, həm də nisbətən böyük müəssisələrlə biznes aparmaq üçün ən ideal vasitədir.

500-ə yaxın korporasiya bir sıra məsələlərdə tənəzzülə uğrasa da, Amerika biznesində vacib rol oynayır. 1978-ci ildən 1990-cı ilə qədər bu 500 şirkətin birgə əldə etdiyi mənfəət 61,5 milyard dollardan 93,3 milyard dollara qədər artmışdır, pul aktivi isə 898,5 milyard dollardan 2 trilyon 298,6 milyard dollara qədər artmışdır. 1990-cı ildə bu şirkətlərdə 12,4 miyona yaxın adam işləyirdi ki, bu da 1986-cı ildə çalışanların sayından 1 milyon azdır.

KORPORASİYALAR KAPİTALI NECƏ ARTIRIR

Iri korporasiya indiki səviyyəsinə bir də ona görə çatıb ki, daha artıq genişlənmək üçün yeni kapitalı artırmağa yeni-yeni yollar tapıb. Yeni kapitalı artırmaq üçün korporasiyaların istifadə etdikləri beş əsas metod aşağıdakılardır:

• İSTİQRAZLAR BURAXİLMASI. İstiqrazlar borc alman bonun üstündən müəyyən vaxt keçdikdən sonra xüsusi məbləğdə pulun müəyyən edilmiş konkret tarixdə və ya vaxtaşırı ödəniləcəyi haqqında verilmiş yazılı və’ddir. Bu müddət ərzində veriləcək istiqrazın faizinin ödənilməsi konkret müddətdə müəyyən edilir. Əgər istiqraz verən şəxs pulunu müəyyən edilmiş vaxtdan əwəl geri almaq istəyirsə, istiqraz başqa bir adama da satıla bilər. İstiqraz «son həddə» çatdıqda, şirkət və’d edir ki, bütün borc məbləğini faizi ilə ödəsin.

İstiqrazlar şirkətlər üçün faydalıdır, çünki faiz norması borclann bütün başqa növlərinin əksərindən aşağıdır. Eyni zamanda istiqrazlar üçün verilən faizlər korporasiya üçün biznes xərcindən çıxılan vergidir. Zərərli cəhət budur ki, faiz normasının istiqraza görə ödənilməsi heç bir mənfəət alınmasa belə məcburidir. Bu səbəbə görə, nisbətən kiçik korporasiya istiqraz verməklə çox nadir hallarda kapitalını çox artıra bilər.

• ÜMUMİ SƏHMİN SATILMASI. İstiqraz sahibləri şirkətə borc pul verirlər, lakin onların şirkətin işlərinə qanşmaq haqqı yoxdur, onlar şirkətin mənfəət və zərərlərinə də şərik deyillər. Ümumi səhm alan və «ədalət» investorları adlananlar haqqında bunların əksi tam doğrudur. Onlar korporasiyada paylara şərik çıxırlar və onların müəyyən hüquqi haqları var, əksər hallarda onların hətta şirkəti idarə edən direktorlara səs vermək haqları da var. Lakin nə qədər ki, vaxtı keçmiş istiqrazların faizi ödənilməyib, onlar heç bir dividend almırlar.

Əgər şirkətin maliyyə vəziyyəti yaxşıdırsa və onun kifayət qədər nağd pulu varsa, onda həmin şirkət ümumi səhmin əlavə bölünməsi haqqında səsvermə yolu ilə kapital yarada bilər. İri şirkətlər üçün investisiya bankirləri dəqiq müəyyən edilmiş qiymətə yeni səhm emissiyası almağa zəmanət verirlər. Əgər bazar emissiyanı minimum qiymətə almaqdan imtina edirsə, bankir onları alır və zərəri ödəyir. Kəsilən kağız pul kimi, həddən artıq səhm buraxmaq da hər bir payın əsas qiymətini azaldır.

• TƏRCİH EDİLƏN SƏHMİN BURAXILMASI. Bu səhm «tərcih edilən» dividendi ödəyir. Yə’ni, əgər mənfəət məhdud-

dursa, tərcih edilən səhmin sahiblərinə dividendlər ümumi səhmi olanlardan əwəl ödənilir. Qanuna əsasən, bu səhmin sahibləri ödənilmək üçün növbədə istiqraz alanlardan sonra dururlar. Əlavə kapital arzu edildiyi halda hər hansı bir şirkət yeni səhm buraxa bilər.

• BORCALMA. Şirkətlər eyni zamanda satılacaq mallan maliyyələşdirmək üçün, adətən, dövriyyədə olan kapitalı da qısamüddətli kapital kimi artıra bilərlər. Bu artım müxtəlif yollarla baş verir: borc verən müəssisələrdən, ilk növbədə, banklardan, tə'minat şirkətlərindən və əmanət-borc idarələrindən borcalma yolu ilə. Borc alan borc verənə rəqabətdə olan bazar qüvvələrinin müəyyən etdiyi məbləğdə borc faizi ödəməlidir. Borc verənin müəyyən etdiyi faizə borc üçün nəzərdə tutulmuş bütöv pul məbləği fondu da tə'sir edə bilər. Əgər pul azdırsa, pul faizi yüksəlməyə meyl edir, çünki borc axtaranlar arasında fondlar üçün rəqabət başlayacaqdır. Əgər borc üçün axtarılan pulun məbləği çox olsa, onda borc faizi aşağı düşməyə meyl edəcəkdir.

Əgər korporasiya borc götürəni korporasiyanın əlavə pul borc götürməsini müəyyənləşdirirsə, onda o, mövcud olan borcu yenidən maliyyələşdirə bilər. Belə halda borc verən, əslinə baxsan, ona borcu olana daha çox pul borc verir. Lakin əgər ilkin borc alındığı dövrdən sonra borc faizi artıbsa, onda əlavə fondları əldə saxlamaq naminə, borclu olan daha yüksək borc faizi verir. Hətta faizlər aşağı düşmüş olsa belə, borc verən nisbətən aşağı faizlə verdiyi öz ilkin borcunun faizini artırmaq yolu ilə mənfəət əldə edir.

• MƏNFƏƏTDƏN İSTİFADƏ. Bə'zi korporasiyalar mənfəətlərinin əksəriyyətini dividendlər şəklində aksionerlərə verirlər, investorlar pul verərək, bu kompaniyaya daxil olurlar, çünki onlar müntəzəm əsasda yüksək gəlir əldə etmək istəyirlər. Amma, adətən, «yüksəliş kompaniyaları)) adlandırılan bə'zi başqa korporasiyalar öz mənfəətlərinin çoxunu özlərinə götürməyi və yenidən axtarış və genişləndirmək üçün kapital qoymağı üstün tuturlar. Əgər sür'ətli yüksəliş nəticəsində payların qiyməti artarsa, belə aksiyaların sahibi olan adamlar məmnuniyyət hissi ilə daha kiçik dividend almağa və ya heç almamağa razı olurlar. Belə adamlar «kapital artımı)) əldə etmək və ya aksiyanın qiymətinin yüksəlməsi üçün risk edir və bunu sabit dividendə əmin olmaqdan üstün tuturlar.

Tipik korporasiya genişlənmək üçün pulu artırmağın bu üsulları arasında müvazinət saxlayır və tez-tez qazanclarının yarısını

biznesə sərf edir, ikinci yarısını isə dividendləri ödəməyə verir. Dividendlərin bə'ziləri ödənmədikcə, investorların kompaniyaya marağı heç ola bilər.

KORPORASİYALARIN MÜSBƏT VƏ MƏNFİ CƏHƏTLƏRİ

Biznesin korporasiya forması fərdi mülkiyyət və şəriklik forması ilə müqayisədə irimiqyaslı iqtisadi fəaliyyət üçün daha çevik alətdir.

Birincisi, ona görə ki, korporasiyanın özünün qanuni yeri var, o öz sahiblərinin keşiyində durur və onlar biznes agentləri kimi hərəkət edərkən, korporasiya onları qanun əsasında fərdi məs'uliyyətdən azad edir.

İkincisi, aksiya payçıları sahiblərinin məs'uliyyəti məhduddur; onlar korporasiya borcları üçün məs'uliyyət daşımırlar. Əgər payçı 10 pay aksiya üçün 100 dollar ödəyirsə, korporasiya isə müflisləşməyə uğrayırsa, onda payçı ancaq investisiya etdiyi 100 dolları itirə bilər.

Üçüncüsü, korporasiya aksiyası əvəz oluna bilər. Buna görə də konkret bir şəxsin ölümü və ya marağının sönməsi ilə bağlı korporasiyaya heç bir zərər dəymir. Aksiya sahibi istədiyi zaman öz aksiyasını sata bilər və yaxud öz varislərinə verə bilər.

Lakin korporasiya biznes təşkilatının zərərli və faydalı cəhətləri də vardır.

Mənfi cəhətlərdən biri vergi qoyulması ilə bağlıdır. Ayrıca qanuni gerçəklik kimi, korporasiya vergilər ödəməlidir. Borc iltizamnamələrindən gələn faizlərin işlənməsindən fərqli olaraq, payçılara verilən dividendlər korporasiya üçün biznes xərclərindən çıxılan vergi deyil. Korporasiya mənfəətləri dividend formasında ayrı-ayrı fərdlərə verilirsə, həmin fərdlərdən dividendlərə görə yenə vergi alınır. Bu, «ikiqat vergiqoyma» kimi tanınır.

Başqa bir qiymət o faktla nəticələnir ki, mülkiyyət hüququ idarəetmədən ayrılır. Bu, idarəetməni asanlaşdırsa da, bə'zi menecerlər öz şəxsi mənafeləri üçün aksionerlərdən daha artıq hərəkət etməyə meyl edirlər.

MÜLKİYYƏTİN VƏ NƏZARƏTİN AYRİL.MASI

Bəlkə də iri korporasiyanın nəzərə ən çox çarpan cəhəti onda çoxlu səhmdarların (əslində, mülkiyyətçilərin) olmasıdır. Böyük bir kompaniyanın sahibi milyon və ya daha artıq adam ola

bilər, onlardan çoxunun payı (səhmi) 100-dən az olur. Tipik şəkildə, korporasiyanın müdirləri və menecerləri ümumi səhmin 5 faizindən az hissəsinə malik olurlar. Səhmin bir neçə hissəsinə fərdlər, banklar və yaxud təqaüd fondları sahib olur, lakin bu səhmdarlar, adətən, tam gəlirin ancaq bir hissəsinə aid edilirlər. 1980-ci illərin ortalarında Birləşmiş Ştatlarda 40 milyondan artıq şəxs ümumi səhm sahibi idi.

Bütün ölkənin hər bir hissəsində səhmdarlar yaşadıqları halda onlar öz biznesləri haqqında hər şeyi tam təfərrüatı ilə bilə bilməzlər ki, onu müdrikliklə idarə etsinlər. Belə halda nüfuzlu müstəqim nəzarət korporasiya direktorları şurasının əlində olur.

Siyasətlə məşğul olmaqdan başqa şura idarə nəzarətini Baş İcra Mə’murunun (CEO) ixtiyarına verir. Sədr və ya prezident olan bu şəxs adətən prezident müavinlərinə nəzarət edir. Prezident müavinləri korporasiyanın müxtəlif sahələrini idarə edir və bu haqda Baş İcra Mə’muruna hesabat verirlər. Şuranın sədri əksər hallarda təcrübəli icraçı olur və şuranın icra komitəsi ilə birgə prezidentə və prezident müavinlərinə məsləhətlər verir və bu və ya digər məsələni təqdir edib-etmədiyini söyləyir. Baş İcra Mə’muru direktorlar şurasının inamını əldə saxladıqca, ona kompaniyanı idarə etmək işində böyük azadlıq verilir.

Direktorlar şurasının quruluşu və rolu kompaniyadan kompaniyaya dəyişir. Say artdıqca, şura üzvlərinin ancaq az bir hissəsi korporasiyanın daxili mə’murları olur. Direktorların bə’ziləri şuranın nüfuzu üçün seçilir, başqaları isə müəyyən bacarıq və qabiliyyət tə’min etmək və ya borcu öz üzərinə götürən müəssisələri təmsil etmək üçün seçilirlər.

Şura ayda və ya rübdə bir dəfə görüşür, idarəetmə qərarları ilə bağlı siyasəti müzakirə edir və icra haqqında hesabat verir. İllik iclaslarda ehtiyac olduqda yeni direktorlar əlavə edilir və əsas siyasət qərarları verilir.

Son illərə qədər adamların ancaq az bir hissəsi normal şəkildə illik korporasiya iclaslarında iştirak edirdi. Onlar direktorların seçkisində və müəyyən yüksək dərəcədə vacib olan məsələlərdə «e’tibarnamə əsasmda» başqalarının əvəzinə də səs verirdilər. Bu o deməkdir ki, bülleten formasım doldurub poçtla göndərirdilər. İndi, bir neçə yüz nəfərin iştirak etməsi qeyri-adi hal deyil. Bir çox hallarda onlar idarə edənlərdən çox maraqlı suallar soruşurlar. Son illərdə Əmanət və Mübadilə Komissiyası (SEC) qayda çıxardı ki.

hər bir korporasiya illik iclasın yazılı qeydlərini hər bir səhmdara göndərməlidir. Eyni zamanda administrasiyaya seçilən qruplara icazə verilməlidir ki, səhmdarlara təyyarə ilə siyahı göndərsinlər və beləliklə onların dünyagörüşünü hərtərəfli təmsil edə bilsinlər.

Birgə hərəkət etmək yolu ilə fərdi və müəssisə səhmdarları korporasiya administrasiyası üzərində böyük nüfuza malik ola bilərlər. Bu yolla onlar öz aksiyalannı satmaq və ya almaqla aksiyanın qiymətini aşağı da sala bilərlər, yuxarı da qaldıra bilərlər. Bə’zi hallarda onlarla eyni cəbhədə olmayanlara arxa çevirərək, administrasiyanın tərkibinin dəyişdirilməsinə təzyiq də göstərə bilərlər.

MONOPOLIYA TƏHLÜKOSİ

1 Q əsrin sonlarında çoxları korporasiyanı monopo-
J- 2/ “Lz U-liyanm əsas aləti hesab edirdilər. Ümumi şəkildə təsdiq olunurdu ki, kapitalın ciddi artımı ilə bağlı olaraq, korporasiyalar rəqiblərlə birləşərək və ya qiymətlərə nəzarət etmək üçün onlarla gizlicə danışıqlar aparmaq yolu ilə əsil rəqabətə əngəl törədərlər.

Nəzəri cəhətdən monopoliya o zaman mövcud olur ki, bir firma istehlak mallarının bütün istehsalına və satışına nəzarət edir. Buna baxmayaraq, təcrübədə tez-tez ümumi satışın xüsusi faizinə (əksər hallarda 33 faiz) nəzarət etməkdən istifadə edilir ki, monopoliyanın tə’yini də buna əsaslanır.

Həm nəzəriyyədə, həm də təcrübədə iri kompaniyalar açıq bazarda aksiya satmaq yolu ilə kiçik kompaniyaları özlərinə tabe edərək, monopoliyalara çevrilə bilər. Belə olduqda, nəhəng kompaniyalar qiymətləri qaldırırlar və ərzağa ehtiyacı olan adamları məcbur edirlər ki, ərzaq almaq üçün onlar əvvəllər xərclədikləri puldan daha artıq məbləğdə pul xərcləsinlər.

Birləşmiş Ştatlar kompaniyaları get-gedə böyüyür - bir milyard dollardan artıq gəliri olan cari korporasiya nəhəngləri 19-cu əsrin sonlarında yaranmış nəhənglərin inkişafını dayandırır, lakin bu heç də monopoliya şəraitinin artırılması demək deyil.

Əmin olmaq üçün onu demək lazımdır ki, son 100 ildə bir çox adamlar daxili rəqabətin zəifləməsi və əsas sənaye sahələrini bə’zi iri korporasiyaların öz nəzarəti altına alması kimi qiymətləndirilən məsələlərə görə narahatdırlar. Bir çox əsas sənaye sahələri, məsələn, avtomatika və polad istehsalı sənayesi ən’ənəvi şəkildə bir

neçə əsas korporasiyanın ixtiyarında olan «oliqopolilər» olmuşdur (oliqopoli siyasi iqtisadiyyat termini kimi, çox az sayda istehsalçıların, satıcıların və ya səhmdarların nəzarəti altında olan bazann vəziyyəti deməkdir).

Eyni zamanda, son illərdə bir çox iri Birləşmiş Ştatlar korporasiyalarının rəqabətin yeni formalarına münasibətdə zəif olduğu da göstərilmişdir. Birləşmiş Ştatlar istehlakçılan malı xarici istehsalçıdan ala bilər: avtomobildən söhbət gedirsə, onlar Hondanın, Toyotanm, Hyundayın və ya Volvonun istehsal etdiyi malları ala bilərlər. Bir çox hallarda, alıcılar və ya istehsalçılar lazımi malları əvəz edən başqa mallara da diqqət yönəldə bilərlər; məsələn, onlar polad əvəzinə alümindən, şüşədən, plastikdən və ya betondan istifadə edə bilərlər. Daha yeni sənaye sahələrində, məsələn, kompüter sənayesində kiçik kompaniyalar sübut etmişlər ki, onlar yeni texnologiyanın tətbiqində nəhəng korporasiyalardan daha çevik olurlar.

Bə’zi adamlar mübahisə edirlər ki, iqtisadi gücün mərkəzləşdirilməsi təhlükəlidir, çünki bu ona gətirib çıxara bilər ki, menecerlər şəxsi və ya korporasiya mənafeyini xalqın rifah halının yaxşılaşdırılmasının fövqündə tutar. Birləşmiş Ştatlar hökuməti irimiqyaslı təşkilatların faydalı olması üçün əlindən gələni etmiş və bununla da Ştatlararası Ticarət Qanunu, Şerman Antitrest Qanunu kimi qanunvericilik aktlan ilə təhlükəni minimuma endirmişdir. Federal Ticarət Komissiyasına və Ədliyyə Departamentinin Antitrest Bölməsinə səlahiyyət verilmişdir ki, onlar potensial monopoliyalara nəzarət etsinlər və onların birləşmələrinə mane olsunlar, ya da rəqabətin olmaması nəticəsində alıcıya zərər müşahidə edilirsə, kompaniyaların bağlanması üçün müvafiq addımlar atsınlar.

Antimonopoliya cəhdləri uzun müddət dünyanın ən iri və ən inkişaf etmiş telerabitə şəbəkəsi olan Amerika Telefon və Teleqraf Kompaniyasının (AT&T) süqutuna tə’sir göstərməkdə Ədliyyə Departamentinin uğuru ilə ölçüləcəkdir. Amerika Telefon və Teleqraf Kompaniyası telefon sənayesini inhisara almağa cəhd göstərərkən. Ədliyyə Departamenti 1974-cü ildə onun əleyhinə məhkəmə məsələsi qaldırdı. 1982-ci ildə razılıq e’lan olundu ki, Amerika Telefon və Teleqraf Kompaniyası 1984-cü il yanvarın 1 -nə kimi fəaliyyətdə olan 22 kompaniyadan məhrum edilsin. Amerika Telefon və Teleqraf Kompaniyasına icazə verildi ki.

Qərb Elektrik Kompaniyasını (onun istehsal filiallarını), Zəng Telefonları Laboratoriyalannı (onun tədqiqat filiallarını) və özünün uzaqmənzilli telefon biznesini əlində saxlasın. Bundan əlavə, ona icazə verildi ki, keçmişdə ona qadağan edilmiş sahələri, o cümlədən mə’lumatlarm işlənilməsi, telefon və kompüter avadanlığının satılması və kompüter rabitə vasitələri işlərini genişləndirsin. Amerika Telefon və Teleqraf Kompaniyası tə’cili şəkildə kompüter biznesinə doğru hərəkət etdi; bir qədər gözlədikdən sonra və əsasən uğursuz cəhdlərdən sonra, 1991-ci ildə Amerika Telefon və Teleqraf Kompaniyası əsas Amerika kompüter kompaniyalarından biri NCR Korporasiyasını öz əlinə keçirdi.

Birləşmiş Ştatlar antitrest qanunlarının güclü tə’sirinin və rəqabətin müdafiəsi cəhdinin nümayiş etdirilməsində Amerika Telefon və Teleqraf Kompaniyasının süquta uğraması qeyri- qanuni uğurdur. Amerika Telefon və Teleqraf Kompaniyası 1990-cı illərin əvvəllərində uzaqmənzilli telefon marketinin üçdə ikiyə qədər hissəsini öz ixtiyarında saxlamaqda davam etdiyinə baxmayaraq, o, artıq inhisar aparmırdı. Güclü rəqabət MCI Rabitələri və Birləşmiş Ştatlar Sprint (yaxmməsafəli) Rabitələrindən gəlirdi; bunlardan heç biri 20 il əvvəl mövcud deyildi. Yenə də, Amerika Telefon və Teleqraf Kompaniyasının süqutu 1990-cı illərə qədər əsas müzakirə obyekti kimi qalmaqda davam edirdi. Amerika Telefon və Teleqraf Korporasiyasının məhrum edilmiş bir hissəsi kimi - «Uşaq Zəngi» adlanan kompaniyalar çalışırdılar ki, tam yeni bizneslərə daxil olsunlar və bir çox mənzil və biznes telefonlarından istifadə edən adamlar telefon xidməti qiymətinin artacağından və bə’zilərinin güman etdikləri kimi, telefon xidmətlərinin daha e’tibarsız olacağından qorxurdular. Buna baxmayaraq, başqaları ən’ənəvi telefon sistemində sür’ətli texnoloji dəyişiklikdən gözlənilən mənfəəti ruh yüksəkliyi ilə mənimsəyirdi. İstehsal edənin və alıcının ehtiyaclarının ödənilməsi üçün qanun-qayda nə qədər optimal ola bilər məsələsi 1990-cı illərdə də ciddi şəkildə müzakirə edilirdi.

İRİLƏŞMƏ, ZƏİFLƏMƏ

* İllərdə Birləşmiş Ştatlar sənayesini
\.***y*** O V/ “ L/1 yenidənqurma dalğası əhatə etdi, çünki korporasiyalar çalışırdılar ki, rəqabətdə özlərinə daha yaxşı mövqe

tutsunlar. Birliklər, nəzarətçilər, hüquqdan məhrum olunmuşlar, birgə müəssisələr - firmalar bunlardan və başqa üsullardan istifadə etməyə tələsdilər ki, tələb olunmayan mal istehsalından imtina edərək, rəqiblərlə birləşsinlər və ya iqtisadi şəraitin dəyişməsinə cavab olaraq, (yeni və daha təhlükəli rəqiblər də daxil olmaqla) yüksəliş və çiçəklənmə ümidi ilə rəqiblərin saqqızım oğurlasınlar.

Yenidənqurma avadanlıqları istehsal olunan malların çeşidlərini ya müxtəlifləşdirmək üçün, ya da birləşdirmək üçün istifadə oluna bilər. Birlik iki və daha artıq kompaniyanın birikməsi deməkdir. Belə halda birikən kompaniyalann hər ikisi nəzarətdən fərqli olaraq, birləşmək arzusunda olur, nəzarət isə kompaniyanın istəyinin əksinə olaraq baş verir. Çeşidləşdirməyə doğru gedərkən idarəetmənin ən yaxşı izahı budur ki, «yumurtalarm hamısını bir zənbilə yığmaq» ağıllı hərəkət deyil. Əgər bir məhsul növünə olan tələb zəifləyirsə, biznesin başqa istehsal sahəsi bunu tənzimləyə bilər.

Şirkət məhsul istehsalı, onun satışı ilə bağlı işə girişirsə və bu, şirkətin əvvəl məşğul olduqlarından tam fərqlənirsə, onda şirkət konqlomerata çevrilir. Konqolomerat elə biznes təşkilatıdır ki, o, ümumiyyətlə, tə’sisçi kompaniyadan və müxtəlif sahələrdə fəaliyyət göstərən bir qrup filial kompaniyalardan ibarət olur.

Ötən bir neçə ildə bir sıra konqlomeratlar müəyyən etmişlər ki, onlar ya maliyyə baxımından, ya da səlahiyyətinə daxil olmayan sahəyə əl atmaq yolu ilə öz funksiyalarını çox genişləndirmişlər. Bunun da nəticəsində onlar əldə etmiş olduqlarını itirmək təhlükəsi qarşısında qalmışlar.

Bu korporasiya fəaliyyətinin çoxu 1960-cı illərdə və 1970-ci illərin əvvəllərində Birləşmiş Ştatlar korporasiyalarını əhatə edən müxtəlifləşdirmə cərəyanı ilə bağlıdır. O zaman şöhrət dalınca qaçan bir çox kompaniyalar aralarında əlaqə olmayan biznes vərdişləri əldə etdilər, bu isə ən azı, bir hissə də olsa, antitrest qanunlarının tam təzyiqinə cavab idi və həmin cavab eyni sahə ilə məşğul olan kompaniyalar arasında birlik ideyasını çətinləşdirirdi. Lakin zaman keçdikcə, biznes başçıları müəyyən etdilər ki, belə müxtəlif sahələri olan müəssisələri idarə etmək əksər hallarda çətin olur, az məhsuldar və istehsal etdiyi malın çeşidi az olan korporasiyalardan daha az fayda verir.

Bir qədər əvvəl yaradılmış bir çox birliklər öz qüvvələrini xüsusi sənaye istehsalı sahəsində, xüsusən xırdavat malları, hava

yolları və rabitə əlaqələri sahəsində birləşdirmişlər. Ancaq 1986-cı ildə May Departament Univermaqları Birləşmiş Quru Ərzaq Korporasiyasım əldə etdi; Ümumi Elektrik Kompaniyası pul verib RCA Korporasiyasım aldı; Börafs Korporasiyası Speri Korporasiyasım (bu birliyə sonra Unisüs adı verildi) aldı.

Bir çox şirkətlər öz məhsullarmm rəqabət gücünü müştərək müəssisələrdə rəqiblər vasitəsilə təkmilləşdirməyə can atırdılar. Müştərək müəssisə rəqiblər arasında heç də onların fəaliyyətinin tam eyniləşdirilməsini əhatə etmir. Çünki müştərək müəssisələr şirkətlər arasında birləşdirmək qərarına gəldikləri sahədə rəqabəti yox edir, o, potensial inhisar problemlərinin bir çoxunu formalaşdırır. Amma müştərək müəssisələr mənfəət də gətirir. Məsələn, Federal Ticarət Komissiyası General Motors’a (GM) və Toyotaya səsvermə yolu ilə müştərək müəssisə yaratmağa icazə verəndə onun müddəasının bir hissəsi belə bir fikrə əsaslanırdı ki, müştərək müəssisə General Motors’a Yaponiya istehsal texnologiyasım müşahidə edərək, onun sirlərinə yiyələnmək və beləliklə onun daha güclü rəqabət aparmasına imkan verəcək.

Əlavə olaraq, bir çox Amerika kompaniyaları birləşirlər ki, müştərək axtarışları və inkişaf fəaliyyətini birgə aparsınlar. Keçmişdə birgə axtarışlar adətən ticarət təşkilatlan vasitəsilə aparılırdı. Bu təşkilatlar ətraf mühiti və sağlamlığı tənzimləmə sahəsində birləşirdilər. Lakin indi ərzaq inkişafı və istehsaletmə prosesləri sınaqdan keçirilir. Bir çox Birləşmiş Ştatlar şirkətləri fikirləşirlər ki, onlar nə kifayət qədər vaxt, nə də pul tapa bilərlər ki, bütün axtarışları özləri aparsınlar. Xüsusən bu hal mal istehsal edənlər başqa ölkələrdə bir-biri ilə birgə işlədiyi halda çətin olur. On əsas axtarış konsorsiumunun bir neçəsinə Yarımkeçirici Tədqiqat Korporasiyası (33 üzvü var), Kompüter Proqramlaşdırma Məhsuldarlığı Konsorsiumu (14 üzvü var) daxildir. Təhlükəli rəqiblər arasında birləşmənin ən maraqlı nümunəsi 1991-ci ildə baş vermişdir. O zaman dünyanın ən iri kompüter kompaniyası olan IBM Korporasiyası «fərdi» kompüterlərin aparıcı istehsalçısı Apple Computer, Inc. ilə işləməyə razılıq verdi ki, müxtəlif kompüterlərin müxtəlif variantlarının istifadə edə biləcəyi yeni kompüter proqramlaşdirma iş sistemini yaratsınlar.

Son illərdə Amerika biznesində bütün birikmələrə və birləşmələrə baxmayaraq, kompaniyaların orta sayı azalmağa doğru gedir. Səbəb isə budur ki, yeni yaranan, xüsusən işçi

f?

qüvvəsi 20 nəfərdən az olan bizneslərin sayı hədsiz dərəcədə artır. Mallara olan tələbin azalması zamanı onların çoxu müvəffəqiyyətsizliyə uğrayır, lakin onların yerini başqaları tutur.

XIDMƏTIN VƏ MƏ'LUMAT CƏHDİNİN İNKİŞAFI

Zaman keçdikcə, Birləşmiş Ştatlar iqtisadiyyatı xidmət istehsalını zaman-zaman malların istehsalından daha çox artırmışdır. Xidmət sənayesi avtomobil və ya soyuducu kimi maddi mal istehsal etmir. Əksinə, bu sənaye nəqliyyat, bank işləri, tə'minat-sığorta, turizm, rabitə əlaqələri, əyləncə, mə'lumatları işləmə və məsləhətvermə kimi xidmətlər göstərir. Əslinə baxsan, bir çox xidmətlər - kompüter, tətbiqi, hüquqi, hesablama və reklametmə kimi xidmətlər maddi mallar istehsalında istifadə olunur.

1950-ci və 1990-cı illər arasında Birləşmiş Ştatlarda işləyənlərin ümumi sayı 48,5 milyon fəhlədən 118 milyona qədər artmışdır. Artımın əksəriyyəti xidmət sahəsində baş vermişdir; ancaq 1980-ci illərdəki onillikdə xidmət göstərən sektorun iş şəbəkəsi 20 milyon artmışdır ki, bu da bütün iqtisadiyyatın iş şəbəkəsində 19 milyon iş artırıb. İşlərin sayım ən çox artıran iki sənaye sahəsi var ki, bunlar reklametmə, kompüter və mə'lumatlar işləmə sənaye sahəsi və səhiyyə xidmətləri də daxil olmaqla biznes xidmətləridir. 1980-ci illərdə xalis iş gəlirinin 27 faizi bu iki kateqoriyanın üzərinə düşürdü. 1980-ci illərdə kompüter və mə'lumatları işləmə sənayesi sahəsi yarım milyona yaxın iş yeri artırmışdı.

Xidmət sektoru işinin yüksəlişi istehsal məhsuldarlığının artımı ilə azad edilmiş əmək ehtiyatlarını işlə tə'min etdi, istehsal məhsuldarlığı 1982-ci ildən 1990-cı ilə qədər orta hesabla 4,5 faiz artdı, bu da istehsalata imkan verdi ki. Birləşmiş Ştatlar ümumi milli gəlirinin daimi payını, kobud şəkildə desək, artırsın (20 faizdən bir qədər artıq), hətta ancaq sənaye istehsalı işinin yansına qədəri 1981-1982-ci illərin mala tələbatın dəhşətli halda azalması 1990-cı ildə yenidən geri qaytarıldı.

Mütəxəssislərin əksəriyyəti Birləşmiş Ştatlar sənaye əsaslarının sür'ətlə dağılmaqda olduğu fikrini indi inkar edir. Bunun əvəzində onlar statistikanın nümayiş etdirdiyi bir fikrə inanırlar ki. Birləşmiş Ştatlar iqtisadiyyatının, mal istehsalından başlayaraq xidmət istehsalına qədər, quruluşca dəyişməsi nisbi

xarakter daşımış və ilk öncə məşğuliyyət sahəsində baş vermişdir. Məsələn, mal istehsalı sektoru 1946-cı ildə kənd təsərrüfatı ilə bağlı olmayan işlərdə 41 faiz, 1980-cı ildə 28 faiz, 1990-cı ildə isə ancaq 23 faiz təşkil edirdi. Əlbəttə, yeni xidmət işlərinin çoxunda əmək haqqı sənaye malları istehsalı işləri sahəsində olduğu qədər yüksək ödənmirdi, onlar eyni zamanda müvafiq mənfəətlər də götürmürdülər. Bu bir çox ailələrin gəlirinə mənfi tə'sir edirdi və qadınların bir çoxunu 1980-ci illərdə əlavə iş tapmağa vadar edirdi. Bu cərəyan, güman ki, davam etdirilməlidir.






BEŞİNCİ HİSSƏ

# V

# AKSİYALAR, MALLAR VƏ BAZARLAR



LESS THAN 100 SHARES

—5— *Shares*

# IONAL BUSINESS MACHINES CORPORATION

Incorporated under the laws of the State of New York

HIS CERTI ICATE IS TRANSFERABLE IN NEW YORK, CHICAGO, SAN FRANCISCO, TORONTO OR MONTREAL

*t* -E LADD THURSTON JR- *is the owner of*

CUSIP 459200 10 1

*Note: For explanation of certain abbreviations, see reverse side*

—FIVE—

*n-assessable shares of the par value of Five Dollars ($5) each of the Capital Stock of Business Machines Corporation transferable on the books of the Corporation by the rson or by duly authorized attorney on surrender of this certificate properly endorsed. not valid until countersigned by the Transfer Agent and registered by the Registrar the Corporation and the facsimile signatures of its duly authorized officers.*

*Dated* MAR 16 1973

llinois National Bank
rust Company of Chicago, *Transfer Agent*

*Authorized Signature*

al Bank of Chicago, *Registrar*

*Authorized Signature*

Chairman of the Board

Secretary

| Tens | Units |
|---|---|
| 1 | 1 |
| 2 | 2 |
| 3 | 3 |
| 4 | 4 |
| 5 | 5 |
| 6 | 6 |
| 7 | 7 |
| 8 | 8 |
| 9 | 9 |
| 0 | 0 |

Birləşmiş Ştatlar kapital bazarının məhsuldarlığı əfsanəvi səciyyə daşıyır. Tarixən və əslində hər bir əsas şəhərin nə zamansa mallar satılan bazarı olub, lakin 1990-cı illərdə Birləşmiş Ştatlarda ancaq üç əsas bazar var idi: Nyu-York ştatının Nyu-York şəhərində, İllinoysun Çikaqo şəhərində və Kaliforniya ştatının San Fransisko şəhərində. Yerli bazarlar Massaçusetsin Boston şəhəri və Pensilvaniyanın Filadelfiya şəhəri kimi şəhərlərdə mövcud idi, lakin belə bazarlarda ticarət məhdud idi.

Birləşmiş Ştatlarda kapital bazarı kapitalizmin həyati gücünün mənbəyi olan çoxlu məbləğdə pul təklif edirdi ki, zavodlann, fabriklərin, tədqiqat laboratoriyalarının və idarə binalarının, təyyarələrin və gəmilərin tikilməsini maliyyələşdirsin. Ədalət naminə demək lazımdır ki, əgər Birləşmiş Ştatlarda kapital bazarları mövcud olmasaydı, onlar bu bazarları ixtira etməli olardılar. Şon illərdə səhm bazarları vasitəsilə və başqa yollarla xeyli kapital əldə edilməsinə baxmayaraq, əmtəə bazarlan dəfələrlə sübut edib ki, yeni mübarizə aparan kompaniyalar üçün onlar pul artıran alət olmaqdan ötrü faydalıdır.

Deyilənə görə, kapital bazarları o zaman məhsuldar olur ki, satıcıların təklif etdikləri geniş çoxçeşidli mallarla alıcılann həmin malları almaq üçün təklif etdikləri geniş tələbləri arasında tə’cili bir uyğunluq yaranmış olsun. Əslinə baxsan, bu, texnologiyanın problemidir. Müasir bazarlar, xüsusən, Nyu-York və Çikaqo bazarları hər gün milyonlarla sövdələşmə prosesi icra etmək üçün çox ciddi şəkildə kompüterləşdirməyə bel bağlayırlar. Lakin bu, digər tərəfdən, bir qədər də ən’ənə və taerübə ilə bağlıdır. Əmtəə bazarı əsasən bir dəllalın sözünə başqa bir dəllalın inanması üzərində qurulur. Dəllallar isə, öz növbəsində, onların təmsil etdikləri alıcılann onlara olan inamından asılıdır. Bir sıra hallarda bu inamdan sui-istifadə edirlər. Lakin son yanm əsr ərzində federal hökumət ticarət münasibətlərinin aydın və vicdanlı aparılmasına və verilən və’d və sözlərin səmimi olmasına nail olmaq işində çox ciddi bir rol oynamışdır.

Bu fəsil əmtəə bazarının necə işləməsini aydınlaşdırmağa can atır. Fəsil ilk növbədə kiçik alıcıların və mal satıcılarının mövqeyindən çıxış edərək, yazılmışdır. Lakin bu kiçik müştərilə

rin alıcı tələblərinə cavab verə biləcək tə’xirəsahnmaz bazar yaratmaq işinə qarışmaq qabiliyyətini görmək çətin deyil.

Bu bazarın da quruluş prinsipləri bütün başqa bazarlarda olduğu kimidir. Hər bir alıcı üçün satıcı olmalıdır. Almaq arzusunda olan adamlar satanlardan çox olduqda, qiymət artmağa doğru meyl edir; almaq arzusunda olan az və satmaq arzusunda olanlar çox olduqda, qiymət aşağı düşməyə meyl edir.

Səhm payları sahibliyi o qədər genişdir ki, səhmdarlar bir gün, yaxud hətta bir saat ərzində bazarda asanlıqla varlana bilərlər. İnvestorlar müxtəlif yollarla mə’lumat alırlar. Əgər onlar bazarlar bağlanana qədər gözləmək istəyirlərsə, onlar, sadəcə olaraq, gündəlik iri qəzetlərin bazarlara həsr olunmuş səhifələrinə baxaraq, bazarlarda dünənki ticarət nəticəsində nələr baş vermiş olduğunu öyrənə bilərlər. Müxtəlif göstəricilər olur ki, bu göstəricilər bazar fəaliyyətinin geniş şəkildə ölçüsünü verir, hətta fərdi mallar da sadalanır və elə buradaca ticarətdən əldə edilmiş səhmlərin sayı göstərilir və bütün ticarət günü ərzində son qiymət, aşağı və yuxarı qiymət də göstərilir. Müəyyən televiziya proqramları biznesin bazar hərəkatlarının tə’xirəsalınmaz inkişafına verilişlər həsr edir. Fərdi səhmlərin qiymət inkişaflan haqqında istədiyi anda mə’lumat almaq üçün tə’kid edənlərə telefon xətləri ilə kompüterləşdirilmiş xidmətlər, demək olar ki, tə’xirə salmadan birbaşa evə xəbər verəcəkdir.

İnvestorlar eyni zamanda tez-tez fərdi səhmdar kapitallarında, ümumiyyətlə, bazarlarda hərəkatların və gələcək haqqında fərziyyələrin təhlilinə həsr edilmiş jurnallara və həftəlik yeniliklər bülletenlərinə də abunə yazılırlar.

Bir dəfə bir kompaniya öz ilkin səhmini ictimaiyyətə satıb və bu, bazarda azad ticarət şəklində edilib, bunun qiyməti alıcıların ödəyəcəkləri və satıcıların götürəcəkləri ticarət aparıldığı gün ərzində alver məzənnəsinə uyğun olaraq, müəyyən edilir. Bu, sadəcə olaraq, tələb və təklif məsələsidir. Beləliklə, qiymət mal alan və satan adamların hamısının ümumiləşmiş fikridir. Adamlann nə qədər ödəyə biləcəklərinə tə’sir edə biləcək amillərə aşağıdakılar daxildir:

- Ümumi milli iqtisadiyyatın vəziyyətindən asılı olan ümumi biznes iqlimi və təmayülü və xalqın buna olan inamının vacibliyi;
- Səhm buraxan kompaniyanın əldə etdiyi və yaxud alacağını güman etdiyi mənfəətin məbləği və onun maliyyə şəraiti;

- Kompaniyanın yüksəliş və tənəzzülə uğrama normaları;
- Uzun müddət ərzində kompaniyanın öz rəqibləri ilə uğurlu yarışmaq qabiliyyəti;
- Məhsul və xidmət kütləvi xarakter daşıyırmı, bazarda bu məhsula maraq artırmı və ya azahrmı;
- Ümumi gəlir norması və ya səhmlər üçün bazar qiyməti;
- Kompaniyanın təklif etdiyi gəlir normasının alternativ investisiyaların gəlir norması ilə müqayisədə faizi.

DiviDENDLƏRiN ZƏRURİLİYİ

t^vvəllər müxtəlif kontekstlərdə qeyd edildiyi kimi, kompaniya V^pul qazanarkən, adətən, qazancının bir hissəsini dividendlər şəklində öz səhmdarlarına verir. Tipik şəkildə gəlirin 50 faizinə yaxın məbləğ ödənir. Bu o deməkdir ki, əgər kompaniya il ərzində 20 milyon dollar qazanc əldə edirsə və əgər 5 milyon səhm payı varsa, onda bu kompaniya dividendlərin 10 milyon dollar məbləğində olmasını e'lan edə bilər və qazancın ikinci yarısını tə'xirəsahnmaz proseslərə və/yaxud genişlənməyə sərf edə bilər. Deməli, əgər kompaniyada 5 milyon səhm varsa, onda hər səhmdar hər pay üçün 2 dollar almalıdır. Əgər birinin səhm payı 100-dürsə, dividend 200 dollar olmalıdır. Riyazi hesablamaları bir qədər də dərinə aparsaq, əgər satılmış səhm hər paya 40 dollar olubsa və 2 dollar dividend fayda veribsə, onda hər bir pay üçün gəlir faizi 5 faiz olacaqdır.

İLLİK HESABAT

[ər bir səhmdar investisiya qoyduğu kompaniya haqqında hər il illik hesabat alır. Bu illik hesabatlar son 20-30 il ərzində çox dəyişmişdir. Sabiqdə tipik hesabat əvvəlki illərlə heç bir müqayisə aparmadan kompaniyanın vəziyyəti haqqında ümumi müzakirələrdən ibarət olardı. İndi isə hər bir əsas korporasiya çox mükəmməl hesabat verir. Onlar oxumaq üçün asan olan diaqramlar və nəticələr verirlər ki, bunlar da son onillik dövrü əhatə etməlidir. Ümumxalq hesabatı verən şirkət yoxlamaların nəticələrini nümayiş etdirdikdən sonra, təsdiq edir və zəmanət verir ki, gətirilən rəqəmlər və verilən məTumatlar ümumi şəkildə qəbul olunmuş hesabat əsaslarını əks etdirir. Bu məTumata əlavə olaraq, kompaniyanın icraçılarından tələb olunur ki, onlar kompaniyada qoyduqları səhmin qədərini açıb desinlər. Bütün

prosesə tam detalları ilə Qiymətli Kağızlar və Mübadilə Komissiyası (SEC) nəzarət edir. Bu Komissiya əksər hallarda federal hökumətin «mühafizə iti» agentliyi kimi təqdim olunur.

SƏHM Ti Tüstəqim mə’nada minlərlə səhm olduğuna görə, ən fəal MÜBADİLƏLƏRİ IVJ-Şəkildə almanlar və satılanlar, adətən, Nyu-York Səhm Mübadiləsi (NYSE) siyahısına salınır. Mübadilənin yaranması tarixi aparıb 1792-ci ilə çıxarır. O zaman bir dəstə səhm dəllalı Nyu-York Sitidə Uol Stritdə bir ağacın altında toplaşaraq, satmaq və almaq necə olmalıdır haqqında bir sıra qaydalar müəyyənləşdirmişlər. Nyu-York Səhm Mübadiləsi Birləşmiş Ştatlarda aparıcı mübadilə məntəqəsinə çevrilmişdir, lakin Nyu-York Səhm Mübadiləsi elə həmin Uol Strit bölgəsində daha məhdud dairədə olsa da, bir sıra məsələlərdə eyni yolla fəaliyyət göstərir.

Nyu-York Səhm Mübadiləsi Uol Stritdə nəhəng bir binada yerləşir və siyahıda göstərilən qiymətli kağızlann əsasında çox geniş ticarət aparır. Ticarət aparılan birinci mərtəbədə 2200-dən artıq ümumi və üstün tutulan səhm ticarəti edilir. Nyu-York Səhm Mübadiləsinin 1600-ə yaxın üzvü var ki, onlann da əksəriyyəti xalq üçün almağa və satmağa məşğul olan brokerlik palatalarını təmsil edirlər. Onlar mübadilədə çox baha qiymətə «yerlər» alırlar. Onlar onların təkliflərini icra edən alıcılardan və satıcılardan müvafiq məbləğdə komisyon pulu alırlar. Demək olar ki, yanm milyon kilometrlik telefon və teleqraf xətləri Nyu-York Səhm Mübadiləsini bütün ölkə və yer kürəsinin bütün brokerləri ilə birləşdirir.

Müstəqim səhmdarlann təqribi sayı Amerika biznesində 42 milyona çatır. Bundan əlavə, Amerikada 133 milyon qeyri- müstəqim səhmdar var ki, onlann Amerika korporasiyalarında səhm paylan var. Onlar bu payları əmanətə müvafiq məbləğdə pul qoymaq və ya (ictimai və xüsusi) təqaüd fondlarında, sığorta kompaniyalarında, müştərək fondlarda, banklarda, xeyriyyə fondu hesabına mövcud olan müəssisələrdə, kolleclərdə və universitetlərdə iştirak etmək yolu ilə əldə edirlər.

Səhmlər necə alınır və necə satılır? Belə fərz edək ki, kalifomiyalı bir məktəb müəllimməsi okeanla kruizə getmək istəyir. Səfərini maliyyələşdirmək üçün o, özünün General Motors səhmindən 100 payı satmaq qərarına gəlir. Müəllimə öz səhm broke-

rinə telefon edir və ona səlahiyyət verir ki, onun paylarını tə’cili və yaxşı qiymətə satsın. Elə eyni gündə də floridalı bir mühəndis qərara gəlir ki, General Motors səhminin 100 payını almaq üçün topladığı puldan istifadə etsin. Mühəndis öz brokerini yanına çağırır və bazar qiymətinə 100 pay səhm almaq üçün ona pul verir.

Hər iki broker öz sifarişini Nyu-York Səhm Mübadiləsi palatasına teleqramla xəbər verir. Müəllimənı və mühəndisi təmsil edən hər iki broker alver razılığına gəlir. Birisi soruşur: «Mən General Motorsun 100 pay səhmini almaq üçün nə qədər verməliyəm?)) Ən yüksək qiymət 5000 dollardır və satmağı təklif edən hər bir adam üçün son məbləğ isə 5200 dollardır. Hər ikisi çalışır ki, qiymət lap münasib olsun, beləliklə onlar ümumi dil tapırlar və alqı/satqı üçün 5100 dollara razılaşırlar.

Nyu-York Səhm Mübadiləsinin özü nə səhm alır, nə də səhm satır; o, sadəcə olaraq, brokerlərin öz müştəriləri üçün almaları və satmaları işində bir vasitə kimi xidmət edir. Alqı-satqı prosesində hər bir qarşılıqlı danışıq ictimai xarakter daşıyır və bu barədə mə’lumat elektronika vasitəsilə ölkənin hər bir broker idarəsinə göndərilir.

NAĞD Və BİRJADAN KƏNAR SATILAN SƏHMLƏR

Müxtəlif sayda səhmlərin, bonların ticarəti baxımından dünyanın ən iri mö’təbər bazan birjadan kənar satılan səhmlər bazarıdır (OTC). Birjadan kənar satılan səhm bazarı heç bir yerdə yerləşmir, lakin bu bazar əsas e’tibarilə səhm və bon satanların elektronik rabitələr şəbəkəsidir. Bu səhmlərə Qiymətli Kağızlar Satışı Birliyi Milli Assosiasiyası İnkorporasiyası nəzarət edir. Bu inkorporasiyanm səlahiyyəti çatır ki, qeyri-səmimi olan və müflisləşən kompaniyaları və ticarət agentlərini öz tərkibindən xaric etsin. Biqadan kənar satış bazarı nisbətən kiçik kompaniyaların səhmlərini almağa meyl göstərir və 1990-cı illərdə sür’ətlə inkişaf edən «yüksək texnologiya)) səhmlərinin bir çoxunun alınması və satılması ilə məşğul olan bazar kimi tanınmışdır. Ticarət fəaliyyəti haqqında məTumat yenə də qəzetlərdən, jurnallardan və elektronika vasitəsilə alına bilər. Broker palatası, adətən, bu səhmlərin alınmasını və satılmasını əsas mübadilələr yolu ilə aparır.

Bir çox şəxslərin hansı səhmləri almaq qərarına gəlmələri haqqında səriştələri yoxdur, amma buna baxmayaraq, onlar səhm bazarında ona görə iştirak etmək istəyirlər ki, onlar bu yolla əlavə

mənfəət əldə etmək və onu şərik fonda çevirmək ümidində olurlar. Şərikli fond öz səhmdarlarının məbləği hətta az ola bilən fondlarını birləşdirir, səhmlərin müxtəlif qiymətli kağız portfelinə iri məbləğdə pul qoyur və beləliklə, risk etmək yolunun qarşısını alır. Adamların çoxunun səhmlərdə investisiya etmək üçün bu metoddan istifadəyə üstünlük verməsinin bir səbəbi də budur.

Şərik fondun müştəri üçün başqa bir faydası da bundan ibarətdir ki, fond menecerləri ştatda olan icmalçılardan mütəxəssis məsləhətləri alırlar. Fondun belə mütəxəssisləri işə də’vət etmək imkanı var, çünki işlər geniş miqyasda aparılır. Şərik fondlann müxtəlif növləri var. Bunlardan bə’ziləri gəlir əldə etmək üçün, bə’ziləri kapital dəyərinin artırılması üçün və başqaları nəzəri cəhətdən iri gəlirlər və dəhşətli itkilərin baş verə biləcəyi halı ilə bağlıdır. Bə’ziləri ancaq xüsusi sənaye sahələrinin, yaxud xarici kompaniyaların, ya da fəaliyyəti ətraf mühitə mənfəətli olan kompaniyaların səhmləri ilə bağlıdır. Belə fondların sayı və çoxçeşidliliyi 1980-ci illərdə xeyli artıb. Bu cür fondların ümumi sayı on il ərzində 524-dən 2918-ə çatıb; şərik fondlarda Birləşmiş Ştatlarda mənzil sahibi olmaq payının nisbəti 1979-cu ildəki 6 faizdən 1989-cu ildə 25 faizə qalxıb.

BORC SƏHMLƏR A merikalılar çox şeyləri borc alırlar, səhmlər də istisna deyil.
ALMAQ X^Müəyyən edən investorlar səhmin alınma qiymətini 50 faiz ödəməklə, qalan hissəsini borc götürə bilərlər. Bu, 50 faizini «borc» almaq adlanır. Müvazinət broker palatasından əldə edilən mənfəət faizi və mö’təbər şəxs kimi brokerə verilmiş səhm qəbzləri əsasında yaranır. Federal Ehtiyat İdarəsi minimum borcları və alınan malın faizi kimi nağd ödənilməli olan pulun məbləğini tənzimləyir. Bazarı stimullaşdırmaq və ya onun möhtəkirliklə bağlı inkişafının qarşısını almaq ehtiyacından asılı olaraq, minimum borclar müxtəlif şəkillərdə ola bilər.

Əgər investor qiyməti müəyyən edilmiş səhmi borc satırsa, investor mənfəəti öz cibinə qoyub, brokerə ancaq borcu, onun faizini və komisyon xərcini ödəyir. Əgər səhm aşağı düşürsə, broker «borcu ödəmək çağınşı» verə bilər. Belə halda investordan tələb olunur ki, hesaba əlavə məbləği o, özü ödəsin. Əgər səhm sahibi nağd pul verə bilmirsə, səhmin bə’zi hissələri investorun məhrum edildiyi sahə kimi satılır.

Borc səhm almaq möhtəkirlərə (yüksək dərəcədə risk tələb edən hallarda oynamaq istəyən alverçilərə) özlərinin fəaliyyət dairələrini genişləndirmək imkanı verir. Onların sərəncamında olan nağd pul ilə xeyli səhm payı almaq olar ki, bu da onlara daha böyük mənfəət əldə etmək imkanı verir, eyni zamanda, daha böyük məbləğdən məhrum olmaq iztirabı hissi verir.

Bə’zi hallarda Federal Ehtiyat idarəsi 100-faizli borc tələb edir, bu isə o deməkdir ki, bütün səhm nağd pul ilə ödənilməlidir. Məsələn, 1950-ci illərdə borc faizi norması ən aşağısı 50 faizdən ən yuxarısı 90 faizə qədər tərəddüd edirdi. Əlbəttə, aşağı faiz səhm alınmasını stimullaşdınr, yuxarı faiz norması isə adamları ruhdan salırdı.

investorların böyük əksəriyyətinin birinci qayğıları onların aldıqları malın təhlükəsiz olmasıdır. Əgər zəruriyyət varsa, onlar bir çox hallarda daha böyük risk etməmək naminə daha az dividendlər alacaqlar. Onları səhmlərin gələcəyi hazırda səhmlər alınarkən onlardan əldə edilən qazancdan daha artıq maraqlandırır. Bazar qiymətlərindən əvvəlcədən xəbər tuta bildiklərinə inanan adamlar qiymətlər qalxmazdan əvvəl alırlar və qiymətlər ucuzlaşmamış satırlar.

Bir dəstə möhtəkir də var ki, onlara «mallarm ucuzlaşmasını güdənlər» deyirlər. Malların ucuzlaşmasını güdənlər o adamlardır ki, onlar pul qoyurlar, çünki onlar xüsusi səhmin dəyərinin aşağı düşəcəyini gözləyirlər. Bu adamlar «borc ahnmış» səhmi satır və güman edirlər ki, onun yerinə açıq bazardan daha ucuz qiymətə eyni səhmi ala biləcəklər. Bu, bazarda kapitalqoymanm ən böyük riskli yollarından biridir, çünki səhmin qiyməti, əgər o çox yaxşıdırsa, on qat və ya daha çox arta bilər və belə halda «ucuzlaşma ümidi» çox böyük itki ilə «boğulur». Xərcini çıxarmadan müəyyən müddətə satmaq prosesini xüsusi qaydalar idarə edir. Bu qaydalar əvvəlki dövrlərdə Uol Stritdə baş vermiş olan sui-istifadə hallarının qarşısını almağa yönəldilmişdir.

MÜƏYYƏN MÜDDƏTƏ ALINMIŞ ƏMTƏƏ MALLARI

Taxıl və ev heyvanları kimi kənd təsərrüfatı mallannm, mis, qızıl, qurğuşun və qalay kimi metallar olan mallann qiymətləri vaxtaşm dəyişməyə doğm meyl edir. Əmtəə ticarətçiləri iki böyük kateqoriyaya bölünür: itkiyə zəmanət verənlər və möhtəkirlər. itkiyə zəmanət verənlər elə biznes şirkətləridir (və ya fərdlərdir)

ki, onlar əmtəə əlaqələrinə ancaq bir məqsədlə daxil olurlar: əmtəənin zəmanət verilmiş qiymətə satılmasına tə'minat vermək. Şirkət ehtiyac olan əmtəənin bazara gəlməsini tə'min edir və qiymətin tərəddüd etməməsi keşiyində durur. Əksinə olaraq, minlərlə fərdi adamlar vaxünda ahnmiş mallardan ticarətdə möhtəkirlik məqsədi ilə istifadə edirlər.

Əmtəə möhtəkirliyinin sayının əhəmiyyətli dərəcədə artmasının başlıca səbəbi yüksək gəlir əldə etmək arzusudur ki, bunu kiçik və zəif borclarla da əldə etmək olar. Müharibə və hava kimi nəzarətdən kənar olan qüvvələr tələb və təklifə tə'sir edə bilər və çox sür'ətlə əmtəə qiymətini artıra və ya azalda bilər və bununla da böyük itkilər və ya mənfəətlər yarada bilər.

Əmtəələrdə möhtəkirlik ilk növbədə əmtəə mübadiləsi zamanı baş verir; və Birləşmiş Ştatlarda onlarla belə mübadilələr var. Bu mübadilələr könüllü ticarət assosiasiyalandır, lakin onlara mütəşəkkil bazar deyilir, çünki üzvlərdən tələb olunur ki, ticarət qaydalarının normalarına riayət etsinlər. Bu assosiasiyaların ən məşhurlarından bə'ziləri Amerikanın kənd təsərrüfatına əsaslanan sənaye sahələrinin tarixi mərkəzi Çikaqodur. Çikaqo Ticarət İdarəsi biznesin həcmi və qiyməti baxımından əmtəənin öz vaxtında alınıb hazırlanması sahəsində dünyada ən iri mərkəzdir. Çikaqoda əsası qoyulan mübadilələrdən biri də Çikaqo Ticarət Mübadiləsidir, bu mübadilə də ilk dövrlərdə əsasən kənd təsərrüfatı məhsulları ilə məşğul olmuşdur, lakin sonralar xarici valyuta ilə alınan mallar ticarəti şö'bəsi də yaratmışdır.

Əmtəə ticarəti sistemi necə işləyir? Fərz edək ki, bir nəfər şəxs 30 000 kiloqram kakao almaq üçün standart müqavilə bağlayır. Bu alıcı pulunu ödəyib, kakaonun sahibi olmağı öz öhdəsinə götürə bilərdi. Yaxud alıcı pulunu verib kakaonu aldıqdan sonra, müqaviləni hər hansı başqa bir adama sata da bilərdi. Adamların böyük əksəriyyətinin o qədər çox kakaoya ehtiyacı yoxdur, onların kakaonu saxlamaq üçün yerləri də yoxdur. Onların kakaonu alması sırf kağız üzərində olur; onlar müqaviləni başqa bir adama satmaq niyyəti ilə onu saxlayırlar.

Əmtəə mallarının öz vaxtında alınması müqavilələri səhmlər kimi borc da alma bilər. Tipik fərq bundan ibarətdir ki, əmtəələrin borcu ancaq müqavilə dəyərinin 10 faizindən 20 faizinə qədərdir. Bu da möhtəkirlik və böyük mənfəətlər və zərərlər üçün imkanı genişləndirir.

Pul qazana bilənlər bir çox hallarda peşəkar ticarətçilər olurlar, bazarın nəyə qarşı çıxa biləcəyindən yaxşı xəbərdar olurlar. Təqribən hesablayıblar ki, bazara gələn xırda alıcıların 85 faizi pulunu itirir, yə’ni baha qiymətə alır. Təcrübədə bu məTumat belə bir fikrə gəlməyə imkan verir ki, çox az iri qaliblər - pul qazananlar və çox böyük sayda itirənlər olur. Risklər yüksək olur, çünki kiçik qiymətin dəyişməsi faydaları və zərərləri dramatik şəkildə artırır.

## BAZAR HƏRƏKƏTVERİCİ QÜVVƏLƏRİ

Səhmlərdə və əmtəələrdə bazarlar Amerika iqtisadi sisteminin həyati hissəsini təşkil edir. Milyonlarla ayrı-ayrı adamlar müxtəlif kiçik səhmlər və əmtəə mallan satır, müştərək fondlar və trestlər isə daha artıq ma! satırlar. Münasib vaxtlarda, bazarda malların qiymətləri qalxarkən, qənaətdən əldə qalan və ya kapital qoyuluşunun başqa növlərindən qalan pul bazara axır. Bu baş verdikdə, bazarda qiymətlər artır. Bir sıra hallarda möhtəkirlər dövrü başlayır. Bu dövrdə birja qiymətlərinin artmasından istifadə edərək, «möhtəkirlər» bazarda pul qazanmaqda aparıcı rol oynayırlar. Bazar artıq möhtəkirlik hərarətinə dözmədikdə, əks hərəkət başlayır, qiymətlər isə aşağı düşür. Belə anda «daşıyıcılar» və yaxud bazarda pul qazananlar qiymətlər aşağı düşərkən daha artıq udurlar.

Bu proses zamanı Federal Ehtiyat İdarəsi çalışa bilər ki, ifratavarmanm qarşısını alsın, borcları artırmaq və ya azaltmaq yolu ilə bazar qiymətlərini ya stimullaşdırsın, ya da aşağı salsın. Alış-veriş qiymətlərinin gözlənilmədən ciddi şəkildə dəyişməsi də bazar və birja işlərindən xəbərdar olan «daxili» adamlan (xüsusi məTumatları alan adamları) şirnikləşdirir ki, konkret səhm ilə bağlı olaraq, bazarda iş aparsın və o sahəni idarə etsin.

Bazarda yeni bir əhəmiyyətli amil də var ki, bu da investisiya edilmiş xarici fondların artımıdır. Amerika qiymətli kağız bazarında pul qazanmaq üçün ancaq Orta Şərq nefti özünə yol açmayıb, eyni zamanda Avropadan, Yaponiyadan və dünyanın başqa hissələrindən bir çox adamlar hiss edirlər ki, onlar öz var-dövlətlərini Amerika səhmində investisiya etmək yolu ilə xilas edə bilərlər. Amerika iqtisadiyyatına investisiya üçün verilən bu üstünlük 1980-ci illərin əvvəllərində Amerika dollarının fövqəladə gücə malik olması ilə ölçülür. Əlbəttə, bu da səhm qiymətlərinin 20-ci əsrin son iki onilliyində tədriclə yuxarı qalxmasının nisbi səbəblərindəndir.

QİYMƏTLİ KAGİZLARVƏ MÜBADİLƏ KOMİSSİYASI

1 O İlin Qiymətli kağızlar Aktı və 1934-cü ilin i ^ J ^ Lz U- Qiymətli kağızların Mübadiləsi Aktı investorları müdafiə və onlara kömək üçün qəbul olunmuşdur. Bu aktlar investorlan ancaq kələkbazlıq və saxtakarlıqdan deyil, həm də həqiqətə uyğun olmayan və qeyri-adi mə’lumatlarla bağlı olaraq, anlaşılmamazhq problemlərindən də müdafiə etmək üçün idi. Böyük Depressiya (1929-1940) illərində fəaliyyət göstərmiş bu qanunlara və sonrakı illərdə qəbul olunmuş başqa müvafiq qanunlara federal Qiymətli Kağızlar və Mübadilə Komissiyası (SEC) nəzarət edirdi. 1934-cü ildə Qiymətli Kağızlar və Mübadilə Komissiyası yaradılana qədər əmanətləri ayn-ayn ştatlar tənzimləyirdi. Federal qanunlar bir çox hallarda uyğun gəlməyən ştat qanunlanm əvəz etmək üçün deyil, onlara əlavə olaraq yaradılırdı.

Qiymətli Kağızlar və Mübadilə Komissiyasının prezident tə’yin etdiyi beş üzvü olur. Üzvlərdən üçündən artığı eyni siyasi partiyanın üzvü ola bilməz; komissiya üzvlərinin beş il müddətinə tə’yin edilməsi ildə bir üzvün dəyişməsinə gətirib çıxarır.

Səhmlər, bonlar və xalq üçün başqa qiymətli kağızlar buraxan kompaniyalar Qiymətli Kağızlar və Mübadilə Komissiyası ilə hərtərəfli maliyyə qeydiyyatı bəyanatını qeydiyyatdan keçirməlidir, həmin qeydiyyat bəyanatının mükəmməl və səliqəli olub-olmadığını Qiymətli Kağızlar və Mübadilə Komissiyası müəyyən edir. Bu, tə’minat verir ki, alıcılar mümkün olan qiymətli kağızların dəyərinin real təkamülü haqqında mə’lumat ala bilsinlər. Qiymətli Kağızlar və Mübadilə Komissiyası onların bu bölgüsündən sonra səhmlərin ticarətinə nəzarət edir və bazarda satılan səhmin qiymətində əyrilik hallarının qarşısını almağa yönəldilmiş tənzimləmə işini idarə edir. Borc səhmlər alınan bazarda brokerlər, alverçilər və hətta səhm birjalarının özləri də Qiymətli Kağızlar və Mübadilə Komissiyası ilə qeydiyyatdan keçməlidir.

Qiymətli Kağızlar və Mübadilə Komissiyası ştatlararası bazar qiymətli kağızlarını tənzimləyir və ədalətsiz, eyni zamanda qeyri-qanuni aparılan ticarət təcrübəsinə qarşı qanunlar həyata keçirir. Komissiya eyni zamanda tələb edir ki, kompaniyalar xalqa onlann səhmlərinin neçə payının satılması və ya alınması haqqında kompaniya mə’murlan vasitəsilə xəbər versin. Qiymətli Kağızlar və Mübadilə Komissiyası inanır ki, bu şəxslərin kompaniya

haqqında (çünki kompaniya onları öz «daxili adamları» edib), onların alması və ya satması kompaniyanın gələcəyinə başqa investorların inam dərəcəsi üçün örnək ola bilər. Qanunların səhm qiymətlərinin idarə edilməsinə yönəldilmiş fırıldaqların və gizli alverlərin qarşısının alınmasında bir sıra uğurları olmuşdur.

Qiymətli Kağızlar və Mübadilə Komissiyası özünün son dövr tarixində korporasiya siyasətinə nəzarət məs’uliyyətini öz öhdəsinə götürmüşdür. Buna əsasən, Komissiya xüsusi hesabatlar tələb edir ki, bu hesabatlarda siyasi xadimlərə və ya başqalarına onların nüfuzlarına tə’sir etmək naminə kompaniyanın qeyri- qanuni şəkildə ödədiyi məbləğ aşkar edilsin. Bir çox ölkələrdə ümumi biznes təcrübəsi hesab edilən məsələlər bə’zi hallarda Birləşmiş Ştatlarda qeyri-qanuni hesab edilir. Konqres Qiymətli Kağızlar və Mübadilə Komissiyasına həvalə etymişdir ki, Amerika korporasiyalan hətta başqa ölkələrdə də bizneslə məşğul olanda Amerika biznes etikasını əldə əsas tutmalarına nəzarət etsin. Qiymətli Kağızlar və Mübadilə Komissiyası biznes müəssisəsinin tənzimlənməsi yolu ilə Amerika ictimaiyyətini müdafiə etmək üçün yaradılmış agentlik kimi yaxşı nümunədir.

«QARA BAZAR ERTƏSİ))

-I oktyabnn 19-da bazar ertəsi günü bütün O / “vzldünya bazarlarında səhmlərin qiyməti ciddi şəkildə aşağı düşdü. Bu, Birləşmiş Ştatlarda bazar fəaliyyətinin əsas ölçü göstəricisi olan Sənaye Kompaniyalarının Səhmləri üçün Dou-Cons indeksi (Birləşmiş Ştatlarda bazar fəaliyyətini ölçmək üçün əsas indeks) 1738.42-yə yaxın həddən 508.32-yə düşməsi ilə bağlı idi. Bir gün ərzində 22 faiz aşağıdüşmə halı 1914-cü ildən bəri baş verməmişdi. İflasın səbəblərini araşdınnaq üçün prezident komissiyası tə’yin edildi, həm komissiya, həm də Qiymətli Kağızlar və Mübadilə Komissiyası hesabatlar hazırladı.

Müəyyən olundu ki, bu məsələdə Birləşmiş Ştatlar federal büdcəsi ilə bağlı investorların qayğıları və beynəlxalq ticarət defisitləri qismən məs’uliyyət daşıyır. Xarici iqtisadi siyasəti tənqid edən Birləşmiş Ştatlar xəzinə katibi izah edərək, işarə etdi ki, başqa valyutalarla müqayisədə Birləşmiş Ştatlar dollarının dəyərinin aşağı düşməsinə imkan verən Reyqan administrasiyası da bu hadisəyə təkan vermiş ola bilər. Lakin bir çox analitiklərin və prezident komissiyasının fikrinə görə, əsas aparıcı amil ticarət

proqramı ib bağlı idi. Uol Stritdə son zamanlarda inkişaf edən bu ticarət proqramına əsasən, kompüterlər proqramlaşdırılırdı ki, payların əhəmiyyətli dərəcədə böyük miqdarının satılmasını və alınmasını avtomatik surətdə qaydaya salsın. Həmin hadisələr məhz bu zaman baş verdi.

Bazar Mexanizmlərinə Prezident Tapşınğmın Tə’sir Gücü adlanan, lakin Breydi Komissiyası kimi tanınan bu komissiya eyni zamanda Nyu-York Səhm Birjası palatasmdakı «mütəxəssisləri» də tənqid edirdi. Komissiya göstərirdi ki, bu pul qazananlar son ümidin alıcdan olmaqdan imtina etməklə və kiçik investorlarla «uşaq şıltaqlığı» ilə davranmaqla, öz vəzifələrinə e’tinasız yanaşırdılar. Qiymətli Kağızlar və Mübadilə Komissiyası kompüterləşdirmə ticarəti günahkarları sırasına birja mütəxəssislərini də birləşdirdi və investor psixologiyasında onları neqativ bir istiqamət kimi qiymətləndirdi. Hər iki təşkilat - həm Breydi Komissiyası, həm də Qiymətli Kağızlar və Mübadilə Komissiyası tənzimləmə işinə daha ciddi diqqət yetirməyə çağırdı.

1988-ci il fevralın 4-də Nyu-York Səhm Biijası elə zəmanətlər tə’sis etdi ki, bu zəmanətlər Sənaye Kompaniyalannm aksiyaları üçün Dou-Cons indeksinin konkret bir gündə 50 vahid artdığı və ya azaldığı təqdirdə ticarət proqramı üçün elektron qaydayasalma sistemindən istifadə üçün icazə vermirdi.

Elə bu zaman səhm bazarı şəfa tapdı və yüksəliş yollarına qədəm qoydu. Bu, Sənaye Kompaniyalarının aksiyaları üçün Dou- Cons indeksinin yüksəlişinin 1990-cı illərin əvvəllərində 3000-ə çatdığı dövrdə oldu. Lakin səhm bazarları yüksək dərəcədə dəyişkən də ola bilər və geniş tərəddüd zaman keçdikcə onların başının üstünü ala bilər.

AMERIKA İQTİSADİYYATININ ƏSAS CƏHƏTLƏRİ

ALTINCI HİSSƏ

# V

# IQTISADIYYATDA HÖKUMƏTİN ROLU





Amerika iqtisadiyyatında federal hökumətin rolu nədən ibarətdir? Bu rol necə olmalıdır? Birləşmiş Ştatlar iqtisadiyyatı geniş şəkildə azad müəssisə və təşkiledici iqtisadiyyat ideyasına əsaslanır. Bu ideya açıq və rəqabət bacarığı olan bazarlar vasitəsilə həyata keçirilir. Birləşmiş Ştatlar iqtisadiyyatının eyni zamanda xüsusi iqtisadi məqsədlər üçün hökumətin işə müdaxilə etməsi ən’ənəsi də var. Bu ən’ənə inhisarı məhdudlaşdırmağı, istehlakçını müdafiə etməyi, yoxsulu, əlili və qocaları tə’min etməyi və ətraf mühitin mühafizəsini əhatə edir.

Birləşmiş Ştatlar iqtisadiyyatına hökumət müdaxiləsi 1930-cu illərin Böyük Depressiyasından sonra sür’ətlə yüksəlməyə başlamışdır və 1960-cı illərdən 1970-ci illərə qədər inkişafa davam etmişdir. Lakin 1970-ci illərin sonlarından başlayaraq, amerikalıların bir çoxları onların fövqəladə hökumət tənzimləmələri hesab etdikləri tədbirin faydalı olub-olmaması haqqında suallar verməyə başladılar. 1980-ci illərdə artmaqda olan bu mübahisələr telerabitənin, hava yolları və dəmir yollar da daxil olmaqla, müxtəlif sənaye sahələrinin qismən tənzim olunmamasına gətirib çıxardı. Lakin 1990-cı illərin əvvəllərində bu sənaye sahələrinin tənzim olunmamasının gəlirləri və mənfəəti ətrafında müzakirələr hələ də davam edirdi, halbuki başqa sənaye sahələri üçün tənzimləmənin genişlənməsinə mümkün olan ehtiyacın həyata keçirilməsi qayğısına qalırdılar.

BAŞLI-BAŞINA BURAXMAĞA QARŞI HÖKUMƏT MÜDAXİLƏSİ

Amerika biznesinə münasibətdə hökumət siyasətinin nəzəri əsasları 200 ildən artıq bir müddətdən daha əvvəl «başlı-başına buraxmaq» əsasında tə'min edilmişdir. «Başh-başına buraxmaq» fransızcadan «Laissez-faire» birləşməsinin tərcüməsidir və elə bir anlayışdır ki, biznesi idarə işində faktik olaraq cilovun sərbəst buraxılması üçün fərdi mənafelərə icazə verir. 18-ci əsr Şotlandiya iqtisadiyyatçısı Adam Smit başlı-başına buraxmaq haqqında ideyaların inkişafına və bilvasitə Amerikada kapitalizmin yüksəlişinə güclü şəkildə tə'sir etmişdir. O təsdiq edirdi ki, xüsusi adamların hərəkətləri onların öz şəxsi mənafeləri ilə bağlı olduğu ilə əsaslandırılırsa, onda bazarda rəqabət olduğu təqdirdə həmin şəxslər birləşərək, cəmiyyət üçün daha artıq mal istehsal edərlər. Adam Smit hökumət müdaxiləsinin bə'zi fonnalanm təqdir etsə də, - azad müəssisə üçün ilk növbədə əsas qaydalar tə'sis etmək - bu, onun merkantilizmi tənqid və onun başlı-başına buraxmaq ideyasım müdafiə ruhundan irəli gəlirdi ki, bu da Adam Smitin Amerikada populyarlıq qazanmasına səbəb olmuşdu.

Lakin başlı-başına buraxmaq ideyasına aludəçilik Birləşmiş Ştatlarda xüsusi mənafelərə maneə törətmir ki, bir çox hallarda onlar yardım üçün hökumətə müraciət etsinlər. Dəmir yol çəkənlər 19-cu əsrdə toıpaq sahələri və dövlətdən borc pullar aldılar.
Sənaye sahələri xaricdən ciddi rəqabətlə üz-üzə gəldikdə ticarət siyasətində daha böyük miqdarda yardım almaq üçün hökumətə müraciət etdilər. Demək olar ki, Amerika kənd təsərrüfatı müxtəlif yollarla hökumət yardımından faydalanmışdır. İstehsalçılar, həmkarlar, bankirlər və başqaları bir sıra şəkillərdə, vergiləri azaltmaqdan pul yardımı kimi borclardan tam imtinaya qədər hökumət yardımı alırlar.

Başqa sözlə, başlı-başına buraxmaq nəzəriyyəsi ilə xüsusi iqtisadi məqsədlər üçün hökumətdən konkret yardım tələbi arasında daimi davam edən alış-veriş münasibətləri olmuşdur. Bununla belə, hələ də bizneslə məşğul olan kişi və qadınların çoxu bu əqidədədir ki, bir sıra məsələlərə hökumət nəzarət edir. Onlar hiss edirlər ki, onların riayət etməli olduqlan bir sıra qayda- qanunun mövcud olmasına heç bir zərurət yoxdur. Bununla

yanaşı, onlar deyirlər ki, hökumət qayda-qanunlarını qane etmək üçün doldurulan formalar pul tələb edir və onların qazanmalı olduğu pulun məbləğinə əlavə edilir. Buna baxmayaraq, bir çox başqa amerikalı da inanır ki, biznes mənfəətlərini artırmaq üçün fəhlələrin və istehlakçıların aldadılmasının və zərərə düşməsinin qarşısım almaq üçün biznesləri saxlamaq naminə ciddi hökumət qaydalarının qoyulması vacibdir. Bu görüşlərin hər ikisinin müdafiəçiləri bir çox hallarda müasir Amerika siyasi xadimləri mövqeyindən çıxış edirlər. Bu o deməkdir ki, mühafizəkar adamlar, adətən, xüsusi təşəbbüsü ümumiyyətlə təqdir edən və hökumət müdaxiləsinə qarşı çıxan adamlar kimi müəyyənləşdirilir, liberallar isə, adətən, xüsusi müəssisəni müdafiə edən, lakin hökumət müdaxiləsini qəbul etməyi daha artıq arzu edən adamlar kimi qiymətləndirilir və yəqin ki, bunu ruh yüksəkliyi ilə müdafiə edirlər.

HÖKUMOT MÜDAXİLƏSİNİN TƏRƏQQİSİ

Amerika iqtisadiyyatında başlı-başına buraxmaq siyasəti ilə hökumət müdaxiləsi arasında müvazinət həmişə sabit olmuşdur. Daha doğrusu, ölkənin ilk günlərində hökumət başçıları biznesə nəzarət üçün, demək olar ki, bir şey etməkdən boyun qaçırmışlar. Kənd təsərrüfatının inkişafına yardım və 19-cu əsrin sonlarında dəmir yol sistemi tikilişi kompaniyalarına göstərilən maliyyə yardımı nəzərə alınmazsa, hökumət biznes məsələlərində çox kiçik rol oynayıb.

20-ci əsr yaxınlaşdıqca. Birləşmiş Ştatlar sənaye sahələrinin güclənən qruplar şəklində birləşməsi iqtisadi reformaları müdafiədə ölkənin hər yerini çulğalayan hərəkatın yüksəlişinə təkan verdi. Bu reformaları müdafiə edənlərin çoxu biznesin öz sıralarından gəlmişdi. Bu hərəkatla birgə hökumət müdaxiləsini və iqtisadi nəzarəti müdafiə də gücləndi. Tədricən hökumət hərəkət etməyə başladı. 1890-cı ildə Konqres Şerman Antitrest Aktını qəbul etdi. Bu qanunun məqsədi inhisarlar kimi tanınan böyük biznes birliklərini və azad müəssisəni bərpa etmək idi. 1906-cı ildə qanunlar qəbul olundu ki, ərzaqdan və dərmanlardan düzgün istifadə edildiyinə inam hasil olunsun və ət satılmazdan əvvəl

yoxlanılsın, 1913-cü ildə hökumət yeni federal bank sistemi tə’sis etdi. Federal Ehtiyat adlanan bu sistem ölkə pul tə’minatım tənzimləmək və bank fəaliyyətinə bə’zi nəzarət etmək üçün idi.

Hökumətin rolunda ən böyük dəyişikliklər Prezident Franklin D. Ruzveltin Böyük Depressiyaya cavabı olan «Yeni Kurs»un bir hissəsi kimi baş verdi. Bu müddət ərzində 1930-cu illərdə Birləşmiş Ştatlar ən pis biznes böhranına və öz tarixi boyu ən yüksək səviyyədə işsizliyə mə’ruz qaldı. Çətinlikləri nisbətən asanlaşdırmaq üçün, Prezident Ruzvelt və Konqres bir sıra yeni qanunlar qəbul etdilər ki, bunların da əsasında səhmin satılmasını tənzimləmək üçün tədbirlər görülür, fəhlələrə birliklər yaratmaq hüququ təsdiq edilir, eyni zamanda əmək haqqı və fəhlələrin iş saatları haqqında qaydalar müəyyənləşdirilirdi. Bundan əlavə, ərzaq, əczaçılıq və kosmetika mallannm istehsalına və satılmasına daha ciddi nəzarət qoyulurdu.

1930-cu ildən qəbul edilmiş bir sıra qanun və qaydalar Amerika iqtisadiyyatının şəklini dəyişmişdir. Əslinə baxsan. Birləşmiş Ştatlarda hər hansı şəxsin almaq istədiyi elə bir şey tapılmaz ki, onu hökumət bu və ya digər şəkildə tənzimləmiş olmasın. Ərzaq istehsal edənlər dəqiq deməlidirlər ki, onların qablarmdakı, qutulanndakı və ya şüşələrindəki nədir. Heç bir əczaçılıq dərmanı diqqətlə sınaqdan keçirilməmiş və federal agentlik tərəfindən təsdiq edilməmiş satışa buraxıla bilməz. Bizneslərin bir çox növlərini hökumət işçiləri yoxlamalı, onların insan səhhəti üçün yararlı olduğunu və təhlükəsizliyini müəyyən etməlidirlər və ya yoxlamşm hər ikisi birgə aparılmalıdır. Avtomobillər təhlükəsizlik standartlarına müvafiq olaraq quraşdırılmalı və zibillənməyə qarşı qurğu ilə təchiz edilmiş olmalıdır. Malların qiymətləri aydın göstərilməli və reklamlar səmimi olmalıdır. Bunlar ancaq hökumətin istehlakçılara cari hamilik etməsini təmsil edən yolların bir neçəsidir.

Qanunlar və qaydalar da bir sıra yollarla Amerika fəhlələrinə hamilik edir. Qanunlar varislik məsələsində hüquq bərabərliyinin pozulması hallarına mane olur, uşaqları bir çox işlərə cəlb etməyi qadağan edir və uşaqları müvafiq işlərdə istifadə etmək qaydaları müəyyənləşdirir (uşaqların yaşlarına uyğun işlərdə); iş şəraiti üçün

Standartlar tə’yin edir; və müstəqil əmək birliklərinin birliklər yaratmaq, ticarətlə məşğul olmaq və əmin -amanlıqla tə’til etmək hüququnu qoruyur.

Əlavə olaraq, 20-ci əsrdə Birləşmiş Ştatlar iqtisadiyyatında federal hökumətin rolu genişlənmiş, bu rol indi yoxsulların, qocaların və əmək qabiliyyəti olmayanlann maddi ehtiyaclarını ödəmək üçün əsas cəhdləri və ətraf mühiti mühafizəni də əhatə edir.

### INHISARA NƏZARƏTDƏ FEDERAL CƏHDLƏR

İqtisadiyyatdan ilk sui-istifadə yollarından biri də biznesin fövqəladə şəkildə təmərküzləşdirilməsi idi ki, hökumət bunu ictimai mənafe naminə təshih etməyə can atırdı. 19-cu əsrin sonlarında və 20-ci əsrin əvvəllərində Birləşmiş Ştatlar sür’ətli iqtisadi təmərküzləşmə dövrü keçirirdi ki, bu da kiçik kompaniyaların böyük kompaniyalar içərisində əriyib yox olması ilə səciyyələnir. Bir çox iri kompaniyalar razılıq əldə etmişlər ki, təchizatı məhdudlaşdırsınlar və qiymətləri qaldırsınlar; bir çox hallarda onlar zəif şirkətləri qiymətləri azaltmaq yolu ilə biznesdən kənarlaşdırır və rəqabət aparanlar müflisləşənə qədər zərəri öz boyunlarına götürürlər. Sonra zərərin öhdəsindən gəlib fəaliyyətini davam etdirən kompaniyalar onların sabiq rəqiblərinin gəlirlərini qəbul edir və qiymətləri artıra bilirdilər.

Sayı artmaqda olan amerikalılar təmərküzləşmə ilə bağlı olaraq həyəcana gəlir və hərəkət etməyə çağırırdılar. Hökumət buna 1890-cı ildə Şerman Antitrest Aktını qəbul etməklə cavab verdi. Bu qanuna əsasən hər bir şəxs və ya biznes üçün ticarəti inhisara almaq, yaxud ticarəti məhdudlaşdırmaq üçün müqavilə bağlamaq, birləşmək və ya gizli razılığa gəlmək qanundan kənar e’lan olunurdu. 1900-cü illərin əvvəllərində hökumət Standart Neft Kompaniyasını və öz iqtisadi güclərindən sui-istifadə edən bir neçə başqa iri şirkətləri parçalamaq üçün bu qanundan istifadə etdi. Lakin məhkəmə bu qanuna müraciət edərək, belə bir bəhanə tapdı ki, guya qeyri-qanunilik ticarətin «həddən artıq dərəcədə» məhdudlaşdırılmasma aiddir. Hər bir kompaniya müəyyən sənaye istehsalında istədiyi qədər məhsula sahib ola bilər və yaxud ona

nəzarət edə bilər, lakin əgər məhkəmə onun hərəkətini məqbul hesab edirsə, kompaniyanı parçalamaq vacib deyildi. Kompaniyaların bir çoxu birləşmək və ya rəqib şirkətləri satın almaq yolu ilə böyüməkdə davam edirdi.

1914-cü ildə Konqres iqtisadi təmərküzləşməni davam etdirmək üçün iki qanun verdi. Həmin qanunlar Şerman Antitrest Aktını müdafiə məqsədi daşıyırdı və onlardan biri Kleyton Antitrest Aktı, digəri isə Federal Ticarət Komissiyası Aktı adlanırdı. Kleyton Antitrest Aktı ticarətin məhdud edilməsinin nə demək olduğunu daha aydın müəyyən etməyə çalışırdı. Bu qanun müəyyən alıcılara digər alıcılara münasibətdə üstünlük verən qiymət hüquq bərabərliyinin pozulmasını qeyri-qanuni eTan edir; istehsalçıların ancaq o alverçilərə mal satması haqqında müqaviləni qadağan edir ki, həmin müqaviləyə əsasən, bu alverçilər rəqib istehsalçıların məhsullarını satmamaq haqqında razılıq verirdilər və birləşmənin bə’zi növlərini, eyni zamanda rəqabətin zəifləşmə- sinə səbəb olan başqa aktlan qadağan edirdi. Federal Ticarət Komissiyası Aktı ədalətsiz və rəqabətsiz aparılan bizneslərin qarşısını almağa yönəldilmiş bir hökumət komissiyası tə’sis etdi.

1912-ci ildə Birləşmiş Ştatlarda bütün polad istehsalının yarıdan çoxuna nəzarət edən Birləşmiş Ştatlar Polad Korporasiyası polad sənayesində qiymətə rəhbərlik etməklə inhisarı öz əlinə almaqda günahlandırıldı. Lakin korporasiya əleyhinə qaldırılmış məhkəmə prosesi 1920-ci ilə qədər davam etdi. Qərarda Ali Məhkəmə müəyyən etdi ki. Birləşmiş Ştatlar Poladı inhisar etməmiş, çünki ticarəti «hədsiz dərəcədə» məhdudlaşdırma halı olmamışdır. Böyüklük və inhisar arasında fərqin nədən ibarət olduğu ehtiyatla müəyyənləşdirilib.

II Dünya Müharibəsindən sonra hökumət fəal şəkildə inhisarçı trest birliklərinə qarşı çıxıb. Aşağıdakı dörd vacib nümunə bu qarşıçıxma cəhdlərinin şahidləridir:

• 1948-ci ildə Portlənd Sement əhvalatında Ali Məhkəmənin qəran ilə polad istehsal olunmuş zavoddan malın daşınmasının həqiqi qiymətinə baxmayaraq, xüsusi yerlərdən «normal» nəqliyyat xərcini də müəyyən olunmuş qiymətin üstünə əlavə edən sistem qadağan olundu.

Tu

• 1957-ci ildə Ali Məhkəmə qərar çıxardı ki, nəhəng kimyəvi konsern olan Düpon Kompaniyası özünü General Motors səhmi paylarından məhrum etməlidir, çünki Düponun əsas səhmləri General Motors-un hakimiyyəti ilə nəticələnir.
• 1961-ci ildə elektrik avadanlığı sənayesi qiyməti rəqabətin məhdudlaşdırılması naminə müəyyənləşdirməkdə təqsirləndirildi. Kompaniyalar razılaşdılar ki, istehlakçılara vurulmuş zərərləri ödəsinlər və korporasiya icra mə'murlarınm bə'ziləri qiymətlərin müəyyənləşdirilməsində qeyri-qanuni planlaşdımıaya görə həbs olundular.
• 1982-ci ildə Amerika Telefon və Teleqraf Kompaniyası əleyhinə 13 il əvvəl qaldırılmış məhkəmə prosesi Ədliyyə Departamenti vasitəsilə həll olundu. Buna əsasən Amerika Telefon və Teleqraf Kompaniyası razılaşırdı ki, özünün Zəng Sistemi ilə işləyən 22 yerli kompaniyasından imtina etsin. Bunun əvəzində Amerika Telefon və Teleqraf Kompaniyasına icazə verildi ki, sabiqdə qadağan olunmuş fəaliyyət sahələrini genişləndirsin; bu sahələrə məTumatları işləmək, telefon və kompüter avadanlığı satmaq və kompüter rabitə vasitələri də daxil idi.

OTRAF MÜHİTİ **A** ncaq nisbətən bir qədər əvvəl federal hökumət ətraf mühitin MÜHAFİZƏ
/^mühafizəsi üçün iqtisadiyyata ciddi şəkildə müdaxilə etdi.
Birləşmiş Ştatlarda çirklənməyə nəzarət etmək üçün ilk vacib qanun 1899-cu ildə qəbul olunsa da (bu qanun su trubaları ilə gəmilər üzən sulara tökülənlər müstəsna olmaqla, hər cür maye tullantılarını sulara tökməyi cinayət kimi qiymətləndirirdi), demək olar ki, heç vaxt tətbiq edilməmişdir. Son 60 ildə çirklənməyə nəzarətlə bağlı çox az federal qanunlar qəbul edilib.

Buna baxmayaraq, 1960-cı illərdən amerikalılar sənaye inkişafının onlann ölkəsinə və bütün dünyaya mənfi tə'sir göstərə biləcəyi ilə əlaqədar get-gedə narahatçılıq keçirdiklərini ifadə etməyə başladılar. Avtomobillərin yollarda sayının artması mühərriklərin buraxdığı qazlar böyük şəhərlərdə «his» əmələ gəlməsinə və havanın zəhərlənməsinin başqa formalanna səbəb olduğu üçün lə'nətlənir. Ətraf mühit problemləri ilə məşğul

olanların çoxu açıq şəkildə təklif edirdilər ki, ətraf mühiti mühafizə üçün bir sıra iqtisadi yüksəlişi qurban vermək lazım gələcəkdir. Tezliklə çirklənməyə və zibillənməyə nəzarət üçün bir çox qanunlar verildi. Bir ilkin qanun 1963-cü ildə qəbul edilmiş Təmiz Hava Aktıdır və ona sonradan edilmiş düzəlişlərdir. Bunlar avtomobil qazları ilə zibillənmənin qarşısının alınması üçün məqsəd və hərəkət qaydalarını müəyyənləşdirdi. Zibillənmənin artmasına nəzarət üçün başqa bir vacib qanun da 1972-ci ildə qəbul edilmiş Saf Su Aktı və 1974-cü ildə qəbul edilmiş Təhlükəsiz İçmək Suyu Aktıdır.

Ətraf mühit problemləri ilə məşğul olanların əsas uğurları kimi, 1970-ci ilin dekabrında Birləşmiş Ştatlar Ətraf Mühiti Mühafizə Agentliyi (EPA) tə’sis edildi. Bu Agentlik ətraf mühiti mühafizə üçün bir neçə proqramı öz səlahiyyətinə götürdü. Bu Agentlik sənayecə inkişaf etmiş cəmiyyətdə vətəndaşlann sağlamlığının və rifah halının təhlükəli əlavə ərzaqdan necə mühafizə olunması haqqında illərlə davam edən ictimai mübahisələrə son qoydu. Amerikalıların çoxu sənaye tüstüləri, açıq tullantılar, təmizlənməmiş çirkab sular və kimyəvi tullantılar kimi havaya, suya və torpağa hopdurulan zibillənmələrə nəzarət edən bir hökumət təşkilatının olmamasına e’tiraz səslərini ucaldırdılar.

Ətraf Mühitin Mühafizəsi Agentliyinin əsas vəzifəsi havada və suda zibillənməni azaltmaq, eyni zamanda böyük itkilər hesabına, zərərvericilərlə mübarizə üçün vəsaitə, səs-küyə və radiasiyaya nəzarət etməkdir. Agentliyin səlahiyyəti çatır ki, ştat və yerli hökumətlərdə, xüsusi və ictimai qruplarda, təhsil müəssisələrində aparılan araşdırmaları və zibillənmə əleyhinə olan cəhdləri əlaqələndirsin və müdafiə etsin. Agentlik zibillənmə normalarını müəyyən edir və çalışır ki, zibillənmə normadan yuxarı qalxmasın və cədvəllər tərtib edir ki, zibil daşıyanlar o cədvələ əsasən standarta uyğun şəkildə hərəkət etsinlər. Tələblərin əksəriyyəti bir qədər əvvəl qoyulduğu üçün, sənaye sahələrinə kifayət qədər vaxt (bə’zən bir neçə il) verilir ki, standarta uyğunlaşa bilsin. Ətraf Mühitin Mühafizəsi Agentliyinin bölgə idarələri inkişaf edir, ətraf mühiti mühafizə fəaliyyəti üçün bölgə proqramları təklif və tə’min

edir. Yoxlanılan faktlar vəziyyətin bir qədər yaxşılaşdığını göstərir; məsələn, hava zibillənməsinin əslində ölkənin hər yerində bütün kateqoriyalarının azaldığı müşahidə edilmişdir.

Buna baxmayaraq, 1990-cı ildə hiss olundu ki, havanın zibillənməsinə qarşı mübarizə aparmaq üçün daha ciddi cəhdlər göstərilməlidir; Təmiz Hava Aktına Konqres vacib düzəlişlər əlavə etdi və Prezident Corc Buş buna qol da çəkdi. Başqa şeylər arasında, qanunvericilik yeniləşdirilmiş bazara əsaslanan sistem qəbul etdi. Bu sistem nəzərdə tutur ki, «turş yağış» kimi tanınan yağışa səbəb olan kükürd 4-oksidin yayılmasının əsaslı şəkildə azaldılmasını tə'min etsin. Zibillənmənin bu növünün meşələrə və göllərə, xüsusən Birləşmiş Ştatların Şərq hissəsinə, eyni zamanda, qonşuluqdakı Kanadaya ciddi zərər vurduğunu düşünürlər.

TONZİMLƏYİCİLOR: GÖZƏTÇİ İTLƏR AGENTLİKLƏRİ

**1** ^ illərin əvvəllərində Konqresin hakimiyyət səlahiyyəti verdiyi 100-dən artıq federal tənzimləmə agentliyi var idi. Bu agentliklərin hamısının bir ümumi cəhəti var - onlar ictimai mənafeləri müdafiə etmək üçün yaradılmışdır. Onlar ticarətdən başlamış rabitə əlaqələrinə, nüvə enerjisindən tutmuş ərzaq təhlükəsizliyindən istifadə imkanlarına qədər çox geniş sahələrdə fəaliyyəti tənzimləyir.

Tənzimləmə agentliklərinin işlərinə hökumətin iera, qanunverieilik və məhkəmə şaxələri tə'sir göstərir. Agentliklərə xüsusi müvəkkillər və ya şura rəhbərlik edir; əsas şərt də budur ki, iki əsas siyasi partiya bərabər şəkildə təmsil olunmalıdır. Müvəkkilləri prezident müəyyən müddətə tə'yin edir. Senat isə təsdiqləyir. Müvəkkillər, adətən, 5-7 il müddətinə tə'yin olunurlar. Konqres nəzarət edir ki, agentliklər üçün ayrılmış fondlarda olan pullardan istifadə edilsin, məhkəmə isə hər bir mübahisəli qərarı yoxlayır. Hər bir agentliyin öz ştatı var; bir çox hallarda onların sayı 1000 nəfərdən artıq olur.

Kənar adamlara belə gələ bilər ki, agentliklər məhkəmənin funksiyasını ifa edir. Agentliklər elə işlərə baxırlar ki, bu işlər korporasiyaların mə'murlan və ya başqalarının federal qanun və qaydaları pozduqları üçün məs'uliyyətə alman məhkəmə işlərinə

oxşayır. Məhkəmələrdə olduğu kimi, müttəhimləri qanuni vəkillər təmsil edirlər. Agentlik nə qərar qəbul edirsə, federal məhkəmənin baxmalı olduğu (bəlkə də xitam vermiş olduğu) işdir. Hər il agentliklər kollektiv şəkildə bütün federal məhkəmələrin qəbul etdikləri qərarlardan xeyli çox olan 100 000-dən artıq qərar qəbul edir. Bu qərarların böyük əksəriyyətini partiyalar müzakirə etmir.

Agentliklər qanun əsasında prezidentdən və nəzəri baxımdan tərəfdar olmaq siyasətindən ayrıdır. Buna baxmayaraq, tənzimləmə agentliklərinin tənqidçiləri təsdiq edirlər ki, müvəkkillər qanunvericilik hakimiyyətlərini saxlamaq naminə bə'zən Konqresin üzvlərinin tə'siri altına düşür və yaxud tənzimləməli olduqları biznesin mənafelərinin tə'sirinə mə'ruz qalırlar. Əlavə olaraq, agentlik mə'murlan tənzimlədikləri bizneslər haqqında yaxşı mə'lumat alırlar və bə'zi mə'murlara agentlikdə onların xidmət müddəti qurtardıqdan sonra işləmiş olduqları sənaye sahəsində yüksək maaşh iş təklif edirlər. Eyni zamanda, bə'ziləri şikayətlənirlər ki, bizneslə bağlı olan hökumət qaydalan, onlar yazıldıqdan sonra bir çox hallarda sıradan çıxmalı olur, çünki biznes şəraiti çox tez-tez dəyişir.

Bu amillərin bə'ziləri Amerikanın qənaət və borc (S&L) biznesinin zəiflənməsi və, demək olar ki, sıradan çıxması prosesi ilə bağlı bir sıra hadisələrlə əlaqədar olmuşdur. Bu biznes 1980-ci illərdə və 1990-cı illərin əvvəllərində Amerika «qənaətcillik» sənayesində aparıcı ünsür olmuşdur. Ən'ənəvi şəkildə Amerika qənaət və borc biznesləri çox az əmanətçilərin pulunu topladı və onları uzunmüddətli ev-mənzil əmanətinə qoydu. Onlar hər yerdə istifadə oluna bilərdi, demək olar ki, amerikalıların hamısı öz mənzillərini pul ilə almaq üçün Amerika qənaət və borc biznesinin maliyyəsini aldılar. Uzun illər boyu Amerika qənaət və borc biznesinə qoyulan əmanətlərə görə verilən əlavə gəlir faiz norması çox aşağı idi, lakin milyonlarla amerikalılar öz pullarım ona görə bura qoyurdular ki, buranı fövqəladə dərəcədə təhlükəsiz yer hesab edirdilər: əmanətə qojnılan pulun məbləği 40 000 dollardan artıq olduqda. Birləşmiş Ştatlar Federal Qənaətlər və Borc İnvestisiya Korporasiyası (FSLIC), Birləşmiş Ştatlar hökumət agentliyi və

qənaət və borc investisiyasının başqa növləri zəmanət verirdi ki, həmin pulu hər cür fövqəladə riskdən möhkəm qorusun.

Hər halda 1960-cı illərdən başlayaraq, əmanətlərin gəlir faizi norması artdı və 1980-ci illərdə o dərəcədə yüksəldi ki, qənaət və borc bizneslərinin əksəriyyəti depozitlər üçün rəqabət apara bilmədilər. Bu vəziyyət onlan təhlükəli maliyyə məngənəsinə saldı. Onlann problemlərinə cavab olaraq, hökumət 1980-ci illərdə qənaət və borc bizneslərinin (eyni zamanda bankların) ödədikləri əlavə gəlir faizi norması səviyyəsini tədricən azaltdı, sığorta edilmiş depozit səviyyəsini isə 100 000 dollara qaldırdı. Bu hərəkət qənaət və borc bizneslərinin qiymətli kağızlar portfellərində geniş və böyük itkilərə səbəb oldu, bu portfellər isə, əsas e’tibarilə, qənaət və borc bizneslərinin öz əmanətçilərinə ödədiyindən daha aşağı gəlir faizi norması toplamaq üçün idi.

Yenə şikayətlərə cavab olaraq. Konqres qənaət və borc biznesinə istehlakçı, biznes və ticarət üçün borc mülk verməyə icazə ilə məhdudiyyəti bir qədər zəiflətdi. Qənaət və borc bizneslərinin kapital tələbatlarını idarə edən bə’zi tənzimləmə prosesləri də liberallaşdırıldı. Həyat fəaliyyətini tam itirməkdən qorxan qənaət və borc biznesləri öz fəaliyyətlərini yüksək risklə bağlayaraq genişləndirdi və əmanətçilərin pulunu möhtəkirliklə mülk almaq riskinə qoydu və xüsusən Qərbdə iqtisadi şərait əlverişsiz bir vəziyyətə düşərkən, mülk almağa verilən pulların da çoxu heç bir mənfəət vermədi. Lakin büdcədə pulun azlığı və qaydalara ciddi əməl olunmasına qarşı yönəldilmiş siyasi təzyiqlər birləşib tənzimləmə ştatlarının və aparatının sayını o dərəcəyə qədər azaltmağa nail oldu ki, onlar inkişaf etməkdə olan böhranla ayaqlaşmaqda aciz qaldılar. Bu şəraitdə ikrah hissi doğuran bir sıra adamlar bə’zi qənaət və borc bizneslərini öz əllərinə aldılar ki, onları özləri və dostları üçün qarət etsinlər.

Onilliyin sonlarında qənaət və borc biznesinin böyük bir hissəsi müflislik bataqlığına yuvarlandı; 1970-ci illərdə biznesdə fəaliyyət göstərən qənaət və borc bizneslərinin yarıya qədəri 1983- cü ildə artıq mövcud deyildi; əmanətçilərin pulunun keşiyini çəkən Federal Əmanət və Borc İnvestisiya Korporasiyası özü müflisləşdi. Konqres və prezident Maliyyə Müəssisələri İslahatı,

Bərpası və Məcburi Tədbirləri Aktı kimi tanınan və vergi verənlərin maliyyə baxımından xilas edilməsi üçün tədbirlər görməli olan qanunun qəbuluna razılıq verdi. Bu akt 50 milyard dollar verdi ki, uğursuzluğa düçar olmuş qənaət və borc biznesləri bağlansın, əmanət müəssisələri üçün tənzimləmə aparatı tam dəyişsin və investisiya üçün müvafiq icbari qanunlar qəbul etdi. Müflisləşmiş müəssisələri ləğv etmək üçün Səbatlı Trest Korporasiyası (RTC) adlı yeni hökumət agentliyi yaradıldı.

1990-cı ilin martında Səbatlı Trest Korporasiyasına daha 78 milyard dollar buraxıldı. Lakin qənaət və borc bizneslərinin öz borclarını verib yaxa qurtarması üçün ümumi qiymət artmaqda davam edirdi və 1991-ci ildə 200 milyarda qədər qalxmışdı.

Qənaət və borc bizneslərinin süqutu yüksək gəlir faizi norması problemləri ilə bağlı idi, bu da başqa maliyyə müəssisələrinə, o cümlədən banklara və sığorta kompaniyalarına gətirib çıxarırdı (bunlardan bə'ziləri artıq biznesdən kənar edilmiş və yaxud müflisləşmə təhlükəsi altında idi). Qənaət və borc bizneslərinin böhranlannın səbəbləri müxtəlif olsa da, tənzimləmədən yaxaqurtarma və daha xüsusi şəkildə fövqəladə ictimai mənafeyə açıq şəkildə faydalı olan qaydaların ciddi tələblərinə riayət etməyin vacib olduğu anda siyasi təzyiq tənzimləyicilərin öz işlərini görməyə mane olmaqda əsas rol oynadı. Ciddi şəkildə təəccüb doğururdu ki, amerikalıların çoxları bu qənaətə gəliblər: bir halda ki, ayağı ağır hökumətin işləri nizama salması prosesi pisdir, vacib tənzimlənmələrin məcburi həyata keçirilməsində fövqəladə səliqəsizlik müvafiq şəkildə pis, bəlkə daha da pis olmalıdır.

İQTİSADİ YÜKSƏLİŞ VƏ SABİTLİK

X 2/ ^ V/ " Vz Li illərdə Birləşmiş Ştatlar hələ Depressiya zamanı başgicəllənmə halı keçirəndə, Birləşmiş Ştatlar hökuməti iqtisadiyyatın yüksəlişinə və sabitləşməsinə təkan vermək üçün fəal rol oynamağa başladı.

İngilis iqtisadçısı Con Meynard Keynesin bu işə vacib tə'siri oldu. Keynes iqtisadi depressiyaların təhlili və izahı yollarını inkişaf etdirmişdi. ***((Məşğuliyyət, Faiz və Pulun Ümumi Nəzəriyyəsi))*** (1936) adlı tə'sirli kitabında Keynes sanki Amerikada iqtisadi

düşünmə tərzini bir müddətə inqilablaşdırdı. Keynes gəlir, qənaət, çıxar, investisiya və gəlir faizi norması arasında qarşılıqlı əlaqə müşahidə edirdi; o inanırdı ki, iqtisadiyyatda müvafiq yer tutan xüsusi investisiyanın məbləği sistemin durğunluq dövründə olmasından və ya genişlənməsindən asılı olmayaraq, aparıcı rol oynayır. Maliyyə siyasəti yolu ilə iqtisadiyyata fəal tə’sir göstərməyin hökumətin xüsusi vəzifəsi olduğunu təsdiq edənlərin birincisi Keynes idi. O, hökumətin xərcləri və vergiləri azaltmasını iki məqsədin - yüksəlişin və sabitliyin həyata keçirilməsində ilkin alət hesab edirdi.

Keynesin ideyalarının çoxu Prezident Franklin D. Ruzveltin Yeni Kurs proqramına salındı. II Dünya Müharibəsindən sonra Keynesin tam məşğuliyyət proqramını həm Birləşmiş Ştatlar, həm də bir çox başqa ölkələr qəbul etdi. 1930-cu illərdə Böyük Depressiya dövründə Keynes demişdi ki, «xalqlar öz yollarını geriyə, çiçəklənməyə salmahdır.» O bilirdi ki, işsiz adamlara iş veriləcək və gəlirlər bölüşdürələcək, beləliklə yoxsulların da xərcləməyə pulu olacaqdır.

İqtisadiyyatla necə məşğul olmağın yollarını göstərən bu perspektiv hökumət üçün o dövrə qədər qəbul edilmiş roldan daha geniş rol təklif edirdi. 1930-cu illərdən Amerika iqtisadiyyatçıları arasında baş venuiş ikitirəlik bir çox hallarda onların Keynes təhlilinin dəyər dərəcəsinin nəyə uyğun gəldiyi ilə bağlı olurdu. 1970-ci və 1980-ci illərdə Keynes siyasəti zərbə altında qaldı, çünki bu siyasət «stagflation» adlanan dövrə təsadüf etdiyi üçün, onu açıq şəkildə məs’uliyyətdə günahlandırırdılar, «stagflation» isə yüksək inflyasiyanın və ləng yüksəlişin arzuedilməz birliyi deməkdir. Böyük hökumət əleyhinə irtica ilə nəticələnən prosesdə keynesianizm yox olmadı, lakin iqtisadi siyasətin formalaşdırılmasında, xüsusən mühafizəkar administrasiya hakimiyyətdə olarkən, daha az tə’sirli rol oynamağa başladı.

## IQTISADI SİYASƏTİN TƏ'SİS EDİLMƏSİ

Konqres 1946-cı ildə Məşğuliyyət Aktını qəbul edərkən, bəyanat verdi ki, maksimum məşğuliyyət, məhsul və alıcılıq qüvvəsinə təkan vermək federel hökumətin siyasəti olmalıdır.

Konqres prezidentə səlahiyyət verdi ki, iqtisadi Məsləhətçilər Şurasının (CEA) üç üzvünü tə’yin etsin, onlar iqtisadi şəraiti öyrənib prezidentə məsləhətlər versinlər.

Bu akt bütün məşğuliyyət formalarını əhatə edirdi, lakin məqsədə necə nail olmaq yollarını göstərmirdi. Qanun öz- özlüyündə azadlığı və rəqabəti vacib məqsədlər kimi qəbul edirdi. Qanun təsdiq edirdi ki, ölkə geniş iqtisadiyyatla məşğul olmaq üçün, hökumət idarə etdiyi biznesə deyil, azad iqtisadiyyata əsaslanmalıdır.

İqtisadi Məsləhətçilər Şurası prezidentə iqtisadi problemlər haqqında məsləhətlər verir və ona kömək edir ki, hökumət siyasətinə istiqamət versin, çünki hansı hərəkətin tələb olunduğu haqqında qərarı hökumət siyasəti qəbul edir. İqtisadi Məsləhətçilər Şurasının müstəqim səlahiyyəti yoxdur, lakin o, gəlirdə, məhsul istehsalında və məşğuliyyətdə dəyişikliklər üzərində müşahidələr aparır. Şura prezidentə iqtisadi siyasəti təklif edir və Konqresə hesabata hazırlıqda ona kömək edir.

Federal hökumətin əsas iqtisadi siyasət mə’muru xəzinə katibidir. 1789-cu ildə Konqresin yaratdığı Xəzinədarlıq iqtisadiyyat üçün maliyyə (məxaric) və vergi siyasətinin formalaşdırılmasma və tövsiyə edilməsinə, federal vergilərlə bağlı qanuni ölçülər götürülməsinə, hökumət üçün maliyyə agenti kimi xidmət etməyə, xaricdən idxal olunan mallardan gömrük almağa və gömrük qanunlarına riayət olunmasına və metal və kağız valyuta istehsalına məs’uliyyət daşıyır.

FEDERAL BüDCO T^ederal xərclər Birləşmiş Ştatlar iqtisadiyyatında hökumətin J/ əhəmiyyətli rollarından birini təşkil edir. Federal büdcə gələcəkdə alınacağı gözlənilən gəlirin təhlilini və üzümüzə gələn ildə məxaricin müfəssəl planım tə’min edir. Bu, qanun şəklinə salınmalıdır ki, illik gəlirin toplanması və fondların xərclənməsi qanuniləşdirilsin.

Büdcə prezidentin nəzarəti altında hazırlanır, sonra müvafiq dəyişikliklər edilməsi və təsdiq üçün Konqresə təqdim edilir. Büdcə haqqında mə’ruzəni Xəzinədarlıq Departamenti edir və ilin

axırında büdcə müfəttişlər tərəfindən yoxlanılır. Milli təhlükəsizliyin ehtisaslı sahələri müstəsna olmaqla, hər bir vətəndaşın yoxlamaların nəticələri, ictimai fondlann necə alındığı və xərcləndiyi ilə tanış olmaq hüququ var.

Büdcənin uğurlu mərhələləri - hazırlıq, vəkalət verilməsi, yerinə yetirilməsi və yoxlama - büdcə dövrəsi kimi tanınır. Büdcə illik fərdi gəlir vergisi, satış vergiləri ***(ad valorem)*** və biznes vergisi kimi gəlir mənbələrinin əsas kateqoriyalarını göstərmək üçündür. Xərcləri dövlət departamentləri və agentliklər sadalayır və bir çox hallarda müəyyən sahələrə, məsələn, səhiyyəyə, təhsilə və milli təhlükəsizliyə verilən məbləğ geniş şəkildə dəqiqləşdirilir. Sənəd eyni zamanda hər bir proqram üçün istənilən məbləği göstərir; əslində, bu məbləğ Konqresin səlahiyyət verdiyi məbləğlə müqayisədə verilir. Bu məbləğlər nəzərdə tutulan üç il üçün siyahıda göstərilir; bu ona görə belə edilir ki, onu oxuyan hər kəs hər bir xüsusi proqram üçün xərclərin hansı istiqamətdə hərəkət etdiyindən xəbər tuta bilsin.

Büdcəyə hazırlıq mürəkkəb bir prosesdir və, demək olar ki, bu hazırlıq bir il əvvəl başlayır. Hökumətin hər bir agentliyi lazım olan fondlar üçün ciddi sifariş verir və bə’zi hallarda bu sifarişləri maraq qrupları da müdafiə edir. Konqresdən hər qrup üçün nə qədər xahiş etmək və ümumi məbləğin nə qədər olacağı haqqında prezident son qərarı qəbul edir.

Prezident büdcəsinin Konqresdə ilkin yoxlanışmı Nümayəndələr Palatasının Pulburaxma Komitəsi aparır. Yarımkomitələr vasitəsilə hər bir departament və büdcəyə dəxli olan agentliklər dinlənilir. Fondlar üçün xahişləri sessiyalarda hər bir agentliyin mə’murları müdafiə edir. Bir sıra hallarda büdcə işlərinə Konqresdə çox müfəssəl baxılır. Konqres üzvləri pul xərcləyənləri tez-tez çox ciddi sorğu-suala tuturlar.

Maliyyə qanun layihəsi sonra Nümayəndələr Palatasının bütün üzvlərinə təqdim olunur, layihə orada qəbul edildikdən sonra Senata göndərilir. Senatın Pulburaxma Komitəsi məsələni dinləyir və sonra öz tövsiyələrini bütün Senata göndərir. Hər bir palatadan bir komitə iki büdcə arasındakı fərqləri maddə-maddə barışdırmaq üçün görüşür. Nəticədə layihə qanun şəklində təsdiq olunur və

İmza üçün prezidentə göndərilir. Əgər prezident maliyyə qanun layihəsinə veto qoyursa, layihə yenidən Konqresə qaytarıhr. Əgər hər bir Palatanın üçdə ikisi layihəni təsdiq edirsə, prezident vetosuna baxmayaraq, o, qanun olur. Əgər səslərin zəruri olan sayı toplana bilmirsə, yeni barışdırıcı bir maliyyə qanun layihəsi işlənilib hazırlanmalıdır və qanun şəklini almaq üçün səsə qoyulmalıdır. Bütün agentliklər və hökumət departamentləri üçün tam büdcə 12-dən 15-ə qədər müxtəlif qanun layihələrinə bölünür.

Prezident büdcə xahişi iqtisadi siyasət birinciliyini və administrasiyanın məqsədlərini əks etdirir. Ümumiyyətlə, hökumət il ərzində az və ya çox pul sərf edərək, iqtisadiyyatı sabitləşdirmək yollan arayır. Əslində, sabitlik tam məşğuliyyət, inflyasiyaya və deflyasiyaya nəzarət və milli iqtisadiyyatın yüksəlişi baxımından qiymətləndirilir. Başqa mülahizələr fondların bərabər şəkildə ölkənin müxtəlif bölgələri arasında bölüşdürülməsini, yoxsulların ehtiyacını ödəməyi və nisbi şəkildə müvazi büdcəyə nail olmaq cəhdlərini ehtiva edə bilər. Sonuncu məqsədə nail olmaq qeyri- müəyyən görünür. Burada o fakt əldə əsas tutulur ki, əsrin son rübündə və ya daha artıq müddət ərzində federal büdcələrin əksəri defısitdə qalmışdır.

1974-cü ildə Konqres öz xüsusi ştatını yaratdı. Konqres Büdcə İdarəsi (CBO) adlanan bu ştat müxtəlif məxaric proqramlarının müvafiq iqtisadi effekti haqqında Konqresə məsləhətlər verir və təklif olunmuş hərəkət xətlərinin qiymətləri haqqında mə’lumatla tə’min edir. Konqres Büdcə İdarəsi, büdcə də daxil olmaqla, hökumətin iqtisadiyyata sərf etdiyi xərcin ümumi effeklərinə də nəzarət edir. Konqres Büdcə İdarəsinin işi Konqresdə nizam- intizamın yaxşılaşmasına kömək etmişdir. Bu büdcəyaratma prosesi Konqresə imkan verir ki, o, özünün milli birinciliyini tə’sis etsin; bu birincilik isə sonralar prezidentlə danışıqlar aparmaq yoiu ilə müzakirə oluna bilər.

Deməli, Birləşmiş Ştatlar büdcə prosesi mürəkkəb və çoxşaxəlidir. Bir sıra çox böhranlı hallarda büdcə vətəndaşların işə qarışmasına icazə verir və bu, həmişə Amerika xalqının müxtəlif mənafeləri və siyasi fəlsəfəsi arasında barışıqla nəticələnir.


Citicard
Citicard



AMERİKA İQTİSADİYYATININ ƏSAS CƏHƏTLƏRİ

YEDDİNCİ HİSSƏ

# V

# PUL VƏ MALIYYƏ SİYASƏTİ

f\ əsrin ortalarından Birləşmiş Ştatlar siyasi xadimləri ^
V / t a m məşğuliyyət və qiymət sabitliyi kimi iki əsas məsələyə təkan vermək üçün pul siyasətinin və maliyyə siyasətinin birləşdirilməsindən istifadə etmək cəhdinə başladılar. Pul siyasəti kreditin mövcudluğuna, pulla tə'minata və onun dövriyyəsinin sür'ətinə tə'sir edirsə, maliyyə siyasəti də hökumətin xərcləmə və vergiqoyma siyasətidir. 1960-cı illərin sonlarında iqtisadiyyatçılar xalqın əsas iqtisadi məqsədlərini müdafiə üçün iqtisadiyyata nəzarətdə uğurlar qazandıqlarına inanmağa qabiliyyət səviyyəsini göstərməkdən ötrü «dəqiq kökləmə» terminindən istifadə edirdilər. Lakin «dəqiq kökləməyə» qabil olmaq üçün iqtisadiyyat mö'cüzə göstərməli idi. 1970-ci illərdə inflyasiya iki çərək də qalxmışdı və 1980-ci illərin əvvəllərində inflyasiya nəzarət altına alınsa da, federal büdcənin defisiti qanad açıb uçurdu. Beləliklə, Birləşmiş Ştatlarda pul və

maliyyə siyasətindən necə istifadə edirlər? Bu siyasətin hər ikisi hansı qiymətləri və mənfəətləri təklif edir?

BİRLƏŞMİŞ ŞTATLAR İQTİSADİYYATIN DA PUL

İqtisadiyyatda pulun məbləği həmin iqtisadiyyatın vəziyyətini müəyyən etmək üçün mərkəzi rol oynayır. O, qiymətlərin səviyyəsinə, iqtisadi yüksəlişin dərəcəsinə və məşğuliyyət səviyyəsinə tə'sir edir. Pul mübadilə vasitəsidir. İnsanlar satdıqları mal və göstərdikləri xidmət üçün pul alırlar və pul qiymətlər və borclar üçün hesablama vahididir. Əlavə olaraq, pul gələcəkdə nəyisə almağa istifadə üçün insanların saxlaya biləcəyi var-dövlət ehtiyatı olaraq, xüsusi mülkiyyət və ya qiymətli metal kimi də istifadə oluna bilər.

Birləşmiş Ştatlarda pul metal pul və ya kağız valyutadan ibarət olur. Federal qanuna əsasən, ancaq Birləşmiş Ştatlar Xəzinədarlığı və Federal Ehtiyat Sistemi valyuta buraxa bilər. Xəzinədarlıq bütün metal pullan buraxır, halbuki Federal Ehtiyat və Xəzinədarlıq hər biri bir növ kağız pul buraxır - müvafiq olaraq. Federal Ehtiyat banknotu və Xəzinədarlıq banknotu. Bütün Birləşmiş Ştatlar pullannm üstündə xalqın rəsmi deyimi var: «In God We Trust» («Bir Allaha İnanınq»).

Metal pullar dollann dəyəri əsasında müxtəlif adlarla adlanır: penni, bir sent və yaxud dolların yüzdə biri; nikel, beş sent və yaxud dollann yüzdə beşi; daym, 10 sent və yaxud dolların yüzdə onu; kvarter, 25 sent və yaxud dollann dörddə biri; 50 sent və yaxud yanm dollar və bir dollarlıq metal pul.

Birləşmiş Ştatlarda kəsilən kağız pullar, demək olar ki, tamamilə Federal Ehtiyatın banknotlandır, bunlann hamısını Federal Ehtiyat Sistemində 12 Federal Ehtiyat Bankı kəsir. Bu banknotlar belə adlanır: 1 dollar, 2 dollar, 5 dollar, 10 dollar, 20 dollar, 50 dollar və 100 dollar. 1969-cu ilə qədər Federal Ehtiyat Banklan 500 dollarlıq, 1000 dollarlıq, 5000 dollarlıq və 10 000 dollarlıq banknotlar da kəsirdi.

Birləşmiş Ştatlarda bu gün Birləşmiş Ştatlar Xəzinədarlığı ancaq başqa pul kəsir və bu banknotlar ancaq 100 dollar adı ilə kəsilir. Həm Birləşmiş Ştatlar banknotlannm, həm də Federal

Ehtiyat banknotlannm üstündə Birləşmiş Ştatlar xəzinədarlıq katibinin və xəzinədarın çap edilmiş imzaları olur.

BİRLƏŞMİŞ ŞTATLAR PUL EHTİYATI

Ölkənin pul ehtiyatı ya əmtəə istehsalına, yaxud hökumət kağız pullarına əsaslanır. Əmtəə pulları tipik şəkildə qiymətli metallara, xüsusən qızıl və gümüşə əsaslanır. Dövlət əmtəə pulu işlədərkən, pul ehtiyatının miqyası əmtəə istehsalı qiyməti və məhsulun dəyəri ilə müəyyənləşdirilir. 1800-cü illərin axırlarında və 1900-cü illərin əvvəllərində Birləşmiş Ştatlarda dönər pul qızıl standartına əsaslanırdı. Bu isə o deməkdir ki, Birləşmiş Ştatlar öz dönər pulunu müvafiq qızıla mübadilə etməyi və’d edirdi.

Digər tərəfdən, kağız pulun heç bir daxili dəyəri yoxdur. Onun dəyəri ona görə var ki, adamlar onu qəbul etmək arzusundadırlar. Kağız pulun qəbuledilmə qabiliyyətini artırmaq üçün hökumət dönər pulu qanuni ödənc vasitəsinə çevirə bilər. Bu o deməkdir ki, adamlardan qanunla tələb olunur ki, onlar bu pulu onun dəyəri müqabilində qəbul etsinlər. Bu gün Birləşmiş Ştatlarda kağız pul sistemi əsasdır, bu sistemdə milli hökumət öz mərkəzi bankı və Federal Ehtiyat Sistemi vasitəsilə pul ehtiyatına nəzarət edir. Birləşmiş Ştatlar dönər pulu qanuni ödənc vasitəsidir.

Hər halda Birləşmiş Ştatlarda pul ehtiyatı ancaq metal və kağız puldan ibarət deyil. Haqq-hesabı ödəmə depoziti də pul forması hesab edilir, çünki adamlar çek yazıb imzaladıqda pul xərclənir. Əslində, Birləşmiş Ştatlarda bütün xərclərin dörddə üçü çek ilə ödənilir. Kommersiya bankları borclar verəndə borc alanların depozit hesablarına əlavə kredit verməklə onlar çek depozit pulu yarada bilər. Federal Ehtiyat Sistemi ehtiyat tələblərini tə’min etmək yolu ilə bu pul yaradılmasına nəzarəti dəstəkləyir, kommersiya banklarının öz dönər pullarını öz banklarında təhlükəsiz yerdə saxlamaları və ya Federal Ehtiyat Bankları ilə bu bankların depozit borclarına minimum tənasübdə müəyyən edilmiş depozit verməsi haqqında tələb qaydaları qoyur. Ehtiyatların dollar hesabı ilə bütün məbləğinə nəzarət nəticəsində Federal Ehtiyat həm də bank borclarının dollar məbləğinə nəzarət edir.

Iqtisadiyyatçılar pul ehtiyatını bir neçə müxtəlif yolla ölçürlər, buna müvafiq olaraq, aktivlər də bu ölçülərə daxil edilir. Bir ölçü, bütün əlavə gəlir faizi norması da daxil olmaqla, çek hesabı kimi istifadə oluna bilən depoziti də nəzərə alır. Başqa bir ölçü qənaət edilmiş hesabları da ölçüyə daxil edir, halbuki belə hesablar avtomatik şəkildə nəsə almaqda istifadə edilə bilməz. Banklar bu hesablardan geri alınan hissələr haqqında avans qeydləri tələb edə bilərlər.

Pul ehtiyatı artanda, adamların xərcləmək üçün çoxlu pulu olur və ərzaq və xidmətlər üçün tələblər də artır. Tələb artdıqda, bizneslər ərzaq istesalmı artırmaq üçün əlavə fəhlələr icarə edirlər. Bu, iqtisadi yüksəlişin ssenarisidir. Lakin, əgər ərzaq istehsalı tələblə ayaqlaşa bilmirsə, onda qiymətlər artır. Qiymətlər arasıkəsilmədən qalxdıqca, inflyasiya ilə nəticələnir. Bu isə gəliri inflyasiyaya uyğun şəkildə artmayan adamlar üçün problemlər yaranmasına səbəb olur.

FEDERAL EHTİYAT

1^ed.» kimi də tanınan Federal Ehtiyat Sistemi Birləşmiş \\X Ştatlar hökumətinin müstəqil agentliyidir. Onun ən vacib vəzifəsi ölkənin pul və kreditlə tə’mini ehtiyatını idarə etməkdir.

Federal Ehtiyat Sisteminə 12 bölgə Federal Ehtiyat Bankı və Federal Ehtiyat Banklarının 25 filialı daxildir. Ölkənin səlahiyyət verdiyi Kommersiya banklarının hamısı, qanunun tələblərinə görə. Federal Ehtiyat Sisteminin üzvü olmalıdır; ştatlara məxsus bankların üzvlüyü könüllüdür. Ümumiyyətlə, Federal Ehtiyat Sisteminin üzvü olan bank onun yerləşdiyi bölgədə olan Ehtiyat Bankından ayrı-ayrı şəxslər öz məqsədləri üçün necə istifadə edirlərsə, o da eyni yolla istifadə edir.

Federal Ehtiyat Sistemini Birləşmiş Ştatlar prezidentinin tə’yin etdiyi 7 nəfərdən ibarət olan Müdirlərin Federal Ehtiyat Şurası idarə edir. Bu müdirlər ümumilikdə 14 il xidmət edirlər. Federal Ehtiyat Sistemi birbaşa Konqres qarşısında məs’uliyyət daşısa da, müdirlər, qanun üzrə, nə Konqresin, nə də prezidentin siyasi tə’sirinə mə’ruz qalırlar. Buna baxmayaraq, gözlənilir ki, müdirlər öz siyasətlərini həm administrasiyanın, həm də Konqresin

siyasətləri ilə əlaqələndirsinlər. Əlavə olaraq, fondlaşdırma üçün Federal Ehtiyat Konqresə bel bağlamır; o özünün idarəetmə xərclərini investisiya gəlirindən və öz xidmətlərinə görə aldığı məbləğdən əldə edir. Buna baxmayaraq, mənfəət qazanmaq və ya ictimai mənafeyə xidmət etmək fikirləri arasında ziddiyyət baş verdikdə, gözlənilir ki, Fed sonuncunu seçsin.

Fedin hərəkəti əsas hadisələrə cavab olaraq, zaman keçdikcə təkamül etmişdir. 1913-cü ildə Konqresin tə'sis etdiyi Federal Ehtiyat bank sistemi üzərində nəzarəti gücləndirmək və keçən əsrdə vaxtaşırı baş verən bank çaxnaşmasına son qoymaq üçün yaradılmışdı. 1930-cu illərdəki Böyük Depressiyanın nəticəsi kimi. Konqres Fedə səlahiyyət verdi ki, ehtiyat tələblərini müxtəlifləşdirsin və səhm bazarı ehtiyatlarım tənzimləsin. Maliyyə bəlası güman olunanda əlavə qanunlar Fed üçün krediti genişləndirməyi asanlaşdırdı.

11 Dünya Müharibəsi zamanı Federal Ehtiyat fəaliyyəti Xəzinədarlıq üçün daha aşağı faizlə borc pul almağa köməyə tabe edildi. Koreya münaqişəsi başlananda və kommersiya bankları əmanətlərinin böyük məbləğini satanda, Fed onun xeyli hissəsini aldı ki, kağız pulu qiymətdən düşməyə qoymasın. Bununla belə, Fed öz müstəqilliyini 1951-ei ildə yenidən təsdiq etdi və Xəzinədarlıqla razılığa gəldi ki. Federal Ehtiyat siyasəti Xəzinədarlıq maliyyələşdirməsinə tabe olmayacaqdır.

1951-ci ildən sonra Fed öz diqqətini daha çox daxili iqtisadiyyatın sabitləşməsinə yönəltdi və qarşısına məqsəd qoydu ki, təklifin aşağı düşdüyü dövrlərdə gəlir faizi normasını aşağı vəziyyətdə saxlasın və sür'ətli iqtisadi inkişaf zamanı onun faiz normasının artırılmasına imkan versin. 1950-ci illərin sonlarında Fed öz gücünü qiymətlərin sabitləşdirilməsinə və pulun artımının məhdud edilməsinə yönəltdi, halbuki onun 1960-cı illərdəki siyasəti tam məşğuliyyət və məhsul istehsalının artımı idi.

1970-ci illərdə kreditin genişlənməsi çox böyük vüs'ət aldı və inflyasiyanın artımı iqtisadiyyata zərər vurdu. 1979-cu ildə Federal Ehtiyat pul ehtiyatını gəlir faizi norması artımından daha müstəqim nəzarət altında tutmaq məqsədi güdən siyasət qəbul etdi. Bu siyasət pul ehtiyatı artımının zəifləşdirilməsində, kreditin

genişləndirilməsinin məhdudlaşdırılmasmda və inflyasiyanın aşağı düşməsinə təkan verilməsində uğurlu oldu. Lakin bu siyasət eyni zamanda 1980-ci illərin əvvəllərində təklifin də aşağı düşməsinə təkan verdi. 1982-ci ildə Fed yenidən pul ehtiyatının artımına nəzarəti azaltdı və daha aşağı gəlir faizi norması gətirmək sahəsində işə başladı.

Federal Ehtiyatın tam pul ehtiyatı və iqtisadiyyatda kredit üzərində nəzarəti müdafiə üçün üç əsas aləti var. Birincisi, güzəşt faizi norması və yaxud əlavə gəlir faizi normasıdır ki, kommersiya bankları Ehtiyat Banklarından fondları borc almaq üçün ödəyirlər. Güzəşt faizi normasım qaldırmaq və ya aşağı salmaq yolu ilə Fed borcu ya dəstəkləyir, ya da ona inamı öldürür. Beləliklə də bankların borc verə bilməsi üçün lazım olan gəlirin məbləğini dəyişdirir.

İkincisi ehtiyat tələbidir. Bunlar Federal Ehtiyatın müəyyən etdiyi depozitlərin faiz məzmunudur; bunu kommersiya banklan bir kənara qoymalıdırlar ki, ya dönər pul kimi onların bankında və ya depozitlər kimi onlann bölgə Ehtiyat Banklarında qalsın. Bu faizlər borc vermək üçün istifadə oluna bilməz. 1980-ci ildə Federal Ehtiyat səlahiyyət əldə etdi ki, bütün depozit götürən müəssisələr üçün ehtiyat tələbləri qoysun.

Çox güman ki, ən vacib olan alət açıq bazar fəaliyyəti kimi tanınan üçüncü alətdir. Bu, hökumət qiymətli kağızlanm almaq və satmaqdır. Federal Ehtiyat hökumət qiymətli kağızlanm banklardan, başqa bizneslərdən və ayrı-ayn fərdlərdən alanda. Federal Ehtiyat onlara onun özündən alınmış çeklə (özü kəsdiyi pulun yeni mənbəyi) ödəyir. Bu çek banka depozitə qoyulduqda,
o yeni ehtiyatlar yaradır - bunun bir hissəsi ya borc verilə bilər, ya da investisiya oluna bilər - bu ehtiyatlar isə pul ehtiyatını daha da artırır.

Bu alətlər Federal Ehtiyata imkan verir ki, pul məbləğini və krediti Birləşmiş Ştatlar iqtisadiyyatında ya genişləndirsin, ya da məhdudlaşdırsın, borc vermək üçün pul çox olanda, kredit «sərbəst» olur və əlavə gəlir faizi norması aşağı düşməyə meyl edir. Ümumiyyətlə, əlavə gəlir faizi norması aşağı düşərkən, biznes və istehlakçının xərci artmağa doğru meyl edir. Borc vermk

üçün pul az olanda, kredit «az» olur və əlavə gəlir faizi norması qalxmağa meyl edir. Az pul inflyasiya ilə mübarizə aparmaq üçün xüsusilə güclü alət hesab olunur.

Bununla belə, müəyyən amillər xüsusi məqsədləri müdafiə üçün Federal Ehtiyatın puldan istifadə etmək siyasəti imkanlarını mürəkkəbləşdirir. Birincisi, pul siyasətindən istifadə məhz ona görə çətindir ki, pul ehtiyatında dəyişikliklər iqtisadiyyatda tə’cili dəyişikliklərə səbəb olmur. Pul ehtiyatının artması və ya azalması başqa iqtisadi şərait dəyişmədikcə, iqtisadiyyata tə’sir etməyə də bilər; yeni şərait tam istənilməyən nəticə yaratmaq üçün pul ehtiyatı ölçüsündəki dəyişikliklə qarşılıqlı əlaqədə ola bilər. Əslində, qiymət sabitliyinə nail olmaq üçün pul siyasətindən istifadə cəhətləri bə’zən tam məşğuliyyətə nail olmağa əngəl törədir, işsizliyin qarşısını almaq üçün pul siyasətindən istifadə cəhdləri isə bə’zən inflyasiyaya apanr. Əlavə olaraq, pul siyasəti vəzifəsi pul ödəmək çətinliklərinin dövlət balansı ilə də mürəkkəbləşir. Bu səbəblər üzündən Federal Ehtiyat daha ehtiyatla hərəkət etməyə meyl edir və bunun üçün pul ehtiyatında çox tədriclə dəyişikliklər edir.

MALİYYƏ Qt pesifik məqsədlərə nail olmaq üçün hökumət öz xüsusi xərc və SİYASƏTİ ı3vergiqoyma fəaliyyətindən də istifadə edə bilər, Bu, maliyyə siyasəti adlanir. Özünün xərcləmə və vergiqoyma proqramlarını artırmaq və ya azaltmaq yolu ilə, federal hökumət mallar və xidmətlər üçün tələbləri artıra da bilər, azalda da bilər. Əgər hökumət öz xüsusi xərclərini azaldırsa, satışları və qazancları azaltmaqla, o, bizneslərdən çox az şey alır və adamların da xərcləmək üçün pulu azalır. Buna oxşar şəkildə, əgər hökumət vergiləri artırırsa, onda adamlann xərcləmək üçün pulu azalır. Bundan əlavə, xərcləmə və vergiqoyma siyasəti ümumi tələbi ya artırmaq, ya da azaltmaq üçün birgə fəaliyyət göstərir. Məsələn, əgər hökumət xərclədiyindən daha böyük məbləğdə vergi qoyursa, onda bu, adamların və bizneslərin gəlirlərinin axınının tam azalmasına səbəb olur. Çünki bu, mallar və xidmətlər üçün ümumi tələbi də azaldır. Bu, inflyasiyaya qarşı mübarizə metodudur.

Maliyyə siyasəti büdcə defisitlərindən istifadə edir və ya iqtisadi sabitləşmə və yüksəlişə təkan vermək üçün əlavə xərc qoyur. Birləşmiş Ştatlarda bə'zi maliyyə siyasəti alətləri öz-özünə işləyir - prezident və ya Konqres bu hərəkətdə iştirak etmir. Məsələn, tədricən artan gəlir vergisinin, ümumiyyətlə, sabitləşməyə avtomatik şəkildə təkan verdiyi hesab edilir. Şəxsi və biznes gəlirləri süquta mə'ruz qalanda, artmaqda olan gəlir vergisi hökumətin illik gəlirdən topladığını azaltmağa meyl edir və beləliklə, xərclənmə prosesində kəsirləri aradan qaldırmağa kömək edir. Xərclənmə kəsirləri isə süqut etməkdə olan gəlirləri müşayiət edir. Bununla belə, bizneslər genişlənərkən federal vergi toplanışı böyük sür'ətlə yüksəlməyə meyl edir və beləliklə inflyasiya təzyiqi azalır. Müharibədən sonrakı biznes süqutu zamanı Konqres arabir müvəqqəti olaraq ictimai işlər üçün xərclərin artırılması, xüsusi xərclərdə kəsirlərin ödənilməsi və işsizliyin qarşısının alınması kimi qeyri-adi xərclər tədbirləri haqqında qanunvericilik aktlan verirdi.

Bunlarla yanaşı maliyyə siyasətindən istifadə ilə bağlı daha başqa problemlər də mövcuddur. Çoxlan hökumət xərclərinin azaldılmasina qarşı çıxır, çünki bu, təhsili, səhiyyə qayğılanm və başqa xidmətləri tə'min etməyə istifadə olunan kömək fondlannm azaldılması kimi dərk edilə bilər. Ayn-ayn adamlara və bizneslərə daha yüksək vergi qoyulması təqdir olunmur. Əlavə olaraq, tələbdə kəskin azalmaya səbəb olmaq üçün maliyyə siyasətindən istifadə bir qədər mübahisəlidir, çünki bu nəinki ancaq inflyasiyanı azaltmağa, həm də işsizliyi artırmağa meyl edir.

VERGiQOYMA T) irləşmiş Ştatlarda federal, ştat və yerli hökumətlər öz xərclərini, əsasən, vergiqoyma yolu ilə örtürlər, belə halda hökumətin hər səviyyəsi, əsasən, bir və ya iki növdən asılı olur. Ümumiyyətlə, yerli hökumətlər öz vergi gəlirlərinin əksərini xüsusi vergilərdən alırlar, halbuki ştat hökumətləri ən'ənəvi şəkildə satışdan və aksiz vergilərindən asılı olurlar. Bununla belə, II Dünya Müharibəsindən bəri ştat gəlir vergiləri daha vacib bir şəkil alıb.

Federal hökumətin illik gəlirinin əsas mənbəyi gəlir vergisidir; bu vergi son illərdə bütün federal illik gəlirin beşdə ikisinə qədərini təşkil edirdi. Başqa federal vergilərə korporasiya mənfəəti və ictimai tə'minat vergiləri daxildir.

Federal gəlir vergisi Birləşmiş Ştatlar vətəndaşlarının və uzun müddət Birləşmiş Ştatlarda işləyən başqa ölkə vətəndaşlarının dünyada mə'lum olan gəlirlərinə və Birləşmiş Ştatlarda yaşamayan, lakin Birləşmiş Ştatlardan gəliri olan adamların müəyyən növünə qoyulur. Birləşmiş Ştatlarda ilk gəlir vergisi qanunu 1862-ci ildə Vətəndaş Müharibəsini müdafiə məqsədilə qəbul edilmişdir. Müasir gəlir vergisinin sələfi olan bu qanun dərəcələrə bölünmə və proqressiv vergiqoyma prinsipi əsasında qəbul edilmişdir. 1862-ci il vergi qanunu da Daxili Gəlir Müvəkkilləri İdarəsi tə'sis etdi və ona səlahiyyət verildi ki, vergilərin məbləğini müəyyən etsin, qoysun və toplasın, eyni zamanda hüquq da verildi ki, vergi qanunlarını mülkiyyəti və gəliri müsadirə və iddia yolu ilə həyata keçirsin. Müvəkkillərin hakimiyyəti və səlahiyyəti olduğu kimi də qalıb.

Ali məhkəmə 1895-ci ildə e'lan etdi ki, gəlir vergisi Konstitusiyaya ziddir, çünki bu vergi Konstitusiyaya müvafiq olaraq, ştatlar arasında bölüşdürülməmişdir. 1913-cü ilə qədər, yə'ni Konstitutsiyaya 16-cı Düzəliş qəbul edilənə qədər vergi alınmadı; 16-cı Düzəlişlə Konqresə səlahiyyət verildi ki, bölüşdürmə aparmadan gəlir vergisi qoysun. 16-cı Düzəliş illik gəlir vergisi qanunu ilə nəticələndi. Bu qanuna görə həm fərdi gəlirlərə, həm də korporasiya gəlirlərinə vergi qoyulurdu, lakin I Dünya Müharibəsi dövrü müstəsna olmaqla, gəlir vergisi sistemi 1930-cu illərə qədər federal illik gəlirin əsas mənbəyi deyildi.

1918-ci maliyyə ilində illik daxili gəlir toplanışı ilk dəfə olaraq, bir milyard dollardan artıq oldu. II Dünya Müharibəsi zamanı federal gəlir vergilərinin idarə olunması üçün müasir sistem müzakirəyə verildi, gəlir vergisi norması çox yüksək səviyyəyə qaldırıldı və bu vergilər federal illik gəlirin əsas mənbələrinə çevrildi. Əmək haqqından alman vergi 1943-cü ildə müəyyən edildi, bu, vergi verənlərin sayının 60 milyona

çatmasında və 1945-ci ildə vergi toplanışının 43 milyard dollara çatmasında böyük əhəmiyyət kəsb etdi.

1986-cı ilin oktyabnnda prezident Vergi İslahatı Aktı haqqında 1986-cı il qanununu imzaladı. Görünür, bu qanun Birləşmiş Ştatlar vergi sistemində gəlir vergisi başlandığı dövrdən ən vacib islahat idi. Bu qanun ilə Konqres ayrı-ayn adamlara və bizneslərə və'd edirdi ki, onlann gəlirlərinə daha aşağı vergi normaları qoysun. Bu normaları bir sıra geniş yayılmış gəlir vergisinin azaldılmasından imtina və ya daha da azaltma yolu ilə əldə edirdilər.

Vergi İslahatı Aktı 50 faiz yüksək vergi norması olan 15 vergi kateqoriyasının sabiq qanununu 15 faiz və 28 faiz olan ancaq iki vergi kateqoriyası sistemi ilə əvəz etdi. Vergilərdən şəxsi azadedilmə halları və yaxud gəlir vergisi sənədlərindən asılı olan hər bir şəxs üçün vergilərdən azad edilmiş gəlirin məbləği və bu azaldılmaları ayn-ayrı maddələr üzrə göstərməyən müfəttişlərin istifadə etdikləri verginin standart azaldılması imzalandı ki, milyonlarla aşağı gəlirli amerikalı vergilərdən azad edilsin.

Əslində illik gəliri 20 000 dollardan az olan, lakin vergi qoyulmalı olan adamların vergi məbləği çox azdır; effektiv vergi norması 31 faiz olan yüksək gəliri olan vergi verməli olanlar da belədir. Belələrinin var-dövləti vergidən şəxsən azad edildiyi üçün onlann gəlir vergisi norması 31 faizdən 15 faizə endirilmişdir.

Vergi islahatının əsas cəhəti budur ki, sabiq qanuna əsasən bir çox klassifikasiya edilmiş vergiçıxma halları ya azaldılır, ya da ləğv edilirdi - satışdan alman vergi, kredit kardları, mağazadan alınanların pulunu ödəmə kardları, növbəti borclar və avtoborclar da buraya daxildir. 2000 dollardan artıq məbləğdən çıxılan vergini Fərdi Təqaüd hesabına qoymağa hələ də icazə verilir. Lakin yeni qanuna əsasən buna o vergi verənlər üçün məhdudiyyət qoyulub ki, onları işlərində təqaüdəgetmə planı müdafiə etmir və yaxud o adamlar üçündür ki, onların illik gəlirləri təkbaşına yaşadıqda 25 000 dollardan, ər-arvad üçün isə 40 000 dollardan artıq olmasın. Əlavə olaraq, 21 faizlik ən az vergi elə ayrı-ayrı adamlara və bizneslərə qoyulur ki, onlar öz vergi borclarını azaltmaq üçün vergi faizinin üstündən çıxılmasından ötrü geniş istifadə yolları axtarmış olsunlar.

1986-cı il Vergi Aktini müdafiə edənlərin çoxlan deyirlər ki, bu islahat federal gəlir vergisi sisteminin ədalətli olduğunu təkmilləşdirmək arzusu ilə qəbul edilmişdir. Proqressivlik prinsiplərinə uyğun olaraq, federal gəlir vergisini Konqres təklif etdiyinə baxmayaraq, vergidən azadetmə hallannm, istisnalar və müxtəlif əl yeri qoyma hallarının yüksək artımı proqressivliyi elə bir illüziyaya çevirdi ki, bu illüziya bir çox varlı adamlara və bizneslərə daha aşağı məbləğdə vergilər ödəməyə imkan yaradir. Yeni qanun proqressivliyi kəskin şəkildə zəiflədir, lakin ədalətsizlikləri aradan qaldırmaq yolu ilə sistemə inam bərpa etməyi qarşısına məqsəd qoyur. Yeni qanun vergilərin təmənnasız toplanması məqsədini bir daha bəyan edir və vergilərin bə'zi başqa ictimai və iqtisadi rifahı təkmilləşdinnəyə istifadə olunacağı fikrini vurğulayır.

## İNFLYASİYA, ƏMANƏTLƏR və BÜDCƏ NATARAZLIQLARI

Pul və maliyyə siyasətinin istifadə olunmasına iqtisadiyyatçılarm inamına baxmayaraq, Birləşmiş Ştatlarda əsas iqtisadi narahatçılığa çevrilən inflyasiya 1970-ci illərin sonlarında iki gərək də yuxan qalxdı. Lakin 1980-ci illərin ortalarında inflyasiya dramatik şəkildə aşağı düşərək, istehlakçıların qayğılarını azaltdı. Bu necə icra olundu?

İnflyasiyanın aşağı düşməsinə təkan verən bir neçə amilin mövcud olduğu göstərilir. İki çox vacib amil 1980-ci və 1982-ci illərdə qiymətlərin artmasına təzyiqi azaldan təklifin kəskin şəkildə azalmasıdır. Bunlar Federal Ehtiyatın pula və kreditə qeyri-adi dərəcədə zəif nəzarəti nəticəsində baş vermişdi. Eyni zamanda ərzaq və yanacaq qıtlığı bütün dünyada səngimiş, xüsusilə, dünyanın neft ehtiyatının artımı enerji qiymətlərini istehsal edənlərin saxlamaq arzusunda olduqlan səviyyələrdən qat- qat aşağı salmışdı.

Bununla belə, təklifin aşağı düşməsinə son qoyulması da Birləşmiş Ştatlar federal büdcəsinin deflsitlərini yox etmədi. Bu iqtisadi şərait nə ilə bağlı idi?

Ümumiyyətlə, iqtisadi amillərin arxasında Birləşmiş Ştatlar federal deflsitinin yüksəlişi bir neçə onillik ərzində mövcud idi.

Daha əsaslı şəkildə federal defisit ona görə artırdı ki, federal xərclər ümumi milli məhsulun (GNP) bir payı kimi 1960-cı illərdən əhəmiyyətli dərəcədə artmışdı, halbuki illik federal gəlir (ilk növbədə vergiqoyma) ümumi milli məhsulun bir payı kimi az artmışdı. 1960-cı illərdə federal xərc ümumi milli məhsulun 19 faizindən 1990-cı ildə 23,2 faizə qalxdı; illik federal gəlir də artmışdı, lakin bu artım çox az idi - 1960-cı illərdə ümumi milli gəlir 18,2 faizdən 1990-cı ildə 19,1 faizə qədər artmışdı.

Lakin müharibədən sonrakı Birləşmiş Ştatlar hökumət xərcinin hər birinin öz qəlibi var. Təkliflərin azaldığı dövrdə federal hökumət büdcə defisitindən iqtisadiyyatı stimullaşdırmaq üçün istifadə edir. Elə ki, iqtisadiyyat genişlənmək imkanı əldə edir, bunun nəticəsində, zaman keçdikcə, federal büdcə ya tarazlaşır, ya da tarazlaşmış olmalıdır. Bununla belə, 1980-ci illərdə və 1990-cı illərin əvvəllərində iqtisadiyyatın bərpa edildiyi dövrlərdə federal hökumət əsas büdcə defisitlərini istiqamətləndirməkdə davam edirdi.

Bir çox iqtisadiyyatçılar və siyasi xadimlər bunu əsasən ölkə ehtiyatının aşağı düşməsi və ya istehlakm artması ilə izah edirdilər. Daxili xüsusi əmanətlər qeyri-adi federal defisitlərin və iri investisiyanın sün'i canlanmasının hər ikisini maliyyələşdirmək üçün kifayət etmirdi. Xaricdən kapital axınından Birləşmiş Ştatlar qənaətləri ilə investisiya səviyyələri arasındakı boşluğu doldurmağa kömək üçün istifadə edilirdi.

1980-ci illərdə federal büdcə defisitinin zəifləməsi ilə bağlı olaraq. Konqresin narahatçılığı Qram-Rudman-Holinqs defisitazaltma adlı qanunu qəbul etməyə səbəb oldu. Bu qanunun 1993-cü il büdcəsinin balanslaşdırılması üçün illik defisitdə qiymətlərin aram-aram aşağ salınmasına səlahiyyəti var idi. Bu qanun səlahiyyət verirdi ki, federal büdcə defisitini 1986-cı ildə olan ən yüksək 221 milyard dollardan kəsərək, 1987-ci ildəki 149 milyard dollara endirsin.

Belə gələ bilər ki, verginin artırılması federal xərci ödəmək və bu yolla da əmanət-investisiya qeyri sabitliyinin arxasında duran əmanətlərdən xərcləri azaltmaq olar. Lakin administrasiya və Konqresin bir sıra siyasi xadimləri qorxurdular ki, vergilərin

artırılması və vergi islahatının ləğvi işə, investisiyaya və istehsalata həvəsi zəiflədə bilər, bu da gələcək iqtisadi yüksəlişə mənfi tə’sir göstərə bilər. Bundan əlavə, vergilərin artırılması 1960-cı ildən 1980-ci ilə qədər olan müddət ərzində baş vermiş hal kimi, federal büdcə defisitinin azaldilması üçün qeyri-kafi də ola bilər.

1990-cı illərin əvvəllərində federal büdcə defisiti bir sıra səbəblər üzündən yenə də artmaqda davam edirdi. Demək olar, tam aydın oldu ki, Qram-Rudman-Holinqs planlarının həyata keçirilməsi federal xərclərin kütləvi şəkildə ixtisar edilməsini tələb etmədən mümkün ola bilməzdi. Federal xərcin ixtisarı isə bir sıra vacib proqramın azaldılması və ya ləğv olunması və, güman ki, iqtisadiyyatı təklifin ciddi şəkildə azalması ilə üz-üzə gətirə bilərdi. Bunun qarşısını almaq üçün Konqres və Buş administrasiyası 1990-cı ildə Ümumi Büdcələri Barışdırma Aktını qəbul etməyə razılıq verdi. Bu, ən varlı vergi verənlərə qoyulan maksimum gəlir vergisi normasını 31 faizə qədər qaldırdı (üç gəlir vergisi ixtisarı yaradaraq), cürbəcür başqa vergilər qoydu və hökumət xərci üçün «ayağmı yorğanına görə uzat» prinsipinə əsaslanan yeni ciddi bir arayış kitabçası hazırladı (beləliklə, hər bir yeni xərc yeni gəliri ödəməyə və ya xərcin azaldılmasına uyğun olmalı idi). Qanunun məqsədi büdcə defisitini, kobud şəkildə deyilsə, 500 milyard dollar kəsməkdir (bu o nisbətdə götürülür ki, əks halda beşillik müddətdə ola bilər), qanun defisiti ümumi milli məhsulun (GNP) beş faizindən iki faizinə qədər azaltmalı idi.

Lakin Birləşmiş Ştatlarda vergi siyasətinə gəldikdə heç bir şey müəyyən deyil, 1990-cı illərdə Buş administrasiyası uzunmüddətli kapital gəliri normasını azaltmaq üçün əl-qol açdı. Administrasiya sübuta çalışırdı ki, bu proses xərci səliqəyə salmaq, kapitalın qiymətini aşağı salmaq və investisiyanı da təqdir etmək yolu ilə iqtisadi yüksəlişin canlanmasına səbəb olacaq. İqtisadiyyat haqqında pis bir əhval-ruhiyyə ilə orta sinfə mənsub amerikalılann vergi normasının aşağı salınması tərəfdarlannm səsi yenə də eşidilir.

Aşağıda, ata öz uşaqları ilə Nyu-York Siti kino evinin bayır tərəfində, təqribən 1900-cü ildə.

Növbəti səhifədə, Miki Maus, yə'qin ki, Birləşmiş Ştatlar əyləncə sənayesinin mücəssəməsi kimi, Kaliforniyanın Anahaym şəhərində orijinal Disneylənd şənlik parkından (əsrin yığıncağı küçəsindən) əl edir.




AMERIKA İQTİSADİYYATININ ƏSAS CƏHƏTLƏRİ

# İQTİSADİ, ÇEVRİ-İŞ

^ ŞƏKİLLƏR BÖLÜMÜ

O

Birləşmiş Ştatlar iqtisadiyyatında son illərdə baş vemıiş ən müdrik dəyişikliklərdən biri mal istehsalım xidmətlər göstərilməsi ilə əvəz etməkdir. Xidmət sahəsi başqa məsələlərlə yanaşı, reklam və e’lanları, bank işlərini, məsləhətverməni, mə’lumatların işlənilməsini, əyləncələri, idarəetməni, sığortanı əhatə edir. Bundan başqa, xidmətlər və istehsalat bir-biri ilə getdikcə möhkəm bağlanır: məsələn, kompüter satıldıqdan sonra ona xidmətlə və onun istismarı ilə bağlı müqavilə bağlananda, yaxud neft məhsulu qaz stansiyaları üçün satış nöqtələri yaradanda. Əlavə olaraq, bir çox əsas sahələr süquta uğradığı və ya tədricən yavaş-yavaş yüksəldiyi halda, başqa 3diksək texnologiya sənayesi sahələri - yüksək axtarış əmsalı və inkişaf tələb etdiyi üçün - azalmışdır.






Birləşmiş Ştatlarda benzin marketinqi ancaq yeganə bir növ benzin satan xidmət stansiyasından cari satıcıya dönmüşdür. Bu, daşınan və daşınmayan cürbəcür avtomobil yanacağı, dizel yanacağı, avtomobil mühərriki və insana lazım olan məhsullar, eyni zamanda bir sıra hallarda avtomobil mexaniki xidmətləri təklif edir. Yuxarıda, Samoko xidmət stansiyası, 1929-cı il.

Növbəti səhifədə: müasir Ekskson benzin stansiyası.


EXXON
Clearance
13'
Full
Diesel


Clearance
13'
Self
EXXON



II Dünya Müharibəsindən sonra Birləşmiş Ştatlarda satış mağazaları əsas e'tibarilə şəhərkənarı satış mərkəzlərində, daha sonra isə örtülü ticarət küçələrində yerləşdirilmişdi. Ticarət mərkəzi küçələrinin sayı 1945-ci ildə 10-dan 1980-ci illərin əvvəllərində 19 mindən artığa çatdı. Yuxarıda, Yunion Steyşn Missurinin St. Luis şəhərində yeni ticarət univermaqı.

Sağda, Nyu-Yorkun Lonq Aylənində Kolin aptekinin daxili görünüşü. 20-ci əsrin əvvəllərində yerli mağazaların nümunəsi kimi.


Cafe Med





Sürücü avtomobil telefonu ilə danışır. Birləşmiş Ştatlarda damalı radio texnologiyasından istifadə 1982-ci ildən çiçəklənmişdir. Damalı telefonlar mərkəz bölgəsində gəzintidə olan adamlara imkan verir ki, avtomobil telefonu ilə danışsınlar, çünki kompüter ötürücü aparatı bir mikrofondan çağırır və telefon dəstəyi (və ya -bölmə-) söhbəti kəsmədən başqa birini də çağıra bilər.

*W*





Aleksander Qrehem Belin 1876-cı ildə telefonu İxtira etməsi rabitə əlaqələrini bütün dövrlər üçün Inqllablləşdirdl. Yuxanda, Bel 1892-ci il oktyabrın 18-də Illinoysun Çikaqo şəhəri ilə İlk telefon əlaqəsi zamanı.

Birləşmiş Ştatlarda hava yolları İlə xidməti həm Birləşmiş Ştatlar Poçt Xidməti, həm də ekspres-təyyarə və bağlama-daşıma şirkətləri göstərir. Sağda, Tenessidə Memfls Beynəlxalq Hava limanında Federal Ekspres xidmətində işçilər bağlamaları çeşidləyirlər.

Aşağıda, poçtalyon, təqribən 1800-ci ildə.













LF 69-1
LF 70-1
LF 71-1



Nyu-York Sitidə göylərə baş çəkən ağ Şəhər Korporasiya Mərkəzi (yuxarıda) dünyanın ən uca göycırmaqlayanlarından biridir, eyni zamanda, 1990-cı ildə Birləşmiş Ştatların ən böyük kommersiya bankı olan Sitibankın binasıdır.




1930-cu illərin Böyük Depressiyası bütün ölkədə bankların geniş yayılmış uğursuzluqlarının şahidi oldu. Ölkə islahatlar verdi ki, hökumət 100 000 dollara qədər depozitlərə zəmanət versin. Solda, 1933-cü İlin aprelində depozit sahibləri Nyu-Yorkda Birləşmiş Bank binasının həyətində pullarını geri almağı gözləyirlər, investorların çoxu öz həyat əmanətlərindən məhrum oldular.



1990-cı ildə Birləşmiş Ştatlar vətəndaşlarının beşdə birinin, ümumiyyətlə, 51 milyon adamın ya səhmləri var idi, ya da müştərək fondların səhminə investisiya qoymuşdu. Əsas səhm mübadilələri Nyu-York Sitidə, Çikaqoda, illinoysda və San Fransiskoda, Koliforniyada fəaliyyət göstərir. Yuxarıda, Nyu-York Səhm Mübadiləsinin daxili görünüşü, 1907-ci il.

Növbəti səhifədə: 20-ci əsrin axırlarında Çikaqo Ticarət Mübadiləsi binasının daxili görünüşü.









Birləşmiş Ştatlarda yeni və təkmilləşdirilmiş tibb avadanlığı, məhsulu və proseslərindən istifadə xəstəliklərin və xəsarətlərin diaqnozunu və müalicəsini yaxşılaşdırıb. Yuxarıda, ağrıkəsici efirin tə'siri altında xəstə qadın cərrahiyyə əməliyyatı üçün hazırlanır, təqribən 1847-ci ildə.

Solda, cərrah xəstənin qarın boşluğu nahiyəsində lazer və fotoqrafik texnologiya ilə təchiz olunmuş endoskop vasitəsilə müayinə aparır.





Kompüterlərin ixtirasına qədər idarələr faktları toplamaq üçün müxtəlif maşınlardan istifadə edirdilər. Yuxarıda, işçi qeyd edilmiş və ya perforasiya olunmuş kartoçkalardan mə'lumatı çeşidləyən və seçən Holerit tabulator maşınından istifadə edir. Birləşmiş Ştatlar Siyahıyaalma idarəsi, təqribən 1890-oı ildə.
Birləşmiş Ştatlarda bizneslər sür'ətlə və getdikcə hər cür iş tapşırmaq üçün kompüterlərdən asılı vəziyyətə düşür: bank işlərinin hesablanması, supermarketdə müştərinin aldığı malların qeydi, zavod-maşın avadanlığına nəzarət, telerabitə vasitələrini idarəetmə, eyni zamanda iqtisadi və elmi nəticələrin təhlili bu qəbildəndir. Sağda, Missuri ştatının Kanzas Siti şəhərində telerabitə şirkətinin baş qərargahında işçi Birləşmiş Ştatlar Sprint idarəsində kompüterdən istifadə edir.







AMERIKA İQTİSADİYYATININ ƏSAS CƏHƏTLƏRİ

SƏKKİZİNCİ HİSSƏ

# V

# AMERIKA KƏND TƏSƏRRÜFATININ DƏYİŞƏN SİMASI

Dövlətin lap ilk günlərindən kənd təsərrüfatı ilə məşğuliyyət Amerika iqtisadiyyatında ən vacib sahə olmuşdur və fermerlərin məziyyətlərini - onların təşəbbüskarlığını, çətin zəhmətlərini və müstəqilliklərini mədh edən dastanlar Amerika mədəniyyətində uzun müddət mərkəzi yer tutmuşdur.

Amerika kənd təsərrüfatının icmalı elə qəhrəmanlıq nümunələri təqdim edir ki, bunlar uzun bir əfsanəni xatırladır. Fermerlər, xalq nağıllarında göstərildiyi kimi, heç vaxt həqiqi mə'nada müstəqil olmamışlar, çünki fermerlər onların nəzarətindən çox yüksək dərəcədə kənar olan hava şəraiti, bazarlarda kənd təsərrüfatı məhsullarının qiyməti və hökumət siyasəti kimi amillərdən asılı olmuşlar. Bununla belə, Amerika fermerləri Birləşmiş Ştatlar cəmiyyətinin qalan hissəsinin pərəstiş etdiyi və bir çox hallarda rəqabətə ginnəyə çalışdığı individualizm və bərabər hüquq qazanmaqdan ötrü mübarizə ruhu nümayiş etdirmişdir. Nəticədə, fermerlərin bu fəaliyyəti Birləşmiş Ştatlar siyasi təfəkküründə onlara xüsusi qüvvə vermişdir. Fermerlərin sayı hətta əhəmiyyətli dərəcədə azalmış olsa da, bu qüvvə bu günün özündə də mövcuddur.

Amerika fermerləri hər hektardan çox yüksək məhsul istehsal etmək bacarığı ilə bütün dünyada şöhrət qazanmışdır. Bu, qismən təbiətin səxavəti ilə bağlıdır. Qərbi Birləşmiş Ştatların ancaq nisbətən kiçik bir sahəsində yağıntı o qədər məhduddur ki, burada səhralar mövcuddur. Başqa yerlərdə isə yağışlar ya arabir, ya da tez-tez olur, çaylar və yeraltı sular torpaqlan müntəzəm şəkildə suvarmaq imkanı verir. Dünyanın ən zəngin kənd təsərrüfatı sahələrindən bə'zisinə Amerikanın Orta Qərbində təsadüf etmək olar.

Amerika fermerlərinin uğurları eyni zamanda iri kapital qoyuluşunun fəaliyyəti və yüksək səriştəli əməkdən istifadənin durmadan artmasıdır. Toxumlar elmi cəhətdən inkişaf etdirilib.

onların yüksək məhsuldarlığına nail olunub, toxumlann cürbəcür xəstəliklərə və quraqlığa qarşı dözümü artınlıb. Kübrələmə və suvarmadan hesablamalar yolu ilə tez-tez istifadə olunur. Kultivasiya və məhsulu toplama işində maşınlardan istifadə sərf olunan əməyi azaldır və məhsulun hər vahidi üçün itirilən vaxta da qənaət edir. Hava kondisioneri olan traktorunun kabinəsində oturub, traktorunun yedəyinə qoşulmuş baha, sür’ətlə hərəkət edən,torpaq şumlayan, becərən və məhsul toplayan avadanlıqları arxasınca çəkən fermerlərə rast gəlmək qeyri-adi bir şey deyil.

YÜKSOLMOKDO
OLAN AQRİBİZNES

Amerika kənd təsərrüfatı yüksəlməkdə olan «aqribiznes»dir. Bu termin müasir Birləşmiş Ştatlar iqtisadiyyatında kənd təsərrüfatı müəssisəsinin genişmiqyaslı təbiətini əks etdirmək üçün yaradılmışdır. Aqribiznes fərdi fermerdən tutmuş kənd təsərrüfatı üçün kimyəvi preparatlar hazırlayan çoxmillətli mütəxəssislərə qədər kənd təsərrüfatı ilə baqlı bizneslərin tam kompleksinə aiddir. Buraya kənd təsərrüfatı kooperativləri, kənd təsərrüfatı bankları, kənd təsərrüfatı mallarını gəmi ilə daşıyanlar, istehlak mallan satıcıları, kənd təsərrüfatı avadanliği istehsal edən şirkətlər, ərzaq istehsalı sənayesi, baqqaliyyə şəbəkələri və bir çox başqa bizneslər daxildir.

Aqribiznes 20 əsrin sonlannda Amerika kənd təsərrüfatında baş verən dəyişiklikləri dəqiq təsvir edir. Bir əsr əvvəl Amerika işçi qüvvəsinin yarısı kənd təsərrüfatında çalışırdı; 1990-cı illərdə bu rəqəm 3 faizdən də aşağı düşdü. Keçmiş Amerikada fermerlər özləri istehlak etdikləri malları daha çox istehsal edirdilər. İndi, kommersiya ilə məşğul olan fermerlər yüksək dərəcədə ixtisaslaşmışlar, ona görə də fermaların əksərində istehlak olunan hər şey daxildə yetişdirilənlərdən deyil, indi əsasən, kənar mənbələrdən alınır. Ümumiyyətlə, icarə olunan əksər əmək sahələrini maşın texnikası əvəz etmişdir.

1940-cı ildə hər birinin orta hesabla 67 hektar sahəsi olan 6 milyon ferma var idi; 1990-cı ildə vəziyyət o dərəcədə dəyişdi ki, hər birinin orta hesabla 185 hektar sahəsi olan ancaq 2,1 milyon ferma qaldı. Məhz bu müddət ərzində fermalarda çalışanların sayı dramatik şəkildə azaldı: 1930-cu ildəki 12,5 milyon nəfərdən 1990-cı ildəki 2,9 milyon nəfərə qədər azaldı, halbuki Birləşmiş Ştatlar əhalisinin ümumi sayı bu müddətdə təqribən iki dəfə artıb.

Həmişə belə bir hal olub ki, fermaların çoxu əldən-ələ keçib, məsələn, atadan oğula keçib. Torpağa kapital qoyuluşunun və

avadanlığının qiymətinin yüksək olması indi əksər adamlar üçün kənd təsərrüfatı ilə məşğul olmağı çətinləşdirir. Əslində, bə'zi müşahidəçilər təsdiq edirlər ki, Birləşmiş Ştatlarda kiçik ailə ferması artıq mövcud olmağa qabil deyil. Amerika fermerlərinin üçdə biri və ya daha çoxu, doğrudan da, ancaq günəmuzd işləyən fermerlərdir: onlar öz gəlirlərini tə'min etmək üçün feıma ilə əlaqəsi olmayan işlər də görürlər. 20-ci əsrin sonlarında fermalar get-gedə - kiçik, birailəlik bizneslərdən tutmuş nəhəng konqlomeratlara qədər - korporasiyaların əlinə keçir. Bütün ferma torpaq sahələrinin yeddidə birə qədəri korpoprasiyalann, üçdə birə qədəri isə ailə korporasiyyalarmın ixtiyarındadır. Birləşmiş Ştatlarda torpaq sahəsinin 1 faizdən də bir qədər az hissəsi vətəndaş olmayanların ixtiyarındadır.

İcmalçıların bə'ziləri əsaslandırırlar ki, ailə fermalarını saxlamaq üçün hökumətin maliyyə imkanları vardır. Onlar Amerika təcrübəsində ailə fermalarının roluna işarə edir və sübut etməyə çalışırlar ki, ailənin iştirak etmədiyi korporasiyalar ancaq öz mənfəətlərini güdürlər. Onlar təsdiq edirlər ki, bu korporasiyalar ailə fermalanndan daha artıq can atırlar ki, ətraf mühitə zərər verən məhsul texnikasından istifadə etsinlər. Buna baxmayaraq, korporasiyaların müdafiəçiləri göstərirlər ki, ailə iştirak etmədiyi korporasiyaların kapitalı, adətən, ailə fermalanndan çox olur və beləliklə konservləşdirmə tədbirlərinə tə'sir edə bilər ki, onun da ödənmə qiyməti uzun zaman keçdikdən sonra olur.

İLKİN FERMA SİYASƏTİ

Amerika koloniyalarını idarə edənlər istiqlaliyyət əldə etdikdən az sonra toıpağın bölüşdürülməsi və istifadəyə verilməsi haqqında məsələ qaldırdılar. 1787-ci ildə Şimal-Qərb Yerli Bələdiyyə Qərarı Qərbə mərz çəkmək planı tə'min etdi, əsas məqsəd də bu idi ki, ailə fermaları üçün torpaq sahələri hazırlansın. Məsələn, Ohayo ilə Missisipi çayları arasındakı sahələrə icazə verildi ki, əvvəlcədən mövcud olan 13 ştatla bərabər şərtlər əsasında əhalinin sayı müvafiq səviyyəyə çatdıqdan sonra onlar da ştatlara çevrilsinlər. Torpaqların hər hektarı 2,50 dollara satılmalı idi.

Qərbə doğru gedərkən, bir çox təhlükələrə sinə gərərək cəsurluq nümunələri göstərən məskunların əksəriyyətinin torpaq almaq üçün pulu yox idi. Bir sıra hallarda onlar öz fermalarına heç bir aydın ad vermədən «hökumət torpağını ələ keçinnək məqsədilə həmin torpağa köçüb orada yaşayan»lar kimi məskunlaşırdılar. Bu

torpaqlarda rahatlandıqdan sonra həmin sakinlər elə kampaniyalar aparırdılar ki, onun əsasında qanun dəyişdirilsin və beləliklə torpaq sahələrinin bə'zi hissələri azad e'lan edilsin, başqa torpaq sahələri isə pulu bir neçə il ərzində ödənilmək şərti ilə çox ucuz qiymətə satılsın.

Köçkünün Torpaq Sahəsi Aktı 1862-ci ildə uğurlu qanunların ən yüksək nümunəsi oldu. Bu qanun gələcək sakinləri azad torpaq sahəsi ilə tə'min edirdi. Bu o şəraitdə mümkün olurdu ki, onlar «hökumət torpağını ələ keçirib becərmək məqsədilə həmin sahəyə köçüb orada yaşamağa » və yaxud bir neçə il ərzində həmin sahədə yaşamağa razı olsunlar. Bunun və başqa müvafiq qərarların arxasındakı strategiya torpağı ailə fermalarının ixtiyarına verməyi nəzərdə tuturdu. 1862-ci ildə qəbul edilmiş Moril Aktı başqa federal torpaqları ayrı-ayrı ştat hökumətinə verirdi ki, həmin torpaqlarda kənd təsərrüfatı və texniki kolleclər yaratsınlar. Bu yolla yaradılmış «Ixtiyarma torpaq verilmiş» 69 kollec kənd təsərrüfatı sahəsində axtarışların inkişafında və fermerlərin uğurlu nəslinin təhsil almasında bir açar rolu oynadi.

Elə ki, 20-ci əsr başlandı, kənd təsərrüfatı başçıları narahat oldular ki, hökumətin elmi axtarışlarda əldə etdiyi nəticələr fermerlərə çatdınimır. Yeni texnikanın taxıl məhsulu yığımını təkmilləşdirməkdə feımerlərə necə kömək edə biləcəyini nümayiş etdirmək üçün hökumət məhdud sayda «nümayiş fermalan» müəyyənləşdirdi və onları yerli bizneslərlə və ferma qrupları ilə birləşdirdi ki, sonuncular məhdud sayda «nümayiş agentlərini» işə icarəyə götürsünlər. 1914-cü ildə Konqres yeni «kənd təsərrüfatı inkişafı xidməti» tə'sis etməklə bu ideyaya dövlət vüs'əti verdi. Federal hökumətlə hər bir ştatın ixtiyarına torpaq sahəsi verilmiş kolleclərinin birgə maliyyələşdirdiyi xidmət agentləri icarəyə də'vət edirdilər ki, hər bir yerli hökumət bölgəsində fermerlərə və onların ailələrinə məsləhət vermək üçün idarələr tə'sis etsinlər.

1900-cü və 1930-cu illər arasında Kənd Təsərrüfatı Departamenti də əsas tədqiqatların intensiv proqramına başladı.
Bu, bir sıra yollarla fermerlərə və ümumi kütləyə kömək etdi. Məsələn, Britaniya Adalarından və Avropadan alman yeni donuzlar hibridləşdirilmişdi, bunun da nəticəsində alınan donuzlar az yemlə çox tez kökəlirdi. Torpaq yoxlanılırdı ki, hansı növ kübrədən istifadə olunsa, taxıl məhsulu istehsalının artırılmasına nail olmağı müəyyənləşdirsinlər. Aparılan təcrübələrin başqa növləri hibrid toxumda, bitkilərin kübrələnməsində, bitki və heyvan

xəstəliklərinin müalicəsində və zərərvericilərdə bitkilərə nəzarətdə böyük dramatik nəticələr verdi.

KƏND TƏSƏRRÜFATININ SƏNAYEYƏ TƏ'SİRİ

1 Q _ əsrdə kənd təsərrüfatmin yayılması Birləşmiş JL V “ Lz Ul Ştatların erkən sənayeləşdirilməsində müəyyən rol oynayıb. Erkən kənd təsən'üfatı işlərinin əksəri ərzaq, kənd təsərrüfatı malları ilə və ya xüsusi bir yerdə istehlak malları ticarəti ilə bağlı olsa da, adətən, kənd təsərrüfatı məhsullarının satışı ilə əlaqədar hansı kiçik sənaye sahəsini inkişaf etdirmək olardı.

19-cu əsrin ortalarına yaxın Amerikada Sənaye İnqilabı başladıqda kənd təsərrüfatı ilə sənaye arasında əlaqələr xeyli gücləndi. Sənayenin irəliləyişi, ilk növbədə nəqliyyat sahəsindəki inkişaf fermerə öz mallarını bazara çıxarmaq üçün böyük kömək oldu. Gülünc də görünsə, əməyi yüngülləşdirən sənaye sahələrinin çoxu kənd yerlərinin özündən gəlirdi. Bu, fermerlərin iş yerlərini dəyişərək zavod və fabriklərdə işləmək üçün şəhərlərə axını şəklində olurdu.

HÖKÜMOT YARDIMININ BAŞLANMASI

kərbə doğru yönələn hərəkət kənd təsərrüfatı məhsulları üçün

'zaman-zaman qiymətlərin yaxşı olması, bə’zən də aşağı qiymətə verilməsi ilə səciyyələnir. Öz torpaq sahələrini almış olan və ya gəlib orada məskunlaşan fermerlər yüksəlişin başlanğıcına yaxın sanki çiçəklənirdilər. Onlar öz məhsullarını satmaqla pul qazanır və bə’zən arabir öz torpaqlannı nisbətən yaxşı qiymətə də sata bilirdilər. Bununla belə, inkişaf səviyyəsinin ən yüksək nöqtəsinə çatana yaxın fəaliyyətə başlayan fermerlər, adətən, əzab çəkirdilər. Onlar öz məhsulları üçün illərin ucuz qiymətlərinin uğuru ilə üz-üzə gəldilər və bir sıra hallarda öz fermalarını tamam itirdilər - əlbəttə, onların becərmək üçün ələ keçirdikləri və sahəsində yaşadıqları torpaq müstəsnadır. Öz fermalarını itirənlərin bə’ziləri icarədar oldular və daha kiməsə işləmək məcburiyyətində qaldılar. Bu nümunə Cənubda daha geniş yayılmışdır. Orada azadlıq əldə etmiş qullar bə’zi hallarda icarədar fermerlər olurlar və yaxud ağların sahib olduqları torpaqda «məhsula şərik» olurlar. Başqa fermerlər Qərbə daha uzağa getdilər ki, başqa fermalarda özləri üçün torpaq ələ keçirərək, onu becərməklə məşğul olsunlar, ya da torpaq sahəsinin sahibi olsunlar. Dövrün fermerlərinin əksəri, əsasən, optimistlər idilər və Amerika idealına inanırdılar ki, ciddi şəkildə işləyən və kifayət dərəcədə bəxti gətirən hər bir adam uğur

1870-ci illərdə fermerlər dövlət siyasətinə münasibətdə daha fərasətli oldular. Onlar e’tiraf edirdilər ki, hökumət siyasəti onların güzəranlarına ya kömək edir, ya da mane olur və müəyyən şikayətlərin düzəldilməsi üçün hay-küy salmağa başladılar. Xüsusən, fermerlər hökumətdən tələb etməyə başladılar ki, yeni torpaqların kəşfini ləngitməklə hökumət qiymətlərin sabitləşməsinə kömək etsin. Əlavə olaraq, onlar təklif etdilər ki, bank işləri sistemində islahatlar apanlsm; fermerlərin kreditə ehtiyacı olduqda məhz bu, onlara fayda verə bilər, çünki kreditin olmaması həm Qərb, həm də Cənub fermerləri üçün əsas proses idi. Fermerlər elə bir siyasət istəyirdilər ki, bu siyasət onları «ucuz pulla» və ya onların borc almalı olduğu pula aşağı gəlir faizi norması ilə tə’min etsin.

Başqa tələblərə yaxşılaşdırılmış nəqliyyat sistemi daxil idi. Bu sistem fermerlərə onların məhsullarını uzaq bazarlara aparmaq imkanları yaratmaqda müstəsna əhəmiyyəti olan dəmir yolların qaydaya salınmasını da ehtiva edirdi. Dəmir yol kompaniyaları tez-tez qeyri-bərabər və ya ədalətsiz qiymətlər tələb edirdilər. Taxıl məhsullannm Amerika bazarlarına və okeanın o tayına aparmaqdan ötrü gəmilərə yüklənməsi üçün limanlara daşınmasında dəmir yolların həyati rolu faktla izah olunurdu ki, 1870-ci illərə qədər bütün kənd təsərrüfatı məhsullarının təqribən beşdə biri istehlakçıya çatana qədər xarab olurdu, amma həmin onillik ərzində tez xarab olan ərzaqların saxlanması işinə kömək üçün dəmir yol vaqonlarında həm soyuducular var idi, həm də qızdmcılar.

Fennerlər istehlak mallarını daha ucuz ala bilmək üçün xaricdən idxala daha aşağı tariflər qoyulmasını tələb edirdilər. Güman ki, onların ən çox mübahisə doğuran tələbi inflyasiyaya uğrayan dönər pulun ancaq qızılla deyil, həm qızıl, həm də gümüşlə geri götürülməsi idi. Fermerlər güman edirdilər ki, pulla tə’minolunmanm genişlənməsi kənd təsərrüfatı məhsullarının daha yüksək qiymətlərə satılmasına apara bilər.

Fermerlərin qiyamı öz yüksək həddinə 1896-cı ildə, onların müdafiəçilərindən biri Uilyam Ceninqs Brayəni Demokratik Partiya prezidentliyə təklif edərkən çatdı. Ümumiyyətlə, şəhər əhalisi və Şərq biznes marağı fermerlərin tələblərinə şübhə ilə yanaşırdılar, və Brayənin Respublikaçıların namizədi Uilyam MakKinlinin əlində məğlubiyyətinin səbəblərini də bununla izah edirdilər. Bu, fermerlər hərəkatının daha radikal dövrünün sonu kimi qeyd olundu; buna baxmayaraq, onların tələb etdikləri islahatlardan bir neçəsi, o cümlədən, nəqliyyatın qaydaya salınması federal və ştat səviyyələrində həyata keçirildi.

I Dünya Müharibəsində artıq köçkünlərin yaşamaqdan və torpaq sahəsini becərməkdən ötrü yeni torpaqlar ələ keçirmək imkanı praktik cəhətdən mümkün deyildi. Dəfələrlə kultivasiya aparılması və uzunmüddətli torpaq eroziyası Birləşmiş Ştatlar kənd təsərrüfatı torpaqlarının çoxunun bərəkətini azaltmışdı. Əlavə məhsul torpaqları əldə etmək üçün meşələr doğranılır və yandırılırdı. Qreyt Pleynzdə geniş çəmənliklər otlaqlara çevrilib boşaldılmışdı. 1930-cu illərin ortalarında bir neçə il davam edən quraqlıq Orta Qərbdə yüksək dərəcədə məhsul itkisi ilə nəticələndi. Qreyt Pleynzin külələri otlaq yerlərdə güclü toz tufanına səbəb oldu.

Bu tələbə cavab üçün yeni torpaqdan istifadə və torpaqların xama qo)mlması siyasəti inkişaf etdirilməyə başladı. Hökumət qərara gəldi ki, torpaqdan daha yaxşı istifadə təcrübəsi hesabına fermerləri ruhlandırmaq və onlara təhsil vermək lazımdır. Müstəqil fikirli fermerlər bə’zən müəyyən edirdilər ki, gələn ilin məhsulu haqqında düşünməkdənsə, uzun müddət şəxsi mənfəət ümidi ilə yaşamağı qəbul etmək çətindir. Hökumət xamaqoyma agentləri daha yaxşı texnika nümayiş etdirməklə məşğul idilər. Elə ki, onların yeni üsuldan istifadə edən qonşularının təsərrüfatlarının çiçəkləndiyini gördülər, onlar da yeni üsulu qəbul etməyə başladılar. Daha sonra, pulsuz xidmət şəklində, ya da hətta nağd pul ödəmək şəklində hökumət əmək haqqı proqressiv sistemləri təklif olundu ki, torpaqlar yaxşılaşdırılsın.

1920-ci illərdə Amerika kənd təsərrüfatı mallarına olan tələbat aşağı düşdü, çünki I Dünya Müharibəsindən sonra Avropa ölkələri özlərinə gəlməyə başladılar və xaricdən mal alınmasının azaldılması haqqında ciddi proqramlar tə’sis etdilər. Bunun da nəticəsində kənd təsərrüfatı mallarının qiyməti kəskin şəkildə aşağı düşdü. Bu dövr fennerlər üçün əvvəlki dövrlərdən daha pis idi, çünki fermerlər artıq iqtisadi cəhətdən müstəqil deyildilər. Onlar kənd təsərrüfatı maşınları, toxum və kübrələr üçün pul ödəyir, eyni zamanda istehlak malları da alırdılar. Fermerlərin aldıqları mallann qiymətləri sabit qalırdı, halbuki onların istehsal etdiyi malların qiymətləri aşağı düşürdü. 1929-cu ildə başlamış bu cür inkişaf 1930-cu illərdə davam edən Böyük Depressiya dövründə daha da pisləşdi.

1929-cu ildə Prezident Herbert Huver federal Kənd Təsərrüfatı Şurası təşkil etdi. Bu Şura təklif və tələbə birbaşa müdaxilənin əsaslarını tə’sis etdi və fermerlər üçün daha böyük iqtisadi sabitlik yaratmaq haqqında ilk dövlət qanun layihəsini komissiyaya təqdim etdi.

1933-cü ildə Prezident Franklin D. Ruzvelt hakimiyyətə gələrkən, onun təklif etdiyi ilk tədbirlərdən biri Konqresin bir qədər sonra qəbul etdiyi Kənd Təsərrüfatını Tənzimləmə Aktı oldu. Bu qanun kənd təsərrüfatı katibinə səlahiyyət verirdi ki, fermerlərlə könüllü razılıq əsasında məhsulu azaltsın. Belə hallarda, fermerlər öz torpaqlarını istifadədən qoyduqları üçün hökumət onlara pul verirdi. Bu pul ərzaq istehsal edənlərin ödədikləri istifadə vergisi fondu hesabına verilirdi. Bu qanunu Ali Məhkəmə 1936-cı ildə Konstitusiyadan kənar e'lan etdi, ona görə ki, ərzaq istehsal edənlərdən alman vergi məhsula nəzarət proqramına tə'sir göstərmək üçün istifadə oluna bilməz. Buna baxmayaraq, tə'cili şəkildə yeni qannunlar verildi. Bu qanunlar da torpağın konservasiya prinsiplərinə əsasən torpaqdan istifadə olunmaması və selgəlmə- sinin qarşısını almağa nəzarət tədbirləri baxımından eyni nəticəni verdi. Ruzvelt administrasiyası inanırdı ki, dövlət torpaqlarının yenidən qurulması dövlətin mənafeyinə xidmət edir və, sadəcə olaraq, başqa vətəndaşların hesabına fermerlərə yardım planı deyildir. Daha sonralar, hökumət fermerlərə borc pul götürmək imtiyazları verdi ki, onlar kənd təsərrüfatı maşınları, hibrid toxumlar və kübrələr ala bilsinlər.

Birləşmiş Ştatlarda fermer ailələrinə yardım üçün başqa tədbirlər də görüldü. 1935-ci ildə Konqres Kənd Elektrikləşdirmə Administrasiyasım tə'sis etdi. Bu administrasiya kənd yerlərinə elektrik qüvvəsi xətləri çəkirdi. Yerli kooperativlər tə'sis edildi və federal hökumət onları kreditlə tə'min etdi ki, onlar da kənd elektrik qüvvəsi xətləri çəksinlər. Fermerlər tezliklə müəyyən etdilər ki, elektrikləşdirmə onlar üçün böyük texnoloji tərəqqiyə səbəb olub. 1960-cı ildə bütün fermaların 97 faizi elektrikləşdiril- mişdi. Fermerlərə göstərilən başqa bir yardım da «fermadan bazara yollar» şəbəkəsi idi ki, bu da qəsəbə və şəhərləri kənd yerlərinə daha artıq yaxınlaşdırdı.

### QİYMƏT və GƏLİRİ MÜDAFİƏ

1 O ^ -I təsərrüfatı qanunvericiliyi femerlər Vy D O " L/1 üçün qiymət «bərabərliyi» anlayışını qəbul etdi. Bu elə bir qiymət idi ki, həmin qiymət fermerlərə kənd təsərrüfatı malları qiymətlərinin ən münasib olduğu dövrün eyni münasib qiymətinə alınması qabiliyyətini tə'min edirdi. Əgər məhsul bərabər qiymətin xüsusi müəyyən edilmiş faizinə satıla biləcək qədərdən böyükdürsə, hökumət bu əlavəni ödəməyə razılıq verir. Bu, ümumiyyətlə fermerlər ilə alış-veriş müqaviləsi və ya

kömək üçün olmayan borcvermə proqramları əsasında olur. Bu borcvermə proqramları əsasında, hökumət fennerlərə anbarlarda saxlanmağa qoyulmuş taxıl üçün borc kimi müəyyən edilmiş qiymət verir. Fermerlər taxılı hökumətə qaytarmaq yolu ilə borcu tam şəkildə ödəyə bilərlər.

Təqribən yarım əsr davam edən bir müddət ərzində bərabərlik prinsipini müdafiənin müdrik bir hərəkət olub-olmadığı haqqinda əsəbi mübahisələr gedirdi. Bir çox adamlar, baha başa gəldiyi üçün, belə müdafiəyə qarşı çıxırdılar. Başqa bir problem də bu idi ki, taxıl anbarları partlayırdı; II Dünya Müharibəsindən sonra atılmış gəmilər 1950-ci illərdə buğda ilə doldurulmuşdu, qalan buğda isə yerə töküldüyü üçün tezliklə çürüyürdü.

1980-ci illərin əvvəllərində hökumətin Natura ilə Ödəmə (PİK) Proqramı taxıl məhsuluna əhəmiyyətli dərəcədə tə’sir etdi. Bu proqramın əsas məqsədi mümkün olan taxıl, düyü və pambıq ehtiyatlarını azaltmaq, bazar qiymətlərini gücləndirmək və hökumət anbarlarının dəyərini aşağı salmaq idi. Natura ilə Ödəmə əsasında, fermerlərə onlar məhsul sahələrini azaltdıqları üçün hökumətə məxsus əmtəələr ilə ödəyirdilər. Natura ilə Ödəmə Amerika taxıl sahələrini 25 faizə qədər azaltdı.

1973-cü ildə Birləşmiş Ştatlar fermerləri «defisit» ödənişi formasında gəlir yardımı almağa başladılar. Bu yardımlar fermerlərin taxıl məhsuluna aldıqları bazar qiyməti ilə müəyyən edilmiş planlı qiymət arasindakı fərqə görə fermerlərə kompensasiya üçün nəzərdə tutulmuş hökumət ödənişi idi. Bu proqramda iştirak etmək üçün fermerlər yenə də torpaqlarının bir hissəsini məhsul istehsalından kənara çəkməli idilər.

Qiymət yardımı və defisit ödənişləri ancaq taxıl, düyü və pambıq kimi müəyyən əsas mallara aid edilir. Bir çox başqa məhsullara görə federal hökumət maddi yardımı verilmirdi. Bə’zi məhsullar, məsələn, limon və portağal əsil marketinq məhdudiyyətinin mövzusudur. «Marketinq qaydalari» adlanan anlayış əsasında taxıl məhsulunun onu yetişdirən fermerin təzə bir mal kimi bazara çıxanla bilməsi həftədən-həftəyə məhdudlaşır. Belə qaydalar satışı məhdudlaşdırmaqla fermerlərin aldıqları qiymətləri qaldırmağa xidmət edir.

ARTIQ KƏND TOSORRÜFATI MALLARININ BÖLÜŞDÜRÜLMƏSİ

1 Q O * illərdən 1980-cı illərə qədər Amerika kənd x .^təsərrüfatı problemi izafılik idi. İzafi ərzaq məhsulundan istifadəyə kömək üçün iki cür proqram inkişaf etdirilirdi. 1954-cü ildə Konqres «Sülh üçün Ərzaq» qanunu adlı 480 sayli İctimai Qanun qəbul etdi. Birləşmiş Ştatlar ixrac etdiyi ərzaq və liflər Avropa və Yaponiyanın yaralarının sağalmasına kömək etdi, beləliklə də, siyasi xadimlər belə qərara gəldilər ki, bu cür mal ixracatı inkişaf etməkdə olan ölkələrin iqtisadi yüksəlişinin təkmilləşməsinə tə’sir edəcəkdir.

Sülh üçün Ərzaq proqramında fermerlər qiymətləri aşağı salan milli izafi artımın azalması yolunu görürdülər. İqtisadiyyatdan başı çıxan şəhər sakinləri belə hesab edirdilər ki, bu yol artıq taxıl məhsulu ehtiyatının ümumi ictimai dəyərini kəsməkdir. Nəhayət, humanitar sahələrlə məşğul olanlar bu proqrama dünya açlarım ərzaqla tə’min etməyə yardım vasitəsi kimi baxırdılar. Ərzağın çoxu inkişaf etməkdə olan ölkələrdə ödənişin proqressiv sistemində istifadə olunurdu. Bu ölkələrdə fəhlələr yerli inkişaf layihələrində əmək haqqım Amerika ərzaq məhsulu ilə alırdılar.

Birləşmiş Ştatlar ərzaq istehsalindakı uğurları bə’ziləri gələcəkdə dünya əhalisini ərzaqla tə’min etmək sahəsində bütün dünyada edilən cəhdlərin mühüm bir hissəsi kimi qiymətləndirir. Uzun illər ərzində Amerika izafi taxılı dünyanı ərzaqla tə’min etmək işində vacib amil rolu oynamağa kömək etmişdir. Dünya əhalisinin artımım nəzərə alaraq, Amerika kənd təsərrüfatı ilə dünyanın qalan hissəsi arasında sürəkli əlaqələr gözləmək ağlabatan bir haldır.

İzafi ərzaq eyni zamanda Birləşmiş Ştatlarda kifayət qədər ərzaq tapmayan adamlan yeməklə tə’min etmək işində də istifadə olunur. Bir proqram hökumətin gündəlik aldığı izafi məhsullardan və başqa əmtəə mallarından istifadə edərək, azgəlirli ailələrin uşaqlarının ucuz qiymətlə və ya müftə məktəb yeməyi ilə tə’min edir. Başqa bir proqramda hökumət 1980-ci illərdə izafi pendir, yağ və yağsız süd tozunu kasıblar arasında bölüşdürdü. Üçüncü proqram federal Ərzaq Talonu proqramı 1970-ci illərin ortalarında qəbul edildikdən sonra sür’ətlə inkişaf etdi. Bu proqrama əsasən, aşağıgəlirli adamın ixtiyarı var ki, ərzaq kuponu alsın. Bu kuponlar baqqaliyyə dükanlanndan ərzaq almaq üçün ödəniş vasitəsi kimi qəbul edilir.

DAXILI KƏND TƏSƏRRÜFATI SİYASƏTİYƏ DÜNYA TİCARƏTİ

Fermerlər üçün qiymətin, gəlirin və başqa yardımın bə'zi forması, demək olar ki, kənd təsərrüfatı məhsulu istehsal edən hər bir ölkədə istifadə olunur. 1970-ci illərin sonları və 1980- ci illərin əvvəllərində dünya kənd təsərrüfatı bazarı şəraiti getdikcə müxtəlifləşdi və rəngarəngləşdi; kənd təsərrüfatı məhsulu istehsal edən ölkələr daxili bazarı sabitləşdirmək üçün proqramlar tə'sis etdi. Ölkələr ya mövcud proqramları gücləndirdilər, ya da öz fermerlərini bir çox hallarda «xarici» dağıntı hesab edilən haldan müdafiə etmək məqsədilə belə proqramların yerinə yenisini gətirdilər. Son illərdə bu siyasətlər kənd təsərrüfatı malları üçün xarici bazarların qarşısmi almağa. Beynəlxalq malların qiymətinin aşağı düşməsinə və ixrac edən bir sıra ölkələrdə kənd təsərrüfatı mallarının izafi dəyərinin artmasına təkan verir.

1980-ci illərdə Amerika fermerləri iqtisadi çətinlik dövrünə qədəm qoydular. Kənd təsərrüfatı malları ixracatı tənəzzül etdi, bu qismən başqa dönər pul vahidləri ilə nisbətdə Birləşmiş Ştatlar dollarının yüksək dəyəri ilə bağlı idi (bu hal xarici alıcılar üçün Birləşmiş Ştatlar məhsullarının dəyərini artırdı). Taxıl məhsulu qiymətləri aşağı düşdü, əlavə gəlir faizi norması yuxarı qalxdı və gəlirləri yüksək olanlar ödəməli olduqları pulu borc şəklində saxlamaqda davam etdirmənin fermerlərə ciddi mənfi tə'sir etdiyini fermerlər müşahidə etdilər, iqtisadi bəladan yaxa qurtarmağa yardım üçün bir sıra hökumət proqramları və özəl proqramlar qəbul olunmağa başladı.

1985-ci ildə Konqres Birləşmiş Ştatlar kənd təsərrüfatı məhsullarının beynəlxalq rəqabət gücünü təkmilləşdirmək üçün yeni kənd təsərrüfatı qanunu qəbul etdi. Ən sadə dil ilə desək, bu qanun orta bazar qiymətlərinin dəyişdirilməsinə cavab olaraq, əsas kənd təsərrüfatı mallarına qiymətlərin dəyişdirilməsini müdafiə etməyi təklif edirdi. Bundan əlavə, bu qanunvericilik ətraf mühitdə baş verən hadisələrə həssas olan torpaqların 16-18 milyon hektanmdan 10-15 il istifadə etməmək proqramını da əhatə edirdi və 5 il ərzində planlı qiymətləri 10 faizə qədər aşağı saldı.

1986-cı ilin iyulunda Birləşmiş Ştatlar beynəlxalq kənd təsərrüfatı ticarətinin hərtərəfli islahatı üçün yeni bir təkliflə çıxış etdi. Bu təklif hərtərəfli ticarət danışıqlarının Uruqvay Dövrəsi adı ilə tanınır. Birləşmiş Ştatlar dünyanın qabaqcıl beynəlxalq ticarət müqaviləsi olan Tariflər və Ticarətdə Ümumi Razılıq (GATT) müqaviləsinin 90-dan çox üzvünə müraciət etdi ki, ticarət islahatlarının daha geniş paketi kimi bütün kənd təsərrüfatı borclarının və kənd təsərrüfatı bazarlarının qiymət, məhsul, ticarət

VƏ başqa pozğunluqlarına səbəb olan digər siyasətlərin tədriclə yox edilməsi haqqında danışıqlar aparsınlar.

Birləşmiş Ştatların verdiyi təklifin dalınca başqa ölkələr və ya ölkə qrupları da bir sıra əlavə təkliflər verdilər. Bu təkliflər geniş şəkildə rəngarəng olsalar da, başlanğıc səviyyəsində iştirakçıların böyük əksəriyyəti sanki ticarətə əngəl törədən borclardan uzaqlaşmaq və azad bazarlara doğru getmək ideyası ilə razılaşırdılar. Xüsusən, Birləşmiş Ştatlar Avropa kənd təsərrüfatı borclannm mümkün olan ləğvi, eyni zamanda yaponların və Cənubi koreyalılarm düyü idxalına qadağanına son qoyulması üçün qanun layihəsi verdi. Buna baxmayaraq, kənd təsərrüfatı borclarını kəsmək haqqında beynəlxalq razılıqlar əldə etmək cəhdləri ilə bağlı danışıqlar daha əvvəllər olduğu kimi heç də tez-tez asan getmirdi. 1990-cı il dekabrın 31 -nə planlaşdırılmış heç bir razılıq əldə oluna bilməzdi. Danışıqlar dayandırılmışdı və, ola bilsin ki, uğursuzluğa apanrdı, lakin 1991-ci ilin ortalarında Qərbin əsas sənaye ölkələrinin başçıları Uruqvay Dövrəsi damşıqlanm uğurla bitirmək üçün ikinci dəfə müzakirədə qanun layihəsini qəbul etdilər və bu danışıqlar 1992-ci ilin əvvəllərinə kimi davam etdi.

Bu zaman federal büdcə defisitlərinin yüksək səviyyəyə doğru davam etməsi ilə Birləşmiş Ştatlar hökuməti 1990-cı ildə Amerika istehlakçılarının və vergi verənlərinin fermalara yardımının yükünü azaltmaq üçün daha ciddi cəhdlər göstərdi. Konqres qanun qəbul etdi ki, il fermerin ən’ənəvi şəkildə aldığı defisit ödənişindən fərqli olan alternativ məhsul və ya məhsullar becərməyə imkan verir. Bu o zaman olur ki, əkin sahələri defisit ödənişləri üçün hesab edilir. Guman olunurdu ki, bu, 5 il ərzində 10 milyard dollara yaxın qənaətlə nəticələnəcəkdir. Bu isə taxıl məhsulu səpininin cilovlanması yolu ilə ola bilərdi. Belə hal defisit ödənişləri hesab edilmirdi. Eyni zamanda bu, dəyişən təcrübədə təbii cəhətdən saf məhsul almağa maraqlandırırdı. Lakin yüksək və möhkəm qiyməti müdafiə müəyyən əmtəə üçün saxlanılırdı və bə’zi kənd təsərrüfatı məhsullan bazarlarına geniş hökumət idarəsi davam edirdi.



AMERİKA İQTİSADİYYATININ
ƏSAS COHOTLƏRİ
DOQQUZUNCU HİSSƏ

# IX

# AMERIKADA ƏMƏK: ƏMƏK BİRLİKLƏRİNİN ROLU





Təəccüblü görünə bilər ki, nisbətən yeni dövlət olsa da, dünyada ən qədim əmək birlikləri hərəkatı Birləşmiş Ştatlarda yaradılmışdır. Birləşmiş Ştatlarda birliklər 18-ci əsrin axırlarından mövcuddur, ilkin Birləşmiş Ştatlar cəmiyyətində bunu üç amilin təhlili izah etməkdə kömək edə bilər. Birincisi, əmək zəif tə’min olunurdu və əməyin imkanı var idi ki, bu catışmamazlıqdan nisbətən uğurlu sövdələşmənin əsası kimi istifadə etsin. İkincisi, 19-cu əsrin əvvəllərinə kimi Birləşmiş Ştatlarda ancaq kişilərin səsvermə hüququ var idi. Amerika fəhlələri buna artıq nail olduqları halda, Avropa əmək hərəkatları bu səsvermə hüququnu əldə etmək üçün hələ mübarizə aparırdı. (Qullar səs verə bilməzdilər, əlbəttə, qadınlar da 1920-ci ildə səsvermə uğrunda mübarizədə qalib gələnə qədər səsvermə hüququndan məhrum idilər. Cənubda yaşayan qaradərili amerikalılar tam səsvermə hüququna 1960-cı ilə qədər nail olmamışdılar.)

Və nəhayət, əslinə baxsan, Birləşmiş Ştatlarda feodalizm tarixi olmamışdır, və işləyən xalqın nümayəndələrindən çox azı özünü sinfi mübarizə ilə bağlı hesab edirdi. Ən yaxşı hallarda onlar eyni inkişaf imkanları ilə əlaqədə özlərini Amerika cəmiyyətinin bütün qalan ünsürlərinə bərabər tuturdular.

Amerika əmək hərəkatının fəlsəfi əsasları başqa ölkələrin əmək hərəkatlarının fəlsəfi əsaslarından fərqlənir. Birləşmiş Ştatlar əmək hərəkatı özü-özlüyündə konservativ bir müddəa olaraq, ən’ənəvi mülkiyyət hüquqlarının məntiqi genişlənməsi hesab olunan bir hadisə kimi iş imkanında fəhlələrin kollektiv sahibliyinə xüsusi əhəmiyyət verir. Amerika birlikləri mövcud olan azad müəssisə sistemi daxilində müəyyən mənfəətlər əldə etmək üçün öz diqqətlərini işə cəlb etmişlər. Ən ilkin Birləşmiş Ştatlar birliklərinin Birləşmiş Ştatlarda çox spesifik məqsədləri var idi: bunlara əmək haqqının, iş saatları və iş şəraitinin yaxşılaşdmlması və məccani ibtidai məktəb təhsili almaq daxil idi.

Əsası ilk dəfə 1880-ci illərdə qo5Tilmuş Amerika Əmək Federasiyası (AFL) 1955-ci ilə qədər dövlətin aparıcı əmək təşkilatı idi. 1955-ci ildə bu Federasiya Konqres Sənaye Təşkilatları (CIO)

ib birləşdi və o vaxtdan bu günə qədər AFL-CIO dövlətin ən nəhəng birlik təşkilatı olaraq qalır. Amerika Əmək Federasiyası və AFL-CIO başçıları sosialistlər üçün ruhdandüşmə mənbəyi olmuşdur. Bunların hər biri əslində Amerika əmək hərəkatının praqmatik təbiətini vurğulayırlar. Bu başçılar çalışmışlar ki, Amerika fəhlələrinin məhz siyasi gücünü deyil, real həyat səviyyəsini yüksəltsinlər.

Amerikada işləyən əhalinin əksəri amerikalıların başqa qruplarından özlərini əslində ayrı tutmadıqlarına görə, Amerika əmək partiyasının təşkili üçün o qədər də geniş təşviqata ehtiyac yox idi. Lakin buradan belə bir nəticə çıxarmaq səhv olardı ki, guya Amerikada əmək hərəkatı siyasi hərəkatdan uzaqdır. Ştat siyasətlərində və yerli siyasətlərdə əmək hərəkatı həmişə çox fəal olub. Bu siyasətlər prezidentliyə namizədlər irəli sürüb və müvafiq qanunvericilik tələb edib. Buna baxmayaraq, Amerika əmək hərəkatı dövlət səviyyəsində ən'ənəvi baxımdan çox ehtiyatlı olub və əl-qol açmayıb. O, Prezident Vudrou Uilsonun prezidentliyi illərində (1913-1921) onu dinməz-söyləməz müdafiə edib, sonra da Prezident Franklin D. Ruzveltin (1932-1945) və Prezident Harri S. Trumenin (1945-1953) tərəfini açıq şəkildə saxlayıb. 1950-ci illərin əvvəllərində Amerika əmək hərəkatı aydın şəkildə Demokratik Partiyanın daxili siyasəti ilə dərindən məşğul olmağa girişib. Bə'zi hallarda o, partiyanın rəhbərliyində qızğın şəriklik hüququ alır, başqa vaxtlarda isə partiya ilə o qədər də yaxşı yola getmirdi.

Franklin Ruzveltin prezidentliyindən bəri Birləşmiş Ştatlar fəhlələrin təşkilatlarına nisbətən pis münasibətdə olmamışdır. Lakin bu həmişə belə olmamışdır. Müharibə dövrü istisna edilərsə, 1933-cü ilə qədər əmək hərəkatı birliyi bə'zən əmək icarədarlarmm güclü və ciddi tə'sirinə mə'ruz qalırdı. 1920-ci illərdə şəxsi administrasiya hərəkatı, elmi idarəetmə və real əmək haqqının artımı əmək hərəkatı birliyinə yüksək səviyyədə alternativ hesab olunan birliyi Amerika fəhlələrinə təklif etdilər. Lakin 1929-1940-cı illərdəki Böyük Depressiya böyük birliklər üçün hərəkətverici qüvvə oldu.

ZAVOD OMOYİNİN YÜKSƏLİŞİ

A•merika əmək hərəkatı ölkə tarixinin ilk dövrlərindən başlasa •da, hərəkat özünün geniş sənaye səciyyəsi ilə əsla sür'ətlə və maneəsiz inkişaf etmirdi. 1839-cu ildə e'maledici sənaye işçi qüvvəsinin ancaq 17 faizini, 1859-cu ildə isə ancaq 32 faizini

təşkil edirdi. Birləşmiş Ştatlar yenə də əvvəlki kimi kənd təsərrüfatı ölkəsi olaraq qalırdı. Bu vəziyyət əslində 19 əsrin son onilliklərinə kimi dəyişmədi.

İxtisaslaşmamış fəhlələr yeni dövlətdə nisbətən yoxsul dolanırdılar. Fəhlələrin 40 faizi şəhərlərdə ya qara fəhlə, ya da paltar fabriklərində dərzi işləyirdilər. Bu qrup çox az maaş alır və bir sıra hallarda ağır şəraitdə yaşayırdı. Müəyyən ixtisas sahibi olan fəhlələr - sənətkarlar və mexaniklər ixtisası olmayan fəhlələrdən iki dəfə artıq əmək haqqı alırdılar. Onlar çalışırdılar ki, özlərinin ayrıca evləri olsun və öz icmalarında hörmətli vətəndaş nüfuzu qazanmışdılar. 1830-cu illərin əvvəllərində dülgərlər, tipoqrafiya işçiləri, ayaqqabı tikənlər və başqaları muzdla işləyən fəhlə cəmiyyətləri və xeyriyyə assosiasiyaları təşkilinə başladılar. Onlar özlərini birləşmiş hesab etməsələr də, qarşılıqlı razılıq əsasında hərəkət edirdilər. Onlar minimum əmək haqqı və daha az iş saatları tələb edirdilər; adətən, hər gün dan yeri qızarandan qaş qaralanadək işləyən bu adamlar bilirdilər ki, yayda daha uzun müddət, qışda isə az işləyirlər.

Zavodların yüksəlişi ilə fəhlə qüvvəsində əhəmiyyətli dəyişiklik baş verdi: uşaqlardan, qadınlardan və yoxsul mühacirlərdən maşınlarda istifadə adi hal oldu. Yeni İngiltərədə 1920-ci və 1930-cu illərdə 16 yaşına qədər uşaq əməyindən istifadə bir sıra zavodlarda, xüsusən toxuculuq sənayesində, fəhlə qüvvəsinin üçdə birindən yarısına qədəri təşkil edirdi. Əlavə olaraq, Cənubda sırf kölə vəziyyətində yaşayan əhalinin beş faizi zavodlarda işləyirdi. Qulların dörddə beşini onların əməyindən bəhrələnənlər tutub açıq şəkildə işlədir, qalanlarını isə zavod sahibləri üçün onların usta fəhlələrinin əli ilə günəmuzd işlədirdilər.

Sənayenin yüksəlişi də başqa dəyişikliklər gətirdi. Texnologiya və biznes təcrübələrində yenilikliklər həm əməyin, həm də idarəetmənin funksiyalarında ixtisaslaşmaya gətirib çıxardı. Bu, işlə tə'min olunan fəhlələrin sayının artması ilə birləşərək, o dərəcəyə gətirdi ki, fəhlələr öz iqtisadi talelərində səsləri olmadığını hiss etdilər. Onlar özgələşmə (öz işlərindən tam ayn düşmək) hissi keçirirdilər və özlərini sənaye maşınlarının adi bir dişciyi hesab edirdilər. Bə'ziləri öz vəziyyətlərini yaxşılaşdırmaq üçün birliklərə üz tutdu.

Birinci əhəmiyyətli milli əmək hərəkatı Əmək Bahadırlan adlanıb. 1860-cı ildə Vətəndaş Müharibəsindən sonra əsası qoyulan bu hərəkat Pensilvaniya ştatının Filadelfiya şəhərində paltarbiçənlər arasında başlamışdı. Bahadırlara tapşırılmışdı ki, fəhlələrin

hamısını onların ümumi həyat şəraitini yaxşılaşdırmaq naminə birləşdirsinlər.

İlk dövrlərdə Omək Bahadırları gizli bir cəmiyyət idi. Onun əsasları geniş idi, qapıları qaradərililərin, qadınların, fermerlərin və tacirlərin, eyni zamanda halal zəhmətlə qazananların üzünə açıq idi. Bu cəmiyyət ancaq vəkilləri, bankirləri və səhmdarları qəbul etmirdi. Bahadırlar öz fəaliyyətlərinin ən yüksək zirvəsinə 1880-ci illərin ortalarında Amerika milyoneri Cey Qouldun ixtiyarında olan dəmir yollara qarşı tə’tildə qalib gəldikdə yçatdılar. 1886-cı ildə təşkilatın 700 000 nəfərə yaxın üzvü var idi. Bu üzvlər arasında ixtisaslı sənətkarlar və ixtisası olmayan fəhlələr də var idi.

Lakin Bahadırlar arasında müxtəlif qruplarin mənafeləri tez-tez biri digəri ilə ziddiyyət təşkil edirdi. Buna görə də üzvlərlə hərəkat arasında birlik hissi zəif idi. Bahadırlar 1886-cı ildə Qould dəmir yollarına qarşı apardıqları tə’tilləri uduzdular və 1880-ci illərin sonlarından onun üzvlərinin sayı sür’ətlə azaldı.

AMERİKA OMOK FEDERASİYASI

1 Q Q 1 * ildə siqar istehsalçısı Samuel Qompers adlı -LO O J. ■"V'i holland mühaciri bir sıra başqa aparıcı sənətkarları başına toplayaraq, Amerika Əmək Federasiyasının sələfi Birləşmiş Ştatlar və Kanada Mütəşəkkil Ticarət və Əmək Birlikləri Federasiyasını yaratdı. Əmək Bahadırlarından fərqli olaraq, bu təşkilata ancaq ailə başçıları qəbul edilirdi. 1886-cı ildə təşkilat yeniləşdirildi və adını dəyişib, Amerika Əmək Federasiyası qoydular. Qompers Amerika Əmək Federasiyasının birinci prezidenti oldu. Birliyin strategiyasının üç bənddən ibarət Qompers proqramı tarix boyu Amerika Əmək Federasiyası hərəkatına xidmət etdi.

Birincisi, Qompers proqramı fəlsəfi sinfi mübarizə ilə məşğul olmaqdansa, daha yüksək əmək haqqı şəklində və daha yaxşı iş şəraitində praktik mənfəətlər üçün işləməyi tə’kid edirdi. İkincisi, o, Amerika Əmək Federasiyasını hərəkat çərçivəsində federalizm prinsiplərinə də’vət edirdi və hər bir birliyə əhəmiyyətli dərəcədə sərbəstlik verirdi ki, öz işlərini öz üslubuna müvafiq şəkildə təşkil etsin və aparsın. Üçüncüsü, o, bacardığı qədər hökuməti kollektiv ticarətdən kənar etməyə çalışırdı, lakin siyasi dostlarına yardım göstərməkdən və əmək imkanına qarşı çıxan Konqres üzvlərini məğlub etməkdən də imtina etmirdi. Qompers eyni zamanda təkid edirdi ki, eyni fəhlələri eyni zamanda bir birlikdən artıq birlik birləşdirmək cəhdi edə bilməz.

Amerika Əmək Federasiyasının uğurlu şəkildə işə başladığına baxmayaraq, əmək təşkilatçılan bir çox çətinliklərlə üz-üzə gəldilər. Əsas e'tibarilə, icarədarlar heç vaxt birliklərin qanuniliyini tam şəkildə qəbul etmirdilər, onların tə'til etmək və kollektiv ticarət hüquqlarını isə tamamilə rədd edirdilər. Bütün məsələləri hər bir fəhlə ilə ayn-ayrıhqda müzakirə etməyi üstün tutan rəhbərlik tez-tez birliyin planlanm alt-üst etmək yolları axtanrdı və bunun üçün o, birliyə müsbət münasibət bəsləyən fəhlələri ya işdən azad edir, ya da onların adlannı «qara siyahıya» yazırdı (əvvəlcədən başqa şirkətlərlə razılığa gəlirdi ki, belələrini işə götürməsinlər), yaxud fəhlələri «sarı it» müqaviləsinə qol çəkdirməyə məcbur edirdi,«san it» müqaviləsi isə fəhlə işə qəbul edilərkən, onun birliklərə qoşulmuyacağı haqqında iltizamnamədir.

İcarədarlar eyni zamanda elə bir məhkəmə qərarı axtarırdılar ki, həmin qərar birliklərin tə'tillə məşğul olmalannı dayandırmağı tə'min etsin. 1880-ci və 1932-ci illər arasında, əksər illərdə hökumət və məhkəmələr idarəetmə vəziyyətinə ya müsbət münasibət bəsləyir, ya da, ən yaxşı halda, bitərəf mövqe tuturdu. Əslində, ictimai qayda-qanun naminə tə'tilə son qoymaq üçün zəruri olan qüvvəni tez-tez hökumət tə'min edirdi. Məsələn, 1894-cü ildə əmək haqqının azaldılmasına qarşı Pulman İqamətgah Vaqon Şirkəti fəhlələri tə'tilə başladıqda və bu tə'tilə həmrə'ylik işarəsi olaraq, Amerika Dəmir Yol Birliyi üzvləri onlara birləşdikdə, Birləşmiş Ştatlar hökuməti federal hərbi qüvvə göndərdi ki, tə'tili yatırtsın və e'lan etdi ki, bu tə'til poçt qatarlarının işlərinə mane olur. Bu dövrdə bir sıra başqa dəhşətli tə'tillər də oldu ki, onlardan bə'ziləri bir neçə nəfərin ölümü ilə nəticələndi.

Əmək hərəkatı üçün başqa bir böyük maneə 1905-ci ildə baş verib. Bu, Ali Məhkəmənin Loxner Nyu-Yorka qarşı hadisəsidir. Ali Məhkəmə təsdiq edirdi ki, iş saatlarını məhdud edən qanun Konstitusiyaya ziddir, çünki o, fərdlərə iş üçün müqavilə bağlamağa mane olur. Məhkəmənin bu məsələdən müddəası Konstitutsiyanm 14-cü Düzəlişindən götürülmüş fərdlərin «müqavilə azadhğı» haqqında prinsipə əsaslanırdı.

1 Dünya Müharibəsinə yaxın Amerika Əmək Federasiyasının 5 milyona qədər üzvü var idi; onun üzvlərinin həm sayı, həm də tə'siri get-gedə artırdı. Buna baxmayaraq, 1920-ci illərdə artım zəiflədi, çünki əmək Sahibkarların Dövlət Assosiasiyası (NAM) kimi biznes qruplarının tam qarşıdurması ilə üz-üzə gəldi. Bir

dəhşətli döyüş birliklərə birləşmədə fəhləyə təzyiq göstərməmək hüququ olan «açıq dükan» prinsipi ilə bağlı idi. Əlavə olaraq, ona görə ki, 1920-ci illər yüksək məşğuliyyətlə bağlı çiçəklənmə illəri olmağa meyl etdiyi üçün fəhlələr birlik yardımı olmadan da özlərini nisbətən təhlükəsiz hiss edirdilər. 1924-ci ildə Qompersin ölümündən sonra Amerika Əmək Federasiyasının prezidentliyinə barışdırıcı bir namizəd kimi Uilyam Qrin seçildi.

BÖYÜK DEPRESSİYA öyük Depressiyanın gəlişi Amerika Əmək Federasiyası Jj üzvlərinin sayını üç milyondan da aşağı salsa da. Depressiya işçi kütləsinin vəziyyətinə rəğbət yaratmaq yolu ilə (Depresiyanın ən qızğın dövründə Amerika işçi qüvvəsinin üçdə biri işsiz idi) əmək hərəkatının inkişafına təkan verdi. Prezident Franklin D. Ruzveltin seçilməsi ilə hökumət və məhkəmələr işə olan tələbə daha böyük diqqət verməyə başladılar. 1932-ci ildə Konqres əməyi təqdir edən ilk qanunlarından birini verdi. Norris-La Guardia Aktı adlanan bu qanun sarı it müqavilələrini qanundan kənar e’lan etdi və əməklə bağlı mülahizələri qadağan edən qərarlar vermək haqqında məhkəmələrin səlahiyyətlərini məhdudlaşdırdı.

Depressiyaya son qoymaq haqqında Ruzvelt proqramı bir neçə qanunu ehtiva edirdi ki, bu qanunlar əməklə bağlı məsələləri inkişaf etdirirdi. Bu qanunlardan biri, 1933-cü ilin Milli Sənayeni Bərpa Aktı fəhlələri minimum əmək haqqı, müvafiq iş saatları, kollektiv ticarət və birliklərə birləşmək hüququ ilə tə’min etmək zəmanəti verirdi. Lakin 1935-ci ildə Ali Məhkəmə bu qanunu Konstitusiyadan kənar e’lan etdi. Federal hökumət 1935-ci ildə buna Milli Əmək Əlaqələri Aktını qəbul etməklə cavab verdi. Vaqner Aktı kimi daha yaxşı tanınan bu qanunda deyilir: «İşçilərin müstəqil təşkilat huququ var. Əmək təşkilatlan formalaşdırmaq, onlara birləşmək və ya onları müdafiə etmək, özlərinin seçdikləri nümayəndələr yolu ilə kollektiv ticarət etmək, kollektiv ticarət və ya başqa qarşılıqlı kömək və yardım məqsədilə əlaqədar fəaliyyətlə məşğul olmaq hüquqları var.»

Birinci dəfə idi ki, əməyə kollektiv sövdələşmə üçün qanuni hüquq verilirdi. Bundan əlavə, qanun Milli Əmək Əlaqələri Şurası (NLRB) tə’sis etdi ki, onun şərtlərinin icrasına rəhbərlik etsin, ədalətsiz əmək hallarını qadağan etsin və fəhlələrin hansı birliyi təmsil edəcəklərini müəyyənləşdirsin. Milli Əmək Əlaqələri Şurasına təklif edildi ki. Şura zavodlara getsin, fəhlələr birliklər yaratmaq və ya xüsusi birlikdə təmsil olunmaq istədikdə, seçkilər

aparsin. Şuraya səlahiyyət verildi ki, əgər hər hansı bir işçi bu və ya digər birlikdə fəaliyyətinə görə ədalətsiz olaraq işdən azad edilirsə, iearədarları işçi işləmədiyi dövrdə onun əmək haqqının ödənilməsini tə'min etməyə məcbur etsin. Qanunvericiliyin bu cür qayğısı nəticəsində əmək birlikləri üzvlərinin sayı, demək olar ki, 9 milyona çatdı.

SƏNAYE TOŞKİLATL.ARI KONQRESİ

1 O ^ * ildə Amerika Əmək Federasiyası daxilində \.y U 3 “01 səkkiz birlik Sənaye Təşkilatı Komiteti (CIO) yaratdı ki, avtomobil və polad sənayesi istehsalı kimi kütləvi istehsal sahələrində fəhlələrin təşkilatı kampaniyasına təkan versin. Lakin Amerika Əmək Federasiyasına nəzarət edən peşəkar sənətkarların birlikləri ümumiyyətlə bu ixtisassız və yarımixtisash fəhlələrin birləşmələri cəhdinə qarşı çıxdı. Bu qarşıçıxmaya baxmayaraq, Komitetin aqressiv birliklərinin kampaniyalan keçmişdə mütəşəkkil olmayan bir çox zavodların birləşməsində uğurlar əldə etdilər.

Lakin sənaye təşkilatı ətrafında mübahisələr azalmadı. 1938-ci ildə Amerika Əmək Federasiyası rəhbərliyi Sənaye Təşkilatı Komitetini yaradan birlikləri tərkibdən çıxardı, və Sənaye Təşkilatı Komiteti özünün xüsusi federasiyasını yaratdı və ona yeni ad verdi - Sənaye Təşkilatlan Konqresi. Sənaye Təşkilatı Komiteti Amerika Əmək Federasiyasının tamhüquqlu rəqibi olmağa doğru sür'ətlə inkişaf edirdi.

MÜHARİBƏDƏN SONRAKI DÖVR

irləşmiş Ştatlar II Dünya Müharibəsinə qoşulduqdan bir qədər XDsonra dövlətin apancı əmək başçılan Prezident Ruzveltə söz verdilər ki, dövlətin müdafiə sənayesinin fəaliyyətini dayandırmamaq üçün müharibə dövründə onlar tə'tillərin qarşısını almaqdan ötrü əllərindən gələni edəcəklər. Bu dövr ərzində birliklər bir sıra vacib əlavə mənfəətlər əldə etdilər və onların üzvlərinin sayı durmadan artdı. 1945-ci ildə müharibə qurtardıqdan sonra, tə'tillər yenə başladı; bə'zən işlərin dayandırılması halları ilə bağlı tə'tillər 1946-cı ildə özünün ən yüksək səviyyəsinə qalxdı.

Tezliklə bir çoxlarının birliklərin zəmanət verilməmiş səlahiyyəti hesab etdikləri hala qarşı kəskin reaksiya başladı. Çoxları inanırdılar ki, Vaqner Aktı əməyə müsbət münasibətə mənfi tə'sir edir və buna görə də bu uyğunsuzluğu aradan

qaldırmaq üçün onlar yeni bir qanun verilməsini tələb etdilər. Bunun nəticəsində, Prezident Trumen veto qoymuş olsa da, Konqres Əməyi İdarəetmə Əlaqələri Aktı qanununu təsdiq etdi.

Taft-Hartli Aktı kimi daha yaxşı tanınan Əməyi İdarəetmə Əlaqələri Aktı həm birliklər, həm də sahibkarlar üçün müvafiq əxlaq normaları müəyyənləşdirdi. O, bağlı dükanları (ancaq həmkarlar birlikləri üzvlərini işə götürən idarələr), ikinci dərəcəli boykotlan qadağan etdi, sahibkarlara icazə verdi ki, birliklər müqavilə şərtlərini pozduqları şəraitdə və tə'tillər zamanı verilən zərərlərə görə onları məhkəməyə versin və birliklərdən tələb etdi ki, tə'tillər başlamazdan əvvəl 60-günlük «qəzəbin soyuması» dövrünə riayət etsin və başqa xüsusi qaydalar da yaratdı ki, həmin qaydalara əsasən tə'tillər elə idarə edilirdi ki, dövlət və xalqın təhlükəsizliyi və sağlamlığı təhlükə altında qalmasın. O, eyni zamanda birliklərdən tələb edirdi ki, onlar maliyyə bəyanatlarını açıq şəkildə versinlər. Bu qanunu ləğv etmək üçün uzun müddət davam edən cəhdlər göstərildiyinə baxmayaraq, federal məhkəmə onun əsas şərtlərini təqdir və müdafiə edirdi.

Əməyə qarşı müxalifətin bu cür baş qaldırması işığında Amerika Əmək federasiyası və Sənaye Təşkilatı Komiteti qüvvələri birləşdimiək qərarına gəldilər. Lakin iki aparıcı əmək qrupu bir sıra fəlsəfi və başqa fərqləri aradan qaldırmalı idi.
1952-ci ildə Amerika Əmək Federasiyasının başçısı Uilyam Qrinin və Sənaye Təşkilatı Komitetinin rəhbəri Filip Mureyin ölümü ilə bir maneə aradan qalxdı. Bu iki təşkilat arasında uçurum yaranmasının səbəbkarları U. Qrin və F. Murey idi. 1955-ci ildə Amerika Əmək Federasiyası və Sənaye Təşkilatı Komiteti birləşərək dövlətin ən böyük əmək təşkilatını - Amerika Əmək Federasiyası-Sənaye Təşkilatı Komitetini əmələ gətirdi. Uilyam Qrinin ölümündən sonra Amerika Əmək Federasiyasının prezidenti olan Corc Mini yeni yaranmış əmək təşkilatının prezidentliyini öz üzərinə götürdü.

1962-ci ildə Con F. Kennedi icrası vacib olan bir əmr verdi; bu əmr işçilərə tə'til etmək deyil, kollektiv sövdələşmə və təşkilat yaratmaq hüququ verirdi. Buna oxşar qanunvericilik bir çox ştatlarda da keçirildi, lakin ancaq bir neçə ştat hətta hökumət işçilərinə də tə'til etmək hüququ verirdi. İctimai işçilər birlikləri sür'ətlə artdı; polislər, müəllimlər və başqa hökumət işçiləri 1970- ci illərdə bir çox ştatlarda və şəhərlərdə tə'tillər təşkil etdilər.

Bu dövr ərzində azlıqda qalanlar və qadınlar arasında birlik üzvlərinin sayı artırdı. Əmək başçıları qadınlara, qaralara və

Meksikadan olan amerikalılara və ən az ödənilən başqa işçilərə yardım edirdilər ki, onlar da müvafiq hüquqlara nail olsunlar və bərabər məbləğdə əmək haqqı alsınlar. Məsələn, 1960-cı illərdə əməkçilərin başçısı Meksikadan olan amerikali Sezar E. Çavez Kaliforniyada çoxu Meksikadan olan mühacir amerkalıların və başqa kənd təsərrüfatı işçilərinin birliklərini təşkil etməyə başladı. Çavez indiki Amerika Kənd Təsərrüfatı İşçiləri Birliyini tə’sis etdi.

CARI ƏMƏK MƏSƏLƏLƏRİ

20-ci əsrin sonlarında Amerika Əmək Hərəkatının əsas cəhəti Amerika sənaye sahəsinin, xüsusən, polad e’mah və maşınqayırma kimi ən’ənəvi sənaye sahələrinin həcminin tənəzzülə uğraması ilə bağlı idi. Bə’zi sahələrdə əməyin dəyərinin nisbətən aşağı olması avtomobil və elektronika kimi sahələrdə xarici şirkətlərə Amerika bazarlarında daha geniş yer tutmağa şərait yaradırdı.

Avtomatlaşdırma davam etməkdə olan çağırışdır. Bir çox köhnə zavodlar keçmişdə fəhlələrin gördüyü işlərin icrası üçün indi avtomatika sahəsində maşınlardan istifadə edirlər. Bu, xarici rəqabətin çağırışına cavab olaraq, əsasən məhsuldarlığı artınnaq üçün edilirdi. Lakin bə’zi hallarda bu, fəhlənin öz işini itirməsi ilə də nəticələnirdi. Buna cavab olaraq, birliklər müxtəlif tədbirlər gömrdülər ki, işçilərin öz işlərini itirməməsinə və gəlirlərinin saxlanılmasına nail olsunlar. Bu tədbirlərə sərbəst ixtisasartırma və mümkün olan işlərin işçilər arasında bölünməsi üçün həftəlik iş günlərinin qısaldılması da daxildir. Buna baxmayaraq, ən’ənəvi Amerika sənaye bazasının zəifləməsi elə güclü zərbə idi ki, əmək hərəkatı bu zərbədən sonra hələ tam şəkildə özünə gəlməmişdi.

Eyni zamanda, birliklərə mənsub olan fəhlələrin faizi də azalırdı. 1945-ci ildə işləyənlərin üçdə birinin birliklərin üzvləri olduqlarına baxmayaraq, 1980-ci illərin axırlarında bu, ancaq 16 faiz təşkil edirdi. İqtisadiyyatçılar, əmək başçıları və başqaları bunu müxtəlif yollarla izah edirdilər. Bə’ziləri deyirlər ki, bu, Amerika cəmiyyətində ən’ənəvi şəkildə birliklərin dayağı olan istehsal sənayesindən uzaqlaşıb, birlik təşkilatının nisbətən zəif olduğu xidmət sənayesinə istiqaməti əks etdirir. Başqaları göstərirlər ki, qadınlar, cavanlar və günün ancaq bir hissəsini işləyənlər son illərdə məşğuliyyətin qeyri-adi yüksək faizini təşkil edirlər. Bə’zi başqaları isə qeyd edirlər ki, Amerika sənayesinin çox hissəsi Birləşmiş Ştatların Cənub və Qərb hissələrinə

köçmüşdür, burada isə birlik ən'ənələri Şimalda və Şərqdə olduğundan zəifdir.

Əmək hərəkatının əsas tənqid hədəfi o idi ki, bu hərəkatın hətta inflyasiya dövründə daha yüksək maaşlar verilməsi və daha yaxşı iş şəraiti yaradılması haqqında ən'ənəvi tələbi inflyasiyanin daha da artmasına səbəb olur və Amerika sənayesinin məhsuldarlığına zərər verir. 1980-ci illərin əvvəllərində sənaye istehsalında tələbatın aşağı düşməsinə baxmayaraq, maaşların artmlması haqqında tələbdən imtina etməyə hazır olan birliklərin sayının artması hallarına təsadüf edilirdi. Bütün bunlar işsizlik təhlükəsini aradan qaldırmaq və şirkət rəqabətlərini gücləndirmək naminə edilirdi. Əlavə olaraq, əməyi müdafiə edənlər təsdiq edir və inandırmağa çalışırdılar ki, son zamanlarda maaşlar bir çox hallarda mövcud yaşayış şəraitinə yardım üçün artırılıb, real həyat səviyyəsini əhəmiyyətli dərəcədə yüksəltmək üçün artırılmayıb.

Əməyi idarəetmə mübahisələri də öz fikrini bu məsələyə yönəltmişdi: fəhlələr hansı xüsusi mənfəətləri əldə etmək hüququna nail olurlar? Yaşa görə təqaüd, iş qabiliyyətini itirdiyi üçün təqaüd və səhiyyə sığortası, eyni zamanda bir çox iri birliklərin işlə ömürlük tə'minolunma təhlükəsizliyi ilə bağlı bir qədər əvvəlki tələbi 20-ci əsrin sonlarında sövdələşmənin ön xəttində dayanır. Gözlənilmədən baş verə biləcək təqaüd problemləri analıqdan və atalıqdan imtina və uşaq qayğısına qalma məsələlərini ehtiva edirdi.

Sahibkarlar və icarədarlar isə, öz növbəsində, ağzına su alaraq heç də sakitcə oturub və işləri başlı-başına buraxanlara oxşamırdılar. İdarəetmə öz işçilərindən məhsuldarlığın artırılmasım tələb edir və nəticədə buna zərər verə biləcəyinə inandığı hər cür qayda-qanuna və mənfəətə qarşı mübarizəyə hazır olduğunu nümayiş etdirir.

Həmkarlar birliyi hərəkatı Birləşmiş Ştatlar iqtisadiyyatının vacib ünsürüdür, çünki o, fəhlələrin menecerlər və hökumət qarşısında mənafelərini və ehtiyaclanm təmsil edir. Birliklər öz işlərində ilkin zəruri amil kimi rəhbərliklə daha yüksək maaşlar haqqında danışıqları götürsələr də, iqtisadiyyatçılar birliklərin fəhlələrin maaşlarının artmasına əhəmiyyətli dərəcədə tə'sir edib- etməməsi fikri ilə razılaşmırlar və əsasən göstərirlər ki, birliklər maaşların artırılmasında əsas amil olan məhsuldarlığın artmasına can atır. Lakin analitiklərin çoxu eyni zamanda razılaşırlar ki, birliklər işlə tə'min olunmaq təhlükəsizliyi, şikayətlərə baxılması və iş şəraiti ilə bağlı başqa məsələlərə nəzarəti tənzimləmək

M

sahəsində olan uyğunsuzluqlann aradan qaldırılmasına can atırdılar. Birlik vasitəsilə fəhlə öz işinin, demək olar ki, bütün sahələrində öz sözünü demək hüququ qazana bilər. Əlavə olaraq, bə'zi mütəxəssislər inandırmağa çalışırlar ki, birliklər doğma bir təşkilat kimi bir sıra qiymətli ictimai və psixoloji vəzifələr nümayiş etdirmişlər və, çox güman, daha vacibi də budur ki, fəhlələrə qürur mənbəyi olmuş və xeyriyyəçilik hissi aşılamışlar.

**ƏMƏK STANDARTLARI**

irləşmiş Ştatlar fəhlələrinin müdafiəsi üçün məs'uliyyəti Jj federal hökumət və 50 ayn-ayn ştat bölüşdürür. Federal hökumət ştatlar arasında əlaqələri tənzimləmək üçün hərəkət edə bilər, ştatlar isə öz sərhədləri daxilində istifadəsi mümkün olan əlaqələr üçün müvafiq şərait yarada bilər. Ştatlann çoxu əmək standartları ilə bağlı qanunlar qəbul ediblər. Federal qanunlar arasında ən vacib olanlarından bə'ziləri aşağıdakılardır;

- 1938-ci il Müvafiq Əmək Standartları Aktı (düzəlişlərlə) dövlət minimum əmək haqqı, əlavə iş üçün ödəniş, bərabər məvacib və uşaq əməyindən sui-istifadədən müdafiə üçün standartlar müəyyən edir. Minimum əmək haqları məbləğini Konqres müəyyən edir və Əmək Departamenti həyata keçirir. 1991-ci ildə minimum əmək haqqı saatına 4,25 dollara qədər qalxdı, lakin təzəcə işə başlayan yeniyetmələr üçün daha az «tədris əmək haqqı» da var idi.
- 1967-ci il Məşğuliyyətdə Yaş və Fərqqoyma Aktı 70 yaşa qədər olan yaşlı fəhlələrin işlərini müdafiə edir.
- 1970-ci il Peşə Sağlamlığı və Təhlükəsizliyi Aktı sahibkarlardan və icarədarlardan təhlükəsiz və sağlam iş şəraiti tə'min etməyi tələb edir. Peşə Təhlükəsizliyi və Sağlamlığı Administrasiyası peşə təhlükəsizliyi və sağlamliği standartlarını inkişaf etdirir, qayda-qanunlar yaradır və inkişaf etdirir, bu standartlara və qayda-qanunlara əməl olunub- olunmaması haqqinda tədqiqatlar və nəzarət aparır, standartlara əməl olunmadıqda müvafiq xəbərdarlıqlar verir və cəza tədbirləri təklif edir.
- 1974-cü il Peşə Aktı (düzəlişlərlə) xarici rəqabət nəticəsində zərər çəkmiş məşğuliyyət sahələrinə, kompaniyalara və cəmiyyətlərə tənzimləmə yardımı tə'min edir. Peşə Tənzimləmə Yardımı İdarəsi ayrı-ayrı ştatlarda razılaşma yolu ilə bu qanuna əsaslanan proqrama rəhbərlik edir. Proqram peşə hazırlığı, işaxtarma, iş yerini dəyişməyə icazə kimi məşğuliyyət xidmətləri və xarici idxal malları ilə bağlı olaraq, işindən ayrılmağa məcbur olmuş Birləşmiş Ştatlar fəhlələrinə həftəlik nağd pul ödənilməsini tə'min edir.

TƏQAÜDLƏR 'T) İTİəşmiş Ştatlarda xüsusi işlə məşğul olanların yarıya qədəri və JDhökumət işçilərinin əksəri təqaüd planının bə'zi növləri ilə müdafiə olunur. Təqaüdlər elə gəlir formasıdır ki, fəhlələr yaşlarına görə işdən çıxdıqdan sonra və ya əmək qabilliyyətini itirdikdən sonra, yaxud onların saxladıqları uşaqlar onlar öldükdən sonra alırlar. Sahibkarlar və icarədarlarla əksər birlik müqavilələrinə yaşa görə verilməli təqaüdlər də daxildir.

Əksər xüsusi təqaüd planları yaşa görə təqaüdə çıxanları işçinin yaşı, işlədiyi illərin sayı və illik gəlirinin nisbəti əsasında tə'ınin olunur. Federal qanuna əsasən, bütün təqaüd planları müəyyən olunmuş illərin sayı qədər xidmət etmiş fəhlələrə «təqaüd hüquqları verilmiş» adı təklif edir. Bu işçilərə onlar hətta fınnanı təqaüdə çıxmazdan əvvəl tərk etsələr belə, təqaüdə çıxdıqdan sonra təqaüd almaq imtiyazı verilir.

1974-cü ildə Konqres İşçi Təqaüd Gəliri Tə'minatı Aktı qanununu qəbul etdi. Bu qanun xüsusi təqaüd planlan üçün standartlar müəyyən etdi: federal agentlik, Təqaüd Mənfəəti Zəmanət Korporasiyası isə ona idarə etməkdə kömək edir. Xüsusi təqaüd planları korporasiyadan tə'minat almalıdır, və əgər kompaniya təqaüdü ödəyə bilmirsə, onda onu korporasiya ödəyir.

Birləşmiş Ştatlar hökuməti bir neçə növ təqaüd planını idarə edir, bunlardan ən vacibi İctimai Tə'minatdır ki, bu da ölkədə ən böyük təqaüd gəliri proqramıdır. İctimai Tə'minat proqramı 1935-ci ildə Prezident Franklin D. Ruzvelt indi İctimai Tə'minat Aktı adı ilə tanınan bir sənədə qol çəkərkən yaradılıb. Bu proqram işləyən adamlar 65 yaşa çatdıqdan sonra iste'fa verirlərsə, onları tamnormalı qocalıq təqaüdü ilə tə'min edir; 62 ilə 65 yaş arasında işdən çıxanlar isə ixtisanıormalı təqaüdlə tə'min olunur. Proqramı İctimai Tə'minat Administrasiyası federal agentliyi idarə etdiyinə baxmayaraq, o, federal fondlardan istifadə etmir. İşçilər təqaüd planına onların maaşlarından tutulan müəyyən faiz təqaüd vergiləri ilə kömək edir; sahibkarlar və icarədarlar da bərabər məbləğdə kömək edirlər. Sərbəst işləyən fəhlələr də bu proqrama gəlirlərinin bir hissəsi ilə yardım edirlər.

1980-ci illərdə qəbul olunmuş qanunvericiliyə əsasən yeni federal işçilərin əksərini təqaüdlə İctimai Tə'minat idarəsi tə'min etməli olduğuna baxmayaraq, federal hökumət ən'ənəvi şəkildə əksər federal fəhlələrə verdiyi kimi, hərbi təqaüdləri də özü verir. İnqilabi Müharibədən (1775-1783) bu yana əmək qabiliyyətini itirmiş müharibə veteranları bə'zi növ təqaüd alırdılar. Bütün hərbi təqaüdlər federal dövlət gəlirləri hesabına fondlaşdırılırdı. Bunun

əksinə, ən böyük mülki təqaüd sistemləri olan Birləşmiş Ştatlar Mülki Xidmət Təqaüdü sistemini isə federal işçilər və hökumət birgə fondlaşdırır.

Əlavə olaraq, adamların çoxu, ümumiyyətlə, sərbəst əməklə məşğul olanlar, yə’ni icarədarlar təqaüdlə tə’min etmədiyi işçilər və təqaüd planının kifayət qədər olmayacağına inananlar öz gəlirlərinin bir hissəsini xüsusi fərdi təqaüd proqramına qoyur. Bu proqra- min iki əsas növü Fərdi Təqaüd Hesabları (IRAs) və Keoq planlan- dır. Hesabın hər iki növünü banklar, əmanətlər və borcvermə assosiasiyaları, kredit birlikləri və sığorta kompaniyaları kimi maliyyə müəssisələri idarə edir. Federal hökumət hər iki planı gəlir vergisi mənfəətlərindən istifadə edən ayrı-ayrı fərdlər üçün gəlir vergisi mənfəətləri ilə tə’min edir.

Fərdi Təqaüd Hesabına qoyulan pulun hesabına avtomatik şəkildə artırılan faiz gəlir; Fərdi Təqaüd Hesabında qazanılan əlavə faizə hesabdan geri götürülmədikcə vergi qoyulmur. Əlavə olaraq, xüsusi təqaüdləri olmayan adamlar və ya müəyyən məbləğdən az alan adamlar öz pullarını hər il Fərdi Təqaüd Hesabına depozitə qoya bilərlər. Bu pullar geri alınmayınca, depozit sahibləri heç vaxt həmin pula görə gəlir vergisi ödəmirlər. Fərdi təqaüd hesablanndan fərqli olaraq, Keoq hesablarını ancaq sərbəst işləyən adamlar və ya birliklərə daxil olmayan biznesin ya tam sahibi və ya şəriki olan adamlar açа bilərlər. Bu fərdilər öz gəlirinin 25 faizə qədərini hər il Keoq planına depozitə qoya bilərlər. Hesabdan alman gəlir faizinə pul geri götürülənə qədər heç bir vergi tutulmur.

İŞSİZLİK '^am şəkildə hökumət idarə etdiyi İctimai Tə’minatdan fərqli SIĞORTASI X olaraq, işsizlik sığortasını federal ştat sistemi təşkil edir. 1935- ci ildə İctimai Tə’minat Aktının qəranna əsasən tə’sis olunmuş Federal-Ştat İşsizlik Kompensasiya Proqramı işsiz Birləşmiş Ştatlar fəhlələri üçün gəlir yardımının əsas proqramıdır. Bu proqram sığorta edilmiş əmək haqqı qazananları onlann özlərindən asılı olmayaraq, işsizliyə düçar olduqları müddət ərzində əmək haqqının bir hissəsi ilə tə’min edir. Ümumiyyətlə, fəhlə işləməyə qadir olmalıdır, üzürlü bir səbəb olmadan işdən çıxıb getməməlidir, yaxud onunla yaxşı rəftar olunmadığı üçün işdən çıxmamalıdır, əmək mübahisələrinə qarışmamalıdır və işləmək arzusunda olmalıdır.

Hər bir ştat öz xüsusi proqramım öz qanunları çərçivəsində həyata keçirir və ancaq məhdud dairədə federal hökumətin işə

qarışmasına yol verilir. Hər bir ştat işsiz qalanın sabiq maaşının məbləği və iş stajı əsasında onun həftəlik işsizlik təqaüdünün məbləğini və müddətini özü müəyyən edir. İşsizlik artdıqda və ştatın spesifik səviyyəsindən yüksəkdə durduqda, ştatlar təqaüd müddətini uzatmalıdır; federal hökumət vaxtı uzadılmış təqaüdün məbləğini ştatla birgə ödəyir.

AMERİKA İQTİSADİYYATININ
ƏSAS CƏHƏTLƏRİ
ONUNCU HİSSƏ

# X

# XARICI TICARƏT **və** QLOBAL İQTİSADİ SİYASƏT




CIELO DI GENOVA
PORT OF SEATTLE

Birləşmiş Ştatlar xarici ticarət və qlobal iqtisadi siyasəti dövlətin ilk günlərindən öz istiqamətini dramatik şəkildə dəyişib. Bu vaxta qədər Birləşmiş Ştatlar, xaricdə nələr baş verməyindən asılı olmayaraq, əsasən öz iqtisadiyyatının inkişafı ilə məşğul idi. II Dünya Müharibəsi illərindən bəri Birləşmiş Ştatlar ümumiyyətlə beynəlxalq ticarətin liberallaşdmlması və dünya iqtisadi sisteminin əlaqələndirilməsi ilə məşğul olur.

Birləşmiş Ştatlar müharibədən heç bir zərər görməmiş sənaye maşınları və texnoloji, eyni zamanda istehsal texnikasının üstünlüyünə görə, müharibədən sonrakı dövrün ixrac bazarlannm bir çoxunda hakimiyyəti ələ almışdı. Lakin 1970-ci və 1980-ci illərdə Birləşmiş Ştatlarla başqa ölkələr arasında ixracat rəqabəti uçurumu daraldı, çünki məhsul istehsalının bə’zi növləri ixracatı başqa ölkələrdə Birləşmiş Ştatlarda olduğundan daha böyük sür’ətlə inkişaf edirdi.

Bütün dünyada tələbin aşağı düşməsi ilə nəticələnən neftin qiyməti 1970-ci illərdə heyrətə gətirir və dolların xarici mübadilə qiymətini artınr. Bu, Birləşmiş Ştatlar ticarət balansına zərər vurmağa və 1980-ci illərdə ticarəti liberallaşdırmaq üçün daxili yardımı azaltmağa tə’sir etməkdən ötrü edilmişdir.

Bu hadisələrin nəticəsi kimi, proteksionizmi müdafiə edən yüzlərlə qanun layihəsi 1980-ci illərdə Konqresdə müzakirə olundu. Bə’zi proteksionist tədbirlər qanun şəklində qəbul olunduğuna baxmayaraq, Birləşmiş Ştatlar başçıları bir sıra reqressiv təkliflərin qəbul edilməməsində son dərəcədə böyük uğurlar qazandılar. Əslində, Birləşmiş Ştatlar çoxtərəfli ticarət

danışıqlarının bir az əvvəlki seriyalarına başlamaq haqqında ciddi kampaniya aparırdı. Uruqvay Dövrəsi adı ilə məşhur olan bu danışıqlar (dövrəni başlamaq haqqında razılıq Uruqvayda Punta del Estedə əldə edilmişdi) 1986-cı ilin sentyabr ayında daha böyük ticarət liberallaşdırılması əldə etmək üçün fikrin ifadə vasitəsi kimi başlanmışdır.

YARDIMDAN LİBERALLAŞDIRİLMIŞ TİCARƏTƏ

Hər halda tarixi baxımdan Birləşmiş Ştatlar zaman-zaman iqtisadi proteksionizmə münasibətdə çox güclü həyəcan anları keçirib. Buna yerli sənayeni müdafiə etmək naminə xarici malların idxalını məhdudlaşdırmaq üçün tariflərdən və ya kvotalardan istifadə təcrübəsi nümunə ola bilər. Respublikanın başlanğıcında siyasi dövlət xadimi Aleksander Hamilton Amerika sənaye inkişafını ruhlandırmaq üçün bir yol kimi hamilik tarifini müdafiə etdi. Ümumiyyətlə, onun təklifi qəbul olundu. 1800-cü illər boyu ölkədaxili siyasi müzakirələrdə, pambıq kimi vacib istehlak mallannm ixrac edilməsinin genişləndirilməsi arzusu da daxil edilməklə. Birləşmiş Ştatlar ticarət siyasəti müəyyənləşdirildi.

Birləşmiş Ştatlar proteksionizmi 1930-cu ildə Smuut-Houli Aktının qəbul edilməsi ilə özünün ən yüksək zirvəsinə qalxdı. Tarif qanunu olan Smuut-Houli Aktı Böyük Depressiyanın effektlərini intensivləşdirdi. Smuut-Houli Birləşmiş Ştatlar tariflərini kəskin şəkildə qaldırdı və tezliklə xarici repressaliya ilə görüşdü. Bu hərəkət dünya iqtisadi böhranına təkan verdi.

1934-cü ildən Birləşmiş Ştatların ticarət siyasətinə münasibəti bu təcrübənin bilavasitə nəticəsi olub və II Dünya Müharibəsindən sonra Birləşmiş Ştatlar ticarət liberallaşdmlmasım təqdir etmişdir. Birləşmiş Ştatlar rəhbərlərinin çoxu inandırmağa çalışırdı ki, daxili sabitlik və Birləşmiş Ştatlar müttəfiqlərinin davam edən səmimiyyəti iqtisadi cəhətdən dirçəlmədən asılı olacaq. Bu dirçəliş üçün Birləşmiş Ştatlar yardımı vacib idi, lakin bu dövlətlərin xarici bazarlara, xüsusən nəhəng Birləşmiş Ştatlar bazarlarına böyük ehtiyacları var idi. Bu, iqtisadi müstəqillik əldə etmək və iqtisadi yüksəlişə nail olmaq üçün lazım idi.

11 Dünya Müharibəsi başlanmazdan çox əvvəl Dövlət Katibi Kordel Hul bu əlaqəni dərk etmişdi. O, 1934-cü il Ticarət Müqavilələri Aktını müdafiə üçün Birləşmiş Ştatlar tariflərini

azaltmaq haqqinda əsas qanunvericilik mandatını tə'min edən yazısında deyirdi:

«Dövlətlər bir-biri ilə ticarət etmək üçün düşünülüb-daşınılmış imkanlardan istifadə etmədikcə, onlar öz adamlanm dolandırmaq üçün və onlann güzəranlarını yaxşılaşdırmaaq üçün kifayət səviyyədə mal istehsal edə bilməz. Buna görə də Ticarət Müqavilələri Proqramının özülünü təşkil edən prinsiplər sülh binasının zəruri məhək daşıdır.»

1934-cü ilin Qarşılıqlı Ticarət Müqavilələri Aktı Prezidentə səlahiyyət verdi ki, ayrı-ayrı ölkələrlə ticarət sazişləri haqqında danışıqlar aparsın. Həmin qanun Birləşmiş Ştatlara xarici ölkələr idxal etdikləri mallara gömrük xərclərini xeyli azaltdı, bunun əvəzində həmin ölkələr də Birləşmiş Ştatlar ixracatına müvafiq güzəştlər etdilər.

Birləşmiş Ştatlar liberallaşdınimış ticarəti müdafiə etməsi Tariflər və Ticarət haqqında Ümumi Müqavilə (GATT) yaradılmasında əsas alət oldu. 1947-ci ildə 23 ölkənin imzaladığı və 1980-ci illərdə 90-dan çox ölkənin təmsil etdiyi bu müqavilə beynəlxalq tarif və ticarət qaydaları kodeksidir. Beynəlxalq ticarətin apaniması üçün kodekslər qoymaqla yanaşı Tariflər və Ticarət haqqında Ümumi Müqavilə çoxtərəfli ticarət danışıqlannm bir neçə dövrəsinə sponsorluq da etmişdir. Birləşmiş Ştatlar bunların hər birində fəal iştirak etmiş və bir sıra hallarda aparıcı rol oynamışdır.

TİCARƏT **A** merika rəsmi siyasəti ticarət sazişlərinə müəyyən prinsipləri PRİNSİPLƏRİ xvtətbiq etmək idi; bu prinsiplər də Tariflər və Ticarət haqqında Ümumi Müqavilənin məhək daşlan idi. Birincisi, münasibətlərdə müxtəlifliyin olmamasıdır. Ən münasib Şəraitdə olan Ölkə (MFN) münasibəti adı ilə də tanınan bu prinsipə əsasən, «ən münasib şəraitdə olan ölkə » adlı tərəfə olduğu kimi, ticarət aparan başqa tərəflərə də eyni gömrük vergisi və tarif münasibətləri bəslənilməlidir. Birləşmiş Ştatlar bu siyasəti indi onunla ticarət edən bütün ölkələrlə ticarət münasibətində tətbiq edir. Ancaq o ölkələr müstəsnadır ki, xarici siyasət problemləri ilə bağlı qanun üzrə o ölkələrin sıralarından çıxarılmışdır.

Münasibətlərdə müxtəlifliyin olmaması prinsipinin genişlənməsi və ya oradan çıxarılma bə'zən başqa xarici siyasət

məqsədləri üçün də istifadə olunur. Məsələn Birləşmiş Ştatlar Çinə ən münasib şəraitdə olan ölkə statusu verdi. Bu həmin ölkə ilə əlaqələrin yaxşılaşdırılmasına edilən cəhdin bir hissəsi idi. Eyni zamanda Birləşmiş Ştatlar insan hüquqlannm pozulması üzündən bə’zi ölkələrə ən münasib şəraitdə olan ölkə statusu verməkdən imtina edir. Konqres ilə federal agentliklər arasında ticarət siyasətinin başqa xarici siyasət məqsədləri üçün istifadə olunmasının tə’sirliliyi haqqında mübahisələr indi də davam edir.

Birləşmiş Ştatların ticarətə tətbiq etdiyi ikinci prinsip qarşılıqlı əlaqədir. Əslində, bu o deməkdir ki, ticarət sazişlərinin yerinə yetirilməsində bir dövlətə başqa bir dövlətdən daha böyük daxili imkanlar verilməməlidir. Bu müddəadan 1980-ci illərdə bir neçə sahə qarşılıqlı əlaqə təklifləri adlanan təklifləri müdafiədə istifadə olunub. Bu təkliflərə əsasən Birləşmiş Ştatlar hökumətindən tələb olunurdu ki, sahələr prinsipi əsasında hər bir ticarət aparan tərəf üçün Birləşmiş Ştatlar bazarına daxil olmaq məhdudlaşdmlsın. Bu, həmin tərəf Birləşmiş Ştatlar ixracatına müvafiq bazar imkanları yaratmaqdan imtina etdiyi şəraitdə olmalı idi. Analitiklərin əksəri sahə qarşılıqlı əlaqəsi təhlükəsinin danışıqlar aparmaq taktikasında faydalı ola biləcəyini e’tiraf etsələr də, ümumiyyətlə, mə’lumdur ki, belə qanunvericilik danışıqlara mane olacaq və geniş, qarşılıqlı sənaye kompromisi yolu ilə ticarətin liberallaşdırılmasma nail olmaq imkanını azaldacaqdır.

Birləşmiş Ştatlar eyni zamanda bir çox hallarda 1962-ci ildə qəbul olunmuş Ticarətin Genişləndirilməsi Aktında göstərildiyi kimi, çoxtərəflilik prinsipinə də əməl etmişdir. Bu akt prezidentə səlahiyyət vermişdir ki. Birləşmiş Ştatlar ilə onun ticarət partnyor- ları arasında tariflərin azaldılmasını qarşısında məqsəd qoyan və «Kennedi Dövrəsi» adlandırılan ticarət danışıqlarında çoxtərəfli ticarət liberallaşdırılması danışıqları aparsın. Danışıqlann bu dövrəsində beynəlxalq ticarətin 80 faizini təşkil edən 53 dövlət razılığa gəldi ki, tarifləri orta hesabla 35 faiz aşağı salsın.

Çoxtərəflilik prinsipi beynəlxalq ticarət danışıqlannm uğurlu dövrələrində illər boyu Birləşmiş Ştatların iştirakının və rəhbərliyinin əsasını təşkil edib. 1979-cu ildə Tokio Dövrəsinin uğurunun nəticəsi kimi. Birləşmiş Ştatlar və 100 başqa dövlət razılığa gəldilər ki, tarifi bir qədər də aşağı salsınlar və ticarətdə kvota və icazə hüququ tələbləri kimi tariflə bağlı olmayan maneələri də azaltsinlar.

1980-ci illərdə Birləşmiş Ştatlar çoxtərəfli ticarət danışıqlarının yeni istiqaməti üçün çağınş e'lan etdi və bu çağırış 1986-cı ilin sentyabrında Uruqvay Dövrəsində öz son nöqtəsinə çatdı. Bu danışıqlarda Birləşmiş Ştatlar kənd təsərrüfatı dotasiyalarından istifadənin ləğvi haqqında qaydalann inkişafına və Tariflər və Ticarət haqqında Ümumi müqavilənin başqaları arasında xidmətlər ticarətinin aparılması kodekslərinin genişləndirilməsinə çalışırdı.

Münasibətlərdə müxtəlifliyin olmaması prinsiplərinə ümumi şəkildə sadiq qalsa da, Birləşmiş Ştatlar müəyyən ticarət tədbirlərinə üstünlük verməkdə iştirak edirdi. Bu tədbirlərə Birləşmiş Ştatlar Ümumiləşdirilmiş İmtiyazlar Sistemi proqramı, Qəraib Dənizi Hövzəsi Təşəbbüsü, Birləşmiş Ştatlar-İsrail Azad Ticarət Sahəsi Müqaviləsi və Birləşmiş Ştatlar-Kanada Azad Ticarət Müqaviləsi daxildir. 1990-cı illərin əvvəllərində cəhdlər edilirdi ki, başqa ikitərəfli ticarət əlaqələri yaratmaq üçün saziş əldə olunsun. Bunlardan biri Birləşmiş Ştatlar ilə Meksika arasında idi. Və 1990-cı ildə Prezident Corc Buş Amerika təşəbbüsü üçün öz Tədbirini açıq e'lan etdi. Bu Tədbir əsasında başqa şeylərlə yanaşı Amerika Qərb yarım şarında azad ticarət üçün yol salmalı idi.

Ümumiləşdirilmiş imtiyazlar Sistemi proqramının məqsədi nisbətən kasıb ölkələrdə iqtisadi inkişafa təkan verməkdir. Bu, həmin ölkələrdən Birləşmiş Ştatlara ixrac olunan mallardan vergi almamaq yolu ilə tə'min olunur. Bu proqrama əsasən, imtiyazlar müəyyən məhsulların ixracı üçün ölkəyə verilir; cari ticarət icraatında göstərildiyi kimi, məhsul istehsal edənlər öz məhsulunun Birləşmiş Ştatlar bazarında rəqabətə yardım etmək ehtiyacının olmadığım müəyyən edən kimi imtiyazlar ləğv edilir. Tariflər və Ticarət haqqinda Ümumi Müqavilə ümumiləşdirilmiş imtiyazlar sistemi proqramının xeyrinə münasibətlərdə müxtəlifliyin olmaması prinsipinin hüququndan ümumi imtinanı da ehtiva edir.

Qəraib Dənizi Hövzəsi Təşəbbüsü 1980-ci illərdə yaradılmış proqramdır. Bu Təşəbbüs iqtisadi mübarizə aparan və Birləşmiş Ştatlara siyasi cəhətdən vacib olduğu müəyyən edilmiş bölgəyə iqtisadi yardım üçündür. 1995-ci ilin sonlarına qədər davam edəcəyi planlaşdırılan bu proqram Qəraib dənizi hövzəsindən toxuculuq, bə'zi dəri mə'mulatı, şəkər və neft istehsalı məhsulları müstəsna olmaqla, Birləşmiş Ştatlara idxal edilən bütün mallara pulsuz gətirilmək hüququ verir.

İkitərəfli azad ticarət tədbirlərinə Tariflər və Ticarət haqqında Ümumi Müqavilənin maddələrində müəyyənləşdirilmiş şərtlər əsasında icazə verilir. Birinci azad ticarət müqaviləsi Birləşmiş Ştatlar tərəfindən təklif edildi və Birləşmiş Ştatlar-İsrail Azad Ticarət Sahəsi Müqaviləsi adlanan bu Müqavilə 1985-ci il sentyabrın birində qüvvəyə mindi, ikinci Birləşmiş Ştatlar-Kanada Azad Ticarət Müqaviləsi isə 1989-cu il yanvann birində qüvvəyə mindi. Tarixi baxımdan, coğrafi yaxınlıq Birləşmiş Ştatlarla onun iki qonşusu Kanada və Meksika arasında güclü ticarət əlaqələri üçün gözəl şərait təqdim edirdi. 1992-ci ilin avqustunda və bir ildən daha çox davam edən danışıqlardan sonra, bu üç ölkə genişəhatəli azad ticarət sazişi haqqında danışıqları qurtardı. Bu saziş onların arasında bütün ticarət tariflərini ləğv edir, xidmətlərdə və investisiyada ticarətə maneələri azaldır və zehni mülkiyyətə (əlyazmaları, patentlər və istehsalat mallan üzərində işarə də daxil olmaqla) bərabər müdafiə tə'minatı verirdi. Qanuna minməzdən əvvəl saziş hər bir ölkənin milli qanunvericilik orqanları tərəfindən təqdir olunmalıdır. Birləşmiş Ştatlarda bir sıra əmək birlikləri bu sazişə qarşı çıxdı, çünki onlar qorxurdular ki, Meksikada daha ucuz əməklə istehsal edilmiş istehlak mallarının axını Birləşmiş Ştatlarda fəhlələrin öz işlərini itirmələrinə gətirib çıxara bilər. Prezident Klinton Şimali Amerika Azad Ticarət Müqaviləsini müdafiə edir, lakin onu ətraf mühiti mühafizə və əmək standartları haqqında əlavə saziş danışıqları da maraqlandırır.

BİRLƏŞMİŞ ŞTATLAR TİCARƏT DEFİSİTİ

I qiymətinin heyrətedici dərəcədə artması canlı şəkildə Birləşmiş Ştatlar və dünya iqtisadiyyatının qarşılıqlı əlaqədə olduğunu nümayiş etdirdi. Birləşmiş Ştatlar tam məhsul istehsalının bir hissəsini təşkil edən ixracat 11 Dünya Müharibəsindən sonra dramatik bir şəkildə artdı və daha artıq Birləşmiş Ştatlar fəhlələri beynəlxalq bazar meydanlarının qəribəliklərinə düçar oldular. Neftin qiymətinin ikinci dəfə təəccübedici artmasından sonra baş verən qlobal tələbatın aşağı düşməsi beynəlxalq ticarətin durğunluğuna səbəb oldu; qlobal ticarət 1982-ci və 1983-cü ildə əslində aşağı düşdü. Birləşmiş Ştatlar və bir sıra başqa dövlətlər inflyasiya və tələbatın aşağı düşməsini aradan qaldınnaq və iqtisadi dirçəlişə və yüksəlişə nail olmaq üçün ciddi mübarizə aparırdılar.

Eyni zamanda beynəlxalq rəqabətdə dəyişikliklərin baş verməsinin başlandığı hiss olunurdu. 1970-ci illərin sonlarında, xüsusən yenicə sənayeləşməkdə olan ölkələr qlobal əsasda rəqabətə girmək üçün bacanqlannın artdığını nümayiş etdirməyə başladılar. Cənubi Koreya, Honq Konq, Meksika və Braziliya polad, toxuculuq, ayaqqabı, avtomobil hissələri və bir çox istehlak malları məhsulu istehsalı sahəsində nüfuzlu beynəlxalq məhsul istehsalçısına çevrilmiş bir neçə ölkədir. Bu yeni şərait qlobal ticarət mühitini və bu mühitdə Birləşmiş Ştatlarin yüksək mövqeyini dəyişdi.

Başqa ölkələr daha uğurlu olduqca, Birləşmiş Ştatlarin ticarətə təmənnasız bol yardimi dağılmağa başladı. Birləşmiş Ştatlarin ixracat sənayesi fəhlələri narahat olurdular ki, başqa ölkələr düzgün olmayan yollarla üçüncü dünya ölkələrində xarici sənayeni planlaşdırma vasitəsilə bazarları fəth edirlər. Bu isə xarici ölkələrə imkan verir ki, onlar polad sənayesi kimi gəlirli sənaye sahələrini seçsin və xarici ticarət sahəsində ixracatın idxalat üzərində üstünlüyünə təkan versin.

Bu müddət ərzində bir sıra Birləşmiş Ştatlar çoxsahəli şirkətləri öz məhsul istehsalını okeanin o tayına hərəkət etdirməyə başladılar. Texnoloji tərəqqi bu hərəkəti daha artıq reallaşdırdı və yerin dəyişməsi bir çox hallarda şirkətlərə daha aşağı ödənilən əmək haqqından məhsulun dəyərini aşağı salmaq üçün daha az tənzimləmə və ya başqa şəraitdən istifadə etməyə imkan tapmaq üçün edilir. Əvvəllər Birləşmiş Ştatlar ixrac etdiyi malların çoxu indi okeanın o tayında istehsal olunmağa başladı.

Bununla belə. Birləşmiş Ştatlar ticarət balansına ən çox zərər verən hadisə - idxal olunan malların ixrac edilən mallara nisbəti - dolların xarici mübadilə dəyərinin gözlənilmədən artması idi. 1980-ci və 1985-ci illər arasında dolların dəyəri Birləşmiş Ştatlarin əsas ticarət partnyorlan dönər pulu ilə nisbətdə 40 faizə qədər yuxarı qalxdı. Bu ona oxşayırdı ki, qiymətlər sanki Birləşmiş Ştatların ixracatı əsasında müəyyənləşdirilir, dotasiya isə xarici idxalata verilir.

1972-ci ildə idxalat Birləşmiş Ştatlar ixracatından 5,7 milyard dollar artıq oldu, 1985-ci ildə idxalatın ixracat üzərində dəyəri 100 milyard dollardan da çox oldu və ticarət alış-verişi defisiti 1987-ci ildə 152 milyard dollara qədər yüksəldi. Buna baxmayaraq, dolların dəyərinin aşağı düşməsi hiss edilən kimi, ticarət

defisiti də aşağı düşməyə başladı; 1990-cı üdə o, 101 milyard dollara qədər azaldı. Bəs dolların dəyəri niyə yüksək qiymətləndirilirdi? Buna cavabı 1981-1982-ci illərdə qlobal tələbatın aşağı düşməsindən sonra Birləşmiş Ştatlann dirçəlməsində və nəhəng Birləşmiş Ştatlar federal büdcəsinin defisitində tapmaq olar. Bunlar hər ikisi xarici kapitala ehtiyac üçün birgə hərəkət edirdilər. Tələbatın aşağı düşməsindən Birləşmiş Ştatların dirçəlişi
1982- ci ilin sonlarında başladı ki, bu da başqa ölkələrdə olduğundan nisbətən tez idi. Dirçəlişlə bərabər Birləşmiş Ştatlarda, idxal olunanlar da daxil edilməklə, mallara olan tələbat da artdı.
1983- cü ildən 1984-cü ilə qədər Birləşmiş Ştatlar idxal etdiyi mallar 24 faiz artdı. Birləşmiş Ştatlar mallarına isə xarici tələbat eyni səviyyədə artmadı, çünki başqa ölkələrdə dirçəliş hələ başlanmamışdı.

Birləşmiş Ştatlarda dirçəliş eyni zamanda daxili investisiya üçün fondlara tələbatı artırdı. Lakin Birləşmiş Ştatlarda qənaət edilmiş pullar kifayət dərəcədə böyük deyildi ki, federal büdcə defisiti ən yüksək səviyyəyə qalxdığı dövrdə investisiyaya olan tələbatin genişlənməsinə təkan versin. Böyük büdcə defisitinin və inflyasiyanın qarşısım almaq üçün müdafiə olunan qıt pul siyasətinin birləşməsi Birləşmiş Ştatların gəlir faizi normalarını başqa sənayeləşdirilmiş ölkələrin normalarına nisbətən yüksəkdə saxladı. Yüksək gəlir faizi norması xaricilərin kapitallarını Birləşmiş Ştatlarda investisiya etməyə şirnikləndirdi. Beləliklə, xaricdən dollara olan tələb dolların dəyərini qaldırdı.

Dəyişməyən dollar qısa müddət ərzində Birləşmiş Ştatlar iqtisadiyyatına əhəmiyyətli mənfəət verdi. İdxal edilən malları ucuzlaşdirmaqla, o, inflyasiyanın qarşısını aldı, bununla birlikdə Birləşmiş Ştatlara imkan verdi ki, həm nəhəng büdcə defisitini, həm də özəl investisiyanın artımım maliyyələşdirsin. Lakin Birləşmiş Ştatların ixracatının nisbi qiymətini artırmaqla səbatlı dollar Birləşmiş Ştatların nəhəng ticarət defisitini yaratdı.

Dolların qiymətinin qalxması Birləşmiş Ştatlar ticarət defisitinin yeganə səbəbi deyildi, lakin siyasətçilərin və iqtisadiyyatçılarm əksəri defisitin 50 faizinə qədərini dollar qiymətinin qalxması ilə bağlayırdılar. Qərar çıxaranlar razılığa gəlmişdilər ki, əgər federal defisit və, beləliklə, beynəlxalq borcalma ehtiyacı azaldılsa, ticarət defisiti ancaq əhəmiyyətli dərəcədə aşağı düşər.

Konqres bu vəziyyətə 1985-ci ildə Qram-Rudman-Holinqs defisitiazaltma qanunvericiliyini qəbul etməklə cavab verdi. Bu qanun illik defisit azaltmalarına azaldılmış məbləği mütləq xərcləmə yolu ilə tə’sir göstərməsi üçün imzalanmışdı. (Bu qanun Ali Məhkəmə onun Konstitusiyaya uyğun olub-olmadığını yoxladıqdan sonra möhkəmləndi və onun son istifadə müddəti 1990-cı illərin şişən defisitinə son qoyulduqdan sonraya müəyyən edildi.)

İcra şaxəsi də dolların dəyərinin aşağı düşməsinə müntəzəm qayğı göstərmək üçün tədbir görmüşdü. 1985-ci ildə Birləşmiş Ştatlar xəzinədarlıq katibi Fransanın, Almaniyanın, Yaponiyanın, Birləşmiş Krallığın maliyyə nazirləri ilə əsas ticarət partnyorlarınm dönər puluna münasibətdə dolların qiymətinin tənzimli şəkildə aşağı düşməsinə nail olmaq üçün görüşdü. Xarici mübadilə bazarlarında mərkəzi bankın işə qarışması ilə dolların qiyməti tədricən aşağı düşdü, 1985-ci ilin sentyabrı ilə 1988-ci ilin yanvarı arasında dollar, demək olar ki, öz dəyərinin yansmı itirdi. 1988-ci ildə dolların qiymətinin aşağı düşməsi Birləşmiş Ştatlarda tənəzzülə uğrayan ticarət defisitinə təkan verdi.

AMERIKA DOLLARI və DÜNYA İQTİSADİYYATI

1 Q Q A ^ ’ illərdə Amerika dolların həddən artıq yüksək V y O v/“ ^ i qiyməti problemi ilə üz-üzə gəldi. Bir çox Amerika mallanmn beynəlxalq və daxili bazarlarda qiymətini dollar müəyyənləşdirir və Birləşmiş Ştatlar ticarət defisitini genişləndirirdi.

Lakin qiymətləndirilməmiş dolların da Birləşmiş Ştatlar iqtisadiyyatı üçün qiyməti var. Bu qiymətlər 1960-cı illərin sonlarında Vyetnam Müharibəsi dövründə, nisbətən ucuz xarici mallar üçün yüksək qiymət ödənildiyi və artmaqda olan xarici və hərbi yardım zamanı xeyli dolların xaricə axınına səbəb oldu. Dolları asanlıqla əldə etmək üçün, dolların dəyəri dünyanın xarici mübadilə bazarlarında əhəmiyyətli dərəcədə aşağı düşdü. Birləşmiş Ştatlar iqtisadiyyatçıları dolların dəyərinin belə aşağı düşməsini dolların alıcılıq qabiliyyəti ilə bağlayırdılar, çünki dollar inflyasiyanı gücləndirməyə meyl edirdi.

İnflyasiyanın öhdəsindən gəlmək problemləri və dollar dəyərinin dəyişkənliyi, eyni zamanda dünya iqtisadiyyatının qeyri-sabit təbiəti o yerə gətirib çıxardı ki, bir çox müşahidəçilər dünya

pul və maliyyə sisteminin ya tənzim olunmasına, ya da islahatına çağırdılar. İslahatla bağlı konkret cəhdlər 1944-cü ilin əvvəllərində dünyanın aparıcı dövlətlərinin əksəri öz nümayəndələrini Nyu Həmpşirin Breton Vuudz şəhərində keçirilən konfransa göndərəndə başladı. Milli dönər valyutanı sabitləşdirmək məqsədi ilə Beynəlxalq Pul Fondu (IMF) tə'sis edildi. Bu fond 8,8 milyard dollarla yaradıldı ki, onun da təqribən 25 faizini Birləşmiş Ştatlar vermişdi.

Beynəlxalq Pul Fondu ödənc balansı borclarını ən'ənəvi vasitələrlə ödəmək imkanından məhrum olan, adətən, inkişaf etmiş ixracatı və uzunmüddətli borcları olan dövlətlərə qısamüddətli kreditlər verir. Beynəlxalq Pul Fondu güman edir ki, onun borcları qaytarılacaq və daim borclu dövlətlərlə məsləhətə girişərək, onlara bordan geri qaytarmağın yollarını tövsiyə edə bilər.

Breton Vuudzda keçirilən konfrans eyni zamanda iki dövlət arasında müəyyən mübadilə normalarını müdafiə üçün sazişlə nəticələndi, lakin bu saziş həmin dövrdən unudulub. 1971-ci ildə yüksəlməkdə davam edən Birləşmiş Ştatlar ticarət defisiti ilə Birləşmiş Ştatlar Almaniyaya və Yaponiyaya təklif etdi ki, hər ikisi müvafiq ödənc balansı ilə öz dönər valyutalarını qiymətləndirsinlər. Lakin onlar hərəkətə gələrkən çox az və çox gec idi. Dolların müəyyən edilmiş dəyəri kənara qoyuldu və ona «özü üçün üzmək» icazəsi verildi, yə'ni, başqa dönər valyutalara münasibətdə tərəddüd etsin, dəyişsin - öz dəyərini təklif və tələblə müəyyənləşdirsin. Birləşmiş Ştatlarda qiymətlər və maaşlar bir müddət donduruldu və idxal mallarına 10 faiz əlavə vergi tə'yin edildi. Məqsəd Avropanı və Yaponiyam inandırmaq idi ki, onlar Amerika məhsuluna ticarət maneəsini azaltsinlar.

Köhnə sistemi dirçəltməyə çalışmaq məqsədilə Vaşinqtonda Smitson İnstitutunda ümumdünya konfransı çağırıldı. Dollar rəsmi olaraq öz qiymətini itirmişdi və yapon yeni və alman markasının dəyəri qalxmışdı. 1972-ci ildə Birləşmiş Ştatlarin ticarət vəziyyəti hələ də kifayət dərəcədə yaxşılaşmadıqda, dolların dəyərinin düşməsi rəsmi şəkil aldı və dünya yenə də tərəddüd edən mübadilə normasına qayıtdı.

Bir sıra iqtisadiyyatçılar sübut etməyə çalışırlar ki, uzunmüddətli və dərin ticarət uyğunsuzluqlarmı qaydaya salmaq üçün daha inandırıcı metodlardan istifadə olunmalıdır. Çox geniş yayılmış fikirlərdən ikisi müəyyən dərəcədə çevik mübadilə

normaları və Xüsusi Almaq Hüquqlanndan (SDRs) ibarətdir. Müəyyən dərəcədə çevik mübadilə normaları sabit (və, adətən, köhnəlmiş) mübadilə normaları günləri ilə Smitsondan sonra təklif və tələb dönər valyutanın dəyərinə fövqəladə sabitsizliyə səbəb ola biləcək sərbəst tərəddüd edən vəziyyət arasinda banşıq təmsil edir. Müəyyən dərəcədə çevik mübadilə normaları sistemi üçün bir təklif «plan zonası» tə’sis etməyə çağırır. Burada hər bir dönər valyuta maksimum müəyyən məbləğ vasitəsilə tərəddüd edə bilərdi - güman ki, ildə 1 faiz və ya 2 faiz.

Xüsusi Almaq Hüquqları (SDRs) «kağız qızıl» adı ilə tanınır. Dünya pul ehtiyatına münasibətdə məhdud qızıl ehtiyatı, dolların dəyərinin düşməsi ilə yanaşı (dünyanın ən sabit dönər pulu kimi, beynəlxalq pul-mal sövdələşmələrini ödəmək üçün dollar istifadə olunurdu) bunu əvəz etmək üçün başqa bir vahidin tapılması ehtiyacını ortaya qoydu. Beynəlxalq Pul Fondu razılıq verdi ki, kağız qızıl yaradılsın və üzv olan dövlətlər arasımda bölüşdürülsün. Bölüşdürmə Beynəlxalq Pul Fonduna dövlətlərin qoyduqları pulların məbləğinə nisbətlə müəyyənləşdirilsin. Bir sıra nisbətən kasıb dövlətlər güman edirlər ki. Beynəlxalq Pul Fondu onlara da Xüsusi Almaq Hüquqları (SDRs) hesabından pay almağa icazə verəcək, bu isə onların ehtiyacları əsasında ola bilər. Bu pay həmin nisbətən kasıb dövlətlərin Beynəlxalq Pul Fondundakı iqtisadi mövqeyinin nisbətindən kənardır.

İNKİŞAF "TJ reton Vuudz Konfransı eyni zamanda Dünya Bankı tə’sisi ilə YARDIMI XJ nəticələndi. Çoxşaxəli müəssisə olan Beynəlxalq Bankın vəzifəsi dünya bazarında iştirak etmək üçün zəruri fondları qaldırmaq iqtidarı olmayan dövlətlərə borc vermək yolu ilə dünya ticarəti və iqtisadiyyatının inkişafına təkan vermək idi. Dünya Bankı öz kapitalını üzv olan ölkələrdən alır, bu ölkələr isə öz növbəsində özlərinin iqtisadi imkanlarından çıxış edərək, müvafiq nisbətdə kapital verir. Dünya Bankının ilkin kapitallaşdırılması 9,1 milyard dollar idi ki, onun da təqribən 35 faizini Birləşmiş Ştatlar qoymuşdu. Dünya Bankı üzvləri ümid edirlər ki, onlar banka qoyduqları pulları tam məbləğdə öz zəif iqtisadiyyatını gücləndirmək üçün aldıqları borcu ayn-ayrı dövlətlər banka qaytardıqdan sonra alacaqlar. Güman olunur ki, zaman keçdikcə bu ölkələr o dərəcədə inkişaf etmiş olacaqlar ki, onlar da daha çox

İnkişaf etmiş ölkələrin tamhüquqlu ticarət partnyorlarma çevriləcəklər və ticarət yoiu ilə bu məhsullarım başqa mallarla əvəz edəcəklər.

Dünya Bankı yardımından əlavə, Birləşmiş Ştatların irimiqyaslı inkişaf yardımı ilə məşğul olması Birləşmiş Ştatların II Dünya Müharibəsi qurtardıqdan sonra Avropa iqtisadiyyatının dirçəlişi naminə kömək etmək qərarı ilə izlənilə bilər. Ciddi iqtisadi problemləri olan dövlətlərə yardım yavaş-yavaş inkişaf etdiyinə baxmayaraq, Avropanın müharibədən sonrakı dirçəlişi yolunda katalizator rolu oynayan Marşal Planı 1948-ci ilin aprelində qəbul edildikdən sonra Amerika xalqı böyük nailiyyət ruhu keçirdi. Prezident Harri S. Trumen bu nailiyyətə əsaslanaraq, inkişaf etməkdə olan dövlətlərin Qərb demokratik xətti ilə irəliləməsi üçün onlara yardım etmək qərarına gəldi. Başqaları, bu yardımı sırf humanitar səbəblər üzündən olduğu üçün, müdafiə etdilər. Bə’zi xarici siyasət mütəxəssislərini müharibədən ciddi zərər çəkmiş və inkişaf etməmiş ölkələrdə «dollar qıtbğı» narahat edirdi və bu mütəxəssislər inanırdılar ki, dövlətlər gücləndikcə, onlar da beynəlxalq iqtisadiyyatda təmənnasız iştirak etmək arzusunda olacaqlar və buna imkan da tapacaqlar. Prezident Trumen 1949-cu ildə prezident seçilməsi münasibətilə öz təntənəli nitqində bu proqramın əsas cəhətlərini şərh etdi və bunu Amerika xarici siyasətinin əsas hissəsi eTan edərkən, xalqı sanki lərzəyə saldı.

Proqram 1961-ci ildə yenidən hazırlandı və sonra onun idarə olunması Beynəlxalq İnkişaf üçün Birləşmiş Ştatlar Agentliyinə tapşırıldı. 1980-ci illərdə Beynəlxalq inkişaf üçün Birləşmiş Ştatlar Agentliyi nəhəng bəndlər, iri ticarət yolları sistemi və əsas sənaye tikintisi kimi böyük inkişaf planlarını həyata keçirməklə məşğul olur. İnkişaf etdikcə. Beynəlxalq İnkişaf üçün Birləşmiş Ştatlar Agentliyi yemək və ərzağa, əhalinin sayım planlaşdırmaya və səhiyyəyə, təhsil və humanitar ehtiyata, xüsusi iqtisadi inkişaf problemlərinə, aclıq və fəlakətin qarşısını almaq üçün yardıma və Sülh Naminə Ərzaq çağırışına daha ciddi fikir verdi. Bu sonuncu çağırış proqramı ildə 1 milyard dollarlıq ərzaq və başqa istehlak mallarını müvafiq müddətə kreditə satır və ən kasıb dövlətlərə tam pulsuz kömək edir.

QLOBAL TT Dünya Müharibəsi İllərindən bəri Birləşmiş Ştatlar və başqa İQTİSADİYYAT **J. J.** dövlətlərin qlobal iqtisadi qarşılıqlı asılılığı həndəsi üsulla artmışdır. Bu özünü ehtiyatlardan istifadədə, istehsaletmə haqqında qərarlarda, xam material mal ticarətində və istehlakçı tələbində göstərmişdir. Bu, Beynəlxalq Pul Fondu, Dünya Bankı, Tariflər və Ticarət haqqında Ümumi Müqavilə kimi beynəlxalq iqtisadi əlaqələrdə qayda yaratmaq cəhdlərində də görünə bilər.

Bu, 1970-ci illərdə iki dəfə baş vermiş neft qiyməti şokları kimi yeganə dramatik hadisələrin geniş vüs'ət almış tə'sirləri yolu ilə də nümayiş etdirilmişdir.

Artmaqda olan qarşılıqlı asılılığın başqa bir əlaməti də xarici investisiyanın yüksəlişidir. 1989-cu ildə Birləşmiş Ştatlarin bilavasitə investisiyası xarici ölkələrdə 1982-ci ildəki tarixi dəyər baxımından 207,8 milyard dollardan 373,4 milyard dollara qalxdı. Birləşmiş Ştatlarda isə xarici bilavasitə investisiya hətta daha sür'ətlə artdı: eyni dəyər ölçüsü ilə 1982-ci ildəki 124,7 milyard dollardan 1989-cu ildə 400,8 milyard dollara qədər artdi. Xarici investisiya vasitəsilə Birləşmiş Ştatlar sənayesi başqa ölkələrdə sənayenin inkişafına - Çilidə, bu ölkə üçün xarici mübadilədə əsas mənbə olan mis e'malı sənayesinin inkişafına - kömək etdi. Eyni zamanda Birləşmiş Ştatlar əsasını qoyduğu bir çox şirkətlər yerli zavodların istehsal etdikləri mallan xarici bazarlarda satmağa yollar axtarırdılar. Məsələn, Ford Motor Kompaniyası və General Motors Korporasiyası Britaniyada ən böyük avtomobil istehsalçılarındandır.

Xarici investisiyanın üçdə birinə qədəri Birləşmiş Ştatlarda sənaye istehsalındadır. Ohayoda Flonda, İllinoysda Mitsubişi və Tenessidə Nissan kimi xarici müəssisələr diqqəti xüsusi cəlb etmişlər. Qismən, bu müəssisələr daha geniş istiqamət təmsil edir. Bu istiqamətdə uğurlu firmalar. Birləşmiş Ştatlarda müvafiq mallar istehsal edən firmalar kimi, başqa ölkələrdə zavodlar tikirlər ki, onlann məhsuluna yüksək ehtiyacı olan yerli bazarlara xidmət etsinlər.

Xarici investisiyanın yüksəlişi dövlətlərin beynəlxalq iqtisadi əlaqələri ilə bağlı yeni suallar ortaya qoymuşdur. Firmalar hansı növ işlər aparırlar ki, bu işlərin apaniması milli təhlükəsizlik üçün o qədər qorxuludur ki, onun aparılmasından ötrü xancı investisiyaya icazə verilməsinə dəyməz? Əgər hər hansı bir dövlət həmin dövlətin iqtisadiyyatında Birləşmiş Ştatlar investisiyasını

məhdud edirsə, onda Birləşmiş Ştatlarda investisiya nə olsun? Birləşmiş Ştatlar təklif etdi ki, xarici investisiyanı idarə etmək üçün Uruqvay Dövrəsi ticarət danışıqları zamanı bir neçə qayda inkişaf etdirilsin.

20-ci əsrin anlaşılmaz illərində qlobal ticarət rejiminin götürəcəyi istiqamət 1990-cı illərdə olduğu kimi qaranlıq qaldı. Uruqvay Dövrəsinin planlarını tamamlamaq üçün ümumi planlara baxılmadı. Bu, əsasən, kənd təsərrüfatı dotasiyaları ilə bağlı razılığa gələ bilməmək üzündən baş verdi; lakin 1991-ci ildə aparıcı sənayeləşdirilmiş dövlətlər qərara gəldilər ki, danışıqları uğurla başa vursunlar. Azad ticarətə əsaslanan siyasətə qarşı çıxan Amerika «ticarət revizionistləri» inandırıcı şəkildə mübahisəyə girişdilər ki, davam etməkdə olan iri Birləşmiş Ştatlar ticarət defısitləri (xüsusən Yaponiya ilə) o demək olacaq ki, Birləşmiş Ştatlar ticarətə «qanun-qaydalara əsaslanan yaxinlaşmadan» və «nəticələrə yönəldilən» yaxınlaşmadan kənar ediləcəkdir. Onlar bir addım kimi Konqresin 1988-ci ildə qəbul etdiyi Omnibus Ticarəti və Rəqabət Aktına əsaslanırdılar. Bu qanunda bir sıra qarşılıqlı tə’minat və başqa tədbirlər nəzərdə tutulurdu ki, bağlı xarici bazarları Birləşmiş Ştatlar ixracatının üzünə açsın. Bə’ziləri mübahisə edirdilər ki. Tariflər və Ticarət haqqında Ümumi Müqavilə xarici maneələri azaltmaq üçün bir vasitə kimi artıq yaramır.

Buna baxmayaraq, Buş administrasiyasında çalışan Birləşmiş Ştatlar siyasi xadimləri razılaşırdılar ki, Uruqvay Dövrəsi ticarət danışıqlarının qurtarmasının icrası elə birinci dərəcəli vacib sahə olaraq qalır ki, onunla Meksika ilə ikitərəfli azad ticarət müqaviləsinə və zaman keçdikcə. Qərb yarım kürəsi üçün azad ticarət sisteminə nail olmaq olar.



AMERIKA İQTİSADİYYATININ
ƏSAS CƏHƏTLƏRİ

ON BİRİNCİ HİSSƏ

# XI

# SON SÖZ



İZ artıq qeyd etmişdik ki, bazar sisteminin sadə qəlibi ilə Amerika təcrübəsinin arasında əhəmiyyətli ziddiyyət var. Birləşmiş Ştatlar müəyyən dərəcədə həmişə yaradıcı iqtisadi amil olan hökumətə arxalanmışdır. Digər tərəfdən, Birləşmiş Ştatlar eyni zamanda həmişə müəyyən dərəcədə (bir sıra hallarda çox geniş dərəcədə) hökumətin səlahiyyətinə şübhə ilə yanaşmışdır. Əmək, kənd təsərrüfatı, kiçik şirkət, iri korporasiya. Federal Ehtiyat Sistemi və hökumət hamısı birgə qarşılıqlı hərəkət edirlər ki, müxtəlif iqtisadi sistem istehsal etsinlər.

Bizim burada təqdim etdiklərimiz, əsasən, ağıl, nəzəriyyə və keçmiş təcrübənin aydınlaşdırdığı tarixi salnamədir. Bəs gələcəkdə necə olacaqdır? Hər hansı bir sahədə, daha az şəkildə isə dinamik, dəyişkən iqtisadiyyat sahəsində əvvəlcədən fikir demək təhlükəli bir hərəkətdir. Şübhə yox ki, keçmiş gələcəyə tə’sir edir, lakin hətta keçmişin özü də ziddiyyətlərdən xali deyildir. Bundan əlavə, gələcək keçmişə arxalanmamalıdır. Heç kəs bilmir ki, bizi küncün o tayında hansı yeni ideya, ixtira və ya texniki tətbiq üsullan gözləyir. Keçmişdə bu cür inkişaflar (onlar inandıra bilərlər ki, onlar məhsuldarlıq normalarına da tə’sir edirlər) iqtisadi dünya üçün geniş nəticələr verirdi. Onlar aşağıdakı suallara cavab verirdi: Hansı sənaye sahəsi çiçəklənəcək və ya süqut edəcək? Necə iş tapmaq mümkün olacaq? Öz işlərini saxlayanlar üçün həyat səviyyəsi necə olacaqdır? Əgər bu dəyişikliklərin xüsusiyyətləri üzərində düşünüb-daşınmaq mə’nasız görünürsə, hər halda bunların hansı şəraitdə baş verə biləcəyini müzakirə etmək faydalı ola bilər.

İNFLYASİYA VƏ YA TƏDRİCİ YÜKSƏLİŞ

B 1980-ci; illərin axırlarında və 1990-cı illərin əvvəllərində inflyasiya hələ aradan qaldırılmamışdı, lakin amerkalılar sevinirdilər ki, 1970-ci illərlə müqayisədə inflyasiyanın səviyyəsi nisbətən aşağı və sabitdir. Bu, əsasən, 1980-ci illərin əvvəllərində tələbatın dəhşətli dərəcədə aşağı düşməsindən və kəskin pul siyasətindən irəli gəlirdi. Lakin amerikalıların çoxu inflyasiya probleminin həll olunduğuna tam əmin deyildi. Onlar 1990-cı ildə çox narahat oldular ki, nefti bol olan körfəzdə müharibə başlanmasının nəticəsi kimi, neft

məhsullarının qiyməti dünya bazarında kəskin şəkildə artdı. Bir neçə aydan sonra qiymət yenə aşağı düşdü və hərbi hərəkətlər dayandınıdıqdan sonra baş vermiş hadisə sanki heç bir uzun sürən inflyasiya nəticəsi qoymadı.

Lakin bu hadisə Birləşmiş Ştatlar iqtisadiyyatının qəfildən baş verən şoka qarşı necə həssas olduğunu göstərdi. 1990-cı ilin neft şoku, görünür, Birləşmiş Ştatlar iqtisadiyyatının 1991-ci il tələbatının aşağı düşməsinə gətirib çıxardı. Bu zaman amerikalıların çoxunun əsas qayğısı yenidən başlaya biləcək inflyasiya qorxusunu tədricən iqtisadi dirçəliş nə zaman baş verəcək, dirçəliş nə dərəcədə möhkəm ola bilər və ilkin yüksəlişdən sonra iqtisadiyyat yenə də qəflətən aşağı sürüşə - «ikinci dəfə batma» tələbatın aşağı düşməsi kimi tanınan hadisə - bilərmi suallarına cavab tapmaqla əvəzetmə idi.

Yüksək gəlir faizi normaları iqtisadi yüksəlişi ləngidir, halbuki gəlir faizi normaları artıq yüksək idi, nisbətən ona görə ki. Birləşmiş Ştatların büdcə defisitləri böyük idi və güman da var idi ki, bu defisitlər qeyri-müəyyən halda davam edə bilər. Əlavə olaraq, iqtisadiyyatçılar Şərqi Avropadan ötrü iri məbləğdə kapital tələbləri gözləyirdilər; Şərqi Avropa isə dünyanın elə bir hissəsi idi ki, sosialist nəzarəti məngənəsinin qarşışını almaq üçün bazara əsaslanan iqtisadiyyata qayıtmağa ciddi cəhd göstərirdi.

İqtisadi dirçəlişin möhkəmliyi ilə bağlı qayğının başqa səbəbləri də var idi. Ağır borc irsi və əmək qabiliyyəti olmayan maliyyə müəssisələri qoyan 1980-ci illərin borcverməlerinin həddən artıq olmasının nəticəsi kimi. Birləşmiş Ştatlar bankları və başqa borc verənlər 1990-cı illərdə borcvermə standartlarını dar çərçivəyə saldılar. Əlbəttə, bütün maliyyə sektoru gərginlik halında idi, cünki banklar, əmanətlər və borclar, eyni zamanda keyfiyyətcə pis təşkil edilmiş borclar portfelinin altında axsayan bir sıra tə'minat kompaniyaları çalışırdılar ki, əlavə kapital almaq və ya birləşmək yolu ilə özlərini xilas etsinlər. Lakin bunların çoxu müflisləşdi, bə'ziləri isə heç borclarını da qaytara bilmədilər.

Qismən bu problemlərin nəticəsi kimi, amerikalılar Birləşmiş Ştatlar maliyyə sisteminin 20-ci əsrin tutqun illərində qlobal rəqabətə yararlı olub-olmadığı haqqında dönə-dönə suallar verirdilər. Ancaq bir neçə onillik əvvəl Birləşmiş Ştatlar pul -mərkəzi bankları dünyanın ən iri bankları sırasına çıxdı; 1991-ci ildə ən yüksək yer tutan 20 bankın arasında biri də qalmadı. Böyüklük heç də güclü olmaq tə'minatı vermədiyi üçün aydın idi ki, Amerika

bank fəaliyyəti köhnəlmişdi, keçmiş zamandakı təfəkkür tərzi hakim rol oynayırdı. Buna əsasən, çoxlu kiçik şəhər banklarına ehtiyac var idi ki, bu banklar fermerlərə borc pul versinlər, eyni zamanda Böyük Depressiya dövründə banklara cürbəcür məhdudiyyətlər qoysunlar, lakin islahatlar paketində razılıq əldə etmək üçün cəhdlər çətin oldu.

YENİDƏNQURMAYA EHTİYAC

i^^vvəllərdə qeyd edildiyi kimi, iqtisadiyyat tarixində müəyyən V^mövzularm öz-özünü təkrar etmək meyli var. İqtisadi yenidənqurma da onlardan biridir. Demək olar ki, bu həmişə çətindir. Amerikalıların çoxunun əvvəllər bununla bağlı bir neçə variantı olub: kənd təsərrüfatı sektorunun möhkəmləndirilməsi (bu proses bütün 20-ci əsr boyu davam etmişdir və fermerlərin çoxunu öz torpaqlarından məhrum etmişdir), 1970-ci və 1980-ci illərdə məhsul istehsalı sektorunu tam yenidənqurma (bu proses zavod və fabrikdə işin sayım dəhşətli şəkildə azaltmış, demək olar ki, bir neçə sabiq Birləşmiş Ştatlar sənaye icmalarını adamlardan təmizləmişdir). Bu, iqtisadiyyatçı Cozef A. Şumpeterin yazdığı kimi, kapitalizmin özünü yenidən möhkəmləndirmək vasitəsi olan «yaradıcı dağıtma» nümunəsidir; axırda yenidən qurulmuş sektor nisbətən kiçik və müxtəlif ola bilər, lakin o nisbətən güclüdür və qlobal rəqabətin amansız tədbirlərinə dözməyə daha artıq qadirdir. Eyni zamanda işlərini itirənlərə daha çox imkanı olan sənaye sahələrində iş verirlər. 20-ci əsrin sonlarında belə işlər kompüterlər və biotexnologiya kimi yüksək texnologiyalı sənaye sahələrində, eyni zamanda səhiyyə qayğısı və kompüter proqramlaşdırılması kimi sür’ətlə genişlənən sənaye xidməti sahələrində artmaqda idi.

NO QƏDƏR YÜKSƏLMƏLİ?

^ * əsrin sonlarında Amerika ictimaiyyəti qarşısında duran əsas məsələlərdən biri yüksəlişlə necə rəftar olunması idi. İqtisadi yüksəliş Amerika uğurunun canım və qanını təşkil etmişdir: vaxtaşırı tənəzzülə və zəifləmələrə baxmayaraq, Birləşmiş Ştatlar iqtisadiyyatı bütün dövrlərdə jdiksəlməkdə davam edib. İqtisadi «kökə» həmişə o dərəcədə böyük olub ki, mühacirlərin yeni nəsilləri ondan özləri üçün bir dilim kəsə biliblər.

Yenə də, iqtisadi yüksəlişin yüksək normasını saxlamağın mümkün olmadığını və ya, güman ki, güclə də olsa, bunun

qarşısının alınmasının vacib olduğunu təsdiq edənlərin səsləri ardı-arası kəsilmədən ucalır. İnkişafın olmaması və ya zəifləməsi tərəfdarlarının bütün mövqelərini heç kəs qəbul etməsə də, qarşısı alınmayan, maneə törədilməyən yüksəlişin öz-özlüyündə avtomatik olaraq, yaxşı olduğu fikrinə inamın aydın şəkildə zəifləməsi halları olub.

Məsələn, torpaq sahəsinin inkişafı məsələsi əvvəllərdə olduğundan daha ciddi şəkildə müzakirə edilib. 1990-cı illərdə torpağı inkişaf etdirənlərdən tələb etdilər ki, ətraf mühitə tə’sir haqqında hökumətin müxtəlif səviyyələrinə yazılı hesabatlar təqdim etsinlər. Yerli planlaşdırma komissiyalan və Ətraf Mühiti Mühafizə Agentliyi kimi bir sıra federal agentliklər araşdırmalar aparır və təhlükəsiz, yaxşı planlaşdırılmış iqtisadi inkişaf naminə proqramları idarə edirdilər.

Nə qədər zibilləmə həddən artıqdır? Amerikalılar yeni iş yerləri yaratmaq üçün nə qədər açıq sahə əldə edilməsini istəyirlər? Nə qədər işdən imtina edilməlidir ki, vəhşi heyvanların həyatının təhlükəsizliyi tə’min olunsun? (Müəyyən federal meşələrdə həyatı təhlükə qarşısında qalmış bayquşların bə’zi növlərini saxlamaq üçün ağacların kəsilməsinin qadağan edilməsi haqqinda 1991-ci il qərarı amerikalılann bə’zilərini sevindirdi, bə’zilərini isə qəzəbləndirdi.) Bu və ya digər məsələlərlə bağlı qərarlar həyatın bütün keyfiyyətinə necə tə’sir edəcəkdir? Bunların hamısı çox çətin məsələlərdir və, demək olar ki, bu məsələlərlə maraqlanan nə qədər qrup varsa, o qədər də rə’y var.

Qlobal səviyyə haqqında oxşar narahatçılıqlar Birləşmiş Ştatlar siyasi xadimlərinin gündəlik məsələlərinin müzakirəsində də, başqa ölkələrinkində olduğu kimi, özünə yol açmışdır: İqlim şəraitinin dəyişməsi, ozon çatışmamazlığı, meşələrin qırılması və dənizlərin çirkləndirilməsi kimi ətraf mühit məsələlərini necə yoluna qoymalı? Daş kömür yandırmaqla işləyən zavodların və benzinlə işləyən avtomobillərin sayı azaldılacaqdırmı ki, karbon dioksid qazının və başqa «boz ev» qazlarının yayılmasının qarşısı alınsın (ona görə «boz ev» qazı deyilir ki, bu qazın qlobal qızma kimi tanınan hadisəyə təkan verdiyini güman edirlər)? Ogər qlobal qızma baş verərsə, bu hadisə Amerikanın lap göbəyində yerləşən zəngin kənd təsərrüfatı məhsulu istehsal edən sahələr kimi torpaqlann puç olmasına gətirib çıxaran viranedici dəyişikliklərə səbəb ola bilərmi? Öz iqtisadiyyatının nəhəng miqyasına görə, Birləşmiş Ştatlar bu məsələlərin zəruri şəkildə əsas icraçısı oldu.

Bu və ya buna oxşar başqa məsələlər gələcək iqtisadiyyatın yüksəlişi haqqında aparılan müzakirələrin ən mürəkkəbidir. Birləşmiş Ştatlar kimi zəngin bir dövlətdə iqtisadi bərabərsizliyin qəbul oluna biləcək səviyyəsi hansıdır? Uzun müddət davam edən zəif yüksəliş və ya yüksəlişin heç olmaması, üstəlik real gəlirin azalması özü ilə yeni və mümkün ola biləcək ictimai, siyasi və iqtisadi partlayış problemləri (elə problemlər ki, onlar bu günün perspektivindən açıq şəkildə fərqlənə bilsin) gətirə bilərmi?

Ancaq federal səviyyədə deyil, həm də ştat və yerli səviyyələrdə davam etməkdə olan mövcud büdcə defisitlərinin ixtiyarına verilmiş ictimai fondların məhdudlaşdırılması şübhə doğurmur. Hökumət öz müşahidəçi və tənzimləyici rolunu saxlayacaqmı? Hökumətin müxtəlif formalarda tə’min etdiyi xidmətlərin taleyi necə olacaq? Onlar tədriclə özəl sektorunmu sərəncamına veriləcək? Belə xidmətlər tam tə’min olunmaqda davam edəcəkmi?

Keçmişdə olduğu kimi, gələcəkdə də qəbul olunacaq qərarlar Birləşmiş Ştatlar iqtisadiyyatının forma və məzmununa əsaslı tə’sir edəcəkdir.

Beləliklə, öz dövlətlərinin yaradılmasından iki əsrdən də artıq keçməsinə baxmayaraq, amerikalılar bir çox problemlərlə qarşılaşırlar. Lakin onlar 200 il əvvəl etdikləri kimi, mühacir axım Birləşmiş Ştatlara yenə də davam edirdi. 1990-cı illərdə mühacirlər artıq Avropadan elə çox sayda gəlmirlər, onlar indi Asiyadan və Latın Amerikasından gəlirlər. Onlar üçün Amerika həmişə olduğu kimi əlverişli imkan torpağıdır.

# Amerika İqtisadiyyatı Haqqında Qısa Ədəbiyyat Siyahısı

AREEDA, PHILLIP and LOUIS KAPLOW
*Anlilnıst Analysis: Prohlems, Texl, Cases*
4th ed. Little, Brown, 1988

BHAGWATI, JAGDISH
*The World Trading System at Risk*
Princeton University Press, 1991

BROADUS, ALFRED
*A Primer on the FED*
Public Services Office, Federal Reserve Bank of Richmond, VA, 1988

BRUCHEY, STUART
*Enterprise: The Dynamic Economy of A Free Peopie*
Harvard University Press, 1990

BRUYN, SEVERYN T,
*A Future for the American Economy: The Sociai Market*
Stanford University Press, 1991

COCHRAN, THOMAS C.
*Business in American Life: A History*
McGraw-Hill, 1974

CYERT, RİCHARD M. and DAVİD M. MOWERY, eds.
*Technology and Employment: Innovation and Growth in the U.S. Economy*
National Academy Press, 1987

DERTHİCK, MARTHA and PAUL J. QUİRK
*The Polilics of Deregulation*
Brookings Institution, 1985

DERTOUZOS, MICHAEL L. et al
*Made in America: Regaining the Prodııctive Edge*
MIT Press, 1989

DOERİNGER, PETER B,, ed.
*Turhuience in the American Workplace*
Oxford University Press, 1991

DONAHUE, JOHN D.
*The Privatization Decision: Public Ends, Private Means*
Basic Books, 1989

EBELİNG, WALTER
*The Fruited Plain: The Story of American Agriciılture*
University of California Press, 1979

FİLİPPELLI, RONALD L., ed.
*Lahor Conflict in the United States: An Encyclopedia*
Garland, 1990

FRIEDBERGER, MARK
*Farm Families and Change in Twentieth-Centwy America*
University Press of Kentucky, 1988

GALAMBOS, LOUIS and JOSEPH PRATT
*The Rise of the Corporate Commonwealth: U.S. Business and Public Policy in the Twentieth Century* Basic Books, 1989

GALBRAITH, JOHN KENNETH
*The New Industrial State* 4th ed. Houghton Mifflin, 1985
GILL, WILLİAM J.

*Trade Wars Against America: A History of the United States Trade and Monetary Policy* Greenwood, 1990
HECKSCHER, CHARLES
*The New Unionism: Employee Involvement in the Changing Corporation* Basic Books, 1988
HEILBRONER, ROBERT and PETER BERNSTEİN
*The Dept and the Deficit: False Alarms, Real Possibilities* Norton, 1989
KRUGMAN, PAUL

*The Age of Diminished Expectations: U.S. Economic Policy in the 1990's* MİT Press, 1990

KUTTNER, ROBERT
*The End of Laissez-Faire: American Economic Policy After the Cold War* Random House, 1991
LAWRENCE, ROBERT Z. and CHARLES L, SCHUTZE, eds.
*An American Trade Strategy: Options for the 1990's* Brookings İnstitution, 1990
LİTTLE, JEFFREY B. and LUCIEN RHODES

*Understanding Wall Street* 3rded.,TAB Books, 1991
PORTER, GLENN

*Encyclopedia of American Economic Histoıy* 3 vols., Macmillan, 1980
SCHMANDT, JURGEN and ROBERT WILSON, eds.

*Growth Policy in the Age of High Technology: The Role of Regions and States* Unwin Hyman, 1990
SCHOTTER, ANDREW
*Free Market Economics: A Critical Appraisal* 2nd ed., Basil Blackwell, 1990
SEXTON, JEAN D.

*Silicon Valley: Inventing the Future* Windsor Publications, 1991
SPULBER, NICHOLAS

*Managing the American Economy, fronı Roosevelt to Reagan* indiana University Press, 1989

U.S. OFFICE OF TECHNOLOGY ASSESSMENT
*Competing Economies: America, Europe, and the Pacific Rim*
U.S. Government Printing Office, 1991

WEIDENBAUM, MURRAY
*Rendezvous with Reality: The American Economy After Reagan*
Basic Books, 1988

FOTOŞƏKİLLƏR:

Front cover; Design by David Moore, photograph by Robert A. Grove. Pages 4-5: Andy Levin. 10-11: Lynn Johnson, Black Star. 24-25: Standard Oil. 45: International Harvester Co., J.P.Daneluk. 46-47; Escalon Bery Farms. 48: The American History Slide Coliection, Instructionai Resources Corporation (IRC). 49: Robert Llewellyn,
50: Robert W. Madden, © National Geographic Society. 51: top - Staten isiand Historical Society; bottom - Buffalo and Erie County Historical Society. 52-53: Gary S. Chapman. 54: U.S. Steel Corporation. 55: © Gerd Ludwig, Woodfin Camp. 56-57: Chrysler Corporation. 58: Ford Foundation. 59; The American History Slide Coliection, IRC. 60-61: © Adam Bartos. 62-63: Sun Company, Inc.
64 and 65; The American History Slide Coliection, IRC (2). 66-67: Harald Sund. 68: © Michael Salas. 69: Union Oil Company. 70-71: Dwayne Freeman, © Jalapa Images. 90-91: Gary Pergl. 104-105; American Automobile Association. 122-123: David Attie. 137: Brown Brothers. 138: © The Walt Disney Company. 139: Sun Magazine. 140-141: Robert Severi. 142-143: top - Wiiliam E. Mathis, © HOK Photography; bottom - The American History Slide Coliection, IRC. 144-145: Bob Krist. 146-147: top left - American Telephone and Teiegraph Company; bottom left - The National Archives; right - © John Madere. 148: Dick Haistead Time, Sygma. 149; top - The American History Slide Coliection, IRC; bottom - The Library of Congress. 150-151; Robert Llewellyn. 152: © Rob Neison, Black Star. 153: Southworth and Hawes, Boston, Massachusetts General Hospital. 154-155: left-The Library of Congress: right - 1987 © Bob Barrett. 156-157; U.S. Department of Agriculture. 170-171: Wiiliam Franklin McMahon. 186-187; David Falconer, Folio, Inc. 202-203: Wiiliam Albert Allard.

EDITOR: Jeanne S. Holden
İngiliscədən prof. ASLANOV VAQİF tərcümə etmişdir

Distributed by
UNITED STATES INFORMATION SERVICE EMBASSY OF THE UNITED STATES OF AMERICA AZADLIQ PROSPEKTİ 83 370007 BAKU, AZERBAIJAN

Produced by

USIA REGIONAL PROGRAM OFFICE, VIENNA RPO 9410-018

AZERBAIJANI